# LƏTİF ŞÜKÜROĞLU

# CÜMHURİYYƏT HÖKUMƏTİ




# REPRESSİYA MƏNGƏNƏSİNDƏ

2000
1311

T3(2A)
Ş 95

**Lətif Şüküroğlu**

# Cümhuriyyət hökuməti repressiya məngənəsində

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

ƏDALƏT M.VƏLİYEV
ADALAT M. VELIYEV

**BAKI**
**Şirvannəşr**
**2000**

Redaktor **Fuad İskəndərov,**
Milli Təhlükəsizlik Nazirliyinin
İdarə rəisi.

Məsləhətçi və
ön sözün müəllifi **Bədirxan Əhmədov,**
filologiya elmləri namizədi.

**Lətif Şüküroğlu** "Cümhuriyyət hökuməti repressiya məngənəsində". Bakı, 2000-ci il, səh. 256.
**2-ci cild.**

Kitabın bu cildində də Azərbaycan Xalq Cumhuriyyəti hökumətinin amansız bolşevik repressiyasına məruz qalmış yüksək vəzifə sahiblərinin taleyindən söhbət açılır. Müəllif sui-qəsd yolu ilə aradan götürülmüş Baş Nazir Nəsib bəy Yusifbəyli tərəfindən təşkil edilmiş Cumhuriyyətin sonuncu iki hökumət kabinetində nazir, nazir müavini olmuş görkəmli dövlət xadimlərimizin həyat və fəaliyyətini zəngin arxiv materialları əsasında araşdırmağa çalışmışdır. Kitabın başlıca qayəsi müstəqil, demokratik Azərbaycan dövlətinin qurulmasında əsrin əvvəllərində böyük tarixi xidmətlər göstərmiş görkəmli dövlət və siyasət adamlarımızın xalqımıza, xüsusilə gənc nəslə daha yaxından tanıtmaqdır. Kitabda həmçinin Cumhuriyyət hökuməti kabinetlərinin tərkibi barədə oxucuya məlumat çatdırılmışdır.

Müəllif hazırda 1920-ci ilin aprel çevrilişindən sonra xaricə mühacirət etmək məcburiyyəti qarşısında qalmış Azərbaycan hökumətinin digər üzvlərinin həyatı, fəaliyyətləri barədə apardığı araşdırmaların nəticəsi olacaq yeni kitab üzərində işləyir.

L $\frac{83.3 \text{ Az} (2)}{054}$ - qrif nəşri

Naşir **Qəşəm İsabəyli**

Şirvannəşr, 95 (264) 2000

## Məlum repressiyanın naməlum səhifələri

Sona çatmaqda olan XX əsr Azərbaycan xalqının yaddaşında iki böyük hadisə ilə qaldı: uzun illər apardığı tarixi mübarizələr nəticəsində iki dəfə qazandığı dövlət müstəqilliyi və sovet cəza orqanları tərəfindən xalqa qarşı yeridilən düşünülmüş, təşkil olunmuş kütləvi repressiyalar. Zahirən o qədər də yaxın assosiasiya doğurmayan bu iki qlobal hadisə, əslində bir-birilə çox sıx şəkildə bağlı idi və birinci ikincini doğururdu. Belə ki, bu soyqırımın əsasında məhz Azərbaycanın öz müstəqil dövlətini qurması amili dayanırdı. Elə "qırmızı terror"un ilk böyük qurbanı da müstəqil Azərbaycan dövləti olmamışdırmı? Bundan sonra isə dövlətçiliyi yaşadan, müstəqillik ovqatı ilə yaşayaraq öz fəaliyyətini bu istiqamətdə quran və rejim üçün təhlükə doğuran dövlət xadimlərinin, siysətçilərin, partiya nümayəndələrinin (xüsusilə müsavatçıların), eləcə də müsavata rəğbət bəsləyən müstəqil fikir sahiblərinin,

ədəbiyyat və incəsənət adamlarının, sadə zəhmətkeşlərin sırası gəlirdi. Bir sözlə rejim üçün təhlükənin əsas mənbəyi dövlətçilik və müstəqillik idi və bu təhlükə 20-ci illər ərzində mümkün qədər aradan qaldırılaraq neytrallaşdırıldı. Ancaq gözlənildiyinin əksinə olaraq, 1930-cu ildən başlayaraq repressiyaların miqyası səngimək əvəzinə daha genişləndi və bu kütləvi cəza tədbirləri bütün zümrələrdən olan insanları əhatə etdi.

20-30-cu illər repressiyalarının ideyavericisi və həyata keçirəni Kommunist Partiyası uzun müddət bu faktordan yayınaraq, siyasi aksiyanı Stalin epoxasının adı ilə bağlayaraq məsələnin əsl mahiyyətini gizlətməyə çalışmışdır. Yaddaşlarda repressiya tarixi məşum və faciəli 37-ci il qalsa da, əslində Azərbaycan xalqı üçün bu dəhşətli tarix öz qaynaqlarını 1920-ci il 27 aprel işğalının ilk günündən götürmüş və rejimin sonuna qədər bu və ya digər formada davam etmişdir. Doğrudun da, Azərbaycanda dövlət və hakimiyyət adamlarının kütləvi qırğın və həbsləri Leninin "Yaşasın müstəqil Azərbaycan!" teleqramı ilə eyni vaxtda Bakıya soxulan 11-ci qırmızı ordu tərəfindən başlanmışdır. Bu isə Azərbaycanda repressiyaların hər şeydən əvvəl milli düşüncəyə, dövlətçilik və müstəqillik faktoruna qarşı yönəldildiyini, Şərqdə ilk milli-demokratik dövlətin varlığını belə unutdurmaq məqsədi güdüldüyünü göstərirdi. Yalançı beynəlmiləlçilik və bərabərlik şüarları ilə silahlanmış, milli olan hər şeyi inkar edən, cəmiyyət idarəçiliyində zorakılığı başlıca vasitə seçən bolşevik



qaragüruhu Azərbaycanda terror və kütləvi repressiyalardan başqa metod tanımırdı

Qeyd etməliyik ki, repressiya hadisəsinin Azərbaycan elminin müxtəlif aspektləri - tarixi, siyasi, mədəni, ədəbi, fəlsəfi baxımdan tədqiq olunması hələ ki, reallaşmayıb. Elə sovet hakimiyyəti illərində yalnız tənqidə məruz qalan repressiya tarixi, ideoloji kontekstdə hələ də öz tədqiqini gözləyir. Bir vaxtlar cəmiyyətdə mövcud olan tendensiyalar artıq yeni faktlarla zənginləşir. O zaman belə bir fikir mövcud idi ki, guya stalinizmin amansız qasırğası bizim əlimizdən yalnız mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərimizi alıb. Hətta, 50-ci illər "bəraəti"ndən sonra belə müstəqil Azərbaycana xidmət etmiş heç bir dövlət adamının, siyasi xadimin adı çəkilmir, repressiya olunmuş, əsasən yaradıcı ziyalıların taleyinə isə "doza"lı icazə ilə işıq salınırdı. Həqiqətdə isə repressiya birbaşa Azərbaycan dövlətçiliyinə, müstəqilliyinə qarşı yönəlmiş, tanınmış sənətkarlarımızın repressiyasına qədər onlarla siyasət və dövlət xadimimiz terror yolu ilə aradan götürülmüşdür. Nə qədər qəribə olsa da, əhatə dairəsi ilə qloballıq, tədqiq tarixi ilə elmi aktuallıq kəsb edən repressiya bu günədək lazımınca Azərbaycan tarixçilərinin müstəqil tədqiqat sferasına çevrilməyib. Heç bir mənəvi-əxlaqi, siyasi ölçüyə sığmayan "qırmızı terror"un tədqiq olunmasında 1980-ci illərin sonlarından geniş şəkildə danışılsa da, əldə arxiv sənədlərinin, faktların kifayət qədər olmaması müəyyən nəticələrə gəlinməsinə imkan vermirdi. Çökməkdə olan rejim məcburən loyallıq göstərərək 30-cu illər repressiyasına nəzər salmağa icazə verirdi, daha doğrusu,

cəmiyyətin diqqətini əlli il əvvələ yönəltməklə yeni ideoloji baza hazırlamağa çalışırdı. Lakin bu dövrdə də aparılan axtarışlar əsasən elmi, bədii təfəkkür sahiblərinin və bolşevik işğalının ilk dövrlərində yeni hakimiyyətə xidmət etmiş, sonradan rejimin qurbanına çevrilmiş Azərbaycan kommunistlərinin faciəli taleyindən danışırdı. Bir çrx tədqiqatçılar kimi, bu sətirlərin müəllifi də ədəbi şəxsiyyətlərin taleyi haqqında həmin dövrdə bir neçə məqalə çap etdirmişdi.

90-cı illərin əvvllərindən isə tədqiqatçılar repressiyaların tarixi aspektinə, xüsusilə Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparmış siyasət və dövlət xadimlərinin həyat və fəaliyyətinə daha çox diqqət yetirməyə başladılar. Xüsusilə Z.Bünyadovun, M.Əliyevin araşdırmalarında F.Xoyski, N.Yusifbəyli, M.Topçubaşov, M.Y.Cəfərov, M.H.Hacınski və b. dövlət xadimlərinin siyasi fəaliyyətinə qiymət verməyə çalışılır. Lap son illərdə bu sahədəki tədqiqatların istiqaməti daha da konkretləşir, məzmunu daha artıq dərəcədə siyasi mahiyyət kəsb edir. Bu baxımdan Məmməd Cəfərlinin "Siyasi terror və Azərbaycan almanlarının taleyi" (1998), Cəlal Qasımovun "Repressiyadan deportasiyaya doğru" (1998), Elşad Qocanın "Cəllad etirafı" (1999), "Sibir dərsi" (2000) kitablarını göstərmək olar. Həmin araşdırmalarda məqsədli şəkildə Azərbaycan xalqına qarşı yönəldilmiş kütləvi cəza tədbirlərinin təsadüfi olmadığı, ümumimperya siyasətinin tərkib hissəsi olduğu təkzibedilməz faktlara, arxiv materiallarına istinadən açılaraq sübuta yetirilir.



Ümumiyyətlə, keçmiş sovet məkanında olduğu kimi, bizdə də bu barədə xeyli məqalələr, tədqiqatlar dərc olunub. Doğrudur, bunların arasında nə Soljenitsinın sənədlərə söykənərək bədii təfəkkür məhsulu olan "Arxipelaq QULAQ"ı, nə hər hansı düşərgə məhbusunun memuarı, nə də NKVD məmurunun etirafının əks olunduğu öz müstəqil yazısına rast gəlirik. Lakin mətbuta çıxarılan saysız-hesabsız məqalələrdən, məhkəmə-istintaq stenoqramlarındakı bir-birinə zidd dindirmələrdən və hazır ssenarilərlə aparılan üzləşdirmələrdən də başa düşmək olur: "Hər şey gözlə görünəcək qədər aydın deyil!", "Hər şey bizim başa düşdüyümüz qədər məlum deyil!" Hələ açılmamış çox məqamlar, hərtərəfli tədqiqat obyektinə çevrilməli məsələlər var.

Bəli, hələlik aydın və məlum olmayanlar yeni tədqiqatlarda üzə çıxacaq! Belə tədqiqatlardan biri isə jurnalist-publisist Lətif Şüküroğlunun "Şirvannəşr"də işıq üzü görmüş ikicildlik "Cümhuriyyət hökuməti repressiya məngənəsində" (2000) kitabıdır. Sanki müəllif qarşısında yeni məqsəd qoyub: İndiyə qədər yazılmışları təkrar etməmək, elmi ictimaiyyətə problem və mövzunun tamamilə yeni aspektdən araşdırılmasını təqdim etmək. Bir tədqiqatçı kimi məndə bu kitaba marağın əsas səbəblərindən biri də məhz budur. Yeri gəlmişkən, qeyd etməliyəm ki, müəllif Cümhuriyyət hökuməti üzvlərinin repressiya tarixini tədqiq etməklə, artıq bu soyqırımın əsas hədəfini düzgün müəyyənləşdirmiş olur. İlk dəfə Cümhuriyyət hökumətinin fəaliyyət sferası tarixi fakt və

arxiv sənədləri ilə araşdırılaraq repressiya mexanizminə, onun məqsəd və məzmununa hərtərəfli aydınlıq gətirilir. L.Şükürоğlu bir tədqiqatçı olaraq repressiyanın başvermə səbəblərini daha yaxşı dərk edərək Azərbaycan xalqının tarixində böyük rolu olan Cümhuriyyət hökumətinin çoxsahəli fəaliyyətinə işıq salır. L.Şükürоğlunun fikrincə: "Azərbaycan Xalq Cümhuriyyəti və onun liderləri kütləvi surətdə məhz ona görə repressiyalara məruz qalıblar ki, onlar türk dövlətinin zəngin tarixi ənənələrinə söykənmişdilər və öz qızğın, əvəssiz fəaliyyətləri ilə bu mirasın artırılmasına xidmət edirdilər".

"Cümhuriyyət hökuməti repressiya məngənəsində" kitabının hər iki cildində toplanmış məqalələr müəllifin ciddi araşdırmalarının və böyük zəhmətinin məhsulu olduğunu göstərir. Burada toplanmış "Milli hökumətimizin baş memarı - Fətəli Xan Xoyski", "Azərbaycanın ilk ordu generalı", "Görkəmli diplomat", "Rəfibəylilərdən biri", "Azərbaycan naziri, yoxsa Vahid Rusiya uğrunda mübariz", "Daşnak gülləsinin qurbanı", "Camo bəy Hacınski", "Ona bəraəti zaman verdi", "Cümhuriyyət hökumətinin dəyişməyən yeganə naziri - Xudadat bəy Məlikaslanov", "Milli tərəqqi yolunun cığırdaşı", "Yüksək intelekt, dönməz iradə sahibi", "Artilleriyanın Allahı", "Nərimanbəylilərin nazir nümayəndəsi", "İstiqlalın son nazir yadigarı - Nurməmməd Şahsuvarov", "Dövlət nəzarətçisi Məmmədbəyov", "Bolşeviklərin mənşə və əqidə düşməni" və s. məqalələrini aparıcı bir xətt birləşdirir - Cümhuriyyət hökuməti üzvlərinin milli düşüncəyə söykənən siyasi fəaliyyəti.

L.Şükürоğlu hadisə və faktlara yalnız bir jurnalist olaraq yanaşmır, əldə etdiyi istintaq materillarını olduğu kimi təqdim etmir, bu materialların doğru-düzgünlüyünü, qondarma, müstəntiq təfəkkürünün məhsulu olub-olmadığını belə üzə çıxarmağa çalışır. O, həm də bir tarixçi kimi hadisə və faktları tutuşdurur, müqayisə edir, tarixi təfəkkür süzgəcindən keçirərək müəyyən nəticələrə gəlir. Ayrı-ayrı oçerklərdən ibarət olan bu materialları oxuduqca, bütövlükdə Cümhuriyyət hökumətinin mövcudluğu ərzində göstərdiyi fəaliyyət göz önynə gəlir və bu fəaliyyətin miqyasını, əhəmiyyətliliyini görməmək olmur. Müəllif hökumət üzvlərinin hər birinin sonrakı taleyini izləyərək aprel çevrilişinin onların şəxsi həyatına vurduğu ağır zərbələri də tam üzə çıxarmağa çalışmışdır. Yeri gəlmişkən o, hazırda Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin üzvü olub, sonradan yaxın və uzaq xaricə mühacirət etmək məcburiyyəti qarşısında qalmış görkəmli dövlət xadimlərimizin həyatı və fəaliyəti ilə əlaqədar apardığı tədqiqatların nəticəsi olacaq yeni bir kitab üzərində işləyir. Həmin kitabda toplanacaq publisistik yazılarda müəllif Azərbaycan Parlamentinin ilk sədri Əlimərdan bəy Topçubaşov, ilk ədliyyə naziri Xəlil bəy Xasməmmədov, daxili işlər naziri Rüstəm bəy Şəfibəyov, torpaq və əmək naziri Əsgər Ağa Şeyxülislamov, maliyyə naziri Əbdüləli

bəy Əmircanovun və başqalarının haqqında söhbət açmaq fikrindədir.

Oxucuların mühakiməsinə verilmiş iki cildlik “Cümhuriyyət hökuməti repressiya məngənəsində” kitabına gəlincə isə, L.Şüküroğlu artıq uzun müddətdən bəri tədqiqatçıların araşdarma obyektinə çevrilən məlum repressiya hadisəsini konkret olaraq Cümhuriyyət hökuməti üzvlərinin taleyinin araşdırılması kontekstində işləməklə ümumiyyətlə, geniş ictimaiyyət üçün hələ də qaranlıq qalmış bir çox məqamlara aydınlıq gətirmişdir. Belə demək mümkünsə, kitabda daha çox məlum repressiyanın naməlum istiqamətləri tədqiqat obyektinə çevrilmişdir. İnanırıq ki, müəllif göstərilən sahədə axtarışlarını bundan sonra da davam etdirəcək, oxuculara fakt və hadisələrlə zəngin yeni tədqiqat əsərləri təqdim edəcəkdir.

**Bədirxan Əhmədov,**

**filologiya elmləri namizədi,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü.**






**Azərbaycanın dördüncü hökuməti -**
**14 aprel - 22 dekabr 1919-cu il**

## Milli tərəqqi yolunun cığırdaşı

"Öz dövlətinizin milli bayrağı altında keçmiş olduğunuz bir sənəlik azad və zəhmətli həyatınız Azərbaycanın böylə tarixi bir günü olduğunu Sizə sözdən artıq izah edir. Siz çarizmin ən ağır tarixini keçirmişsiniz. O, sizin ən gözəl həyatınızı, mədəniyyət və müqəddəs əməllərinizi ayaqları altında tapdamış və məhv etmək istəmişdir. Biz hər bir hüquqdan və mədəni tərəqqiyatdan və ən ibtidai siyasətdən belə məhrum olmuşuq. Bizim gözəl arzularımız qəti surətdə əzilir və ayaqlar altına alınırdı. Sizin nəzərlərinizdən bolşevik hərc-mərcliyi, onun o mənhus dövrü keçmişdir... Bu bir il sənə ərz müddətində biz yorulmadan işlədik və bu işlədiyimiz ilə dövlətimizi möhkəmləndirərək, cəmaətimizin aşağı sinfinə milli dövlət təşkili hissini düşündürdük və göstərdik ki, cəmaət və millət məbuslarının getdikləri yolu doğru və xalqın azad fikir və məsləkidir... Azərbaycanın vətəndaşları! Təhlükə və təhdid hələ dəf olunmamışdır. Bizim üzərimizə qara buludlar gəlməkdədir. Bizim daxildəki hərəkatımız, nizam və asayişimiz təmin edilər isə istiqlaliyyətimizi təhdid edən qüvvələrə yol verməz və rahat və azad yaşamağa malik olarız."

Bu sətirlər Nəsib bəy Yusifbəylinin 1919-cu il may ayının 28-də hökumət adından Azərbaycan vətəndaşlarına müraciətindən götürülmüşdür. Nəsib bəy həmin müraciətlə



xalqın ən əziz bayramını təbrik edəndə artıq iki aya yaxın idi ki, müstəqil Azərbaycanın 4-cü hökumət kabinəsinin sədri idi. Onun kimi millət fədailərinin işıqlı zəkasına, tükənməz enerjisinə və dəyanətinə dayaqlanan qədim məmləkət tarixinin ən şərəfli dövrlərindən birini yaşamaqda, bir il əvvəl qazanılmış müstəqilliyini qoruyub saxlamaq naminə oğullarının göstərdikləri fədakarlıqlara şahid olmaqda idi.



38 yaşlı Nəsib bəy Fətəli Xan Xoyski kimi bir şəxsiyyətdən sonra ikinci dövlət xadimi idi ki, belə yüksək etimad göstərilmişdi. Əlbəttə, onun bu mühüm dövlət postunu tutması təsadüfi deyildi və Nəsib bəyin keçdiyi həyat yolu ona belə yüksək etimad göstərilməsi üçün ən yaxşı zəmanət idi. Əvvəla qeyd edək ki, artıq 17 ildən bəri ölkənin siyasi səhnəsindən düşməyən bu insanın əhali arasında kifayət qədər hörməti vardı, eyni zamanda o, müxtəlif zümrələri və qüvvələri təmsil edən Azərbaycan parlamentində çox böyük nüfuz sahibi sayılırdı. Xüsusilə bu ali orqanda Azərbaycanın nicatı yolunda çalışan vətənpərvərlər onu özlərinin inandıqları liderlərdən biri hesab edir, Nəsib bəyin milli ideyalara sədaqətinə, qətiyyətinə, idarəçilik təcrübəsinə (artıq həmin dövrə qədər N.Yusifbəyli müstəqil Zaqafqaziya Respublikası hökumətində tutduğu maarif naziri vəzifəsi də daxil olmaqla dörd dəfə nazir portfeli daşımışdı) və yüksək intellektinə bel bağlayırdılar. Sözgəlişi sadalanmayan bu keyfiyyətlərə həqiqətən də geniş dünyagörüşə və erudisiyaya,

möhkəm xarakterə malik olmasını da əlavə etsək son dərəcə mürəkkəb bir durumda Azərbaycanda idarəçiliyin niyə məhz ona həvalə edildiyinə bir daha aydınlıq gətirmiş olarıq.

Mövsüm Əliyevin tədqiqatlarına istinadən onun barəsində bir qədər geniş məlumatlar çatdırmaqla qeyd edək ki: "Nəsib bəy Yusif oğlu Yusifbəyli 1881-ci ildə Gəncədə anadan olmuşdur. Onun atası şəhərin maarifpərvər ziyalılarından idi. Orta təhsilini Gəncə klassik gimnaziyasında başa çatdırdıqdan sonra Nəsib bəy Yusifbəyli 1902-ci ildə Odessa universitetinin hüquq fakültəsinə daxil olmuş, birinci rus inqilabı ərəfəsində siyasi fəaliyyətə başlamışdır. O, universitetdə azərbaycanlı tələbələr tərəfindən yaradılan Azərbaycan həmyerlilər təşkilatının başçılarından biri idi (bu təşkilat barədə bir qədər sonra ətraflı məlumatlar çatdırmağa çalışacağıq - L,Ş.) ... Yoxsulluq ucbatından Nəsib bəy Yusifbəyli ali məktəbi dördüncü kursdan atmışdır. Çar hökumət orqanlarının təqiblərindən yaxa qurtarmaq üçün 1908-ci ildə bir müddət İstambulda yaşayan Nəsib bəy "Türk dərnəyi" adlı cəmiyyətin banilərindən biri olmuşdur" ("Odlar yurdu" qəzeti 22 noyabr 1989-cu il № 22).

Bu qısa qeydlərdən göründüyü kimi Nəsib bəy siyasi mübarizəyə ilk gənclik illərindən etibarən qoşulmuş, müxtəlif təşkilatların yaradılmasında və fəaliyyətində yaxından iştirakına görə imperiya orqanlarının nəzarət dairəsinə düşmüşdür. Hələ kifayət qədər formalaşmamış siyasi baxışlarını sonralar Rusiyada və dünyada baş verən proseslərin təcrübəsini öyrənmək və onların təsiri altında təkmilləşdirməklə gənc Nəsib bəy yetkin bir siyasətçiyə çevriləcək, Azərbaycan milli mücadiləsinin məqsəd və məramını düzgün müəyyənləşdirən ilk ziyalılar nəslinə mənsub olanların ön cərgəsində duracaqdı. Hələlik isə o, çar üsul-idarəsinin təzyiq və təqiblərini "dadamaqda", iqtisadi çətinliklər məngənəsində ola-ola Vətəninin işıqlı gələcəyi barəsində düşünərək qızğın siyasi mübarizə aparmaqda idi. Həmin illərdə Türkiyə mühitindəki "türkçülük" məfhumu altında ötən əsrin sonlarından başlayaraq təşəkkül tapmış milli oyanış və dirçəliş təmayülləri geniş tərəfdarlar toplamaqda, çağdaş ideyaların milli təfəkkür süzgəcindən keçirilərək həyata tətbiqi



yolları araşdırılmaqdaydı. Türkçülüyün təməl daşlarını qoyanların zəngin mənəvi irsinə dayaqlanaraq, onu elmi-nəzəri baxımdan sistemləşdirən və milli özünüdərk səviyyəsinə yüksəldən Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Ziya Göyalp, İsmayıl bəy Qaspıralı kimi şəxsiyyətlər Nəsib bəyin də dünyagörüşünün hərtərəfli formalaşmasına böyük təsir göstərmişdilər. Qısa bir müddət ərzində burada yaşamasına baxmayaraq, Avropaya daha yaxın olan Türkiyə mühiti, ölkənin sözün həqiqi mənasında qaynayıb-daşan siyasi həyatı onun gələcək dövlət adamı kimi yetişməsində əvəzsiz rol oynamışdı. Nəsib bəyi milli tərəqqi yolunun bayraqdarları sırasına çıxaracaq fəaliyyətinin düzgün istiqamətləndirilməsində həm də o dövrdə qazandığı təcrübənin rolu və köməyi olmuşdu.

Nəsib bəy Yusifbəyli 1909-cu ildə İstambuldan, ona bütün çalarları ilə yaxın və tanış olan doğma Gəncəyə qayıtmışdır. Bu dövrdən etibarən dövrünün aparıcı çağdaş ideyalarına bələdliyi, güclü dövlətlərin yeritdikləri siyasətdən və gizli məqsədlərindən baş çıxarması onun mətbu çıxışlarında və siyasi baxışlarında öz əksini daha dolğun şəkildə tapmağa başlamışdı. Nəsib bəy Rusiya xalqlarının müstəbid rejimə qarşı birgə siyasi mübarizəsinin tez-gec başqa ideyalar, o cümlədən milli azadlıq uğrunda mübarizəyə çevriləcəyini ilk sezən və bu barədə düşünən ziyalılardan biri kimi müxtəlif cəmiyyət və təşkilatların imkanlarından maksimum istifadə ilə gələcək çiyindaşlarını müəyyənləşdirməyə çalışırdı. Onunla bərabər ümumən dünyada gedən proseslərdən xəbərdar olan qabaqcıl Azərbaycan ziyalılarının bir çoxu sinfi mübarizə xəttinin tədricən milli mübarizə xəttinə gətirilməsi yolunda fəaliyyətlərini genişləndirməyə, öz ətraflarına tərfdarlar və ardıcıllar toplamağa səy göstərirdilər.

"Azərbaycan Cümhuriyyəti; sənədlər və materiallar 1918-1920-ci illər" məcmuəsində Nəsib bəy Yusifbəylinin avtobioqrafiyası ilə bağlı ən qısa qeydlərdən də aydın olur ki, o, bir müddət Türkiyədə və Krımda yaşamışdır: "Nəsib bəy Yusifbəyli (1881-1920) AR-in dövlət xadimi, maarifçi, siyasi xadim. Novorossiysk Universitetinin hüquq fakültəsində oxuyub

(1902). Azərbaycanın və Krımın mədəni həyatında fəal iştirak edib. 1908-ci ildə İstambulda "Türk dərnəyi"nin fəal üzvlərindən olub. Türkiydən qayıtdıqdan sonra (1909) xeyriyyə cəmiyyətlərinin, mədəni-maarif tədbirlərinin fəal təşəbbüskarı və iştirakçısı. 1917-ci ildə "Türk ədəmi-mərkəziyyət partiyası"nın təsisçilərindən biri, 1917-ci ildə "Müsavat"la birləşib. 1918-ci ilin mayından təhsil naziri. 1919-cu ilin aprelindən 1920-ci ilin martına qədər AR Nazirlər Şurasının sədri. 1920-ci il mayında Kürdəmir qəzasında quldurlar tərəfindən öldürülüb".

Nəsib bəy eyni zamanda publisistika ilə məşğul olmaqda, bir çox fikirlərini açıqlamaq üçün bu vasitədən məharətlə istifadə etməkdə idi. Nəsib bəy Yusifbəyli gah "Molla Nəsrəddin" satirik jurnalını müdafiə edən ziyalıların cərgəsinə qoşulur və ziyalıları milli oyanış yolunda böyük xidmətləri olan bu jurnalı haqsız hücumlardan qorumağa çağırır (1909-cu il sentyabr ayının 4-də "Tərcüman" qəzetində (№36) çıxan "Mətbuat" məqaləsində Rusiyada çıxan müsəlman satirik jurnallarından bəhs olunur və "Molla Nəsrəddin"ə xüsusi qiymət verilir. Həmin qəzetin 40-cı sayında 9 sentyabr 1909-cu ildə tatar jurnalı "Yulduz"un redaktoru ilə söhbət edən Nəsib bəy Yusifbəyli "Molla Nəsrəddin"ə hücumların haqsız olduğunu bildirirdi). Gah M.F.Axundovun 100 illiyinə hazırlıqla əlaqədar məqalə yazır, müxtəlif dairələrdə çıxışlar edir, keçirilən bir çox tədbirlərin təşəbbüskarlarından olurdu (1911-ci il may ayının 20-də Mirzə Fətəlinin gözlənilən yubileyi ilə bağlı "Tərcüman" qəzetində məqalə dərc etdirmişdir). Gah da o illərdə Gəncədə yaradılmış "Müsəlman xeyriyyə cəmiyyəti", "Müsəlmanlar içində maarif cəmiyyəti" və "Aktyorlar cəmiyyəti" kimi ictimai təşkilatların fəaliyyətində yaxından iştirak edirdi. Bütün bunlarla da kifayətlənməyən Nəsib bəy Yusifbəyli "Azərbaycan ədəbiyyat tarixi" adlı əsərinin ayrı-ayrı fəsillərinin yazılması ilə məşğul olmağa da vaxt tapırdı. Bəzi məlumatlara görə o, adı çəkdiyimiz əsəri məhz həmin illərdə yazıb başa çatdırmışdır. Ancaq təəssüf ki, Nəsib bəyin çox böyük zəhmətinin nəticəsi olan bu qiymətli əlyazmanın sonrakı taleyi bilinmir.



Yuxarıda qeyd etdiyimiz kimi, Nəsib bəy Yusifbəylinin siyasi fəaliyyətinin başlanğıcı tələbəlik illərinə düşmüşdür. O, tələbə ikən Nəriman Nərimanov, Xosrov bəy Sultanov, Şahmalıyev qardaşları və Azərbaycanın siyasi həyatında sonralar mühüm rol oynayacaq başqa şəxslərlə yanaşı həmyerlilər təşkilatının üzvü olmuşdur. Yarandığı vaxt yalnız mədəni-maarifçilik məqsədləri güdəcəyini bildirən bu təşkilat əvvəl həqiqətən də bu işlərlə məşğul olur, ancaq bir qədər sonra onun istiqaməti tamamilə fərqlənməyə başlayır. "Həmyerlilər" universitetdə mövcud olan başqa siyasi təmayüllü təşkilatlar arasında ən fəallarından biri kimi böyük şöhrət qazanmış və xeyli tərəfdarlar toplaya bilmişdi. Tələbələrin getdikcə genişlənən inqilabi mübarizəsindən qorxuya düşən çar hökumətinin 1907-ci ildə müvəqqəti olaraq Odessa universitetini bağlamasında sözsüz ki, "Azərbaycan həmyerlilər təşkilatı"nın da rolu olmuşdu. Tələbəlik həyatının başqa bir nəticəsi isə Nəsib bəyin Zaqafqaziyada o dövrdə yetişmiş böyük bir inqilabçılar nəsli ilə tanışlığı, onların bir çoxu ilə yaxın əlaqələr yaratması idi. Öz millətlərinin həyatında bu və ya başqa şəkildə iştirak edəcək həmin şəxsiyyətləri onda ümumi bir ideya - çarizm üsul-idarəsinin aradan qaldırılması birləşdirirdi. Sonra isə yollar ayrılacaqdı. Necə ki, Nəsib bəylə Nəriman Nərimanovun və başqalarının yolu ayrıldı, hətta bəzi hallarda çarpazlaşaraq, düşmənçilik həddinə çatdı.

Nəsib bəy Yusifbəyli bundan sonra müvəqqəti Krımın Bağçasaray şəhərinə köçmüş və orada görkəmli siyasi və ictimai xadim İsmayıl bəy Qaspıralının (1852-1914) redaktor olduğu "Tərcüman" qəzetində məqalələrlə çıxış etməyə başlamışdır. O, İsmayıl bəyin qızı Şəfiqə Sultan xanım Qaspıralı (1886-1975) ilə ailə həyatı qurmuş və bir müddət bu şəhərdə yaşamışdır. Nəsib bəy Yusifbəyli həmin illərdə Azərbaycan dramaturqlarının əsərlərini Baxçasarayda tamaşaya qoymuş, özü də əsas rollarda çıxış etmişdir. "Tərcüman" qəzetinin 1907-ci il 13 yanvar tarixli sayında Bağçasaray teatr həvəskarları tərəfindən Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" faciəsinin tamaşaya qoyulduğu, Nəcəfbəy rolunu Nəsib bəyin oynadığı xəbər verilir.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Həmin qəzetin materialından aydın olur ki, Nəsib bəy Yusifbəyli o illərdə görkəmli Azərbaycan ədəbiyyatşünası F.Köçərlinin "Azərbaycan ədəbiyyatı" və Hüseyn Əfəndi Qayıbovun (1837-1917) "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" adlı əsərlərinin Bağçasarayda çap olunması üçün çox çalışmışdır. Belə bir faktı da qeyd edək ki, Nəsib bəy Yusifbəyli XX əsr Azərbaycan-Krım ədəbi-mədəni əlaqələrinin əsasını qoyan şəxsiyyətlərdən biridir.

Ancaq geniş maarifçilik fəaliyyətinə baxmayaraq, onu daha çox siyasi mübarizə cəlb edirdi. O, yaxşı görürdü ki, müxtəlif siyasi cərəyan və təşkilatların çoxluğu şəraitində Azərbaycanın milli azadlığı uğrunda sonadək mübarizə aparmaq məqsədinə xidmət göstərmək amalında olanlar son dərəcə azdır. Konkret milli ideyalar ümumi mübarizə şüarları arasında əriyib itir, bundan istifadə edən hakimiyyət də əsasən sosial məsələlərdə güzəştə getməklə xalqları başlıca məqsədlərindən yayındırmağa çalışır. Belə yanaşma velikorus şovinizminin yeni formada dirçəldilməsi, milli azlıqların öz müqəddaratını təyin etməsi, özünün siyasi və ərazi idarəetmə formasına nail olması kimi hüquqların tapdalanması, xalqlar həbsxanasının saxlanması deməkdi. 1917-ci ilin fevral-burjua inqilabı ərəfəsində bu təmayüllər daha açıq-aydın sezilməkdə, əksər qüvvələrin nə uğrunda mübarizə apardıqları, siyasi şüarların arxasında hansı məqsədlərin gizlədildiyi üzə çıxmaqda idi.

Belə bir durumda Nəsib bəy Yusifbəylinin rəhbərliyi altında yaradılmış "Türk ədəmi-mərkəziyyət partiyası" Gəncədə fəaliyyətə başladı. Bu partiya ilk vaxtlar Rusiyanı federativ şəkildə qurmaq və onun tərkibində Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizə aparırdı. Yeni partiya əhalini öz proqramı ilə tanış etmək üçün şəhərin Şah Abbas məscidinin həyətində böyük mitinq təşkil edir. Bu mitinq "Yaşasın demokratik respublika!", "Yaşasın Azərbaycan muxtariyyəti", "Yaşasın Türk ədəmi-mərkəziyyət partiyası!" kimi tamamilə yeni şüarlar altında keçirilmiş və dünənə qədər çarizmin milli ucqar sayaraq 100 ildən bəri əsarət altında saxladığı bir məmləkətdə onun qurtuluşu naminə çarpışmağa qadir insanların olduğunu



göstərmişdi ("Baku" qəzeti 12 aprel 1917-ci il, №80). Nəsib bəy bu insanların ən ön sırasında dayanmışdı və Gəncə siyasi mühitinin uzun müddət milli ideyaların mərkəzində olmasında onun danılmaz xidmətləri vardır. Biz artıq birinci kitabda bu barədə müəyyən qədər bəhs etmiş, Gəncədə yaradılmış Milli Komitənin Nəsib bəyin və Əliəkbər bəy Rəfibəylinin rəhbərlikləri altında necə böyük işlər gördüyündən danışmışdıq.

Nağı bəy Şeyxzamanlı öz xatirələrində yazırdı: "Gəncəlilər milli mübarizəmizi Milli Komitənin rəhbərliyi altında davam etdirməkdə idi. Milli Komitə mübarizəmizi açıq və qapalı görünən məsələlər deyə iki hissəyə ayırmışdı. Açıq məsələləri Ələkbər bəy Rəfibəyli, gizli məsələləri isə Nəsib bəy Yusifbəyli idarə etməkdə idi" (Nağı bəyin xatirələri, səh 58).

Yenə də Nağı bəyin xatirələrinə istinadən Milli Komitənin ilk aylarda Azərbaycanda müstəqil dövlət quruculuğu sahəsində oynadığı müstəsna rol barəsində bir məqamı da çatdıraq. 1918-ci ilin iyun ayında Milli Komitənin Gəncədə keçirdiyi toplantıda Nəsib bəy deyir: "Hər hərəkətimiz zəfərlə nəticələnmişdi. Ancaq bu qəhrəman hərakatlar nəticəni əldə etməkdən çox uzaqdır. Bu dəfə Azərbaycanın mərkəzi Bakı düşməndən təmizlənməlidir. Əslində başsız bədən olmaz və yaşaya bilməz. Gerçək olaraq böyük bir yardıma ehtiyac vardır və bu yardımı da bizə ancaq Osmanlı İmperiyası edə bilər. Burada Osmanlı İmperiyasına bir səlahiyyətli nümayəndə heyətinin göndərilməsini və hərbi yardım istənilməsini qərara alaq" (Nağı bəyin xatirələri, səh 111).

Çox məhdud sayda üzvlərdən ibarət belə bir nümayəndə heyəti yaradılır və Nağı bəy də ona başçı təyin edilir. Türkiyəyə yola düşmək ərəfəsində Milli Komitə adından Nağı Şeyxzamanlını Osmanlı dövlətinə hərbi qüvvə göndərilməsi xahişi ilə yola salarkən Nəsib bəy ona dedikləri bu dövlət adamının müstəqil Azərbaycanın yaşaması uğrunda necə əzmkarlıqla mübarizə apardığını və bu yolda heç bir halda güzəştə getmədiyini sübuta yetirir. O dövrdə ölkədə yeni qurulmuş hökumətin bütün sahələrdə Türkiyə ilə yaxınlaşmasını az qala ona ilhaq edilməklə eyniləşdirən siyasətçilərdən fərqli

olaraq Nəsib bəy Azərbaycanın hər cür məhrumiyyətlərə baxmayaraq, tam müstəqil yaşamasının tərəfdarı idi: "Nağı, sən istiqlal Komitəsinin üzvüsən. Olub-keçənləri Osmanlı dövlətinə anlat və de ki: Millətimiz müstəqil yaşamağı qarşısına məqsəd qoymuşdur və bu yolda hər cür fədakarlığı etmişdir. Azərbaycanın dörddə üçü bu gün rusların hakimiyyətindən qurtarılmış vəziyyətdədir. Onlar zəif yerimiz olan hərbi gücümüzü qüvvətləndirsinlər. Bizə qardaş əli uzatsınlar, əlimizdən tutsunlar və istiqlalımızı elan etməmizə köməklik etsinlər. Ancaq bizi özlərinə ilhaq etmək istəsələr gəlməsinlər. Biz öz düşmənlərimizlə birtəhər hesablaşıb başımıza çarə qılarıq" (Nağı bəyin xatirələri, səh 114).

Təbii ki, Türkiyə özünün ağır daxili durumuna və Osmanlı imperiyasının sarsılmasından istifadə edən xarici qüvvələrin onu tamamilə məhv etmək planlarına baxmayaraq, çətin gündə Azərbaycandan öz köməyini əsirgəmədi. Nuru paşanın başçılığı altında yola salınmış hərbi gücə (Qafqaz İslam ordusu) Şərqdə ilk demokratik Cümhuriyyətə hərtərəfli yardım göstərmək tapşırığı verildi. Ümumiyyətlə, tarixin müxtəlif dövrlərində daim öz qanı bir, soyu bir qardaşlarının harayına çatmış türklər növbəti dəfə 1918-1920-ci illərdə Azərbaycanın müstəqil, sivil dövlət qurmasında təmənnasız iştirak etməklə öz missiyalarını layiqincə yerinə yetirmişdilər. Onların yeni Türk Cümhuriyyətlərinin qurulmasında və möhkəmləndirilməsində hər vaxt yardımçı olmağa hazır dayandıqlarını yaxşı bilən Rusiya və sonrakı dövrdə Sovet imperiyası bu dövləti özünün Qafqazda yeritdiyi siyasətə ən başlıca maneə hesab edirdi. Buna görə də, ilk imkan düşən kimi onu aradan qaldırmağa, diz çökdürməyə çalışır və bu yolda istənilən müttəfiqlə işbirliyinə hazır olduqlarını bəzən gizlətməyə də çalışmırdılar. 1945-ci ildə Yaltada 2-9 fevral tarixlərində keçirilən məşhur Krım konfransından sonra Stalin Anastas Mikoyana (türkə qarşı hər hansı məkrli planda erməni barmağı olmasa mümkün deyil - L.Ş.) və Georgi Malenkova ikinci dünya müharibəsində məğlub olmuş Almaniyanın müttəfiqi kimi Türkiyənin müharibədən sonrakı "yenidənqurulması" planı hazırlanması haqqında gizli göstəriş



verir. Bu işə xüsusi canfəşanlıqla girişən həmin şəxslərin rəhbərliyi altında qısa müddətdə belə bir plan işlənib hazırlanır. Əksəriyyəti milliyətcə erməni, Ermənistan SSR-in vətəndaşları olan kommunistlərdən ibarət rayon və şəhər partiya komitələrinin rəhbər kadrları komplektləşdirilir. Bu kadrlar qırmızı ordu tərəfindən "azad edilmiş" Türkiyə Respublikasında türk şəhərlərinin inzibati özəyini təşkil etməli idilər. Ermənirus planında İstanbulun tutulmasına xüsusi diqqət yetirilirdi. Türkün qatı düşməni olduqlarını əsla gizlətməyənlərin başqa bir arzusu İstanbula öz tarixini adını qaytarıb, onu yenidən Çar şəhər adlandırmaq idi. Bu planın yerinə yetirilməsi ilə həm də Bosfordan Dardanelə gəmilərin sərbəst keçməsi üçün yol açılacaqdı. O dövrdə İranda yerləşən sovet qoşunları hissəsi bu "əməliyyatda" sözsüz ki, mühüm rol oynayacaqdı. Ancaq nə yaxşı ki, müttəfiqlərin qəti addımları Sovet imperiyasının bu məkrli planlarının həyata keçməsinin qarşısını aldı. Tale növbəti dəfə türkün bəxtinə güldü və bütün türk dünyasının məhvinə apara biləcək bu niyyətlər düşmənlərin qəlbində gömüldü.

Bir qədər əvvələ qayıdıb qeyd edək ki, fevral-burjua inqilabından sonra yerlərdə milli mübarizə daha da genişlənmiş və Qafqaz xalqları, o cümlədən azərbaycanlılar xüsusi fəallıq göstərməyə başlamışdılar. Həmin ilin aprelində Bakıda çağırılan Qafqaz müsəlmanlarının qurultayındakı çıxışında Nəsib bəy Yusifbəyli Rusiyanın tərkibində Azərbaycana muxtariyyət verilməsini qəti şəkildə tələb etmişdi. May ayında isə o, Moskvada keçirilən Rusiya müsəlmanlarının qurultayının iştirakçısı olmuşdu. Bu qurultaydan sonra M.Ə.Rəsulzadənin başçılıq etdiyi "Müsəlman demokratik müsavat partiyası" ilə Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi "Türk ədəmi-mərkəziyyət partiyası" birləşərək "Müsavat" adını aldı. Partiyanın Gəncə şöbəsinə Nəsib bəy Yusifbəyli rəhbərlik edirdi. Həmin il oktyabrın 26-dan 31-dək Bakıda keçirilən və siyasi mübarizənin tamamilə yeni mərhələyə qədəm qoyduğunu ilk dəfə bəyan olunduğu "Müsavat" partiyasının birinci qurultayında Nəsib bəy Yusifbəyli yaxından iştirak etmiş və bu qurultayda Azərbaycanın əsas siyasi liderlərindən biri kimi dinlənilmişdir. Belə ki, qurultaydan sonra "Azərbaycana

muxtariyyət" şüarı altında hərakat bir qədər də genişlənmiş və tezliklə gələcək müstəqil respublikanın hər yerində ona tərəfdarlar çıxmışdır. Əlbəttə, Azərbaycan uğrunda mübarizəni sonadək aparmaq əzmində olan şəxslər, o cümlədən Nəsib bəy yaxşı bilirdilər ki, bu şüar müvəqqəti bir dövr üçün nəzərdə tutulub və hadisələrin sonrakı inkişaf mərhələsində onlar xalqın neçə on illərlə ürəyində gəzdirdiyi arzusunu açıq şəkildə ifadə edə biləcəklər. Hələlik çarizm üsul-idarəsinin dağıdılmasına baxmayaraq, laxlamış imperiya tam çökməmişdi və onu yeni şəkildə bərpa etməyə can atan müxtəlif qüvvələr manevr etməkdə, Rusiyanı öz keçmiş hüdudları daxilində saxlamaq üçün yollar axtarmaqda idilər. Belə bir vəziyyətdə çar Rusiyasından birdəfəlik qopmağa can atan Zaqafqaziya respublikalarında hər üç millətin nümayəndələrinin ümumi razılığı ilə 1918-ci ilin fevralında Zaqafqaziya Seymi təşkil edildi. "Azərbaycan parlamentinin tarixi və yaradılması" adlanan sənəddə göstərilir ki, Zaqafqaziya Seymi 1918-ci ilin fevralında Tiflisdə yaranıb. Həmin vaxt Peterburqa getməkdən və Rusiya Müəssislər Məclisini tanımaqdan imtina edən Zaqafqaziyadan olan deputatlar bu Seymin yarandığını elan ediblər.

Hər üç respublikanın gələcək müstəqilliyinə aparan yolda başlıca keçid mərhələlərindən biri olan bu qurum azərbaycanlı, gürcü, erməni millətinin onun tərkibində təmsil edilmiş deputat nümayəndələri üçün dövlət idarəçiliyi təcrübəsinə yiyələnmək baxımından da xüsusi əhəmiyyət daşımışdır. Belə ki, cəmi iki ay sonra, 1918-ci il aprelin 26-da Seym Zaqafqaziya Respublikası hökumətini yaratdı və keçmiş Rusiyanın bu mühüm bölgəsində hakimiyyətin idarə olunması sahəsində tamamilə yeni bir addım atıldı. Bu zaman Rusiyada hakimiyyəti zorakılıqla ələ keçirmiş bolşeviklərdən fərqli olaraq bu hökumət demokratik normalara uyğun qərarlar qəbul etməyə, Zaqafqaziya xalqlarının ümumi mənafelərinin ifadəçisi olmağa çalışırdı. Nəsib bəy Yusifbəyli Zaqafqaziya Seyminin üzvü, yeni yaranmış müstəqil Zaqafqaziya Respublikası hökumətinin maarif naziri idi. Bu həmin dövrə qədər əsasən maarifpərvər ziyalı və görkəmli bir siyasətçi kimi tanınan Nəsib bəyin ictimai dövlət xadimi kimi yetişməsinin başlanğıcı idi və sonrakı illər göstərdi ki, həmin addımın atılması idarəetmə təcrübəsinə yiyələnmək baxımından az əhəmiyyətli olmayıb.

Yeri gəlmişkən, Nəsib bəy 1918-ci ilin may ayında yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin birinci hökumət kabinəsində də xalq təhsil naziri vəzifəsini icra etmişdir.

Onun da fəaliyyətinin ən böyük, ən yaddaqalan uğuru, ən müqəddəs günü sözsüz ki, 1918-ci ilin 28 mayında Azərbaycanın müstəqilliyinin elan olunmasıdır. Nəsib bəy həmin günü hər an, hər dəqiqə yaxınlaşdırmaq üçün 17 ilə yaxın bir müddətdə yorulmadan, usanmadan, təzyiq və təqiblərə dözərək mübarizə aparmışdı. Ona görə həmin müqəddəs günü o, çəkinmədən özünün günü, ömrünün ən xoşbəxt tarixi saya bilərdi. Buna onun haqqı çatırdı. Fətəli Xan kimi, Məmməd Əmin kimi, Xosrov Paşa Sultanov kimi...

Nəsib bəyin Azərbaycan qarşısında saymaqla qurtarmayan böyük xidmətləri arasında bir xidməti də var. Onu yenidən xatırlatmaqda başlıca məqsədimiz sələflərinə daim minnətdar olmağa borclu saydığımız bu günkü müstəqil Azərbaycanın qurucusu olan nəslin belə tarixi məqamları dönə-dönə yaddaşına həkk etməsindən ibarətdir. Nəsib bəy 1918-ci ilin mayında Tiflisdə öz müstəqilliyini bütün dünyaya çatdırmış Azərbaycan hökumətinin Gəncəyə köçürülməsi üçün Xosrov Paşa və Rüstəm bəy Şəfibəyovla birlikdə oraya gedərək ilkin hazırlıq işlərinin aparılmasına nail olmuş və hökumətin köçürülməsi kimi mühüm missiyanın uğurla yerinə yetirilməsinə rəhbərlik etmişdir.

Nəsib bəy Fətəli Xan Xoyskinin başçılıq etdiyi ikinci, üçüncü hökumət kabinələrində də xalq təhsili naziri olmuşdur. Doğrudur, həmin dövr ərzində onun tutduğu vəzifə eyni zamanda dini işlər naziri adlanırdı və bu iki müxtəlif sahənin bir qurumda birləşdirilməsi bir sıra zərurətdən, o cümlədən büdcə vəsaitlərinə qənaət etmək istəyindən doğurdu. Bir sözlə o, Xudadat bəy Məlikaslanovla bərabər Cümhuriyyət hökumətlərinin hamısında təmsil olunmuş yeganə şəxsiyyətdir. Nəsib bəy əvvəlki üç hökumət kabinetində nazir (1918-ci il 28

may - 1919-cu il 14 aprel), sonuncu iki kabinetdə isə Nazirlər Şurasının sədri (1919-cu il 14 aprel-1920-ci il 1 aprel) olmuşdur. Onun həyatının ən gərgin və səmərəli dövrlərindən biri sözsüz ki, Azərbaycan Respublikası Nazirlər Şurasının sədri təyin olunduğu və bu vəzifəni icra etdiyi müddətə düşmüşdür.

1919-cu ilin 14 aprel günü Azərbaycanın yeni hökumətinin bəyannaməsini parlament üzvlərinə çatdıran Nəsib bəy Yusifbəyli aşağıdakıları bildirmişdi: "Sizin iradənizlə mənim tərəfimdən təşkil edilmiş hökumət üzərinə qoyulan məsuliyyəti yaxşı dərk edir. Öz müstəqilliklərini elan etmiş azərbaycanlılar bu qısa müddət ərzində öz dostları və düşmənləri qarşısında müstəqilliyə layiq millət olduqlarını göstərdilər. Azərbaycanın vəziyyəti günbəgün möhkəmlənir və indi o, iki ay əvvəlkindən daha möhkəmlənmiş vəziyyətdədir. ... Ancaq müstəqilliklə bərabər qarşımızda heç də az əhəmiyyətli olmayan başqa vəzifələr də durur ki, onların tezliklə həll edilməsini hökumət özünün təxirəsalınmaz və müqəddəs borcu hesab edir. Belə məsələlərdən biri Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasıdır. Sizə məlumdur ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Lənkəran qəzası hələ də yad əllərdədir. 100 minə yaxın vətəndaşımız hər an təhlükələrə, təhqirlərə və təzyiqlərə məruz qalır... Mən qeyd etməliyəm ki, Dağlı respublikası ilə bizim aramızda tam anlaşma və həmrəylik mövcuddur. Dağlı respublikası azərbaycanlılar üçün ikinci vətəndir, necə ki, Azərbaycan onlar üçün. Sizə məlumdur ki, Denikinin ordusu Şimali Qafqaza dolmuşdur və yenidən dağıstanlıları və bjzi əsarət altına almaq üçün Dağıstanın qarlı zirvələrini qana qərq etmişdir. Ancaq bu o qədər də asan omamışdır. Könüllü ordunun zalımlarına dağlı qartalların verdiyi dərs bunu təsdiq edir. Qoy bizim qeyrətli dağlı qardaşlarımız şübhə etməsinlər ki, biz həmişə onlarlayıq... Mənim təşkil etdiyim kabinet bütün parlament fraksiyalarının nümayəndələrini özündə cəmləşdirmir, buna görə də təbiidir ki, aranızda bir sıra məsələlərlə bağlı mənimlə razılaşmayanlar tapıla bilər. Ancaq hökumət öz enerjisini və fəaliyyətini bütün partiyaların Azərbaycanın müstəqilliyində vahid fikirdə olmaları və bu



müstəqilliyi möhkəmləndirilməsi üçün həyata keçirdiyimiz tədbirlərdə inam və birgə müdafiə etməklə iştiraklarına yönəldəcəkdir."

Nəsib bəy çox doğru olaraq başlıca diqqəti müstəqil Azərbaycanın bütün ərazisində hakimiyyətin bərqərar olunmasına yönəldir və bu məsələnin uğurlu həlli üçün hökumətin ən qəti tədbirlər görəcəyini elan edirdi. Sonrakı aylarda Lənkəran qəzasına Həbib bəy Səlimov kimi təcrübəli və cəsur bir sərkərdənin başçılığı altında qoşun göndərilməsi, həmin qəzada oyuncaq Muğan respublikasının aradan qaldırılması və yerli idarəçiliyin tam nəzarətə götürülməsi yeni hökumət sədrinin gənc dövlətin möhkəmləndirilməsi üçün tam qətiyyətlə hərəkət etdiyindən xəbər verirdi. Mühüm addımların atılmasında bundan sonra da əzmkarlıq və qətiyyət nümayiş etdiriləcəyinə kimsədə şübhə qala bilməzdi. Eyni fikirləri Dağıstanda gedən proseslərə münasibətə də aid etmək mümkündür. Dağıstanın müstəqil yaşamasının, qırmızı Rusiya ilə Azərbaycan arasında bir sədd olmasının vacibliyini nəzərə alan hökumət sədri orada tökülən qanlara həmin bölgədə yaşayan əhalinin böyük əksəriyyətinin milli mənsubiyyətinə görə etirazını bildirməklə yanaşı, məsələyə yalnız dini və etnik yaxınlıq baxımından qiymət verməklə qalmır, Dağıstan və Azərbaycan dövlətlərinin ortaq strateji maraqlarını mühüm amil kimi dəyərləndirirdi.

Bəli, Nəsib bəyin ölkənin yaxın sərhədlərində baş vermiş hadisələrə xüsusi diqqət yetirməsi təsadüfi deyildi, çünki Azərbaycanın şimalında yaranmış təhlükəli vəziyyət sərhədlərin müdafiəsinin təşkili üçün təcili tədbirlər görülməsini və general Denikinin niyyətləri barəsində xarici dövlətlərin xəbərdar olunmasını tələb edirdi. Əks-halda Dağıstanda öz planlarını reallaşdıran Denikin Könüllü ordusunu Azərbaycana yeridə, ölkənin müstəqilliyini ciddi təhlükə altında qoya bilərdi.

N.Yusifbəyli dördüncü hökumətdə həmçinin daxili işlər naziri vəzifəsini yerinə yetirirdi. Fətəli Xan Xoyski barədəki materialda qeyd etdiyimiz kimi, hökumət sədrinin eyni zamanda

mühüm bir sahənin rəhbəri təyin olunması hər şeydən əvvəl ölkənin mövcud vəziyyətlə əlaqələndirilirdi. 1919-cu ilin aprelindən sonrakı dövrdə ölkə daxilində hakimiyyətin dayaqlarının hərtərəfli möhkəmləndirilməsi ilə vəziyyətin tam sabitləşdirilməsi kursunun götürülməsi sədrin həm də daxili işlər naziri postunu tuması zəruriyyətini doğurmuşdu. Dördüncü hökumətin fəaliyyət göstərdiyi çox qısa müddətdə aydınlaşdı ki, həm strateji istiqamətin müəyyənləşdirilməsində, həm də qeyd olunan təyinatda səhvə yol verilməyib, əksinə düzgün və düşünülmüş addımlar atılıb.

"Azərbaycan" 22 avqust 1919-cu il tarixli sayında daxili işlər naziri Nəsib bəy Yusifbəylinin 22 avqustda ingilislərin Bakıdan getməsi ilə əlaqədar əhali arasında şayiələr yayılması ilə əlaqədar əhaliyə müraciət etdiyini, onları sakitliyə, qayda-qanunu gözləməyə çağırdığını, hökumətin heç bir zorakılığa yol verməyəcəyini bildirdiyini yazırdı. Bu mühüm vəzifəni icra etdiyi dövrdə Nəsib bəy respublikada daxili sabitliyin yaradılması üçün bolşeviklərin törətdiyi təxribatların qarşısının alınmasının başlıca məsələlərdən olduğunu dəfələrlə vurğulamış, bu sahədə xeyli işlər görülməsinə nail olmuşdu. Onun həmin aylarda hərbi nazirə və yerli hakimiyyəti təmsil edən qubernatorlara, digər dövlət məmurlarına yazdığı məktublar, nazirlik adından göndərdiyi teleqramlar və Dövlət Müdafiə Komitəsinin iclaslarında bu müstəsna səlahiyyətlərə malik qurumun sədri kimi etdiyi çıxışlar bolşevik təhlükəsinə qarşı necə geniş iş aparıldığını əyani surətdə təsdiqləyir. Bu tarixi faktların bəziləri barəsində kitabın birinci cildində bəhs etdiyimiz üçün burada əlavə təfərrüatlara varmaq istəmirik. Yalnız belə bir cəhəti vurğulayırıq ki, 1920-ci ilin 27 aprelində xəyanət yolu ilə hakimiyyəti ələ alan bolşeviklərin birinci növbədə Fətəli Xanı və onu axtarıb, sui-qəsd yolu ilə aradan götürmələrində Nəsib bəyin onlara qarşı amansızlıqla mübarizə aparmasının xüsusi rolu olmuşdu. Bolşeviklər bu "xidmətləri" unuda bilməzdilər və onu öldürmək üçün başqaları kimi haqqında xüsusi qovluqlar yaradaraq düşmən olduğunu sübuta yetirməyə də ehtiyac yox idi, çünki Nəsib bəy açıq-aşkar bolşeviklərin düşməni idi. Bu qənaət özünün ən bariz



təsdiqlərindən birini N.Nərimanovun tələbəlik yoldaşına yazdığı 16 iyul 1919-cu il tarixli məktubda tamışdı:

"Siz, müsəlman ziyalıları, siz Azərbaycanın müsəlman kütlələrinin taleyini həll edənlər, indi hakimiyyətdə olan sizlər yaxşı bilirsiniz ki, çar generalı Denikin sizə nə gətirir və onun şüarı aydındır. O sizə "Allah, çarı hifz elə" himnini oxudacaq və bu himnin sədaları altında sizin Müəssislər məclisiniz, respublikanızla birlikdə göyə sovrulacaq, onlarla bərabər isə siz özünüz də... İntiqam saatı artıq yaxındır, onda siz bütün siyasətinizlə bərabər Zaqafqaziya fəhlə-kəndli müsəlmanlarının məhkəməsi qarşısında dayanacaqsınız... Özünüzdə qüvvət tapıb deyin ki, biz rus inqilabının xarakterini başa düşməmişik, biz imperialist müharibəsinin bütün dağıdıcı nəticələrini nəzərə almamışıq, biz səhnədən gedirik, qoy Azərbaycanda sovet hakimiyyəti olsun." ("Kommunist" 1920, 16 may).

Ancaq N.Nərimanovun yazdığı kimi Nəsib bəy Yusifbəyli məhkəmə qarşısında dayanmadı, Azərbaycanın müstəqilliyinə, xalqın həqiqi hakimiyyətinə qəsb etmiş bolşeviklərin buna cəsarəti çatmadı, onu qatil əli ilə öldürtdülər. Çünki yaxşı bilirdilər, Nəsib bəyin təkcə Gəncəbasarda yüz minlərlə tərəfdarı vardı, "millətə azadlıq və müstəqilliyin nə olduğunu daddıranların" ön cərgəsində olmuş bu şəxsiyyəti asanlıqla susdurmaq mümkün deyildi. Çarə yalnız muzdlu qatilə qalırdı.

Nəsib bəy dövlətə, onun müstəqilliyinə və vətəndaşlarının təhlükəsizliyinə qarşı yönəlmiş əməlin kim tərəfindən törədilməsindən asılı olmayaraq, təcili və qəti tədbirlər görməsinin tərəfdarı idi. 1 aprel 1919-cu ildə ona müraciətlə ingilis əsgərlərinin özbaşına hərəkətləri barədə şikayət edən bir qrup Bakı sakini müvafiq ölçü götürülməsini tələb edirlər. "Onlar ingilislərin sərxoşluq etməsindən, teatrda və kinoda çaxır içib, siqaret çəkmələrindən, qadınlara sataşmasından şikayətlənir, məgər mədəni xalq budur, soruşurlar." Təcili surətdə tədbir görən daxili işlər naziri Nəsib bəy Yusifbəyli ingilis komandanlığına müraciətlə günahkarların cəzalandırılmasına nail olur.

Ölkə daxilində sabitlik yaranmasına, bir sıra ərazilərdə hakimiyyətin tam bərpa olunmasına baxmayaraq, koalisiyalı əsaslarla formalaşdırılmış hökumət öz fəaliyyəti ilə əlaqədar bir sıra çətinliklərlə qarşılaşmışdı. Hökumətin təşkilində iştirak etmiş bir sıra parlament firqələri müəyyən şərtlər irəli sürür, kabinetin tərkibində öz mənafelərinə uyğun dəyişikliklərə nail olmağa çalışırdılar. Bu isə hökumətdaxili mübarizələrin kəskinləşməsinə və nəticə etibarı ilə qarşıya qoyulan vəzifələrin tam uğurla həyata keçirilməsinə maneçilik göstərirdi. Məhz belə bir durumda Nəsib bəy Yusifbəyli 18 sentyabr 1919-cu ildə Kabinet sədri kimi Parlament sədrinə məktub yazıb hökumətin sosialist və "Əhrar" firqələrinin hökumətə etibarı müəyyən şərtlərlə bağladıqları üçün istefa verdiyini bildirir. Bu ciddi bir xəbərdarlıq idi və mövcud vəziyyətdən çıxış yolu axtarılması üçün təcili tədbirlər görülməsini tələb edirdi. Başı daxili münaqişələrə qarışdırılan bir hökumətin lazımi səmərə ilə işləyə bilməyəcəyi aydın idi. Bütün bunları nəzərə alan parlament sədri 22 sentyabrda parlament firqələrinin razılığı əsasında Nəsib bəy Yusifbəyliyə yeni kabinet yaratmaq təklifi ilə müraciət edir. Bu təklif müəyyən müddətdən sonra qəbul olunur və Azərbaycanın beşinci, sonuncu Nazirlər Şurasının tərkibinə kimlərin daxil edilməsi üçün açıq-qapalı müzakirələr başlayır. Nəsib bəy Yusifbəyli oktyabrın sonlarında parlament sədrinə müraciətlə əsas partiyaların (Müsavat, İttihad partiyası və bitərəflər) platforması əsasında hökumət təşkil etməyi xahiş edir ("Azərbaycan" qəzeti 30 oktyabr, 1919-cu il).

1919-cu il 16 noyabrda yeni hökumətin təqribi tərkibi "Azərbaycan" qəzetində dərc olunur. "Nəsib bəy Yusifbəyli - sədr və daxili işlər naziri, S.Mehmandarov - hərbi naziri, F.Xoyski - xarici işlər naziri, M.H.Hacınski - maliyyə, ticarət və sənaye naziri, X.Xasməmmədov - ədliyyə naziri, R.Kaplanov - xalq təhsili naziri, X.Məlikaslanov - yollar, poçt və teleqraf naziri, M.Rəfiyev - torpaq və himayə naziri, H.Məhəmmədbəyov - dövlət nəzarətçisi."

Bu tərkibdə sonra bir sıra dəyişikliklər edilmişdi. Belə ki, M.H.Hacınski xarici işlər naziri, 18 fevraldan isə sənaye, ticarət



və ərzaq naziri, R.Kaplanov maliyyə naziri, H.Şahtaxtınski təhsil və dini işlər naziri, C.Hacınski poçt və teleqraf naziri, Ə.Pepinov əmək və əkinçilik naziri, M.Rəfiyev səhiyyə və ictimai himayə naziri, Məlikaslanov yalnız yollar naziri olmuşdular.

Yeni tərkibin bu şəkildə müəyyənləşdirilərək fəaliyyətə başlaması Nəsib bəyə hökumət təşkili ilə bağlı müraciətdən yalnız üç ay sonra mümkün oldu. Bu müddətdə isə təbii ki, Azərbaycan hökumətsiz qalmamışdı. Cümhuriyyətin dördüncü hökuməti faktiki olaraq 1919-cu ilin sentyabr ayının sonundan etibarən öz fəaliyyətini başa çatdırsa da yeni hökumətin təşkil olunduğu 1919-cu ilin 22 dekabrına qədər üzərinə düşən funksiyaları yerinə yetirmişdir.

1919-cu il sentyabr ayının son həftəsi Azərbaycan tarixinə başqa bir hadisə ilə də düşmüşdür. Qəzetlərdə və arxiv sənədlərində həmin vaxt Nəsib bəy və xarici işlər naziri M.Y.Cəfərovun tez-tez Amerika generalı Xarbordun nümayəndələrini qəbul etdikləri barədə məlumatlar var. Bu məlumatlardan aydın olur ki, general Xarbordun Azərbaycana gəlməkdə məqsədi ölkə həyatının müxtəlif sahələri ilə bağlı informasiyalar toplamaqdır. Məhz bu məqsədlə gəldiyini gizlətməyən məşhur personanın özü ilə bərabər Azərbaycana həmçinin Avropanın bir sıra iri qəzetlərinin jurnalistlərini gətirəcəyi bildirilirdi ("Azərbaycan" qəzeti 30 sentyabr 1919-cu il).

"Azərbaycan" qəzeti 7 oktyabr 1919-cu il tarixli sayında isə iki gün əvvəl baş verənlər barəsində yazırdı: "1919-cu ilin 5 oktyabrında Amerika hökumətinin Zaqafqaziyada komissarı general Xarbord 18 nəfər missiya üzvü, 3 general, 15 nəfər dövlət həyatının bütün məsələləri üzrə mütəxəssislərlə Bakıya gəlmişdir. O, Nəsib bəy Yusifbəyli ilə siyasi məsələlərlə bağlı xeyli söhbət aparmış və Azərbaycanda yaradılmış qayda-qanundan razı qaldığını, Amerika ilə Azərbaycan arasındakı mövcud ixtilafın tezliklə aradan qaldırılması zərurətindən danışmışdır".

1919-cu ilin son ayları ümumiyyətlə xarici missiyaların, xüsusilə Amerika və İtaliya dövlətlərinin nümayəndələrinin

Azərbaycana ciddi maraq göstərmələri, ingilislərdən sonra ümumən Qafqazda nüfuz dairəsi yaratmaq təşəbbüsləri ilə əlamətdardır. Rusiyanın başının daha çox öz daxili problemlərinə qarışdığı bir vaxtda bu cəhdlərin müəyyən uğurlarla nəticələnməsi mümkün idi.

"Şərur-Naxçıvan vilayətlərində ermənilərlə azərbaycanlılar arasında silahlı toqquşma ilə pozulmuş sülhün, əhalinin əmlakı və şəxsi təhlükəsizliyinin bərpası" üçün növbəti təşəbbüslərdən biri Amerika dövlətinin nümayəndəsi Vilyam Haskel tərəfindən göstərilir. Hər iki tərəfin bu ərazilərə aid iddialar irəli sürdüyünü və bu dövlətlərin həmin vilayətlərə olan hüquqlarının Sülh konfransı tərəfindən həll edilmədiyini nəzərə alan Haskel bu ərazini idarə edən şəxs kimi 23 oktyabrda Naxçıvanda Amerika general-qubernatorluğu yaradıldığını bildirir və bu məqsədlə 9 maddədən ibarət qərar verilir. Bu qərarın və Amerika nümayəndəsinin bölgədə mübahisəli məsələlərə ilkin yanaşmasını təhlil obyektinə çevirmədən, yalnız bir cəhətə diqqəti yönəltmək istəyirik ki, bütün xarici missiyalar Qafqazda öz nüfuzlarını möhkəmləndirmək üçün ilk əvvəl burada guya mümkün münaqişə ocaqlarını ləğv etmək məqsədi güddüklərini göstərməyə çalışırdılar. Görünür bununla bölgədə yaşayan xalqların daxili problemlərinə daha dərindən nüfuz etməklə onlarla yaxından tanış olmaq, ən başlıcası isə özləri barəsində sülhməramlı dövlət imici formalaşdırmaq istəyirdilər. Çünki əks halda həmin bölgədəki maraqları ciddi təhlükələrə məruz qalar, nəzərdə tutulan layihələrin reallaşdırılması qeyri-mümkün olardı. Bütün bunların mahiyyətini dərindən başa düşən və incəliklərinə qədər nəzərə alan hökumət rəhbərlərimiz güclü Qərb dövlətlərini təmsil edən xarici missiyalarla son dərəcə ehtiyatla yanaşır və onların imkanlarından istifadə etməklə həm qədim ərazilərimizin işğal edilməsinin qarşısını almağa, həm də bölgədə əmin-amanlıq yaradılmasına nail olmağa çalışırdılar. Ona görə də yuxarıda göstərilən məqamlarla yanaşı, ingilis baş qərargahının Nəsib bəy Yusifbəyliyə aprel ayının 1-də yazdığı məktubda Gəncə və Ağstafa stansiyalarında ingilis hərbi postları qoyulmasının vacibliyi barədə bildirilməsi ilə də razılaşılırdı.



Daxildə və sərhədinin bir addımlığında kifayət qədər düşməni olan Azərbaycanın özünə yeni əleyhdarlar qazanmasına yol verməк olardımı və belə məqamların nəzərə alınmaması nə dərəcədə ağıllı və düşünülmüş sayıla bilərdi.

22 dekabr 1919-cu ildə yeni hökumətin bəyannaməsini parlamentdə elan edən Nəsib bəy Yusifbəyli ötən müddət ərzində dördüncü hökumətin gördüyü işlərin başlıca yekunlarını və qarşıda duran ən mühüm vəzifələri belə səciyyələndirmişdi: "Sizə məlumdur ki, vətənimizin böyük hissəsi yad əllərdə idi. Lənkəran qəzası bizim tərəfimizdən azad edilmişdir... Siz Lənkəran qəzasına daxil olan hərbi hissələrimizin fədakarlığı ilə fəxr edə bilərsiniz... İkinci məsələ Qarabağ məsələsidir. Qarabağ haqqında danışarkən biz dörd qəzanı nəzərdə tuturuq. Son vaxtlar müxtəlif intriqalarla və fəsadlarla Zəngəzur qəzasının Qarabağdan kənarda yerləşməsini sübut etmək istəyirlər. Yüz və min illərdir ki, Zəngəzur Qarabağın tərkib hissəsidir, Qarabağ isə Azərbaycanın ürəyidir, buna görə də aydındır ki, bu fəsadlardan bir şey çıxmayacaq. İndi Qarabağın üçdə ikisi bizim əlimizdədir, Zəngəzur qəzasının yarısı isə qiyamçıların əlindədir. Bizə deyirlər ki, ola bilər burada da məsələni sülhlə həll etmək olar və böyük dövlətlərin nümayəndələri bunun tərəfdarıdır. Biz sülhün əleyhinə deyilik. Biz ümumiyyətlə bütün məsələlərin həllində sülhü vasitə seçmişik. Buna görə də gözləməyə hazırıq, təki məsələ sülhlə həll edilsin... Üçüncü məsələ Şərur-Naxçıvan məsələsidir, yaxud əhalisinin əsas hissəsini azərbaycanlılar təşkil edən İrəvan quberniyasının bir hissəsinin məsələsi. Cəsur naxçıvanlılar, şərurlular, vedibasarlılar özləri bu məsələni həll ediblər, öz həyatları, ailələri ilə risk edərək, onlar özləri qalxıb torpaqlarını azad etmiş və vətənlə qovuşmuş və bununla hökumətin işini asanlaşdırmışlar."

Məhz Nəsib bəy kimi görkəmli dövlət xadimlərinin hərtərəfli düşünülmüş siyasət yeritmələrinin nəticəsi idi ki, 11 yanvar 1920-ci ildə müstəqil Azərbaycanın həyatında ən əlamətdar günlərdən biri barəsində əhaliyə böyük təntənə ilə məlumat vermək mümkün oldu. Həmin gün Azərbaycan Xalq

Cümhuriyyəti hökumətinin Avropa dövlətləri tərəfindən Azərbaycanın müstəqilliyinin tanınması barədə memorandumu elan olundu. Memorandumda deyilirdi: "Azərbaycan hökuməti və xalqı nəhəng dövlətlər tərəfindən Azərbaycan xalqının müstəqilliyinin tanınması və bununla onun beynəlxalq-hüququn bir hissəsinə çevrilməsi faktını dərin məmnunluqla qarşıladılar... Ancaq Azərbaycan xalqının azad və müstəqil mövcudluğunun təmin edilməsi üçün zəruri tədbirlər görülməsə onun bütün əməyi və verdiyi qurbanlar nəticəsiz qala bilər" (ARDA, f.894, s10, iş 135, v.5).

Ancaq qəlbi böyük əməllərlə çarpan, milli tariximizin ən şanlı səhifələrindən birinin yazılmasında ilk təşəbbüskarlardan və təşkilatçılardan olmuş, Vətən təəssübünü hər şeydən üstün tutan Nəsib bəyin ömrü yarımçıq qaldı. Cümhuriyyət hökumətinin süqutundan dərhal sonra onunla haqq-hesab çəkməyə tələsən qanlı rejim onu aradan götürmək üçün öz muzdlu qatilini göndərdi. Çevrilişdən cəmi bir neçə gün keçmiş, 1920-ci il mayın əvvəllərində Azərbaycanın hökumət başçısı Nəsib bəy Yusifbəyli Kürdəmir qəzasında Yevlaxın Qorxunlu kəndindən olan quldur Əşrəfin yaxın adamları tərəfindən qətlə yetirildi. Nəsib bəyin ölümü 27 apreldə tarixi bir seçim qarşısında qaldığını yetərincə qiymətləndirməyənlər üçün ilk ciddi xəbərdarlıq oldu, onlar hansı qüvvə ilə qarşılaşdıqlarını aydın başa düşdülər. Ancaq artıq gec idi. Terror və kütləvi cəza maşını hərəkətə gətirilmişdi. Azərbaycan Cümhuriyyət ideyalarının unutdurulacağı günə qədər düşünən başlardan məhrum olunmalıydı.

Amansız rejimin belə qurbanlarından biri də Nəsib bəyin böyük qardaşı Həmid bəy Yusif bəy oğlu oldu. 1878-ci ildə Gəncədə anadan olmuş Həmid bəy (o "Difai" partiyasının üzvlərindən idi - L.Ş.) Azərbaycan istiqlalının əldə edilməsi sahəsində Gəncədə böyük işlər görmüş ziyalılarımızla çiyin-çiyinə çalışmışdı. Eyni zamanda məhz həmin fədakar və cəsur insanların son dərəcə təhlükəli şəraitdə gecəli-gündüzlü fəaliyyəti nəticəsində Cümhuriyyət hökumətinin respublikaya köçürülərək yeni tərkibdə işə başlaması mümkün olmuşdu.



Həmid bəyin 1941-ci ilin iyun ayının 16-da Dövlət Təhlükəsizliyi Xalq Komissarlığı tərəfindən antisovet element, qatı türkçü, rus xalqının ünvanına böhtanlar yağdırın və "Müsavat" partiyasının üzvü kimi həbs edilməsi heç də təsadüfi deyildi (MTN arxivi PR-28879). Çünki o, sovet hakimiyyətinin ən qatı düşmənlərindən biri Nəsib bəyin qardaşı idi. Buna görə də, hazırda hansı mövqe tutmasından asılı olmayaraq, öz cazasına çatdırılmalı, rejimin daha bir düşmənindən intiqam alınmalıydı. "Bəy ailəsindən mənsub, atası məhkəmə pristavı işləyən, böyük mülkiyyət sahibi, qardaşı müsavat dövründə Nazirlər Şurasının sədri olan Həmid bəy" 1941-ci il 8 dekabr ittihamnaməsi ilə 5 il müddətinə sürgünə göndərilməklə cəzalandırılmışdır. 1942-ci ilin 11 fevralında SSRİ XDİK yanında Xüsusi Müşavirə Ziyalov və Qriqoryanın (yenə erməni) çıxardığı bu qərarı təsdiq etmiş və onu sürgünə göndərmişdir. Yusifbəylilər nəslinin Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mücadiləyə qoşulmuş daha bir nümayəndəsi - Həmid bəy sovet imperiyasının həbsxanalarından birində əzab-əziyyətlər və işgəncələr nəticəsində ömrünün ahıl çağında həyata əbədi göz yummuşdur.

Vətəni, milləti canından artıq sevən, milli ideallara həqiqi sədaqətlə xidmət göstərən Yusifbəlilər nəslinin digər nümayəndələri barəsində yəqin ki, gələcəkdə tədqiqatçılar öz sözlərini deyəcəklər. Bu həm də bizim hər birimizin müqəddəs borcudur. Doğma Azərbaycanı tərəqqi və inkişaf yoluna çıxarmış böyük insanlar qarşısındakı hələlik lazımınca ödəyə bilmədiyimiz mənəvi borc. Siyasət və dövlət nəhəngi olmuş Nəsib bəy kimi əvəssiz şəxsiyyətlərimizin həyatı və fəaliyyti barəsində xalqa ən kiçik detallarına qədər bütün həqiqətlər çatdırılmayınca, onların bizlərə necə böyük və tükənməz irs qoyub getdikləri məktəb yaşlı uşaqlarımızdan tutmuş ahıllarımza qədər hər bir kəsə məlum olmayınca bu borcu yerinə yetirilmiş sayıla bilməz.

## Yüksək intellekt, dönməz iradə sahibi

Azərbaycanın ən tanınmış nəsillərindən biri öz adını qədim tarixə malik olan Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndindən götürmüş Şahtaxtlılar nəslidir. Maqsud Mahmudzadə "Dünyanın bəzəyi Naxçıvan" ("Nicat" nəşriyyatı 1998) kitabında yazır: "Şahtaxtı kəndi Şərur rayonunun Qıvraq kənd sovetliyinin ərazisindədir. Kənd rayon mərkəzindən 28 km. aralıda, Şərur düzənliyinin cənub-şərqində yerləşir. Tarixçilər yazırlar ki, kəndin yaxınlığında, Araz çayının sol sahilində e.ə. 2-1-ci minilliklərə aid şəhər yeri aşkar edilmişdir. Şahtaxtı kəndi ərazisində eneolit, tunc, erkən dəmir dövrlərinə və orta əsrlərə aid zəngin maddi mədəniyyət abidələri var".

Şahtaxtı kəndinin adını özlərinə təxəllüs və soyadı seçmiş bu nəslin nümayəndələri arasından Azərbaycanda elmin, mədəniyyətin, xüsusilə də xalq maarifinin inkişafında əvəzsiz xidmətlər göstərmiş görkəmli şəxsiyyətlər çıxmışdır. Zənnimizcə, milli mətbuatımızın beşiyi başında duranlardan biri - "Qeyrət" mətbəəsinin yaradıcısı, "Şərqi Rus" qəzetinin naşiri Məhəmməd Ağa Şahtaxtlı kimi bir ziyalının adını çəkmək yetərlidir ki, bu nəslin milli dirçəlişimizdə oynadığı rol barəsində oxucuda aydın təsəvvür yaransın.



Onun barəsində bir qədər ətraflı məlumat verib qeyd edək ki, Məhəmməd Ağa Məhəmmədtağı Sultan oğlu Şahtaxtlı 1846-cı ildə Şahtaxtı kəndində anadan olmuşdur. Azərbaycanın görkəmli publisisti, şərqşünası, dilçisi, pedaqoqu və ictimai xadimidir. Naxçıvan şəhər məktəbini, Tiflis klassik kişi gimnaziyasını qurtardıqdan sonra Peterburqda müstəqil surətdə alman dilini öyrənmişdir. Leypsiq universitetinin fəlsəfə, tarix, hüquq fakültəsini bitirmiş, 1873-75-ci illərdə Parisdə Şərq dilləri məktəbində mühazirələr dinləmiş, fransız dilini öyrənmişdir. Rus, alman, fransız, ingilis, ərəb, fars və türk dillərində ədəbi, elmi əsərlər yazmışdır. Elmi fəaliyyətə Almaniyada Şərq tarixinə dair tədqiqatlarla başlamış, əlifba islahatı sahəsində M.F.Axundovun ardıcıllarından olmuşdur. 1879-cu ildə o, Şərqdə əlifba islahatı tarixində ilk kitabını - "Təkmilləşmiş müsəlman əlifbeyi"ni Tiflisdə nəşr etdirmişdir. Bir müddət "Moskovski novosti" qəzetinin əməkdaşı və İstanbulda xüsusi müxbir işləmişdir. 1891-93-cü illərdə "Kaspi" qəzetinin müvəqqəti redaktoru olmuşdur. 1893-cü ildə Azərbaycan dilində "Tiflis" adlı qəzet çıxarmağa çalışmış, amma çar senzurası buna imkan vermədiyi üçün yenidən Avropaya getmiş, 1902-ci ilədək Parisdə yaşamış, Fransa kollecində və Ali Təcrübi Təhsil məktəbində Şərq dillərindən dərs demişdir. Bu dövrdə fransız dilində yazdığı əsərləri Qərbi Avropa və Amerika mətbutında dərc olunmuşdur. Sorbonna Universitetində professor P.Passinin



rəhbərliyi ilə fonetika sahəsində tədqiqat aparmış, Fransa Maarif Nazirliyinin fəxri diplomunu almışdır.

M.Şahtaxtlı 1902-ci ildə Tiflisdə xüsusi mətbəə açmışdır (sonralar "Qeyrət" adlandırmışdır), 1903-cü ildən "Şərqi Rus" qəzetinin nəşrinə başlamışdır. (Yəqin ki, oxucunun bu qəzetdə böyük Azərbaycan ədibi Mirzə Cəlilin ilk hekayəsini çap etdirdiyi, "Qeyrət" mətbəəsində isə "Molla Nəsrəddin" kimi milli tariximizdə müstəsna rol oynamış bir jurnalın nəşr olunmasından xəbəri var) 1907-ci ildə İrəvan quberniyasından ikinci Dövlət Dumasına deputat seçilmişdir. Duma buraxıldıqdan sonra "Rossiya" (Peterburq) qəzeti redaksiyasında işləmişdir. 1908-1918-ci illərdə əsasən xaricdə (xüsusilə İran, Türkiyə və İraqda) yaşamış, 1919-cu ildə vətənə qayıtmış, Bakı Universitetinin yaradılmasında fəal iştirak etmiş, burada Şərq dilləri və ədəbiyyatdan mühazirələr oxumuşdur. Ümumittifaq yeni Türk Əlifbası Komitəsinin işində yaxından iştirak etmişdir.

Şahtaxtlı soyadlı başqa bir jurnalistimiz və gözəl ziyalımız haqqında isə təəssüf ki, indiyədək çox az yazılmış, onun yaradıcılığı ümumiyyətlə tədqiqatlardan kənarda qalmışdır. Söhbət M.Mahmudzadənin adını çəkdiyimiz kitabında barəsində nisbətən ətraflı məlumatlar verilən İsa Sultan Nəcəfqulu oğlu Şahtaxtlıdan gedir.

Gürcüstan Mərkəzi Kitabxanasında saxlanılan "Kafkazski almanax"dan (1877) və görkəmli tədqiqatçı və ədəbiyyatşünas Ə.Mirəhmədovun araşdırmalarından məlum olur ki, İsa Sultan Şahtaxtlı 20 yaşında olarkən 1871-ci ildə Tiflisdə (1851-ci ildə Şahtaxtı kəndində anadan olub) realnı gimnaziyanı bitirmiş, 1872-1875-ci illərdə Peterburq Əkinçilik İnstitutunda təhsil almış, iki il Paris və Londonda siyasi iqtisada dair, Sürix (İsveçrə) politexnikumunda isə təbiətşünaslığa dair mühazirələrə qulaq asmışdır. İsa Sultan Şahtaxtlı 1875-ci ildə "Təbiət və cəmiyyətin iqtisadiyyatında meşənin əhəmiyyəti" mövzusunda namizədlik dissertasiyası müdafiə edib, həmin ilin payızında Tiflisə qayıdaraq jurnalistlik fəaliyyətinə başlamışdır. "Tiflisski vestnik" qəzeti redaksiyasında siyasi məsələlər şöbəsinin müdiri olmuş, "Kafkazski almanax"ı nəşr etdirmişdir (iki nömrəsi çıxmışdır). İsa Sultan Şahtaxtlının almanaxda dərc olunmuş 44



səhifəlik "Şərqin böhranı" adlı məqaləsi Şərqin ictimai-siyasi, iqtisadi həyatına, xüsusilə Türkiyənin beynəlxalq münasibətlərinə dair maraqlı mülahizələrlə zəngindir.

İsa Sultan Şahtaxtlı bir neçə dil bilirdi. Fəlsəfə, biologiya, tarix üzrə mükəmməl bilik sahibi idi. O, daim ehtiyac içərisində yaşasa da, nikbin olmuş, övladlarına mükəmməl savad verməyə çalışmışdır. Məhz ailəni dolandırmaq naminə 1880-ci ildən ömrünün sonundək Qars şəhərində yaşamış və burada inzibati işlərdə çalışmışdır. Lakin hərbi quberniya dəftərxanasının məmuru olsa da, rus dilində çıxan "Kars" qəzetinin əsas əməkdaşlarından biri olmuşdur.

İsa Sultan Şahtaxtlının həyat yoldaşı Səkinə xanım Həmidə xanımın (M.Cəlilin həyat yoldaşı) rəfiqəsi olmuşdur. Həmidə xanım Mirzə Cəlil haqqındakı xatirələrində İsa Sultan Şahtaxtlı barəsində məlumatlara az da olsa yer ayırmışdır: "Sentyabrın axarında qızım Minanı Tiflis Qızlar İnstitutuna apardım. O, bu institutda oxuyur və onun pansionunda yaşayırdı. Tiflisdə biz, mənim köhnə rəfiqəm, oxumuş azəri qadını Sofiya xanımın (əsl adı Səkinə xanımdır) evinə düşdük. Sofiya xanım mərhum İsa Sultan Şahtaxtlının arvadı idi. Onların iki qızı həmin institutda oxuyurdu. Onlar Tiflisdə Krasnoqrsk küçəsində, 29 nömrəli evdə yaşayırdılar."

"Qafqaz" qəzetinin 1894-cü il 7 noyabr tarixli nömrəsində ömrünün 43 yaşında, fəaliyyətinin genişləndiyi, yaradıcılığının daha da püxtələşdiyi vaxtda həyata əlvida demiş Azərbaycan jurnalisti - İsa Sultan Şahtaxtlı haqqında nekroloq çap olunmuş və mərhumun şəkli dərc edilmişdir. İnanırıq ki, Azərbaycan mətbuat tarixinin tədqiqatçıları həm Məmməd Ağa, həm də İsa Sqltan Şahtaxtlılar barəsində geniş araşdırmalar aparacaq, onların irsini, milli mətbuatımızın təkrarsız nümunələri olan yaradıcılıqlarını xalqa çatdırmaqla gənc jurnalistlərimizin həmin zəngin ənənələr əsasında yetişdirilməsinə şərait yaradacaqlar.

Yazımızı Şahtaxtlılar barəsində bu məlumatlarla başlamağımız sözsüz ki, təsadüfi deyil. Barəsində söhbət açmaq istədiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin təhsil və dini işlər naziri olmuş maarifpərvər ziyalı Həmid bəy də məhz bu

nəsildəndir. Özü də Şahtaxtlılar nəslinin ən məşhur, milli tariximizdə xidmətləri olan, tanınmış nümayəndələrindən biridir. Həmid bəyi nəslin bir çox görkəmli nümayəndələrindən fərqləndirən amillərdən biri isə onun sovet cəza orqanları tərəfindən repressiyaya məruz qalması, ömrünün ahıl çağında qaranlıq məhbəsdə həyatını başa vurmasıdır.

Həmid bəy Şahtaxtlının həbsdə öz əliylə yazıdığı avtobioqrafiyasından: "Mən Həmid ağa Xəlil ağa oğlu Şahtaxtınski 1880-ci il mart ayının 12-də İrəvan quberniyasının Naxçıvan qəzasının Şahtaxtı kəndində qulluqçu ailəsində anadan olmuşam. 5 yaşımda ibtidai məktəbə getmiş, ana dilini və fars dilini öyrənmişəm. İki il sonra beşillik rus məktəbinə daxil olmuşam. Oranı bitirib 1872-ci ildən şəhər sayılan Naxçıvanda uçilişə daxil olmuşam. Sonra İrəvan müəllimlər seminariyasına daxil olmuş, 4 ildən sonra seminariyanı əla qiymətlərlə bitirmişəm. 1899-cu ildə həmin müəllimlər seminariyasında Azərbaycan dili müəllimi saxlanılmışam. Ali təhsil almaq qərarı ilə mən şərq dilləri müəllimi olmaq sınağından kənarlaşıb klassik gimnaziyanın yanında ekstrenni imtahanlar vermək və dillər üzrə hazırlaşmağa başladım. İrəvan gimnaziyası yanında bu sınağa davam gətirib, latın və fransız dilləri istisna olmaqla (onlardan yaxşı) qalan fənlərdən əla qiymətlərlə kamal atestatı aldım. Vəsaitim olmadığı üçün yalnız bir il sonra Odessada Novorossiysk universitetinin hüquq fakültəsinə daxil oldum. İkinci kursda olarkən xəstəliyimə görə təhsilimi yarımçıq qoyub Qafqaza qayıtmağa məcbur oldum, Bakıya gəlib geri qayıda bilmədiyimə görə bir il itirdim. Həmin bir ili Bakı Alekseyevsk ali hazırlıq məktəbində müəllim işlədim. Bir il sonra yuxarıda adını çəkdiyim fakültəyə qəbul edildim və 1912-ci ildə oranı bitirdim..."

Bütün ömrü boyu təhsilə, elmə maraq göstərmiş Həmid bəy Şahtaxtlı hətta xeyli sonralar mühüm dövlət postları tutduğu dövrlərdə də imkan düşdükcə öz biliyini artırmaq qayğısına qalmışdır. Müxtəlif elm sahələrinə tükənməz marağı 1928-ci ildə onu Tiflisə Zaqafqaziya Universitetinin tibb fakültəsinə gətirib çıxarır və Həmid bəy bu ixtisas üzrə də təhsilini əla qiymətlərlə



başa vurur. Belə geniş profilli, hərtərəfli təhsil görməsinin nəticəsi idi ki, Azərbaycan Dövlət Universitetində, Tibb institunda, Pedoqoji institutda, Diş müalicəsi intitutunda, İncəsənət texnikumunda rus dili, ixtisas, psxologiya, pedoqogika fənlərindən dərs demiş, həkimlərin təkmilləşdirilməsi institutunda, Maliyyə nazirliyinin kurslarında dillər kafedrasının müdiri olmuş, Sənaye müəssisələrinin direktorlarının



hazırlanması və Kənd Təsərrüfatı kimi institutlarda müxtəlif fənlərdən mühazirələr demişdir. Azərbaycan dilinin lüğət tərkibinin tərtib edilməsi komissiyasının təşkilatçısı və sədri, Azərbaycan dilində elmi terminologiyanın tərtibi üzrə komissiyanın sədri, ümumtəhsil məktəbləri üçün dərsliklərin tərtibi ilə məşğul olması və yeni Azərbaycan əlifbasının yaradılmasında iştirak etməsi Həmid bəyin yüksək intellekt, hərtərəfli bilik sahibi olmasını bir daha təsdiqləyir. Müxtəlif komissiyalarda göstərdiyi səmərəli fəaliyyətlər onun həm də tükənməz enerji sahibi olmasından xəbər verirdi.

Avtobiorqafiyasının sonrakı mərhələləri barədə ən yığcam məlumatlar "Azərbaycan Cümhuriyyəti sənədlər və materiallar 1918-1920-ci illər Elm, Bakı 1998" məcmuəsində öz əksini tapıb. Həmin məcmuədə göstərilir ki, Həmid bəy Ağa Xəlil oğlu Şahtaxtlı (1880-1943) - 1912-ci ildə təhsilini bitirdikdən sonra "Yelizavetpolsk dairə məhkəməsində işləyib. "Müsəlman xeyriyyə cəmiyyəti"nin (İrəvan) üzvü olub. "İttihad" partiyasının yaradıcılarından biri (sentyabr 1917-ci il). Azərbaycan parlamentinin üzvü, beşinci hökumətdə təhsil və dini işlər naziri (dekabr 1919 - mart 1920) olub. 1920-ci ilin 28 aprelindən sonra Azərbaycan Dövlət Universitetinin müəllimi (1930-cu ildən professor) işləyib. 1941-ci ildə represssiya olunub, həbsdə ölüb".

1940-cı il yanvar ayının 5-də Az.SSR XDİK-in əməkdaşı Dövlət Təhlükəsizlik mayoru Markaryanın təsdiq etdiyi qərara və Zaqafqaziya dairəsi hərbi prokurorunun sanksiyasına əsasən XDİK DTİ 3-cü şöbə 1-ci bölməsinin rəisi baş leytenant Martirosov yanvar ayının 6-da Bakı şəhəri Karqanov küçəsi 24-də yaşayan Həmid bəy Xəlil bəy oğlu Şahtaxtlını İran kəşfiyyatı ilə əlaqə saxlamaqda, bu ölkənin xeyrinə casusluq fəaliyyəti ilə məşğul olmaqda günahkar sayaraq həbsə almağı və məsuliyyətə cəlb etməyi lazım bilir. XDİK Xüsusi şöbəsinin rəis əvəzi DT baş leytenantı Polyanskinin "razıyam" qeydi ilə imza atdığı həmin qərara əsasən H.Şahtaxtlının həbsi və mənzilində axtarış aparılması qətiləşdirilir.

"1880-ci ildə Naxçıvanın Şahtaxtı kəndində anadan olmuş, Azərbaycan Tibb institutunun professoru, bitərəf Həmid bəy Şahtaxtınski (istintaq materiallarına istinad olunduğu yerlərdə Həmid bəyin soyadını sənədlərdəki kimi saxlayacağıq - L.Ş.) istintaqdan yayına biləcəyi" təhlükəsi ilə yanvar ayının 6-da barəsində həbs qəti imkan tədbiri seçilir və bu qərarın çıxarıldığı gün XDİK müavininin imzaladığı 23 saylı orderlə o, həbsə alınır.

XDİK əməkdaşı Lixaçev digər əməkdaşlar Babenko, Pivovarov, Korntlovun iştirakı ilə Həmid bəyin mənzilində axtarış da həmin gün aparılır və müvafiq protokol tərtib edilərək aşağıdakılar aşkar olunub götürülür:



1.Həmid bəy Şahtaxtınskinin pasportu - JQ №733622;
2.Həmkarlar bileti - №192260;
3.Müxtəlif kitablar - 4 ədəd;
4.Əlifba kitabı - 1 ədəd;
5.Qeydiyat kitabçası - 1 ədəd;
6.Dəftərlər - 2 ədəd;
7.Məktub - 2 ədəd.

1919-1920-ci illərə aid "İttihad" qəzeti "Bakinskiy raboçi", "Azərbaycan", "Zarya", 1937-38-ci illərə aid "Tibb kadrları uğrunda", "Bakinskiy raboçi" qəzetləri və s.

Bununla kifayətlənməyən XDİK əməkdaşı Klimenko isə qardaşının iştirakı ilə Həmid bəyin üst-başını axtarır və onun geyimindən tutmuş portfelinə, portfelin içərisindəki 9 ədəd müxtəlif arayışlara qədər hər şeyi qeydə alır.

Ancaq nədənsə belə məqamlardan istifadə edib tutduqları şəxsin bütün əmlakını müsadirəyə alan cəza orqanının əməkdaşları Həmid bəyin mənzilindəki əmlakın qeydiyyatını aparmayıblar.

İstintaq başlanmazdan əvvəl XDİK əməkdaşı tərəfindən Həmid bəy Xəlil bəy oğlu Şahtaxtinski barəsində anket tərtib edilmişdir: "1880-ci ildə Naxçıvanın Şahtaxtı kəndində anadan olub, azərbaycanlı, universitet bitirib, hüquqşünas, qulluqçu ailəsindən, qulluqçu, rus dili müəllimi professor, Müsavat hökumətində təhsil naziri işləyib, keçmişdə və indi bitərəf, əksinqilabi üsyanlarda və quldur dəstələrində iştirak etməyib, mühakimə edilməyib, antisovet partiya və təşkilatlara qoşulmayıb. Həyat yoldaşı Səkinə Xəlil qızı Şahtaxtinskaya 55 yaş, qızı Aliyə Həmid qızı Şabanova 32 yaş, qızı Məsumə Həmid qızı Hüseynova 30 yaş, Leyla Həmid qızı Şahtaxtinskaya 28 yaş, Səidə Həmid qızı Şahtaxtinskaya 18 yaş, qardaşı Ələsgər Şahtaxtinski, bacısı Münəvvər Talışxanova, Quşin Şahtaxtinskaya, Sona Talışxanova, Xədicə Hüseynova"

Sonuncuların kimliyi və qohumluq dərəcəsi bildirilməyib. Bu anketdə həmçinin Həmid bəyin Azərbaycan Dövlət

Universitetində rus dili kafedrasının müdiri olduğu, atası Xəlil bəyin İqdır gömrük zastavasında tərcüməçi işlədiyi göstərilib..

Bu anketin doldurulduğu gün yanvar ayının 8-də kiçik leytenant Karapetyan Həmid bəyin əl izlərinin çıxarılması ilə bağlı karta tərtib edir və onun bütün barmaqlarının izləri çıxırılır (daktilookopirovaniya). Adətən qatı cinayətkarlara, residivistlərə qarşı tətbiq edilən bu üsuldan 60 yaşlı bir ziyalıya qarşı istifadə olunması istintaqın Həmid bəyə ilk psixoloji təzyiqi idi və bununla onu sındırmaq, daxili inamını sarsıtmaq istəyirdilər. Çünki bir gün əvvəlki dindirmə zamanı o, müstəntiq 3-cü şöbə 2-ci bölmənin rəisi kiçik leytenant Lixaçevin bütün təhdidlərinə baxmayaraq öz təmkinin pozmamış, onlara lazım olan "həqiqəti" deməmişdi.

"Sual: 1907-ci ildən başlayaraq əmək fəaliyyətinizdən danışın.

Cavab: 1907-ci ildən 1912-ci ilə qədər mən Odessa Universitetinin hüquq fakültəsində oxumuşam. 1913-cü ildə dövlət imtahını verib Bakıya, ailəmin yaşadığı yerə gəldim. Həmin ildə Bakı quberniyası xalq məktəbləri direktorunun icazəsi ilə müəllimləri hazırlamaq üçün şəxsi kurslar açdım və eyni zamanda əvvəl Ramanıda, sonra isə Alekseyevsk uçilişində müəllim işlədim. Sonuncuda mən 1916-cı ilə qədər işləmişəm.

1916-cı ilin əvvəlində Qafqaz təhsil dairəsi müdiri Rudolfun əmri ilə Yelizavetpol şəhərindəki Yelizavetpol müəllimlər seminariyasınn riyaziyyat müəllimi təyin olundum. Bir il sonra məni keçmiş Yelizavetpol quberniyasının Qazax və Nuxa qəzaları üzrə xalq məktəblərinin təlimatçısı keçirdilər. 1917-ci ilin fevral inqilabından sonra Tbilisidə müəllimlər qurultayında mən Müvəqqəti Zaqafqaziya hökuməti tərəfindən Qafqaz təhsil dairəsi komissarlığının üzvülüyünə seçildim və təsdiq olundum. Təqribən 1918-ci ilin yazında Zaqafqaziya Seyminin təşkil edilməsindən sonra mən Zaqafqaziya hökumətinin xalq təhsili naziri tə'yin olundum və bu vəzifədə cəmi bir ay Zaqafqaziya hökumətinin buraxılmasına qədər işlədim. Tbilisi şəhərində Azərbaycan müsavat hökumətinin təhsil işləri üzrə səlahiyyətli nümayəndəsi kimi Qafqaz tədris



arxivinin Gürcüstan, Azərbaycan, Ermənistan arasında bölünməsi üçün qaldım. Üzərimə düşən vəzifəni yerinə yetirib həmin vaxt müsavat hökumətinin yerləşdiyi Gəncə şəhərinə getdim. Gəncəyə gələn kimi xalq təhsili nazirinin müavini təyin olundum və 1918-ci ilin oktyabr ayına qədər Gəncədə qalıb xalq müəllimlərinin təkmilləşdirilməsi üzrə kurslara rəhbərlik etdim. Bakının Türklər tərəfindən tutulması və Müsavat hökumətinin Gəncədən Bakıya köçməsindən sonra da mən Gəncədə qaldım və ancaq noyabrın əvvəllərində Bakıya getdim.

1919-cu ilin mayına qədər xalq təhsili nazirinin müavini işlədim. Müsavat hökumətinin tərkibində dəyişiklərlə əlaqədar olaraq, mən heç bir siyasi partiyanın üzvü olmayan şəxs kimi xüsusi dəvətlə yeniləşdirilmiş kabinetin tərkibinə xalq təhsili nazirliyinin idarəedicisi kimi daxil oldum. On bir gün keçmiş Nazirlər Kabinetinin sədri Yusifbəyli ilə fikir ayrılığına görə mən nümayişkaranə şəkildə öz postumu tərk etdim və 7 ay yarım müddət ərzində işsiz qaldım. 1919-cu ilin sonunda mən yenidən şəxsən xalq təhsili naziri olmağa dəvət edildim. Bu təklifi qəbul edərək təqribən iki aya yaxın müddət işlədikdən sonra mən şəxsi təşəbbüsümlə istefaya çıxdım. Nazir vəzifəsindən çıxdıqdan sonra xalq təhsilini yaxşı bilən şəxs kimi Müsavat hökuməti mənə Ali Pedoqoji institutun yaradılması layihəsini tərtib etməyi tapşırdı. Bu layihənin hazırlanmasına mən dərhal başladım, ancaq onu yalnız Azərbaycan sovetləşəndən sonra başa çatdırdım və Xalq Komissarları Sovetinin sədri Nərimanova təqdim etdim.

Azərbaycanın sovetləşməsindən dərhal sonra mən Azərbaycan Dövlət Universitetində işləməyə dəvət edildim və 1930-cu ilə qədər burada müəllim işlədim, sonra ATİ-yə keçdim. Tibb institutunda mən 1938-ci ilə qədər işlədim. 1930-ci ildən həbs edilənə qədər ADU-nun müəllimi olmuşam. 1929-cu ildə ADU-nun 10 illik yubileyində hökumət aktı ilə mənə professor fəxri dərəcəsi verilmişdir.

Sual: Siz müsavat hökumətinə nazir postuna kimin tərəfindən dəvət edilmişdiniz?

Cavab: Mənimlə müsavat hökumətində təhsil nazirinin müavini işləməyin mümkünlüyü barədə kimin danışıqlar apardığını xatırlamıram. Əgər yaddaşım məni aldatmırsa, mənimlə ikinci dəfə Müsavat hökumətinin tərkibinə daxil olmağımla bağlı danışıqları hökumət yaratmaq tapşırığı almış parlament üzvü Məmmədhəsən Hacınski aparmışdı. Dəqiqləşdirirəm ki, birinci Müsavat hökumətində mən xalq təhsili nazirinin müavini təyin edilmişdim.

Sual: Siz düz demirsiniz. İstintaqa məlumdur ki, xalq təhsili nazirinin müavini və nazir postuna siz Nazirlər Kabinetinin sədri Yusifbəyli tərəfindən dəvət edilmisiniz. Nə üçün bu faktı gizlədirsiniz?

Cavab: Hökumətin tərkibinə daxil olmaq barədə mənimlə söhbəti kimin apardığını xatırlamıram. Belə hesab edək ki, bu danışıqları Yusifbəyli aparıb.

Sual: 1919-cu ildə xalq təhsili nazirinin müavini vəzifəsindən getməyiniz nə ilə əlaqədar idi?

Cavab: Mən kəskin ehtiyac duyulduğunu nəzərə alaraq, dəfələrlə hökumətin qarşısında müəllimlərin hazırlanması üçün Bakıda ali pedoqoji institutun açılması məsələsini qoymuşdum. Yusifbəyli nəinki bu vacib məsələni müdafiə etmədi, onu artıq bir iş sayaraq hətta əleyhinə çıxdı və təklif etdi ki, gəncləri təhsil almaq üçün xaricə göndərək.

Bundan əlavə xalq təhsili nazirliyinin fonduna kağız buraxmadığıma görə müsavatçıların lideri Məmməd Əmin Rəsulzadə ilə də aramızda münaqişə olmuşdu. Sonradan mənə aydın oldu ki, həmin kağızla müsavatçılar Tehranda öz qəzetlərini buraxmaq istəyirmişlər.

Sual: Belə çıxır ki, sizin xalq təhsili nazirliyindən getməyiniz müsavat partiyasının rəhbərliyi ilə prinsipial siyasi fikir ayrılıqlarına görə deyilmiş?

Cavab: Bəli mən xalq təhsili nazirliyindən müsavat hökuməti rəhbərliyi ilə prinsipial siyasi fikir ayrılığına görə getməmişdim. Mənim belə fikir ayrılıqlarım olmayıb. Mən ona görə nazirlikdən getdim ki, mənə işləməyə imkan vermirdilər,



Azərbaycanın o vaxt kəskin ehtiyac duyduğu xalq təhsili işlərini genişləndirməyə mane olurdular.

Dindirmə saat 13-də başlayıb, saat 17-də bitib.

XDİK daxili həbsxanasında saxlanılan Həmid bəylə sorğu-sualın belə uzun çəkməsinin sözsüz ki, başqa səbəbləri də vardı. Həmin səbəblər arasında ən çox güman ediləni isə onun qoluzorlu enkevede əməkdaşları tərəfindən döyülməsi, işgəncələrlə üzləşməsidir. Hər işdə zorakı metodların tətbiqinə üstünlük verən sovet rejiminin mahiyyətindən irəli gələn müttəhimlərlə belə münasibətlərə digər istintaq materiallarından bəhs edərkən kifayət qədər toxunduğumuz üçün əlavə şərhə ehtiyac duymuruq. Həmid bəyin işgəncələrə məruz qalması bu baxımdan dəfələrlə sınaqdan çıxarılmış metodun bir daha tətbiqindən savayı bir şey deyildi.

Onun döyülməsi və təhqir edilməsini işdə saxlanılan aşağıdakı sənəd də sübuta yetirir. Həmin sənəddən məlum olur ki, Müstəntiq Zaqrebelnıy 15 yanvar 1940-cı ildə İstintaq İdarəsinin rəisi Nasedininə Şahtaxtınskinin istintaqı şantaj etdiyinə görə 5 sutka karserə salınması xahişi ilə müraciət edib. Elə həmin gün Həmid bəy Şahtaxtınski 5 sutka karser cəzası alıb. Belə cəzanın nə ilə nəticələndiyini güman etmək isə yəqin ki, o qədər çətin deyil. Həmin 5 günlük müddət ərzində nəinki Həmid bəy kimi ağsaqqal bir ziyalını, hətta gənc, fiziki cəhətdən tam sağlam bir insanı da görünməmiş əzablar verməklə "yumşaltmaq" olardı və sovet cəza orqanları bu metodların tətbiqi sahəsində ustalaşmışdılar.

Belə olan təqdirdə müstəntiqin Həmid bəydən artıq əlinin altında olan Fətullabəy Rzabəyli, Nurməmməd Şahsuvarovdan 1937-38-ci illərdə alınmış ifadələrlə səsləşən, yaxud onlara uyğun gələn etiraflar qoparması çox asan bir işi idi. Müstəntiq üçünsə artıq müəyyən olunmuş ssenari ilə gedib, məlum ittihamlara məlum cavablar almaq daha asan və arzuedilən idi.

Fətullabəy Rzabəylinin dediklərindən: "1919-cu ildə mən vətəndaş Həmid Şahtaxtlı ilə birlikdə keçmiş Müsavatçı-ittihadçı hökumətin başçılarına qarşı qəti mübarizə aparırdıq. 1919-cu ildə N.Yusifbəylinin sədrliyi ilə koalisyon hökumət yaradıldı.

Hökumət maarif nazirliyindən din işlərini ayırmaq istəyirdi. Buna görə böyük fikir ayrılıqları oldu və mən, Rzabəyli məktəb işləri sahəsində birinci olaraq öz etirazımı bildirdim: maarif nazirliyində işləməyə özümdə qüvvə tapmadığıma görə xahiş edirəm məni tutduğum vəzifədən azad edəsiniz. Mənim ardımca H.Şahtaxtlı da öz vəzifəsini tərk etdi. Mənim mövqeyim keçmiş müsavatçı-ittihadçı parlamentin yığıncağının (sədr Həsənbəy Ağayev (müsavatçı), sədr müavini Sultan Məcid Qəniyev (ittihadçı) protokolunda tam aydın əks olunmuşdur. Həmin protokol bütöv şəkildə o zaman buraxılan rus dilində Azərbaycan qəzetinin 12 iyun 1919-cu il 160-cı sayında çap edilmişdir. Bundan əlavə Nurməmməd Şahsuvarov xalq məktəblərinin təlimatçısı işlədiyi Dağıstandan Bakıya gəlmişdi. O, keçmiş Qori müəllim—lər seminariyasında oxumuşdu və buradan parlament sədrinin müavini Soltan Məcid Qəniyevlə yaxşı tanış idi".

Bu dindirmələrsiz də taleyi müəyyənləşdirilmiş bir şəxsin özünü müdafiə üçün hər sözünü ölçüb-biçməsinin, ixtisaslarından biri olan hüquqşünaslıq elminin imkanlarını işə salmasının nəsə əhəmiyyəti vardımı. Ancaq bütün bunlara baxmayaraq, Həmid bəy yaşının bu ahıl çağında özünü ona qarşı irəli sürülən ağır ittihamlardan müdafiəyə çalışırdı. Kim bilir bəlkə də bu məqamda o, özündən daha çox heç nəyə və heç kimə güzəştə getməyən rejimin Cümhuriyyət dövrü fəaliyyətinin acığını çıxmaq üçün ailəsini də repressiyaya məruz qoyacağından ehtiyat edirdi. Övladlarının gənc həyatlarına qəsd edilməsinə bais olacağından qorxurdu.

Bir gün sonra Həmid bəyə verilən ilk sual da məhz doğmaları, yaxınları ilə bağlı olmuşdu.

"- Sovet İttifaqında və xaricdə olan qohumluq əlaqələrinizdən danışın.

- Mənim bütün uşaqlarım və ən yaxın qohumlarım Sovet İttifaqında yaşayır. 1.Şabanova Aliyə, qızım - 32 yaş, dul, ixtisasca həkim, Sabirabadda uşaq məsləhətxanasında işləyir və orada yaşayır. 2.Hüseynova Məsmə, qızım - 30 yaş, ailəli evdar qadın, həyat yoldaşı Hüsyenov Oruc, müəllim, Binəqədidə işləyir, Bakı şəhərində yaşayır. 3.Leyla qızım, 27 yaş, Bakıda orta təhsil kursunda oxuyur, ailəlidir. Həyat yoldaşı Qəzənfər



Şahtaxtınski Bakı şəhərində milis məktəbində dərs deyir. 4.Ələkbər Şahtaxtınski, doğma qardaşım - 54 yaş, Bakıda hansısa zavodda direktor köməkçisi işləyir. Ünvanını bilmirəm, çünki 1927-ci ildən sonra onun mənzilində olmamışam, nadir hallarda görüşürük. 5.Humay Şahtaxtınskaya doğma bacım -55 yaş, pensiyaçı, Bakıda yaşayır. 6.Hüseynqulu Şahtaxtınski əmim oğlu, 63-64 yaşında, pensiyaçı, inqilaba qədər və sonra kömrükdə işləyib, 1920-ci ildən müdir vəzifəsində. Şahtaxtı kəndində yaşayır. 7.Mahmud Şahtaxtınski - qohumum, bacım Humayın oğlu, 27-28 yaşında, mühəndis diplomlu, Bakıda hansısa təhsil müəssisəsində müəllim işləyir və burada yaşayır. 8.Əsgər Behbud oğlu Şahtaxtınski bacım Humayın kiçik oğlu 22-23 yaşında, texnik-maşinst. 1939-cu ildə orduya çağrılıb, deyəsən Belorusiyaya göndərilib. 9.Neymət Baxşəli oğlu Şahtaxtınski, əmimoğlunun oğlu, 52 yaşında, dağ mühəndisi, AKİ-də dosent iləyir, Bakıda yaşayır. 10.Həbib Baxşəli oğlu Şahtaxtınski Neymətin qardaşı 37-38 yaşlarında, kimyaçı-mühəndis, AKİ-nin dosenti, Bakıda yaşayır. 11.Ataulla Baxşəli oğlu Şahtaxtınski Neymətin kiçik qardaşı, 34 yaşında, 1937-ci ildə XDİK orqanları tərfindən həbs edilib, ittiham olunaraq, sürgünə göndərilib. 12. Mahmud Hüseynqulu oğlu Şahtaxtınski əmim oğlu, 38 yaşında, həkim, hazırda ATİ-də müəllim və hansısa şəhər poliklinikasında işləyir, Bakıda yaşayır. Bakıda kavaler məktəbini bitirib, Tbilisidə hərbi xidmətdə olub. Tərxis olunduqdan sonra 1930-31-ci illərdə ATİ-yə daxil olub və eyni zamanda bu institutda hərbi müəllim işləyib. 13.Həsənqulu Hüseynqulu oğlu Şahtaxtınski Mahmudun qardaşı 30-32 yaşında, ATİ-nin birinci kurs tələbəsi, ATİ-yə daxil olana qədər orduda xidmət edib, Bakıda hansısa hərbi məktəb qurtarıb. 14.Sadıq Əbülfət oğlu Şahtaxtınski atamın əmisi oğlu, 56 yaş, hərbçi, mə'lumata görə Moskvada yaşyıb. 15.Əhməd Əli oğlu Şahtaxtınski, uzaq qohum, 55 yaşında, Azneftdə işləyib, 1937-ci ildə XDİK orqanları tərəfindən həbs edilib və sürgün olunub. 16.Məmmədhüseyn Əliqulu oğlu Şahtaxtınski qohum, 53 yaşında, mühasib, Gəncə şəhərində işləyib, nəyə görə sürgün edilib bilmirəm. 17.Səməd Abbasqulu oğlu Şahtaxtınski qohum, aqronom işləyir, Şahtaxtı kəndində yaşayır. 18.Adelya İsayevna (Babayeva) Şahtaxtınskaya uzaq qohum, ATİ-nin keçmiş

professoru mamaçalıq və ginekologiya üzrə kafedrada, 1937-ci ildə sürgün edilib.

Xaricdə mənim uzaq qohumlarımdan aşağıdakılar yaşayır: 1.Məmməd Əli oğlu Şahtaxtınski, inqilaba qədər Ağacıq-Acayev soyadı daşıyıb, gizli şəkildə 1920-ci ildə mühacirət edib, Müsavat partiyasının üzvü olub, Bakıda dəmiryolda işləyib, qohumlarının dediyinə görə Fransada yaşayır. 2.Nəsrulla Bəhlul oğlu Şahtaxtınski uzaq qohum, 1920-ci ildə gizli şəkildə İrana mühacirət edib. 3.Məmmədqulu Əliqulu oğlunun qardaşı, adını bilmirəm, Azərbaycanda sovetləşməyə qədər Türkiyəyə mühacirət edib. Xaricdə yaşayan qohumlarımla mən heç bir əlaqə saxlamamışam və saxlamıram. Sovet İttifaqı ərazisində yaşayan tanışlarım: 1.Tahir Quliyev, ADU-nun dosenti, bitərəf, 1938-ci ildə ADU-da tanış olmuşuq. 2.Tumbil Petr Xristianoviç, ADU-nun professoru, deyəsən latış, bitərəf, universitetdə 7-8 il qabaq tanış olmuşam. 3.Bednyakov Aleksandr Semyonoviç ADU-nun dosenti, 1938-ci ildə tanış olmuşam.4.Rzabəyov Fətulla bəy - APİ-nin keçmiş profesoru, müsavat dövrü Azərbaycan hökumətində xalq təhsili nazirliyindən iş yoldaşım. Bir-birimizi 1920-ci ildən tanıyırıq. 1937-ci ildə XDİK tərəfindən həbs edilib. 5.Aşurbəyov İsa Hacı Mehdiqulu oğlu, müsavat dövrü Azərbaycan hökumətində xalq təhsili nazirliyindən iş yoldaşım. 1937-ci ildə XDİK tərəfindən həbs edilib. 6.Qasımov Pənah keçmiş müəllim, bir-birimizi tələbəlik illərindən tanıyırıq. XDİK orqanları tərəfindən həbs edilib. 7.Qəniyev Sultan Məcid müəllim, müsavat dövrü Azərbaycan hökumətində xalq təhsili nazirliyindən iş yoldaşım. Çoxdan tanışıq. 1937-ci ildə XDİK orqanları tərəfindən həbs edilib. 8.Mir Mehdi Makui İran qaçqını, pensiya alırdı, indi pensiyası kəsilib, heç yerdə işləmir. Çoxdan tanıyıram, ancaq yaxın münasibətdə olmamışıq. Ancaq sonuncu il mən onunla tez-tez görüşürdüm, xüsusilə yayda boş olanda. Mənim mənzilimdə yalnız bir dəfə olub. 9.Səbri (soyadını bilmirəm) Türkiyədəndir. Keçmiş türk əsgəri, hazırda müəllim, harada işlədiyini bilmirəm. Şəxsi tanışlarımdan xaricdə yaşayanı yoxdur".

Müstəntiq 13 yanvar dindirməsində isə Həmid bəyin birinci dindirmə vaxtı söylədiklərinə qayıdır və onu əksinqilabi



fəaliyyətdə günahlandırır. Artıq istintaq ötən 6 gün ərzində lazımi "hazırlıq prosesindən" keçirilmiş müttəhimin "səmimi cavablar verməsinə" nail olur. Daha bir "xalq düşməni"nin ifşası üçün tələb olunan materiallar əldə edilir. Həmin tarixdən başlayaraq, hər yeni dindirmədə Həmid bəy yeni-yeni "etiraflar" edir, özünün və mübarizə yoldaşlarının günahlarının bir daha təsdiqi üçün istintaqa "qiymətli materiallar" verir. "İttihad" partiyasının yaradılması təşəbbüslərinə qoşulması və qısa bir müddət bu partiyanın üzvü olması istisna edilməklə, Cümhuriyyət və sovetləşmədən sonrakı dövrdə, ümumiyyətlə bütün ömrü boyu siyasi fəaliyyətdən kənarda qalmış, heç bir partiyaya meyl etməmiş bir şəxs siyasi xarakterli cinayətlərdə ittiham olunur və gizli təşkilat üzvü kimi məsuliyyətə cəlb ounması üçün onun barəsində kifayət qədər "dəlil-sübut" toplanır.

"- Yanvarın 7-ki dindirmədə siz göstərdiniz ki, Müsavat partiyasının lideri Məmməd Əmin Rəsulzadə ilə aranızda tam xidməti məsələlərlə bağlı münaqişə olub. Sizin bu cavabınız yalandır və səmimi deyil. İstintaq sizin həm keçmişdə, həm də indi fəal əksinqilabi fəaliyyətiniz barədə dəqiq məlumatlara malik olduğu üçün doğru və işin mahiyyəti üzrə ifadə verməyinizi təklif edir.

Cavab: İstintaqın həm keçmişdə, həm də indi mənim əksinqilabi fəaliyyətimdən xəbərdar olduğu üçün etiraf edirəm ki, mən uzun illər ərzində partiya və sovet hakimiyyətinə qarşı düşmən mövqedə olmuşam. (Zorakılıqla milli hökuməti devirmiş bir hakimiyyətə qarşı Həmid bəyin düşmən münasibətdə olması çox təbii bir hal idi və buna müstəntiqlər də şübhə etmirdilər. Ancaq onların can atdıqları bu münasibətin arxasında dayanan fəaliyyət, onun əksinqilabi təşkilatlarda iştirakını üzə çıxaran faktlar idi - L.Ş). Əksinqilabi inamımdan birdəfəlik əl çəkmək istəyi ilə əksinqilabi fəaliyyətim barədə ətraflı danışmağı özümə borc bilirəm. Hələ 1919-cu ildə nazir müavini işləyərkən mən Müsavat partiyasının proqramını ideyaca müdafiə edirdim. 1919-cu ilə qədər, təqribən 1918-ci ilin martından Müsavat partiyası Zaqafqaziya Seymində öz nümayəndəsi olmadığı üçün mənə onların mənafelərinin ifadəçisi olmağı təklif etdilər. Mən öz

razılığımı verdim. Seymin açılışı günü mən Müsavat partiyasının lideri Məmməd Əmin Rəsulzadə ilə tanış oldum. Burada fərdi söhbət zamanı Rəsulzadə ilə aramızda kiçik münaqişə baş verdi.

Sual: Aydın danışın Rəsulzadə ilə aranızdakı münaqişənin mahiyyəti nədən ibarət idi?

Cavab: Rəsulzadə məni bitərəf adlandıranda, mənim heç bir ideya tərəfdarı olmadığımı göstərmək istəyirdi. Hisslərimin təhqir olunması mənə onlarla işləməyə imkan verməməli idi, buna baxmayaraq mən Müsavat partiyasına Azərbaycanda Müsavat hökuməti yaratdığına görə simpatiya bəslədiyim üçün mən xalq təhsili nazirinin müavini kimi təyinatı sonuncu verilən şəxs kimi hökumətin tərkibinə daxil oldum.

Sual: "Müsavat" partiyası və digər əksinqilabi partiyalarla əksinqilabi əlaqələrinizin sonrakı dövrü barədə danışın.

Cavab: Sonra Müsavat partiyası ilə yanaşı mən lideri Qarabəy Qarabəyovla çox yaxşı dostluq münasibətində olduğum əksinqilabi "İttihad" partiyası ilə də əlaqəni kəsmirdim.

Sual: Sizin dostluq münasibətləri hansı zəmində formalaşmışdı?

Cavab: Siyasi məsələlərdə bizim ideya birliyimiz zəminində.

Sual: Deməli "İttihad" partiyasının proqramı əsasında.

Cavab: Bəli.

Sual: Belə çıxır ki, siz əksinqilabi "İttihad" partiyasının üzvüsünüz?

Cavab: Bəli mən bu partiyanın üzvü idim.

Sual: Siz nə vaxt onun üzvü olmuşdunuz?

Cavab: "İttihad" partiyasına mən birinci Müsavat hökumətinin tərkibindən çıxdıqdan sonra, 1919-cu ilin iyul ayında üzv olmuşam. İkinci dəfə mən hökumətin tərkibinə təhsil naziri kimi "İttihad" partiyasının üzvü kimi daxil olmuşam.

Sual: Qarabəy Qarabəyov indi haradadır?

Cavab: Sizin sualınıza dəqiq cavab verməyə çətinlik çəkirəm, çünki onun ünvanını xatırlamıram, hardasa Moskva yaxınlığında.



Sual: Siz Qarabəyovla axırıncı dəfə nə vaxt əksinqilabi əlaqə saxlamısınız?

Cavab: Qarabəyovla sonuncu dəfə 1939-cu ilin noyabr ayında yazışmışıq.

Sual: Siz Qarabəyovla nə cür yazışırdınız, axı siz indi dediniz ki, Qarabəyovun ünvanını dəqiq xatırlamırsınız. İstintaq sizə doğru danışmağı təklif edir.

Cavab: Əksinqilabi təşkilatımızın ifşa olunmasından ehtiyat edərək mən Qarabəyovla 1927-ci ilə qədər Hacı Əhmədbəy Aşurbəyov (1928-ci ildə vəfat edib) vasitəsilə əlaqə saxlamışam. 1927-ci ildən 1937-ci ilə qədər əlaqə kəsilmişdi. 1937-ci ildən 1939-cu ilə qədər mən Qarabəyovla məncə, anasının adını daşıyan qızı Məsmə vasitəsilə əlaqə saxlamışam.

Sual: Hazırda Qarabəyova Məsmə harada yaşayır?

Cavab: Qarabəyova mən həbs olunana qədər Bakıda yaşayırdı, ADU-nun kimya fakültəsinin sonuncu kurs tələbəsi idi.

Sual: Siz Qarabəyovla hansı konkret məsələlər haqqında yazışırdınız?

Cavab: Əsasən mən məktubla Qarabəyovdan bizim əksinqilabi təşkilatımızın heyətinin nə qədər genişləndiyini, təşkilat daxilində fikir ayrılıqlarının olub-olmadığını, Qarabəyovun bu əksinqilabi təşkilatın üzvləri arasında hansı nüfuza malik olması, əksinqilabi qüvvələrin sayı barədə soruşurdum.

Sual: O, sizin suallara necə cavab verirdi?

Cavab: Əksər suallar üzrə Qarabəyov mənə müsbət cavablar verirdi, deyirdi ki, iş uğurlu gedir, bir sıra suallar barədəsə susurdu.

Sual: Hansı suallar barəsində və nəyə görə susurdu?

Cavab: Yadımdadır, Qarabəyov mənim əksinqilabi təşkilat daxilində ixtilaf yoxdur ki, sualıma heç bir cavab verməmişdi, nəyə görə bilmirəm.

Sual: Əksinqilabi "İttihad" parityası kimlərdən ibarət idi və onun proqramı nədən ibarət idi?

Cavab: Əksinqilabi "İttihad" partiyası əsasən repressiya olunmuş və sovet hakimiyyətinə qarşı düşmənçilik münasibəti bəsləyənlərdən ibarət idi. Qolçomaqlar, keçmiş ağqvardiyaçı zabitlər və b. "İttihad" partiyasının son məqsədi bütün əksinqilabi qüvvələri səfərbər edib onları müharibə baş verdiyi təqdirdə Sovet hakimiyyəti əleyhinə qaldırmaq, onun devrilməsinə nail olmaq və Rusiyada burjua demokratiyasını bərqərar etməkdən ibarət idi".

İşgəncələr, mənəvi-psixoloji təzyiqlər qarşısında məcbur olub "əksinqilabi fəaliyyəti barədə" ona diktə edilənləri təkrarlayan Həmid bəy zəif vücudu ilə hərdən calladları təəccübləndirir, bir gün əvvəl etdiyi etirafların tamamilə əksini söyləyir, istintaqı çaş-baş salırdı. Artıq 20-ci illərdəki metodlarla işi aparmaqdan az da olsa çəkinən müstəntiqlər onu təkrar-təkrar dindirmək məcburiyyətində qalır, ifadələrdəki ziddiyətləri aradan qaldırmağa çalışırdılar. Çünki belə ziddiyətlər istintaqın zorakı metodlara əl atmaqla lazımi etiraflar əldə etdiyini açıq göstərirdi. Buna görə də 1940-cı il yanvar ayının16-da başlayıb 18-nə qədər davam etmiş dindirmə zamanı ilk suallarda diqqətin belə məqamlar üzərində cəmləşdirilməsi təsadüfi deyildi:

"- : Siz 14 yanvar dindirməsində özünüzün əksinqilabi fəaliyyətiniz barədə ifadə vermiş, sonrakı dindirmədə isə verdiyiniz ifadədən imtina etmisiniz. Əvvəl verdiyiniz ifadədən imtina etməyinizi nə ilə izah edirsiniz?

Cavab: Onunla ki, mənim tərəfimdən yalan ifadə verilib (Hansı şəraitdə Həmid bəy yalan deməyə məcbur edildiyi yəqin idi - L.Ş).

Sual: İstintaq sizə dəfələrlə düz ifadə vermək barədə xəbərdar edib. Nə üçün yalan ifadə vermisiniz?

Cavab: Mənim qəti imtina etməyimə baxmayaraq, iki-üç gün ərzində əksinqilabi fəaliyyətim barədə mənə dəfələrlə suallar verdilər və mən yalan ifadə verməyə məcbur oldum. (?!) Sonrakı gün isə XDİK orqanlarını çaşdırmamaq üçün həmin ifadələrdən imtina etdim.



Sual: İstintaq yenə sizi xəbərdar edir, yalan danışmağı tərgidib, əksinqilabi satqın fəaliyyətiniz barədə düzgün ifadə verəsiniz.

Cavab: Mən özümə qarşı irəli sürülən ittihamı qəti rədd edirəm, belə ki, mən heç vaxt əksinqilabi iş aparmamışam.

Sual: Sizin SSRİ-də yaşayan keçmiş və hazırda xarici ölkə təbəəsi olan tanışlarınızın adını çəkin və əlaqələrinizin xarakterini qeyd edin.

Cavab: 1.Möhsün Cabbarxanov, İran təbəəsi, İran səfirliyinin katibi, mənim İrəvan müəllimlər seminariyasından keçmiş tələbəm və həmin tədris ocağında iş yoldaşım, sonuncu dəfə onu 1932-ci ildə görmüşəm. Sonra qardaşı Cəfərin dediyinə görə, o, İrana getdi. 1934-cü ildə Möhsün Türkiyədə konsul təyin olunub. 2.İbrahimov Mirzə Möhsün İran təbəəsi, ADU-nun, APİ-nin keçmiş fars dili müəllimi. 1938-ci ildə İrana sürgün edilib, bu il isə repressiyaya mə'ruz qalıb. 3.Makui Mir Mehdi 1938-ci ildə XDİK orqanları tərəfindən repressiyaya məruz qalıb. 4.Səbri Cavidov keçmiş türk təbəəsi, indi SSRİ təbəəsi, mən həbs edilənə qədər Binəqədidə işləyirdi. Şəxsi söhbətlərimizdə Səbri mövcud quruluşdan narazılığını bildirirdi. Hərbi mövzuda söhbətimiz vaxtı o, mənə özünün keçmiş xidmətləri barədə danışdı ki, onlar bolşeviklərin hucumu zamanı Yalama körpüsünü partladıblar. Səbri Qafur Əfəndiyevlə çox yaxşı dostluq münasibətləri saxlayırdı. O, mənə demişdi ki, 1920-ci ildə sovet hökumətinin cəza tədbirlərindən gizlənərkən Qafurun evində yaşayıb. 5.Hüseynağa İran təbəəsi, keçmiş biznesmen, 1927-ci ildə İrana sürgün edilib. 6.Qafur Əfəndiyev pedaqoq, yazıçı, 1937-ci ildə həbs edilib. Mənimlə söhbətində kəskin şəkildə sovet hökuməti əleyhinə çıxdı. Öz bədii əsərlərində partiya işçilərini yalnız mənfi tip kimi təsvir edib. Söhbətlərində tez-tez əksinqilabi mövzulara keçirdi. Bu məsələlərdə onunla birlikdə İstanbulda təhsil almış şairlər Hüseyn Cavid və Əhməd Cavad onunla tam həmrəy idilər. 7.Əlizadə Rəhim Azərbaycan Tibb İnstitunun ortepediya elmlər dirktoru. 8.Cabbarxanov Cəfər İran təbəəsi, həmişə İran konsulluğunda xidmət edib. 9.Vəlixanov Xosrov SSRİ təbəəsi,

1934-cü ilə qədər İran konsulluğunda işləyib. Ona rus dilində dərs demişəm. 1934-cü ildə XDİK orqanları tərəfindən repressiya olunub.

Sual: Vəlixanovun rus dilini öyrənmək üçün sizə xahiş etməsi hansı zərurətdən doğmuşdu?

Cavab: İran konsulluğunun əməkdaşı olarkən Vəlixanov mənə deyirdi ki, tez-tez rus dilində müxtəlif sənədlərlə işlədiyi üçün ona rus dilini öyrənmək vacibdir. Bundan əlavə mənə dedi ki, bu iş üçün İran səfirliyində yaxşı pul verirlər.

Sual: Vəlixanov İran konsulluğunda hansı vəzifədə işləyirdi?

Cavab: Dəqiq bilmirəm hansı vəzifədə işləyirdi, ancaq bilirəm ki, təsərrüfat sahəsində idi.

Sual: Təsərrüfat üzrə işləməklə, Vəlitxanov nə üçün tərcümə ilə maraqlanırdı?

Cavab: Tam maddi maraq baxımından, çünki bu işə çox pul verilirdi.

Sual: Siz şəxsən İran konsulluğundan rus dilindən fars dilinə tərcümə işləri götürmüsünüzmü?

Cavab: Yox, götürməmişəm.

18-19 yanvar 1940-cı ildə növbəti dindirmələrdə XDİK orqanları əməkdaşlarını yalnız Həmid bəyimn son üç ildə kimlərlə yazışması maraqlandırır. Həmid bəy suallara cavab verərək xariclə heç kimlə yazışmadığını, SSRİ ərazisində isə Odessada təhsil alan İran təbəəsi Ələkbər İsmayılzadə, Şərqi Sibirdə xidmət edən doktor Əbdüləziz Aleksandrovdan məktub aldığını deyir.

24 yanvarda dindirmədə söhbət Həmid bəyin Qafur Əfəndiyevin sovet hökuməti əleyhinə söhbətlərini bilə-bilə bu barədə müvafiq orqanlara xəbər vermədiyini irad tutan əməkdaş ona belə bir sual verir:

Sual: Belə çıxır ki, siz Qafur Əfəndiyevlə siyasi həmfikirsiniz?

Cavab: Bəli. Mən də onun kimi sovet hökuməti və onun tədbirlərinə qarşı düşmən münasibətdə idim.



Ancaq Həmid bəy hansısa əksinqilabi təşkilata məxsusluğu barədə ittihamı qəti şəkildə rədd edir.

27 yanvar dindirilməsində isə artıq müxtəlif formalarda təzyiq və təhqirlər görmüş Həmid bəy könüllü surətdə əksinqilabi fəaliyyəti barədə danışmağa, 1918-ci ilin sentyabrında N.Yusifbəyli tərəfindən xalq təhsili nazirinin müavini vəzifəsinə dəvət edildiyi gündən bəri gördüyü işlərdən söhbət açır. Bütün bu dindirmələri XDİK istintaq hissəsinin müstəntiqi kiçik leytenant Zaqrebelnıy aparıb.

27 yanvar dindirməsi 28 yanvar gecə saat 4-ə qədər davam edir.

Sual: Həbs edilənə qədər keçmiş "İttihad"çılardan kimlərlə görüşmüsünüz?

Cavab: Keçmiş müsavat hökumətinin üzvü, ittihadçı Heybət Məmmədbəyovla görüşmüşəm. XDİK orqanları tərəfindən 1938-ci ildə repressiya olunub. Çar dövründə Yelizavetpolda dairə məhkəməsinin katibi işləmiş Süleymanbəy Musabəyovla görüşmüşəm. Sovetləşmədən sonra vəkil idi. Onun kürəkəni və qızı 1920-21-ci illərdə güllələniblər, nə üçün bilmirəm. İkinci kürəkəni İbrahim İsmayılzadə dəri-zöhrəvi xəstəliklər üzrə professor 1938-ci ildə XDİK orqanları tərəfindən repressiya olunub. Musabəyovla mən 1917-ci, Məmmədbəyovla 1919-cu ildən tanışam.

Sual: Onlarla siz hansı siyasi mövzularda söhbət edirdiniz?

Cavab: Siyasi mövzularda mən onlarla söhbət etmirdim.

Nəhayət 2 fevral 1940-cı il dindirməsində Zaqrebelnıy Həmid bəydən istədikləri cavabı ala bilir.

Cavab: Öz daxili aləmimdə uzun təhlildən sonra mən qəti qərara gəlmişəm ki, istintaq orqanlarına həbs edildiyim vaxta qədər apardığım əksinqilabi iş barədə danışım. Ehtiraf edirəm ki, həbs edilənə qədər mən sovet hökumətinə qarşı düşmən mövqedə olmuşam. 1919-cu ildən əksinqilabi "İttihad" partiyasının üzvü olmaqla Azərbaycanın sovetləşməsi dövründə və sonrakı illərdə sovet hökuməti əleyhinə tələbələrim və tanışlarım arasında əksinqilabi ideyalar yaymışam.

Sual: Aydın danışın sizin tanışlarınız arasında yaydığınız əksinqilabi ideyalarınız nədən ibarət idi?

Cavab: Həmsöhbətlərim, mənimlə ideyaca yaxın adamlar arasında müxtəlif maraq yolları olan millətlərin mexaniki birləşməsinə əsaslanan sovet hökumətinin zəifliyini, ölkənin harasındasa hansısa müharibə baş verərsə, sovet hökumətinin öz əlilə tədricən kütlələri bürüyən əksinqilabi narazılıqlar nəticəsində SSRİ-nin dağılacağını sübut edirdim. Sonra mən Azərbaycanın SSRİ-nin siyasi asılılığından çıxıb ondan ayrılmaqla siyasi müstəqillik qazanması ideyasını təbliğ edirdim".

İstintaq davam etdirildikcə "yeni-yeni" faktlar aşkarlamağa çalışan müstəntiqlər dəridən-qabıqdan çıxır, eyni sualları təkrarlamaqla onsuz da fiziki cəhətdən xeyli zəifləmiş Həmid bəyi üzüb əldən salmağa, istədikləri günahları etiraf etdirməyə cəhd göstərirdilər. Belə məqamlardan birində 5 fevral 1940-cı ildə Həmid bəy: "27 yanvarda adlarını çəkdiyiniz şəxslərdən başqa daha kimlərlə əksinqilabi əlaqə saxlayırdınız?" sualına cavab verərək deyir: "1924-cü ildə mən ən qabaqcıl tələbələrdən olan Rəhim Vəkilovla yaxın idim. Onun bacısı Mədinə Vəkilova (ər soyadı Qiyasbəyova) qadın seminariyasınqın müdiri (1920-30) idi. Mən tez-tez onun mənzilində olur, şagirdlərini öz millətinə məhəbbət, SSRİ-yə qarşı inamsızlıq ruhunda tərbiyə etməyi məsləhət görürdüm. 1935-36-cı illərdə Vəkilova ilə ATİ-də görüşdüm. Əksinqilabi təbliğat apardığına görə XDİK orqanları tərəfindən sürgün edildi.

1930-cu ildə Zeynal bəy Səlimxanovla ADU-da görüşmüşdüm. Varlı ailədən çıxmışdı, milyonçu Hacı Zeynalabdin Tağıyevin kürəkəni idi. Onunla mütamadi olaraq əksinqilabi mövzularda söhbət edirdik, sovet hökumətinə nifrət bəsləyirdi".

16 gün sonra Həmid bəy 1924-25-ci illərdə əksinqilabi gizli müsavat təşkilatının üzvləri ilə əlaqələri barədə danışır və onlarla Rəhim Vəkilov vasitəsilə əlaqə saxladığını təkrar bildirir.

26 fevral 1940-cı il dindirməsində isə Həmid bəyin əksinqilabi əlaqə saxladığı Cabbar Məmmədov, Rüstəmbəy Sultanov, onun qızı Leyla xanım Şeyxova, Nurməmməd Şahsuvarov, Sultan Məcid Qənizadə, Müseyib Sadıqov, Neymət Şahtaxtinski, Səməd Acalov, Cəlil Vəzirov, Tahir Quliyev və b. haqqında sorğu -sual aparılır.



N.Şahsuvarov barəsində onun dedikləri isə Cumhuriyyət hökumətinin repressiyaya məruz qalmış başqa bir nazirinin həyat və fəaliyyəti haqqında maraq doğuran faktların aşkarlanması baxımından əhəmiyyətlidir: "Keçmiş Dağıstan, sonra isə Müsavat əksinqilabi hökumətinin üzvü. Dağıstanda o təhsil naziri idi, müsavat hökumətində isə təhsil nazirinin müavini. Mən onu Gəncədən, 1916-cı ildə o, gimnaziyada hazırlıq təhsili müəllimi olandan tanıyırdım. O, çar hökumətini müdafiə edirdi, deyirdi ki, çar vaxtında daha yaxşı idi, nəinki indi, sovet hökuməti vaxtında. Onda əməyi qiymətləndirir, qayda-qanuna hörmət edirdilər."

Yaxud Hüseyn Cavidlə yaxınlığı barəsində. Həmid bəyin dediklərindən məlum olur ki, o, böyük mütəfəkkirlə uşaqlıqdan tanış imiş, ancaq lap yaxından 1919-cu ildə tanış olublar. Görünür "lap yaxından" deyəndə Həmid bəy H.Cavidlə sıx ünsiyyət saxlamalarını, əqidəcə yaxın olduqlarını nəzərdə tuturdu.

14 martda əvvəlki dindirmədəki ifadəsinə əlavə edən Həmid bəy Məmmədağa Qayıbovun adını çəkərək birlikdə Odessada təhsil aldıqlarını bildirir. İstintaqın "Bakı şəhərində yaşayır, keçmiş Müsavat hökumətinin üzvü, hökumətdə Səhiyyə nazirinin müavini" kimi xarakterizə etdiyi Məmmədağa Qayıbovla Bakıda 1919-cu ildə görüşdüklərini söyləyir. Daha sonra isə əlavə edir ki: "Siyasi söhbətimizdə əksinqilabi ifadələr işlətmişik. O, ölkəmizdə sosializmin qələbəsinə inanmırdı. Onun yanında mən İran konsulluğunun katibi ilə tanış olmuşam. O, hərdən Qayıbovun mənzilinə gəlirdi, onun azərbaycanlı arvadı ilə fransız dilində danışırdı. O, katiblə ona görə fransız dilində danışırdı ki, katib Azərbaycan və rus dilini bilmirdi".

Sual: Qayıbov konsulun katibini haradan tanıyırdı?

Cavab: Konsulun katibi Qayıbovun mənzil qonşusu idi. O, orada təqribən 1927-28-ci illərdən yaşayırdı. Bir dəfə katib məndən xahiş etdi ki, ona rus dili dərsi deyim, mən imtina etdim.

Sual: Qayıbovun mənzilindən başqa siz İran konsulluğunun katibi ilə daha harada görüşmüsünüz?

Cavab: Heç yerdə".

Sonra Həmid bəy ADU-nun kimya kafedrasının asisenti Faiq Əfəndiyevin adını çəkir. Onun Moskvaya müdayiə etməyə getdiyini və sovet hökumətinə qarşı olduğunu və Sovet İttifaqının zəifliyi barədə danışdığını, əgər müharibəyə cəlb edilərsə, ölkə daxilində qarışıqlıq və üsyanlar olacağı barədə fikirlərinin üst-üstə düşdüyünü qeyd edir.

Həmid bəyin sonuncu dindirilməsi 29 mart 1940-cı ildə olur. Bu dindirməni DTİ-nin 2-ci şöbə 2-ci bölməsinin rəis müavini leytenant Quliyev aparıb.

Həmid bəyin işi ilə bağlı istintaq prosesi nəzərdə tutulan müddətlərdə başa çatdırılmadığı üçün ayrılmış müddət bir neçə dəfə artılmışdır. Həmid bəy Şahtaxtınskinin işi ilə bağlı istintaqın və onun həbs altında saxlanılması müddətinin artırılması haqqında birinci qərar Az.SSR XDİK-in müavini mayor Markaryan tərəfindən 29 yanvar 1940-cı ildə imzalanmışdır. Daha sonra fevralın 28-də Zaqrebalnıy istintaq müddətinin martın 6-da başa çatmayacağını müəyyən edərək onun daha bir ay artırılması barədə öz qərarını çıxarır. XDİK əməkdaşları Quliyev və Məmmədov Az.SSR Prokuroru qarşısında vəsatət qaldırmaq barədə qərarla ona qoşulurlar.

Daha sonra istintaq müddəti Quliyevin hazırladığı qərara əsasən aprelin 6-na qədər uzadılır.

Nəhayət 1940-cı il aprelin 26-da Quliyev istintaq üzrə adı çəkilən 6 nəfərlə bağlı əlavə dəqiqləşdirmə və yoxlama materialları tələb olunduğuna görə işin müddətini daha bir ay artırmaq qərarına gəlir. Qərarı Nəzərli təsdiq edir.

Bütün bu müddətartırmalar Həmid bəyin məruz qaldığı işgəncələrin, əzab-əziyyətlərin müddətinin artırılması, 60 yaşlı ziyalının özündən qat-qat aşağı səviyyələrdə dayanan şəxslər tərəfindən təkrar-təkrar fiziki və mənəvi əzablara düçar edilməsi üçün yeni imkanlar yaradılması demək idi.

Nəhayət bu müddətartırmaların başqa və ən mühüm bir nəticəsi. Müstəntiq Quliyev 26 aprel 1940-cı ildə 7 saylı istintaq



işi ilə Az.SSR CM-in 68-ci maddəsi ilə ittiham olunan Həmid bəy Şahtaxtınskini antisovet təbliğat apardığına, öz həmfikir tanışlarının yanında özünün əksinqilabi görüşlərini açıq şəkildə ifadə etdiyinə görə Az.SSR CM-in 72, 73-cü maddələri ilə günahkar sayaraq qərar çıxarır: müttəhim Həmid bəy Şahtaxtınskiyə əlavə olaraq Az.SSR CM-in 72, 73-cü maddəli ilə üzrə ittham irəli sürülsün. 2-ci şöbənin rəis müavini baş leytenant Nəzərli təsdiq edir.

Elə həmin gün, aprel ayının 26-da Həmid bəy Şahtaxtınskiyə qarşı yekun ittihamnaməsi elan olunur. Bu ittihamnamədə Quliyev, Qriqoryanla yanaşı, onu təsdiq edən XDİ komissarı böyük mayor Yemelyanovun da imzası var.

Həmid bəy Şahtaxtınskiyə Quliyev tərəfindən istintaqın bitməsi haqqında protokol da prelin 26-da təqdim edilir. Həmid bəy istintaqa heç bir əlavəsi olmadığını, ancaq Qubaydulin və Çobanzadənin ifadələrini tam inkar etdiyini və heç bir əksinqilabi millətçi təşkilatın üzvü olmadığını və ona belə bir təşkilat məlum olmadığını bildirir.

Artıq onun layiq görüləcəyi cəza müəyyənləşdirilmiş və daha yuxarı instansiyalarla razılaşdırılmışdı. Buna görə də nəyisə inkar edib-etməməsinin, yaxud əvvəlki ifadələrindən imtina etməsinin heç bir faydası yox idi. Mayın 3-də Həmid bəy Şahtaxtınskiyə verilmiş sanitar pasportda 60 yaşlı Həmid bəyin fiziki əməyə yararlı olmadığının göstərilməsinə qədər hər şey məlum idisə, bu etirazların bir nəticəsi ola bilərdimi və ümumiyyətlə belə etirazlarla aprel çevrilişindən keçən iyirmi il ərzində hansı müttəhim, nəyəsə nail ola bilmişdimi və mümkün idimi? Cavab birdir - yox. Sovet rejimi milli ideyalarla nəfəs alan bir ziyalını bağışlaya bilməzdi, ən azı ona görə ki, milli ideyaların zirvəsi milli azadlıq, müstəqillikdir.

1940-cı ilin 5 mayında Az.SSR XDİK-in işləri üzrə Zaq. Hərbi Prokurorluğunun köməkçisi 2-ci dərəcəli Hərbi hüquqşünas Qurbanov tərəfindən Qərar çıxarılır. Bu qərarla Həmid bəy Şahtaxtınskinin ittiham edilməsi ilə əlaqədar yekun ittiham təsdiq olunur və baxılmaq üçün SSRİ XDİK yanında Xüsusi Müşavirəyə göndərilir.

SSRİ XDİK yanında Xüsusi Müşavirə 11 iyun 1940-cı ildə işə baxır və "antisovet millətçi təşkilatda iştirakına görə Həmid bəy Şahtaxtınski islah-əmək düşərgəsində saxlanılmaqla 8 il müddətinə, 1940-cı il 6 yanvardan hesablanmaqla, azadlıqdan" məhrum edir. Xüsusi Müşavirənin 38 saylı protokolundan Çıxarış işə əlavə olunur.

Və təqribən üç il sonra zindanda və həbs yerində çəkdiyi əzablara fiziki dözüm gətirməyə qüvvəsi qalmamış 63 yaşlı Azərbaycanın maarifpərvər ziyalısı, yüksək intellekt sahibi Həmid bəy Xəlil oğlu Şahtaxtınski gözlərini əbədi olaraq həyata yumdu.

Sonralar Azərbaycan Sovet Ensklopediyasında onun vəfat etdiyi tarix 1944-cü ilin 3 fevralı, yer isə Arxangelsk vilayəti göstəriləcəkdi. Əslində tarixi həqiqəti əks etdirən bu qeydlərdə dolayısı ilə bu böyük şəxsiyyətin həbs düşərgəsində ölməsi faktına işarə olunmuşdu. Sovet rejiminin mövcudluğu şəraitində vaxtilə Cümhuriyyət hökumətində yüksək vəzifə postu tutmuş və məhz buna görə də 20-ci ilin məlum aprel çevrilişindən sonra repressiyaya məruz qalmış bir şəxsiyyət barəsində bütün qadağalara əhəmiyyət vermədən ən mötəbər nəşrdə oxucuya məlumat çatdırmaq, onu unudulmağa qoymamaq böyük cəsarət tələb edirdi. Belə cəsarət sahibi olan böyük şair Rəsul Rza Həmid bəylə yanaşı neçə-neçə adının çəkilməsinə belə qadağa qoyulmuş şəxsiyyətlərimizlə bağlı məlumatları Ensklopediyaya daxil etmiş, onların yeni nəslə tanıdılmasına naminə mərkəzin gözlənilən ittihamlarından çəkinməmişdi. Özü də həmin şəxslərin avtobioqrafiyiasının tərtibində bilərəkdən bəzən sətiraltı mənalarda, bəzən də rəqəmlərin dili ilə oxucuya əsl həqiqət barədp ilkin məlumat çatdırılmışdı. Aşağıdakı nümunə bunu aydın surətdə göstərir.

Azərbaycan Sovet Ensklopediyasından: "Həmid ağa Xəlil oğlu Şahtaxtınski (12.03.1880 - indiki Nax.MSSR Şahtaxtı kəndi - **3.02.44 - Arxangelsk**) Azərbaycan sovet maarifçisi, pedoqoq, professor (1929). İlk təhsilini Naxçıvanda rus ibtidai məktəbində almış, 1895-ci ildə Naxçıvan rus şəhər məktəbini, 1899-cu ildə İrəvan müəllimlər Seminariyasını bitirmişdir. Pedoqoji fəaliyyətə 1899-cu ildən İrəvan Seminariyasında Azərbaycan və



rus dilləri müəllimi kimi başlamışdır. Odessada Novorossiysk universitetinin hüquq fakültəsini (1912), Tiflisdə Zaqafqaziya universitetinin tibb fakültəsini bitirmişdir (1928). 1914-cü ildə Yelizavetpol quberniyasında xalq məktəbləri inspektoru təyin edilmişdir. **Azərbaycanda sovet hakimiyyətinin qələbəsindən sonra ADU-da müəllim, prorektor olmuş (1919**-1925), BXİŞ nəzdindəki ikillik müəllimlər institutu və **Azərbaycan Dövlət Tibb institutunda işləmişdir (1930-1940)**. 1920-30-cu illərdə Azərbaycan SSR-in ümumtəhsil məktəbləri üçün dərsliklərin, Azərbaycan dilində elmi terminologiyanın tərtibi üzrə komissiyaların sədri olmuş, yeni Azərbaycan əlifbasının yaradılmasında iştirak etmişdir".

Bəli məhz 1940-cı ilə qədər Azərbaycan Dövlət Tibb institutunda işləmiş Həmid bəyin sonrakı 4 ildə nə ilə məşğul olduğu göstərilməsə də bəsirətli oxucu mətnin başlanğıcındakı 44-cü il tarixini və Arxangelsk şəhərinin adını gördükdə məsələnin nə yerdə olduğunu aydın başa düşür. Deməli Həmid bəy sürgündə olmuş və orada vəfat etmiş, sürgünə isə cəza orqanlarının repressiyasına məruz qalanları göndərirdilər. Bu mətndaxili kodlara sadə məntiqlə yanaşan hər kəs üçün 1919-cu ildən başlayaraq ADU-nun müəllimi olmaq faktının arxasında nə dayandığını izah etməyə ehtiyac qalmır. **Azərbaycanda sovet hakimiyyətinin** 1920-ci ilin aprelindən sonra qurulduğunu bilərək, ondan bir il əvvəl ADU-nun artıq fəaliyyət göstərdiyini yada salan müəlliflərin nəyə işarə vurduqları aydın idi. Məlumatsız oxucu həmin vaxt Azərbaycanda tamamilə başqa hakimiyyətin varlığından dolayısı ilə xəbərdar olurdu.

1956-cı ildə Səidə Həmid qızı İbrahimova Həmid bəy Şahtaxtınskinin bəraət alması ilə bağlı 4 səhifəlik ərizə ilə Az.SSR prokurorluğuna, SSRİ Ali Soveti Rəyasət Hey'ətinin sədri K.Voroşilova, SSRİ Baş Prokuroru Rudenkoya müraciət edir: "Sizə ədalətsiz şəkildə 1940-cı il yanvarın 6-da cəmiyyətdən təcrid edilmiş atamın taleyi ilə bağlı müraciət edirəm. Sizdən çox xahiş edirəm bu işdə mənə köməklik göstərəsiniz və həqiqəti aşkara çıxarasınız. Mənim atam Həmid bəy Xəlil oğlu Şahtaxtınski bütün həyatını, rus dili, eyni zamanda psixologiya elmləri professoru olaraq, Azərbaycan xalqının rifahı

naminə çalışıb, hüquq fakültəsini bitirib, XDİK orqanları tərəfindən qəflətən, məlum olmayan səbəblərə görə təcrid edilib. Mənə elə gəlir ki, atam mədəni, düşüncəli və humanist, Vətəninə qarşı hər hansı cinayət hərəkəti törədə bilməyən adam olub. Həm inqilabdan əvvəl, həm də inqilabdan sonra həbs edilənə qədər yalnız ali və orta məktəblərdə müəllim işləyib... Zaqafqaziyada və respublikada yüksək vəzifə postları tutarkən (Zaqafqaziya təhsil nazirinin müavini, Azerb. SSR-in təhsil naziri, Universitetin prorektoru) işi ancaq müsbət qiymət alıb, vəzifələrindən ancaq özünün israrlı xahişləri ilə azad edilib. Mən aşağıdakı suallara cavab tapmaq istəyirəm:

1.Doğrudanmı mənim atam belə cəzaya layiqdir. 2.Əgər bu ədalətli olmayıbsa, onda Sizdən xahiş edirəm, atama bəraət verəsiniz və bununla da mənə onun və ailəmizin üzərindən layiq olmadığımız ləkəni silməkdə köməklik göstərəsiniz. 3.Sizdən hədsiz dərəcədə xahiş edirəm atamın taleyi barədə mə'lumat verəsiniz".

30 sentyabr 1956-cı ildə Zaqafqaziya Hərbi Dairəsi Hərbi Prokrorunun köməkçisi ədliyyə kapitanı Qarayev Həmid bəy Şahtaxtınskinin PS-3435 №-li arxiv-istintaq işinə baxaraq müəyyən edir ki, onun hərəkətlərində cinayət tərkibi olmadığı üçün barəsində cinayət işinə xitam verilməlidir. Baş köməkçi ədliyyə podpolkovniki Çesnokov razıyam qeydi ilə sənədə qol çəkir.

17.10.1956-cı ildə Az.SSR Ali Məhkəməsinə nəzarət qaydasında protest hazırlanır və xahiş olunur ki, Həmid bəy Şahtaxtınskiyə qarşı XDİK yanında Xüsusi Müşavirənin 11 iyun 1940-cı il qərarı ləğv edilsin. Az.SSR Prokurorunun müavini 3-cü dərəcəli ədliyyə müşaviri A.Babayev. (15.01.1957)

Az.SSR Ali Məhkəməsinin cinayət işləri üzrə Məhkəmə kollegiyası M.Əliyevanın sədrliyi ilə Həmid bəy Şahtaxtınskiyə bəraət verir.

1957-ci il fevral ayının 8-də Səidə İbrahimova atasının barəsində cinayət işinin ləğv edilməsi ilə bağlı Az.SSR Ali Məhkəməsinin sədr müavini S.İmanovun imzası ilə arayış alır (Bakı Sülh 2-ci döngə bina 2a, mən 8).



## Nərimanbəylilərin nazir nümayəndəsi



Н.Г.Нариманбеков
министр

1923-ci il iyun ayının 20-də Azərbaycan Xalq Cümhuriyyətinin daha bir naziri, Nəriman bəy Nərimanbəylinin Fövqəladə Komissiya əməkdaşı Danilov tərəfindən mənzilində axtarış keçirilməsi və həbs edilməsi üçün FK sədri tərəfindən 240 saylı order imzalandı. Elə həmin gün tapşırıq yerinə yetirildi və 659 saylı arxiv, 804 saylı qeydiyyat-statistika (hazırda MTN arxivində PR 1021 sayı ilə istintaq-qeydiyyat işi kimi saxlanılır) işi açıldı.

20 iyun 1923-cü ildə tərtib edilmiş Protokoldan aydın olur ki, 20 iyun 1923-cü il tarixində 240 saylı order əsasında Nəriman bəy Nərimanbəy linin mənzilində axtarış aparılıb və nəticədə

aşağıdakılar aşkarlanaraq götürülüb: müxtəlif yazışmalar, üç surquclanmış möhür, Azxarici ticarətin 2 möhürü, türk dilində, yeddi güllə ilə birlikdə 4476 №-li "Naqan" tipli tapança, bir neçə fotoşəkil. Axtarışda ev sahibəsi, kirayənişin Atabəyova, FK əməkdaşı Danilov, Arutyunov, Koqan, sahibə Nərimanbəyli iştirak ediblər.

Nəriman bəy Həşim bəy oğlu Nərimanbəylinin həbsi ilə bağlı 918 saylı sənəddə göstərilirdi ki: O, Nijni-Kladbişensk küç. ev 90-da yaşayır, ali təhsillidir, ilyarımdır kommersiya şöbəsinin rəisi işləyir, aldığı əmək haqqı ilə dolanır və FK tərəfindən həbs edilib.

Bir gün sonra tərtib olunmuş 477 saylı Anketdə isə bu məlumatların say tərkibi bir qədər də genişləndirilmiş Nəriman bəy Nərimanbəylinin 1923-cü il 21 iyunda həbs edildiyi göstərilmişdi. Həmin Anketdə onunla bağlı əlavə məlumatlarda: "türk, 33 yaş, Xarkov universitetinin hüquq fakültəsini bitirib, Gəncə quberniyasının Şuşa şəhərindən, atası Həşimbəy 60 yaş, anası Əzizə xanım 50 yaş, qardaşı Cəlil 20, Teymur 15, bacısı Sara 22 yaşında, İrəvan dairə məhkəməsində məhkəmə vəzifəsinə namizəd, İrəvan quberniyası İrəvan şəhər Dumasının sədr müavini, Zaqafqaziya Seyminin üzvü, Azərbaycanın maliyyə müşaviri, dövlət nəzarətçisi, ASSR xalq təsərrüfatı komissarlığında xarici şöbənin katibi, maşınqayırma şöbəsinin rəisi, ticarət şöbəsinin rəisi, 1920-ci ildə hərbi qeydiyyata götürülüb..." və s. qeyd olunmuşdu.

Nərimanbəylinin də digər çiyindaşları kimi cəza orqanlarının maraq dairəsində olduğu, həbsdən əvvəl izlənildiyi heç bir şübhə doğurmasa da, işdə saxlanılan bir neçə agentura məlumatına istinadən bu faktı bir daha vurğulamaq istərdik. Həmin məlumatlarından aydın olur ki, Nəriman bəy Nərimanbəyli əvvəllər Gəncədə Spasski küçəsində (31.06.1922) 133-cü binada yaşayıb. 18.06.1923-cü tarixli başqa bir məlumatda isə onun Bakıda Sadovıy küçəsi 40-da və indiki ünvanda yaşadığı dəqiqləşdirilir.

Nəriman bəy Nərimanbəyli ilk dəfə 3 iyul 1923-cü ildə dindirilib: "Mənsub olduğum Müsavat partiyasını mən 1920-ci



ilin iyun ayına qədər, Azərbaycanda sovet hakimiyyətinin təşkilindən iki ay keçmişə qədər mövcud sayırdım. Nə vaxt onun iki ilhamçısı - M.Ə.Rəsulzadə və N.Yusifbəyli sıradan çıxdılar, onun sonun gözləmək lazım gəldi. Sovet hakimiyyəti ərzində ilk dəfə onun yenidən təşkilatlanması cəhdi ilyarım, bəlkə də daha çox əvvəl mənim mənzilimdə göstərilib. İş belə oldu: Mən xəbərdar edildim ki, axşam yanıma gələcəklər (kim xəbərdar edir və kim gələcək mən bilmədim). Axşam mənzilimə Mikayılov, Seyid Hüseyn və Mirzə-Bala gəldilər. Sonuncu söhbət açdı ki, müntəzəm yığışmaq lazımdır ki, siyasi mövzular ətrafında söhbət edək. Belə müntəzəm söhbətlərdən birinci Mikayılov yayındı. Mən sual verdim bu yığıncaqlar necə olacaq, necə adlandırılacaq, heç olmasa müstəqil orqan olacaqmı, yaxud bu hansısa orqanın yardımçısı olacaq. Alınan cavablardan başa düşdüm ki, siyasi məsələləri müzakirə edən komissiya yaradılması nəzərdə tutulur və bu komissiya yardımçı xarakter daşıyır, heç bir həlledici əhəmiyyətə malik olmayacaq. Başqa instansiya olacaq. Mən güman etdim ki, bu başqa instansiya partiya komitəsi olacaq və orada kim olacaq sualıma cavab almadım. Heç bir qərara gəlmədən bu yığıncaq dağıldı və bilmirəm birinci Mikayılov, yaxud Seyid Hüseyn belə təşkilatda iştirak etmək istəmədiyini bildirərək getdi. Bu mövzuya başqa vaxt küçədə mənimlə söhbətində parlamentin keçmiş üzvü Rəhim Vəkilov və Mirzə Bala qayıtdı. Söhbətin sonunda mən bildirdim ki, vaxtı və şəraiti partiya təşkil etmək üçün əlverişli saymıram, təkcə fəal mübarizə məqsədi olmadığına görə yox, bütün başqa cür də. Tezliklə, mən dedim, taktiki yanaşdıqda bu partiya öz fəaliyyətini faş edə bilər... Mənim fikrim belə idi ki, sovet siyasi konstitusiyası bizim prinsiplərlə kəskin fərqlənmir, xalq kiçikdir, çox az fiziki ehtiyatı var və kiminsə təsiri altına düşməmək üçün ziyalı potensialı da azdır. Bizim üçün ən yaxşısı Rusiya sovet hakimiyyətini tanımaq olar... Bizim xalqa mədəniyyət gücü lazımdır, özü də bacardıqca çox. Biz çoxlu itkilərə yol vermişik... Dözümlülük və zaman göstərəcək ki, kim düzgün hərəkət edəcək... Mən yenidən inandırıldım ki, sovet hakimiyyətinə qarşı heç bir açıq mübarizə fikirləri yoxdur,

sadəcə balaca bir qeydiyyat işi aparmaq lazımdır bilinsin ki, yoldaşlar partiyanın adamlarından kənarlaşmayıblar. Mənə elə gəldi ki, söhbətdə üstünlük əldə edib onları inandıra bildim və bununla ayrıldıq. Üçüncü, sonuncu dəfə biz üçlükdə (üçüncünün kimliyini unutmuşam) görüşdük. Bu dəfə mən söhbətin başlamasından qəti yayındım, ancaq bununla bərabər qeyd etdim ki, mənim qapım hamı üçün həmişə açıqdır. Ancaq mən hər cür mövzuda danışmaq istəmirəm, xüsusilə o adamlarla ki, mən tanıyıram və qiymətləndirirəm. Dərhal bundan sonra bir ildən artıq müddətdə mən Tiflisə xidmətə getdim və ötən ilin sentyabrında qayıtdım və heç kimlə söhbətim olmadı. Mirzə Balanı ümumiyyətlə o vaxtdan görməmişəm, Vəkilovla isə yalnız komissarlıqda görüşmüşəm, həmçinin heç bir mövzuda söhbət etməmişəm".

13 avqust 1923-cü ildə Nəriman bəy Nərimanbəylinin istintaqını yarımçıq kəsmək qərarına gələn Az.FK 390 saylı orderlə FK Komendantına 483 saylı iş üzrə qərara əsasən onu həbsdən azad etməyi təklif edir. Ancaq keçmiş hökumətin üzvü olan nüfuzlu bir şəxsin barəsində çıxarılan bu qərarın mahiyyəti aydınlaşdırılmamış qalır. İstintaqın kifayət qədər sübutu olmadığı, yaxud Nərimanbəylini günahkar hesab etmədiyi üçün bu addımın atıldığını güman etmək yəqin ki, sadəlövhlük sayılardı. Çünki onu da bir çox başqa çiyindaşları kimi heç bir dəlil-sübuta ehtiyac duymadan güllələyə, yaxud uzunmüddətli həbslə cəzalandıra bilərdilər və bu sayaq hökmlərin çıxarılmasına görə heç bir təşkilat külli ixtiyar sahibi olan Fövqəladə Komissiyaya bir söz deyə bilməzdi. Hökmü verən də, bu hökmlərin qanuniliyinə nəzarət edən də cəza orqanının özü idi.

1923-ci il oktyabr ayının 5-də Nəriman bəy Nərimanbəyli Fövqəladə Komissiyanın 397 saylı orderinə əsasən əməkdaş komissar Bulanov tərəfindən yenidən həbs edildi.

Aşağı Kladbişenski küçəsi 90-da əmək haqqı ilə yaşayan 33 yaşlı hüquqşünas N.Nərimanbəylinin həbsə alınması barədə 1392 saylı həbs vərəqi dolduruldu və komandir müavini Ə.Hüseynovun tərtib etdiyi, M.Bağırovun razılaşdığı 376 saylı



daxil olma orderi ilə 6 oktyabr 1923-cü ildə onun üstündən 2 ədəd qızıl pul götürüldüyü sənədləşdirildi.

Az.FK-nın 1251 saylı anketində birinci dəfə həbs olunduğu vaxt sadalanan qohumlarının və yaxınlarının siyahısına 25 yaşında arvadı Zeynəb, 24 yaşında ikinci bacısı əlavə edilmiş, Saranın yaşının isə 21 və özünün Müsavat partiyasının üzvü olduğu göstərilmişdi. İctimai mənşəyinə görə qulluqçu olan Nərimanbəylinin 1912-ci ildən 1916-cı ilə qədər oxuduğu, 1916-cı ildən məhkəmə orqanlarında namizəd olduğu və hərbi qeydiyyatda dayandığı bildirilməklə qalan faktlar bir daha təkrarlanmışdı.

Məhkəməyə cəlb edilibmi və nə vaxt sualının cavabında Nərimanbəyli yazıb: "Sovet hökuməti dövründə Az.FK tərəfindən həbs olunmuşam".

Bu dəfə onu FK əməkdaşı Maşçenkov dindirir:

- Müsavat partiyasında siyasi fəaliyyətinizi və bu partiyaya girməyinizin səbəblərini ətraflı açıqlayın.

Cavab: Mən yaşlı pedaqoq oğluyam, 1908-ci ildə İrəvan gimnaziyasında kurs qurtarmışam, 1915-ci ildə isə Xarkov universitetinin hüquq fakültəsini bitirmişəm.Universiteti bitirən kimi mən inqilabın başlanğıcına qədər (fevral 1917) məhkəmə idarələrində xidmət göstərmişəm. Mən məhkəmə idarəsində böyük namizəd işləmiş İrəvan şəhər müstəntiqinə köməkçi göndərilmişəm. Mən ilk dəfə ictimai fəaliyyətə 1917-ci ilin yayında başlamışam. Onda mən İrəvan şəhər Müsəlman milli şurası tərəfindən Milli komitələr qurultayına Tiflisə nümayəndə göndərilmişəm. Bu vaxt mən heç bir siyasi partiyanın üzvü deyildim və milli sosial-demokratik təmayüllü hərəkatlara meylli idim. Bunun ardınca mən Müəssislər Məclisinə seçkilər üzrə quberniya təlimatçısı seçildim. Eyni zamanda mən quberniya icraiyyə komitəsinin üzvü oldum.

Sual: Tanıdığınız müsavatçılar kimlərdir.

Cavab: Rəhim Vəkilov, Kərbəlayı Vəli Mikayılov, Əli Səbri Qasımov, keçmiş müsavat parlamentinin üzvü Cavad Məlik Yeqanov, Seyid Hüseyn Sadıqov, Mirzə Bala Məmmədzadə, Əbdül Vahab Məmmədzadə.

Sual: Tiflisdən qayıdanda siz Bakıda müsavatçılardan kimlərlə qarşılaşdınız?

Cavab: Ticarət sənaye komissarlığında Rəhim Vəkilovla, Kərbəlayı Vəli Mikayılovla, bir dəfə mənim, bir dəfə onun mənzilində.

Sual: Açıq deyin, siz bülleteni açıq casusluq məqsədi ilə götürmüşdünüzmü, yaxud Müsavat partiyasının formalaşdırılmaması

Cavab: Bu sənədi mən xüsusi məqsəd güdmədən götürmüşəm və şəhər dumasında qlasnı, dumanın sədr müavini olmuş, hər yerdə Müsəlman milli şurasına bitərəflərin nümayəndəsi kimi düşmüşəm. 1917-ci ilin sonunda mən Müsavat partiyasına daxil oldum. Tezliklə bunun ardınca Zaqafqaziya Seyminə daxil edildim (əsas siyahılar üzrə keçən üzvlərin sayının proporsional qaydada azaldılması sistemi ilə). Seymin buraxılması ilə mən avtomatik surətdə Mərkəzi müsəlman Milli Şurasına daxil edildim və 28 mayda müstəqil Azərbaycanın elan olunması ilə hökumətdə kiçik bir vəzifə olan maliyyə agenti oldum, sonra isə Gürcüstandakı diplomatik nümayəndəlik yanında müşavir oldum. Bu vaxt mən həm də Azərbaycan Parlamentinin üzvü idim. 1918-ci ilin sonunda mən hökumətin tərkibinə dövlət nəzarətçisi kimi dəvət edildim və istefaya çıxdıqdan sonra da Parlamentin buraxılmasına qədər onun üzvü olaraq qalırdım. Azərbaycanın sovetləşməsindən sonra mən sovet xidmətinə girdim, xalq təsərrüfatı şurasında, xarici ticarət komissarlığında və onun ləğvindən sonra yenidən xalq təsərrüfatı şurasında, sonra ticarət və sənaye komissarlığına dəyişildim. Bütün vaxt ərzində Azərbaycanın sovetləşməsindən əvvəl və ondan sonra da mən partiyada fəal işlə məşğul olmamışam. Görüşlərimin onun proqramı ilə üst-üstə düşməsinə görə ona üzv olmuşam. Onda xalqın maraqlarına cavab verən, mədəniyyətini, milli şüurunu yüksəldən proqram olduğuna görə.

Sual: 1922-ci il 24 may tarixli Azərbaycan, Ermənistan və Gürcüstanın RSFSR yanında səlahiyyətli nümayəndəliyinin işi haqqında informasiya bülleteni sizin əlinizə nə cür düşmüşdür?



Cavab: 1922-ci ilin yayında Tiflisdə Gürcüstandakı keçmiş nümayəndəliyin evində yaşayarkən, həmçinin bacımın tutduğu mənzildə olarkən yoldaş Talıblı və T.Əliyevin (birinci RKİ xalq komissarı, ikinci isə Xarici ticarət komissarı idi) hansının yanında rəfdə bu kitabı tapdığımı xatırlamıram. Bilmirəm onlar mənim onu oxuduğumu gördülər, yoxsa yox. Mən çox tələsik çıxdım və əşyalarımız çox sürətlə qablaşdırıldı və belə vəziyyətdə həmin kitabı qaytarmağı unutdum.

Sual: Konkret cavab verin, kimin mənzilində onu tapdınız və sizin onu götürdüyünüzü kimsə gördümü?

Cavab: Mən bu bülleteni çox güman ki, Teymur Əliyevin mənzilindən, onun özü olmayanda götürmüşəm.

Sual: Bu bülleteni hansı məqsədlə götürmüsünüz?

Cavab: Mən onun forması ilə maraqlanırdım. Bu bülleten bir ildir ki, məndə qalır. Mən onu ötən ilin sentyabr ayında götürmüşəm.

Növbəti dəfə N.Nərimanbəyli iki həftə sonra 17 oktyabr 1923-cü ildə dindirildi.

Əməkdaş Avlaseviçin apardığı dindirmə protokolunda qeyd edilib ki, 1923-cü ilin 20 iyunundan 10 avqustuna qədər "Müsavat" partiyasına mənsubluğuna görə FK-da həbsdə yatıb:

Sual: Sizin birinci həbsinizə qədər bülleten sizin əlinizə necə keçdi?

Cavab: Mənim birinci dəfə həbsim zamanı dindirilmədə göstərmişəm ki, mən həmin bülletenin əlimə necə keçdiyini xatırlamıram.

Sual: Həbsdən azad ediləndən sonra bülleten sizə qaytarıldı...

Cavab: Bülleten mənə qaytarılmalı olan başqa kağızların arasında qaytarıldı. Mən FK-da bu kağızlara baxmadım və evdə baxıb bülleteni görəndə düşündüm ki, bülleten mənə "Müsavat" partiyası ilə heç bir bağlılığı olmadığı üçün qaytarılıb.

Sual: Siz Mirzə Bala Məmmədovu tanıyırsınızmı?

Cavab: Mən onu yaxından tanımıram, tələbə və keçmiş müsavatçı kimi tanıyıram.

Sual: Axırıncı dəfə onunla nə vaxt görüşmüsünüz?

Cavab: Sonuncu görüşümüz iki ildən artıq müddət əvvəl olub.

Sual: Əbdül Vahabla neçə dəfə görüşmüsünüz?

Cavab: 1923-cü il avqustun 10-da azad edildikdən sonra yoldaş Mirzə Davud Hüseynovun yanında iki dəfə görmüşəm. Orada biz bəyannaməni formalaşdırıb başa çatdırdıq.

Sual: Azad edilmiş müsavatçılardan siz kiminlə görüşmüsünüz?

Cavab: Mən heç kimlə görüşməmişəm. Ancaq küçədə uzaqdan bir-birimizi görmüşük və yalnız baş əyməklə salamlaşmışıq.

İstintaq davam etdirildikcə təzyiq altında saxlanan N.Nərimanbəyli birinci dəfədəkindən fərqli olaraq öz taleyi barədə daha ciddi narahatlıqlar keçirirdi. Doğrudur, FK-nın qara siyahısına düşmüş bir şəxsin həbsdə, yaxud azadlıqda olmasının elə bir əhəmiyyəti yox idi. Yəni cəza orqanları belə şəxsləri istədikləri vaxt qaranlıq zindana atmaq üçün hazır dayanmışdılar və bu halda onlara qarşı irəli sürülən ittihamlara elə fikir də vermir, hətta bunu bir o qədər vacib saymırdılar. Çünki qara siyahılara düşənlərin öz hüquqlarını hansı şəkildəsə müdafiə etməsi, orqanların marağı olmadan kənardan kimlərinsə onlara havadarlıq etməsi mümkün deyildi. Bütün bunları aydın başa düşən Nərimanbəyli Azərbaycan FK-nın sədri M.C.Bağırova yazdığı ərizədə istintaqın gedişinin daha pis nəticə verməsinin qarşısını almaq ümidləri ilə bir sıra məqəmlara toxunur, bununla özünü çeka cəlladlarının əlindən qurtaracağını zənn edir. Bu ərizənin məhz mənasız ölüm təhlükəsindən qurtulmaq üçün yazıldığını nəzərə almadan, onu milli ideyalara xəyanətdə, bolşeviklərlə əməkdaşlığa getməklə öz məqsədindən dönməkdə və s. günahlarda ittiham etmək mümkündür. Ancaq tarixə ədalətli mövqedən yanaşmaq naminə qeyd edək ki, Cümhuriyyət nazirinin söylədikləri yalnız zamanın, dövrün konteksində başa düşülə bilər: "Azərbaycanda sovet hakimiyyəti qurulduğu bütün dövr ərzində mən respublikanın loyal vətəndaşı olmuşam və olmaqda qalıram, yazılı və şifahi müraciətlərimdə, ötən həbsim zamanı olduğu kimi indi də mən tam çalışmışam ki, nəyə görə



mən loyalam və loyal olmaya bilmərəm, bu vəziyyəti məni tanıyanların hamısı, partiya üzvləri də bitərəflər də təsdiq edə bilərlər.

Xüsusilə müsavatçıların bəyannaməsinin imzalanmasından sonra (avqustun ortalarında) mən güman etdim və güman edirəm ki, vicdanlı vətəndaşın vəzifə borcu üzərinə götürdüyü öhdəliyi yerinə yetirməkdir və düşünürəm ki, nə mən, nə də mənim düşüncəli, vicdanlı yoldaşlarım öz vədlərini heç nə ilə pozmayıblar.

İndi mənə qarşı yalnız bir ittiham irəli sürülür - gizli (məxfi) informasiya bülletenini gəzdirmək. Mən təntənəli surətdə bəyan edirəm, vicdanlı adam kimi bu bülleteni mən heç bir məramla istifadə etmək fikrində olmadan ziyalı, savadlı adam kimi götürmüşəm. Mən təsdiq edirəm ki, heç bir canlı insan onu məndə görməyib və bəyan edirəm ki, həmin bülletenə mən hansısa mühüm əhəmiyyətə malik şey kimi baxmamışam. O vaxta qədər ki, o, digər yazışmalarımla bərabər FK orqanları tərəfindən götürülüb və mən yenidən həbs olunmuşam.

Bu hala xahiş edirəm xüsusi əhəmiyyət verəsiniz və mənim səmimiliyimə inanasınız ki, bəyannamə ilə hakimiyyətə qarşı günahımı ört-basdır edərək, mən heç vəchlə düşünməzdim ki, FK tərəfindən mənə qaytarılmış bülletenin saxlanılması hakimiyyətə qarşı cinayətdir.

Sizin diqqətinizi artıq yormaq istəmədiyim üçün xahiş edirəm bu ərizəmi işimə tikməklə mənə öz siyasi görüşlərimi Sizə açmağıma, mənim hakimiyyətə və hökumətə loyallığıma əmin olmaq üçün on dəqiqə vaxt ayırasınız. 10 oktyabr 1923-cü il".

Bu görüşün nə məqsədlə istənildiyi aydın idi. O, külli-ixtiyar sahibi olan bir insandan sovet hakimiyyəti ilə ixtisasına uyğun bir sahədə əməkdaşlıq etməsinin, hansısa vəzifənin icrasına razılıq verməsinin qarşılığında həyatını gözlənilən mümkün təhlükələrdən qorumaq istəyirdi. Ancaq o, bəlkə də ağlına gətirmirdi ki, bu görüşün baş tutması onu çiyindaşlarının yanında nüfuzdan salacaq, adı çəkilən yerdə milli hökumətin üzvləri ciddi təşviş keçirəcək və ən azı öz təhlükəsizliklərinin

təminatı naminə onunla hər cür görüşdən çəkinəcəkdilər. Həmin görüşün baş tutması 1923-cü il oktyabr ayının 17-də Nərimanbəylinin əməkdaşlığa cəlb edilməsi ilə bağlı sənədə qol çəkməsi ilə nəticələndi. "Mən N.Nərimanbəyli 1923-cü il oktyabr ayının 17-də dilimdən bu kağızı ona görə verirəm və öhdəmə götürürəm ki, Az. FK əməkdaşı Avlesoviçlə aramızda olan söhbəti heç kimə deməyəcəyəm, əgər bu vədimi pozsam mən Az.FK qarşısında ən yüksək cəza ilə, güllələnmə ilə cəzalandırılmalıyam, buna görə qol çəkirəm".

Artıq onu əməkdaşlığa cəlb etdiyinə əmin olan FK-nın 1№-li müvəkkili Avlesoviç 1923-cü il oktyabrın 28-də belə bir qərar çıxarır: "...N.Nərimanbəylinin gizli "Müsavat" partiyasına mənsubluğu ilə əlaqədar 804 saylı həbs işinə baxaraq onun həmin təşkilata mənsubluğu təsdiq olunmadığı və Az.FK sədri yol. Bağırovun onun azad edilməsi ilə bağlı şəxsi göstərişini nəzərə alaraq qərara gəldim: həbs olunmuş N.Nərimanbəylini həbsdən azad etmək, iş üzrə istintaqı dayandırmaq və arxivə vermək. Şəxsi sənədlərini və alınmış bir ədəd alman və bir ədəd fransız qızıl pulunu qaytarmaq" Sənədə Avlesoviçdən başqa Nikolayev və Qabern-Korn da qol çəkiblər.

Bu qərarın ardınca Az.FK-nın komendantına FK-nın 576 saylı orderinin surəti göndərilir: "vətəndaş N.Nərimanbəylini Az.FK-nın qərarına əsasən dərhal həbsdən azad etmək. 28.10.1923. Sədr, agenturanın rəisi".

Keçmiş hökumətin üzvünü "öz adamlarına" çevirdiklərinə şübhə etməyənlər Az.FK-nın rəyasət heyətinin 30 oktyabr 1923-cü il tarixli yığıncağının protokolunda eyni qərarı çıxarırlar: "Dinlənildi N.Nərimanbəylinin gizli "Müsavat" partiyasına mənsubluğu ilə əlaqədar 804 saylı həbs işinə baxaraq onun həmin təşkilata mənsubluğu təsdiq olunmadığı və Az.FK sədri yol. Bağırovun onun azad edilməsi ilə bağlı şəxsi göstərişi nəzərə alınaraq qərara alındı: vətəndaş N.Nərimanbəylini həbsdən azad etmək, iş üzrə istintaqı dayandırmaq və arxivə vermək. Şəxsi sənədlərini qaytarmaq. Naçurso Zoltan".

Məcburiyyət qarşısında FK-nın etibarlı şəxsi olmağa razılıq verərək müvafiq sənədə imza atan N.Nərimanbəylinin sonrakı



fəaliyyəti dövründə FK ilə əməkdaşlığa getməsi ilə bağlı qəti fikir söyləmək, bunu birmənalı şəkildə təsdiq, yaxud inkar etmək mümkün olmasa da, bir danılmaz həqiqəti oxucunun nəzərinə çatdıraq ki, təqribən il yarımdan sonra FK onu yenidən həbsə aldı. Görünür, təzyiq və təqiblərə baxmayaraq, o, ümumən təmsil etdiyi zümrəyə və nəslinə qarşı yalnız fəlakət gətirmiş bir rejimlə heç bir əməkdaşlığa getməyib. Əks-halda məhbəs qapılarından yenidən keçməz, talenin növbəti zərbəsini dadmazdı. Bu həm də onun verdiyi vədi pozmasına görə aldığı cəza sayıla bilərdi.

Bəli, Nərimanbəyli kimi ziyalı bir ailədə təhsil almış, tutduğu əqidəyə sadiq, yüksək səviyyəli bir şəxs öz adının ləkələnməsinə razı ola bilməzdi və mən şübhə etmirəm ki, olmamışdı da. Əslən Şuşalı olan atası Haşım bəy bütün Qarabağda və sonradan ailəsi ilə köçüb yaşadığı İrəvanda böyük nüfuz sahibi idi. O, İəvanda azərbaycanlılar üçün ana dilində məktəblərin açılmasında, xeyriyyə cəmiyyətlərinin təşkilində yaxından iştirak etmişdi. Onun müəllim yoldaşları ilə birlikdə tərtib etdiyi Azərbaycan məktəbləri üçün "Ana dili" dərsliyi 1907-ci ildə İrəvanda nəşr olunmuş, sonrakı illərdə isə üç dəfə Tiflis şəhərində çap edilmişdir. Haşım bəy zəmanəsinin qabaqcıl ziyalısı, elm-maarif-mədəniyyət adamı idi. O, müntəzəm surətdə mətbuatda müxtəlif mövzularda məqalələrlə çıxış edirdi. Bir sıra teatr tamaşaları barədə yazdığı resenziyalar onun milli teatrın problemlərindən necə baş çıxardığını aydın göstərir. Belə bir ziyalı şəxsin övladı olmaq Nərimana hərtərəfli təhsil almaq, gələcəkdə intellektual səviyyəli bir şəxsiyyət kimi formalaşmaq imkanı verirdi. Orta təhsili İrəvan gimnaziyasında başa vuran, əvvəl Moskva universitetinin fizika-riyaziyyat, sonra Xarkov universitetinin hüquq fakültəsində oxuyan Nəriman bəy Nərimanbəylinin sonrakı həyatı göstərdi ki, o, bu şansdan kifayət qədər faydalanmışdı.

N.Nərimanbəyli Xarkovda təhsil alarkən artıq inqilabi fəaliyyətə qoşulmuşdu. O, tələbə hərakatının fəal üzvlərindən biri kimi tanınmağa başlamışdı. Məhz buna görə də onu "Azərbaycan tələbə həmyerlilər təşkilatı"nın rəhbərliyinə seçmişdilər. Artıq inqilabi xarakterli işlərə daha yaxından cəlb

olunan bu gənc bir siyasətçi kimi də formalaşmanın ilk həyat dərslərini keçirdi. Onun və digər fəal tələbələrin rəhbərliyi altında adı çəkilən təşkilat bir sıra konkret işlər görmüşdü. Təşkilat fəalları həmçinin əslində siyasi mahiyyət daşıyan xeyriyyəçiliklə də məşğul olurdular. Onlar tələbələrin iştirakı ilə teatr tamaşaları təşkil edir, yığılan vəsait hesabına birinci dünya müharibəsindən zərər çəkmiş müəllimlərin ailə üzvlərinə yardım göstərirdilər. Həmin tamaşalar arasında "Qazana səfər" daha böyük əks-səda doğurmuşdur.

... PR 1349 saylı arxiv-istintaq işini vərəqləyirəm. Diqqətimi 1925-ci il may ayının 20-nə aid bir sənəd cəlb edir. İllər keçdikcə oxunmaz vəziyyətə düşmüş həmin sənəddən aydın olur ki, Cümhuriyyət naziri Nəriman bəy Nərimanbəyli göstərilən tarixdə artıq ikinci gün imiş Fövqəladə Komissiya əməkdaşları tərəfindən təkrar, üçüncü dəfə həbs edilibmiş. Əvvəlki dəfələrdə 1923-cü ilin iyun və oktyabr aylarında Müsavat partiyasına məxsusluqda günahkar sayılaraq Az.FK tərəfindən həbsə alınmış Nəriman bəy qaranlıq zindanda onu qarşıda gözləyən taledən xəbərsiz müstəntiq F.Babayevin tələbi ilə öz tərcümeyi-halını danışırdı:

"1889-cu ildə anadan olmuşam. 1908-ci ildə İrəvan gimnaziyasını, 1915-ci ildə Xarkov Universitetinin hüquq fakültəsini bitirmişəm. Özünütəyin tələbə dərnəklərində çalışmışam. Universiteti bitirib 1918-ci ilin fevralına qədər İrəvan dairə məhkəməsində namizəd vəzifəsində işləmişəm. Fevral inqilabından sonra bitərəflər qrupundan şəhər dumasına qlasnı və əsgər və fəhlə deputatları şurasına üzv seçilmişəm. Ümumrusiya Müəssislər Məclisinə seçkilər vaxtı İrəvan quberniyası üzrə təlimatçı olmuşam. 1918-ci ilin aprelində Zaqafqaziya Seyminə üzv seçilmişəm. Bunun ardınca Müsavat partiyasına daxil olmuşam. Seymin buraxılması zamanı Tiflisdə Gürcüstan hökuməti yanında maliyyə müşaviri və eyni zamanda Azərbaycan parlamentinin üzvü olmuşam. 1919-cu ilin aprelində Azərbaycanın Dövlət nəzarətçisi seçilmiş və 7-8 ay hökumətin tərkibinə daxil edilmişəm. Hakimiyyətin Az.KP MK-ya verilməsinə qədər Parlament üzvü olmuşam. Sovetləşmədən



sonra siyasi fəaliyyətdən xidmətə keçmiş: 1921-ci ilin martına qədər Az.Kənd təsərrüfatı xalq komissarlığında xarici şöbənin katibi işləmişəm, Az.Xariciticarətin material şöbəsinin rəisi onun ləğv edilməsinə qədər, Az.Kənd təsərrüfatı xalq komissarlığında ticarət şöbəsinin rəisi 1923-cü ilin mayına qədər, Az.Kəndtəsbankın hüquq məsləhətçisi 1924-cü ilin aprelinə qədər, hazırda Kooperativlər ittifaqında "Köybirliyin"də də əvəzçilik yolu ilə hüquq məsləhətçisi işləyirəm".

Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi Azərbaycanın dördüncü hökumətində dövlət nəzarətçisi olmuş Nəriman bəy Nərimanbəyli ziyalı ailəsində dünyaya gəlmişdi. Atası Həşim bəy müəllim kimi dövrünün ən qabaqcıl ideyalarından xəbərdar, yüksək intellektə malik bir insan idi. Körpəlikdən belə bir mühitdə böyüyən Nəriman bəy ilk növbədə məhz atasının sayəsində xalqın tarixini, mədəniyyətini, ədəbiyyatını dərindən öyrənməklə yanaşı, müxtəlif elm sahələri ilə maraqlanmış, xarici dillərin mənimsənilməsində bacardığı qədər səy göstərmişdi. Təsadüfi deyildi ki, 26 yaşında ikən o, artıq iki universitet təhsili görmüş, Moskva və Xarkov Universitetlərinin fizika-riyaziyyat və hüquq fakültələrini bitirərək, elmin tamam müxtəlif sahələrində zəngin biliklər əldə etmişdi. Üç il sonra isə Azərbaycanda ilk müstəqil dövlətin qurulmasında digər millət fədailərimizlə çiyin-çiyinə dayanmış Nəriman bəy qazandığı zəngin biliklərin tətbiqində geniş imkanlar əldə etmişdi. İndi onun da öz arzularını həqiqətə çevirməyinə hər cür şərait yaradılmışdı. Vaxtilə çar hakimiyyətinin yeritdiyi siyasət nəticəsində dövlət idarəçiliyinə bacardıqca yaxın buraxılmayan millətinin nümayəndələri indi ixtisaslarına və bacarıqlarına uyğun gələn bütün sahələrdə fəaliyyət göstərə, yenə də bu şərtlər gözlənilməklə istənilən vəzifəni tuta bilərdilər. Nəriman bəy Nərimanbəylinin qısa müddət ərzində orta pillə kadrı olmaqdan, nazir postu tutmağa qədər yüksəlməsi buna ən yaxşı sübut idi. Ancaq əksəriyyəti mükəmməl təhsil görmüş, dövrünün ən qabaqcıl ziyalıları ilə bir sırada dayanmağa qüdrəti çatan, hərtərəfli inkişaf etmiş bu nəslin nümayəndələrinin arzuları çilik-çilik oldu. Onlar öz zəngin potensiallarını dövlət

quruculuğu işinə sərf edib Azərbaycanı istədikləri kimi inkişaf etmiş, mütərəqqi bir respublikaya çevirə bilmədilər. 20-ci ilin aprel işğalı bu arzuların qarşısına sədd çəkdi. Quruculuğa, tərəqqiyə sərf ediləcək zəkalar, potensial güclər həbsxana divarları arasında dözməyə, amansız talenin gətirdiyi bəlalarla mübarizə aparmağa sərf olundu.

Az.FK-nın müvəkkil köməkçisi Pevzner 1925-ci il mayın 18-də "Az.FK-nın icraatında olan mülkədar zümrəsinə məxsus 35 yaşlı, ali təhsilli Kəndtəsbankda işləyən, Bakı şəhərində Aşağı Kladbişenski küçəsi 90-da yaşayan Az.SSR CM-in 61-ci maddəsi ilə gizli müsavat təşkilatının üzvü olmaqda günahlandırılan Nəriman bəy Nərimanbəylinin işi ilə bağlı materiallara baxaraq onun 1917-ci ildən Müsavat partiyasının üzvü olması və 1922-ci ildən təkrar bu partiyanın üzvülüyünə girməsi faktı ilə və məlumatlara görə sovet hökuməti əleyhinə çıxması təsdiqləndiyini" güman etdiyi üçün: "Nərimanbəy Nərimanbəylini həbs etmək və istintaq aparmaq lazımdır" qərarına gəlir.

SOÇ-SEKO rəisi əvəzi Nikolayev və FK sədrinin müavini Petrovun təsdiq etdiyi sənədi Pevznerlə yanaşı Az.FK SEKO-nun müvəkkili Vilkov, SEKO rəisinin köməkçisi Quliyev imzalamışlar.

19 may 1925-ci ildə №174-li orderlə Az.FK Komissar Larinə Nərimanbəy Nərimanbəyovun həbs edilməsi və mənzilində axtarış keçirilməsini tapşırır. Bu tapşırıq elə həmin gün icra olunmuşdur.

Başqa istintaq işlərində dəfələrlə rastlaşdığımız növbəti saxtakarlıqlardan biri. PR-1349 saylı istintaq işində saxlanılan 363 saylı həbs kağızına görə "Az.FK əməkdaşı Afanasyevə Az.Kəndtəsbankın hüquqşünası Nərimanbəy Nərimanbəylinin 1925-ci il may ayının 20-də həbs edilməsi" tapşırılıb, halbuki həmin vaxt o, artıq həbsə alınmışdı və hətta birinci dəfə dindirilmişdi də. 23 may 1925-ci ildə təkrar dindirilməsi zamanı suallara cavab verərkən: "mayın 19-undan 20-nə keçən gecə mən həbs ediləndə" deməsi də bir daha göstərir ki, Nərimanbəylinin həbs tarixi məhz 19 maydır.



Yaxud başqa bir sübut. Az.FK-nın eyni, 363 saylı Anketindən: "Nərimanbəyov Nərimanbəy Həşim oğlu Az.SSR vətəndaşı türk, Bakıda qeydiyyatdadır. 36 yaş, Xarkov Universitetini bitirib. Ailə tərkibi: atası Həşim bəy 65 yaş müəllim, anası Əzizə xanım 53 yaş evdar qadın, arvadı Sirqiniya 28 yaş, bacısı Sara 23 yaş, bitərəf, ixtisası hüquqşünas. İşlədiyi yerlər İrəvan dairə məhkəməsində hakimliyə namizəd. Zaqafqaziya Seyminin üzvü, Azərbaycan Demokratik hökumətində Maliyyə işləri üzrə müşavir, Azərbaycan Parlamentinin üzvü, Dövlət nəzarət naziri. ASNX-da xidmət edib, Az.xarici ticarət, Xalq sənaye ticarət komissarlığında Az.Dövlət Mərkəzi Bankında və Kənd təsərrüfatı kooperativləri ittifaqında, "Köybirliyi"ndə hüquq məsləhətçisi. Daşınmaz əmlakı yoxdur. 1923-cü ildə Az.FK-da istintaq altında olub, ancaq məhkəməyə cəlb edilməyib. 19 may 1925-ci ildə Az.FK tərəfindən təkrar həbs edilib".

20 may 1925-ci il tarixinə gəlincə isə həmin gün istintaq tərəfindən dindirilməklə yanaşı Nərimanbəy Nərimanbəylinin barəsində Az.FK-nın təcridxanasında həbsdə saxlanılması ilə bağlı qərar çıxarılmışdır.

Onun belə "şərəfə" layiq görülməsi heç də təsadüfi deyildi. Çünki qeyd etdiyimiz kimi Nərimanbəyli artıq üçüncü dəfə idi həbs olunurdu və keçmiş hökumətin üzvü, dövlətin səlahiyyətli şəxslərindən sayıldığı üçün onu başqalarından fərqləndirmək təəccüblü bir şey deyildi. FK ənənələrinə sədaqət ruhunda yetişdirilmiş orqanların ən gənc əməkdaşlarının Cümhuriyyət dövrü dövlət xadimləri barəsində fikirləri Pankratov məktəbini keçmiş qaniçənlərin fikirləri ilə tamamilə uyğun gəlirdi. Azərbaycanda demokratik dəyərlərə əsaslanan dövlətin, cəmiyyətin bütün aparıcı qüvvələrini ehtiva edən siyasi palitranın müəllifləri, vətəni yeni dünya düzəninə qovuşduracaq milli tərəqqi yolunun ilk cığırdaşları olan bu insanlar məhv edilməli, yaxud hər hansı vasitə ilə cəmiyyətdən kənarlaşdırılmalıdır. Bu xəttin 1920-ci ilin aprelindən başlayaraq 30-cu illərin sonuna qədər davam etdirilməsi həmin dövrü geniş tədqiq etmiş alimlərimiz, ziyalılarımız tərəfindən artıq öz elmi

təsdiqini tapmışdır. Ancaq milli ideyalara, dəyərlərə və onların başlıca daşıyıcısı olan ziyalıya qarşı yönəlmiş kütləvi repressiyaların sovet hakimiyətinin sonrakı mərhələlərində demək olar ki, əsasən başqa vasitələrlə davam etdirilməsi, terror və cəza tədbirlərinin digər formalarının (xüsusilə mənəvi) tətbiqi bir çoxları tərəfindən guya rejimin mahiyyətində baş vermiş dəyişiklik, yumşalma və hətta humanistləşmə kimi qiymətləndirilmişdir. Halbuki bütün cəmiyyəti əhatə edən mənəvi terrorun miqyası barədə düşünəndə bu qənaətlərin yanlış olduğu bir daha üzə çıxır. Həmçinin əgər 20-ci illərdə Azərbaycanın azadlığı və dövlət müstəqilliyi uğrunda mübarizə aparmış və təqribən iki illik bir müddət ərzində buna nail olmuş insanlar repressiyalara məruz qalmışdılarsa, 40-cı ildən sonrakı dövrdə bu barədə düşünməkdən və 1918-ci ilin 28 may tarixinin xalqa unutdurulmasına yol verməmək üçün yeni nəslə millət fədailərimiz və onların şah əsəri olan Cümhuriyyət barəsində təbliğat vasitəsilə nəsə çatdırmağa çalışan ziyalılarımız təqib və təzyiqlərlə üzləşmişdilər. Daha konkret desək, əməl və fəaliyyətin cəzalandırılması məslək və düşüncənin cəzalandırılması ilə əvəzlənmişdi. "Qanmaya bilməyən"lərin faciəsi terror vasitəsilə aradan götürülən, yerindəcə, yaxud qondarma istintaq qərarları ilə 5-10 gün ərzində düşmən olduğu təsdiqlənərək güllələnən, fiziki təsirlərin çeşidli növlərinə dözməyib zindan divarları arasında öz həyatını başa vuranların faciəsindən ilk baxışda nisbətən az dəhşətli görünür. Həqiqətən bu belədirmi? Məncə, illərlə mənəvi-psixoloji təzyiqlərə davam gətirmək məcburiyyəti ilə üz-üzə, milli yaddaşdan zorla məhrum edilmiş əzablı ömür yaşamaq, məsləkinə, xalqına sədaqətli qalaraq qurşuna tuş gəlməkdən daha ağırdır. Məgər "bir gün azad yaşamağı qırx il qul kimi yaşamaqdan" daha şərəfli bilən və bunu övladına tövsiyyə edən Babək yanılırdımı?

Bu baxımdan Nərimanbəy Nərimanbəylinin Cümhuriyyətin dövlət xadimi kimi zindanların ən etibarlısında saxlanılması adi bir qərar deyildi, rejimin həmin zümrəyə bəslədiyi münasibətin əyani göstəricilərindən biri idi və sözsüz ki, o, özü də bunu tam aydınlığı ilə başa düşürdü. Nərimanbəyli



yeni hakimiyyətin qara siyahısında ən ön sıralarda yer tuturdu, çünki müstəqil dövlətin hökumətində yüksək vəzifə sahibi idi və o yaşadıqca ən azı həmin dövlətin adını da yaşadırdı. Hansısa işə qəbul olunanda, dövlət müəssisələrinə hər hansı məsələ ilə əlaqədar müraciət zamanı doldurmaq məcburiyyətində qaldığı anketlər, təqdim etdiyi arayışlar əvvəlki illərdə "çevrilişə qədər nə ilə məşğul olub", otuzuncu illərdən etibarən isə "inqilabdan əvvəl nə ilə məşğul olub" tipli suallara cavab verilməsini tələb edirdi. Təkcə bu sualların cavablandırılması kifayət idi ki, onun kimi adı Cümhuriyyətlə bağlı şəxslər barəsində repressiv metodlar işə salınsın. Hələ üstəlik o, "Müsavat" partiyasının və Azərbaycan parlamentinin üzvü olmuşdu.

Bütün bu faktları təsdiqləyən mənbələrdən biri. "Azərbaycan Cümhuriyyəti sənədlər və materiallar 1918-1920-ci illər Elm, Bakı 1998" məcmuəsi. Arxiv materialları əsasında tədqiqatçı Ataxan Paşayevin rəhbərliyi altında hazırlanmış bu məcmüədə Nərimanbəyli Nərimanbəy Həşim oğlu (1889-1937) haqqında qısaca olaraq aşağıdakı məlumatlar verilmişdir: "AR-in dövlət və siyasi xadimi. Moskva Universitetinin fizika-riyaziyyat bölməsində və Xarkov Universitetinin hüquq fakültəsində oxuyub. 1915-ci ildə hüquq fakültəsini bitirib. Vəkil işləyib, maarifçilik fəaliyyəti ilə məşğul olub. 1917-ci ildə "Müsavat" partiyasına daxil olub. Partiyanın birinci qurultayında iştirak edib. Zaqafqaziya Seyminin və Azərbaycan parlamentində Müsavat fraksiyasının üzvü. N.Yusifbəylinin kabinetində Dövlət nəzarətçisi (dövlət nəzarət naziri- L.Ş.) (aprel-dekabr 1919), Azərbaycanda Sovet hökuməti qurulduqdan sonra müxtəlif müəssisələrdə hüquq məsləhətçisi və vəkil işləyib. Dəfələrlə siyasi təqiblərə məruz qalıb. Repressiya olunub".

Ancaq N.Nərimanbəyli həmin təcridxanada cəmi altı gün saxlanıldı. Sonra isə onu və başqa məhbus yoldaşlarını 2 saylı islah evinə keçirdilər. Bununla əlaqədar işdə Az.FK SEKO-nun müvəkkil köməkçisi Pevznerin çıxardığı Qərarda deyilirdi:

"Mən müvəkkil köməkçisi Pevzner 1925-ci il may ayının 26-da 286, 289, 290, 291, 297 və 301 №-li: 1.Hüseynov Qara Nəsir oğlu, 2.Camallı Səmədbəy, 3.Zeynalov Şirəli Hacı Qəmbər

oğlu, 4.Sədrəddinbəyov Xanbaba Həsən oğlu, 5.Nərimanbəyli Nəriman Həşim oğlu, 6.Nəcəfov Sadıx Abbasqulu oğlunun ittiham edilməsi ilə bağlı işlərə baxaraq birinci beş nəfərin Az.SSR CM-in 60, 61-ci, sonuncunun isə, 61, 66 və 179-cu maddələri ilə cinayət törətməkdə günahkar bilindiklərini və istintaq tərəfindən qeyd olunan şəxslərin işinin yekunlaşdırıldığını və əlavə dindirilmə tələb edilmədiyindən və Az.FK-nın islah evinin həddən artıq yükləndiyini nəzərə alaraq hesab edirəm ki:

Həbs edilənlər: 1.Hüseynov Qara Nəsir oğlu, 2.Camallı Səmədbəy, 3.Zeynalov Şirəli Hacı Qəmbər oğlu, 4.Sədrəddinbəyov Xanbaba Həsən oğlu, 5.Nərimanbəyli Nəriman Həşim oğlu, 6.Nəcəfov Sadıx Abbasqulu oğlu saxlanılmaq üçün 2 №-li islah evinə keçirilsinlər.

Qərara vəzifə ardıcıllığı ilə FK əməkdaşlarından Quliyev, Vilkov, Nikolayev, Petrov qol çəkiblər.

Arxiv-istintaq işindən daha bir səhifə.

Təcili yoldaş Nikolayevə:

"Azərbaycan Dövlət Kənd təsərrüfat bankı 21 may 1925-ci il, №771. "Bankın hüquq məsləhətçisi Nərimanbəylinin həbsi və bu vəzifəyə müvəqqəti təyin edilmiş Əmirovun Bank işlərini ondan təhvil alınması ilə əlaqədar Bankın idarə heyəti Əmirovun Nərimanbəyli ilə görüşməsinə icazə verilməsini xahiş edir. O, Nərimanbəylidən göstərişlər almalıdır. Mümkün olmadığı halda sənədlərin qəbul edilməsi üçün Nərimanbəylinin iş stolunun gözünün açılması və lazım gələrsə, mənzilindən götürülməsi üçün öz əməkdaşınızı ezam edəsiniz."

Bu görüşə icazə verilməsi üçün 309 saylı telefonoqram vurulur və Nərimanbəyli Əmirovla görüşdürülür. Bu müraciət o demək idi ki, N.Nərimanbəyli birinci dəfə olduğu kimi tezliklə həbsdən azad ediləcəyinə heç bir ümid bəsləyə bilməz. Onun istintaqı qeyri-müəyyən müddətə qədər uzadıla və istənilən qərarla nəticələnə bilər.

İki gün sonra isə Nərimanbəy Nərimanbəyli 23 may 1925-ci ildə müstəntiq Pevzner tərəfindən dindirilir:



"Sual: Deyin görək Sizinlə bərabər bankda və "Köybirliyi"ndə keçmiş Müsavatçılardan daha kimlər işləyir?

Cavab: Keçmiş müsavatçılardan bankda və "Köybirliyi"ndə mənimlə birgə kimlərin işlədiyini deyə bilmərəm, çünki onlarla tanış deyiləm.

Sual: Siz əvvəl birgə həbs edildiyiniz şəxslərlə görüşürsünüzmü və onların hamısınımı tanıyırdınız?

Cavab: Mayın 19-undan 20-nə keçən gecə mən həbs ediləndə kamerama elə həmin gecə həbs edilmiş daha 9 nəfər salmışdılar. İlk dəfə rastlaşdığım Qara Hüseynovdan başqa onların hamısını tanıyırdım.

Sual: Həbs edilənlərdən siz əvvəllər kiminlə və harada görüşmüsünüz?

Cavab: Bütün həbs edilənlərlə görüşmüşəm, ancaq xidməti işlə əlaqədar. Təkrar edirəm xidməti işlə bağlı görüşmüşük.

Sual: Deyin siz Məmməd Yusif Cəfərovun evində olmusunuzmu və orda sizdən başqa daha kimlər olub və Cəfərovun təşkil etdiyi gecələr nəyə xidmət edirdi?

Cavab: Birinci dəfə həbs ediləndə, 1923-cü ilin iyun ayına qədər mən Cəfərovun mənzilində tez-tez olurdum. Oraya vaxt keçirmək üçün olduqca çox adam yığışırdı. Kart, perefrans oynamaq və s. Ancaq həbs edilib azad olunandan sonra bir dəfə oraya getdim və başa düşdüm ki, kompaniya, xüsusilə Cəfərov (qorxaq kimi) mənim iştirakımdan narahatdırlar və bir daha oraya getmədim və hətta onlarla görüşmədim də.

Sual: Siz Cəfərovun mənzilində işlə əlaqədar olduğunuz vaxt sizə elə gəlmirdi ki, söhbət siyasi məsələlərə gəlib çıxırdı, heç olmasa yaranmış vəziyyət barədə danışılırdı?

Cavab: Cəfərovun mənzilində toplaşan kompaniya müxtəlif tərkibli idi və belə yığıncaqlarda siyasətdən danışmağın yeri deyildi və belə hallar olmamışdı. Oraya sadəcə içmək, oynamaq üçün yığışırdıq.

Sual: Sizə Bakı müsavatçılarının işindən nə məlumdur və həmin şəxslərdən kiminləsə işləmisinizmi?

Cavab: Keçmiş müsavatçı kimi özümdən başqa heç kimi görməmişəm, həmçinin müsavatçıların Bakıdakı işləri haqqında heç nə deyə bilmərəm.

Sual: Son vaxtlar kimlərlə oturub-durmusunuz?

Cavab: Son vaxtlar mən qapalı həyat keçirirdim və heç kimlə görüşmürdüm, (Cəza orqanının agentləri və əməkdaşları tərəfindən qarabaqara izlənən bir şəxs başqa cür yaşaya bilərdimi və hər şeyi bilə-bilə öz keçmiş çiyindaşlarını zərbə altında qoymağa razı olardımı? Əlbəttə, onun kimi əqidəli və sədaqətli insan buna yol verə bilməzdi və yol vermirdi də - L.Ş.) işə gedib evə gəlirdim. Həftədə bir dəfə müxtəlif adamların yığışdığı qırmızı ayparanın klubunda olurdum.

Sual: Deyin, sizin Müsavat partiyasında keçmiş vəziyyətiniz necə idi və hansı vaxta qədər bu davam etdi və siz orada maliyyə məsələlərində iştirak edirdinizmi? Müsavat partiyasından kiminsə qarşısında hesabat verirdinizmi? Əks halda niyə partiyadan çıxmırdınız?

Cavab: Azərbaycanın sovetləşməsinə qədər partiyanın sıravi üzvü idim, sovetləşmədən sonra heç bir iştirakım olmayıb. Ancaq təqribən 1921-ci ildə mən komicciyalardan birində işləmək təklifi aldım, həmin vaxt mən bu təklifi qəbul etmədim. Sonradan müəyyənləşdi ki, nəzərdə tutulan komissiya siyasi olacaq, mən bu barədə 1923-cü ilin iyununda, öz əvvəlki ifadəmdə göstərmişəm. Baxmayaraq ki, mən rəsmi şəkildə mətbutda çıxış etməklə partiyadan çıxmamışdım, ancaq digər müsavatçılarla birlikdə 1923-cü ilin avqustunda bəyannamə imzalamışdım ki, Müsavat partiyası buraxılmış hesab edilir və sovet hökumətinə qarşı hər cür mübarizə cinayət sayılır".

Bu müraciətdən sonra partiyada hansı proseslərin getdiyindən və hətta mühacirətdə onunla bağlı söylənmiş fikirlərdən xəbərdar olan cəza orqanı əməkdaşları əlavə təfərrüata varmırlar.

1925-ci il 10 iyunda Az.FK-nın müvəkkil köməkçisi Pevzner tərəfindən N.Nərimanbəylinin barəsində daha bir Qərar çıxarılır:



"297 saylı istintaq işi üzrə. 2 №-li islah evində olan Şuşa şəhərinin mülkədar zümrəsindən çıxmış, ali təhsilli, ailəli, 36 yaşlı, Nijne-Kladbişenskoe küçəsi 90-da yaşayan, Az.FK tərəfindən əksinqilabi gizli "Müsavat" təşkilatına mənsub olduğu və bu təşkilatda fəal iştirak etdiyi üçün Az.SSR CM-in 60-cı maddəsi ilə günahkar bilinərək 1923-24-cü illərdə həbs edilmiş Nərimanbəyli Nərimanbəy Həşim oğlunun ittihamnaməsi...

İşdə olan materiallardan görünür ki, Nərimanbəyli Nərimanbəy keçmiş müsavatçıdır, onun işində 1917-ci ildə fəal iştirak etmişdir. 1922-ci ildə Nərimanbəyli Nərimanbəy Müsavat partiyası MK üzvlərinin, Məmədov Mirzəbala, Mikayılov Kərbəlayı Vəli və Sadıqov Seyid Hüseynin xahişi ilə partiyanın onun mənzilində iclaslar keçirən siyasi komissiyasına daxil olmuşdur. Nərimanbəyli keçmiş müsavat naziri Məmməd Yusif Cəfərovun mənzilində özü kimi dünyagörüşə malik şəxslərlə birlikdə "Müsavat" partiyasının lideri, İstanbula mühacirət etmiş Məmməd Əmin Rəsulzadənin sağlığına badə qaldırmış, onun başladığı işin çiçəklənməsi şərəfinə tost demiş və sovet hökuməti, onun Azərbaycanda yeritdiyi siyasət barədə mənfi fikirlər söyləmişdir. Ümumiyyətlə, Nərimanbəyli sovet hakimiyyətinə qarşı düşmən münasibət bəsləyir, bu səbəbdən Az.FK tərəfindən 1923-24-cü illərdə həbs edilmişdir. Dindirmə zamanı Nərimanbəyli özünün Müsavat partiyasındakı keçmiş fəaliyyətini etiraf etmiş, ancaq eyni zamanda bəyan etmişdir ki, son vaxtlar heç bir antisovet iş aparmır. Bütün bunları nəzərə alaraq hesab edirəm ki:

297 № -li istintaq işi ilə "Müsavat" antisovet partiyasında fəaliyyətinə görə Az.FK tərəfindən həbs edilmiş Nərimanbəyli Nərimanbəy Həşim oğlu ona qarşı irəli sürülən ittihamla günahkar sayılsın, ancaq sovet hakimiyyətinin möhkəmlənməsini və Nərimanbəylinin azadlıqda olmasının Azərbaycanda sülh yolu ilə fəhlə-kəndli hökuməti qurulması prosesinə maneçilik törətmədiyini nəzərə alaraq dilindən Az.FK-nın icazəsi olmadan Bakı şəhərini tərk etməyəcəyi haqqında öhdəlik alaraq həbsdən azad etmək olar".

Pevznerin bu qərarı çıardığı gün Azərbaycan FK-nın 147 saylı orderi hazırlanır və Azərbaycan Fövqəladə Komissiyasının komendantına belə bir göstəriş verilir: "Az.FK Sizə 36 yaşlı Nərimanbəyli Nərimanbəy Həşim oğlunu həbsdən dərhal azad etməyi təklif edir. 10 iyun 1925. Sənədin yuxarısında qeyd edilib Bakı şəhərindən kənara çıxmamaq haqqında kağız alınmaqla. Sədr, katib, URSO rəisi".

Arxiv-istintaq işinə belə bir arayış da əlavə olunur: "həbs edilən Nərimanbəyli Bakı şəhərində 2 saylı islah evində saxlanılır. Qeyd: işdə əşya dəlilləri və qiymətli şeylər yoxdur".

Nərimanbəylinin həbsdən azad edilməsi şəxsi əşyalarının ona geri qaytarılması ilə bağlı hazırlanmış bu arayışı Pevznerlə yanaşı Vilko, Nikolayev, Petrov imzalamışlar.

İşdəki ən sonuncu sənəd, səh. 13-də verilmiş Nərimanbəyli Nərimanbəyin imzaladığı Bakı şəhər hüdudundan heç yerə çıxmamaq haqqında kağızdır. Orada Nərimanbəyin daimi yaşadığı ünvan göstərilmiş, çap hərfləri ilə blankda aşağıdakılar da yazılmışdır: "Az.FK, həmçinin digər idarələrin göstərişi ilə gəlməyi öhdəmə götürürəm".

Yenidən azadlığa buraxılan keçmiş nazirin sakit həyata, kimsə tərəfindən incidilməyəcəyinə ümid bəsləməsi mümkün idimi? Təbii, o, özü də bunu aydın başa düşürdü, ancaq nə etmək olardı, rejimin daha sərt rəftarının, bir qədər də konkretləşdirsək, əksər çiyindaşlarının taleyini yaşamaq ehtimalının hər an gözlənildiyi bir vəziyyətdə nəzarət altında yaşamaqla kifayətlənilməsi onun üçün cəza sayıla bilməzdi. Hətta onu ixtisasına uyğun fəaliyyət sahələrindən məqsədli şəkildə kənarlaşdıranda, vətəndaşlıq hüquqlarını kobudcasına məhdudlaşdıranda da danışmağa, etiraz etməyə haqqı yox idi. Ancaq o, əsəbləri davam gətirmədiyi məqamlarda bu növ yazılmamış qanunları hərdən pozur, hətta "şanlı" sovet hakimiyyət orqanlarını açıq ittihamdan belə çəkinmirdi. Belə məqamlardan birində, 1929-cu ilin mart ayında Bakı milisinin ikinci dairə idarəsi Nəriman bəy Nərimanbəyliyə çağrış vərəqi göndərir, yol verdiyi hərəkətlərə görə xəbərdarlıq edir.



Daha sonra onu seçici hüquqlarından məhrum edirlər. N.Nərimanbəylinin Az.Mərkəzi İcraiyyə komitəsinə yazdığı ərizədə özünə qarşı bu münasibətin düzgün olmadığını əsaslandırır: "1929-cu il 4 sentyabrdan Bakı sovetinə seçkilərin keçirilməsindən bir neçə ay sonra ləğv etmə üzrə büro mənə elan etdi ki, mən keçmiş Azərbaycan Respublikası hökumətinin üzvü kimi seçici hüquqlarından məhrum edilmişəm. Mövcud qanunla əkslik təşkil edən bu aktı düzgün saymayaraq, dərhal hüquqlarımın məhdudlaşdırılması haqında qərara etirazımı bildirdim. Öz şikayətimdə digər düşüncələrimlə yanaşı mən göstərmişəm ki, Bakı seçki orqanları qanunun məhdudlaşdırma dairəsinin hansı şəxslərə aid edildiyini düzgün müəyyən etməyib... İttifaq və Azərbaycan hökumətlərinin sonrakı aktları Bakı təşkilatı tərəfindən seçkilər üzrə yol verilmiş seçki praktikasındakı əyintiləri göstərdi. Bakı sovetinin rəyasət heyətinin komisssiyası qanuna əsasən mənim şikayətimə baxmaq əvəzinə onu cavabsız qoydu, bununla bərabər imtina haqqında qərar heç bir göstərişi əks etdirmir... Yuxarıda göstərilənlər məni vəsatətimin həllini tapması üçün Az.MİK Rəyasət heyətinə müraciət etmək məcburiyytində qoyur... 16 iyul 1931."

Ancaq nə bu ərizəyə, nə də onun barəsində çıxarılan qərarların nə dərəcədə ədalətli olduğuna heç kim əhəmiyyət vermir. Əksinə addım-addım belə haqsızlıqları artırır, bununla öz münasibətlərini bir daha bildirirdilər. Növbəti məqamlardan birində isə Nərimanbəyli vəkillik fəaliyyəti ilə məşğul olmaq səlahiyyətlərindən məhrum edilir və ona aşağıdakı məzmunda arayış təqdim olunur:

"Nəriman bəy Nərimanbəyliyə 1926-cı ildən 1.12.1932-ci ilə qədər Müdafiəçilər Kollegiyasının üzvü olub. Göstərilən tarixdən Müdafiəçilər Kollegiyanın tərkibindən xidmətə götürülmə məhdudiyyəti qoyulmadan çıxarılıb. 3.04.1933. Ədliyyə Komissarlığı Müdafiəçilər Şurasının Heyəti".

Səbəb? Səbəb Müdafiəçilər Şurasının təmizlənməsi üzrə komissiyanın 3.07.1932-ci il tarixli yığıncağının 3 saylı

Protokolunda çox sadə və dövrün məntiqinə tam uyğun bir formada izah edilirdi: "İctimai işlərə həvəssizdir və aktiv deyil."

Orucovun sədr, Asaturovun katib olduğu həmin yığıncaqda "fərdi pratika ilə məşğul olmayan" Nərimanbəyli sanki müstəntiq qarşısında dayanıb keçmişi ilə bağlı suallara cavab vermək məcburiyyətində qalmışdı: Siz Tiflisdə olmusunuzmu? Cavab: Bəli olmuşam.

Sual: Orada nə edirdiniz?

Cavab: Tiflisdə Zaqafqaziya Seyminin üzvü idim.

Sual: Hansı partiyanın üzvüsünüz?

Cavab: Seymdə və parlamentdə mən Müsavat partiyasına mənsub olmuşam.

Sual: Hansı ildən?

Cavab: 1918-ci ildən 1920-ci ilə qədər.

Sual: Bəs parlamentə necə düşmüşdünüz?

Cavab: Parlamentə mən Seym üzvü kimi düşmüşdüm.

Sual: Fərdi praktika ilə məşğul olursunuz?

Cavab: Məşğul olmuram".

Və nəhayət Qərar: "Müdafiəçilər Kollegiyasının üzvlüyündən çıxarmaq "

Bu qərar başqa təşkilatların qapılarını da onun üzünə bağlamaq demək idi. Hər hansı orqanla əməkdaşlıq edən, yaxud etmiş şəxs barəsində isə sovet sistemində nəinki belə amansızlıqla davranır, əksinə iş və məişət problemlərinin həllinə köməklik göstərməklə yanaşı, hər cür başqa imtiyazlardan bəhrələnmək imkanları da yaradırdılar. Meşin qapılar önündə həftələrlə iş axtarıb, özünü və ailəsini dolandırmaq üçün yollar arayan Nərimanbəyli heç nəyə nail ola bilmir. Üz tutduğu ünvanlarda ona "yox" cavabından başqa bir şey demirlər.

Məcburiyyət qarşısında qalan Nərimanbəyli 1932-ci ilin 18 oktyabrında Təmizləmə Komissiyasının sədri Orucova müraciətlə yazırdı: "Sizin izahatınıza görə mənim sovet orqanlarında xidmətə girmək hüququm var. Ancaq bir təşkilatla mənim orada hüquq məsləhətçisi işləməyimlə əlaqəli söhbətdə onlarda mənim təmizləmədən sonrakı vəziyyətimlə bağlı



müəyyən tərəddüdlər yarandı. Xahiş edirəm bu münasibətlə müvafiq sərancam verəsiniz".

Nəriman bəy Nərimanbəylinin bu müraciətinə 20 oktyabrda Orucov belə bir arayış verir: "Yol. Nərimanbəyli Müdafiəçilər Şurasının təmizlənmə qərarı ilə oradan çıxarılıb, onun hüquq məsləhətçisi kimi işləməsinə komissiya etiraz etmir."

Başqa bir qeydində isə o, həmin vaxtkı vəziyyətini belə izah edirdi: "Təmizləmə komissiyasının qərarı ilə mən ictimai işlərdə həvəssizliyə və az fəallığa görə Müdafiəçilər Şurasının tərkibindən çıxarılmışam. Mən tamamilə anlaşılmaz vəziyyətdəyəm, barəmdə hansı məlumatlara görə belə qərar çıxarılıb, mənim kollegiya üzvü olduğum bütün dövr ərzində məncə, yoldaşlarımdan heç də az iş görməmişəm, əksinə onlardan heç biri mənim qədər məndən artıq çalışmayıb. Mən Şura tərəfindən tapşırılan bütün müdafiələrə, növbələrə və s. qaydasında çıxmışam və ünvanıma heç bir irad eşitməmişəm.

Bundan əlavə əgər təmizləmə komissiyası mənim ictimai işimə toxunsa idi, sənədlərlə sübut edə bilərdim ki, mən kollegiya üzvü olmaqla eyni vaxtda Aztəsbank, Azkəndbirliyi, Azpambıqbirliyi kimi təşkilatlarda xidmət göstərmişəm və bütün məsul kompaniyalarda həmişə öz yerimdə olmuşam. Əsasnamə və təlimatların türk dilinə tərcüməsi ilə məşğul olmuş, müxtəlif məsələlərlə bağlı həmkarlarım qarşısında çıxış etmiş, öz təşkilatımızın qəzetinin çıxarılmasında iştirak etmişəm. Göstərilənlərdən görünür ki, mənim az fəallığım ən azı çaşqınlıqdır.

Obyektivlik xatirinə əlavə edim ki, xüsusilə son 2-3 ildə həvəssiz və az fəal təsiri bağışlaya bilərdim, çünki mən təbiətcə fleqmatikəm, ikincisi son üç ildə uzun sürən və ağır xəstəlik keçirmişəm: onurğa sütununun revmatizmi və xroniki ekzema, nəticədə mənim iş qabiliyyətim və hərəkətliliyim azalmışdır. Mən həftələrlə bəzən evdən çıxa bilmirdim və bu münasibətlə mən Şura və Kollegiyanın təşkilat komitəsindən xahiş etmişdim ki, imkanı çatdığı qədər məni müdafiə işlərinə göndərməsinlər, növbəni həvalə etsinlər. Bu münasibətlə məncə, başqa müdafiəçilərlə eyni yük düşürdü. Üzərimə qoyulan vəzifələrin

icrasından yayınmamışam, nöbəyə də qaydasında çıxmışam. Əlavə etməyə bilmirəm ki, mənim az fəallıqda ittiham olunmağım məni elə bir yerdə yaxalayır ki, öz anlaşılmazlıqlarımdan azad olmuşam."

Müxtəlif orqanlara şikayət ərizələri göndərən N.Nərimanbəyli öz hüquqlarının bərpasına nail ola bilmədi. Əslində bunun məhz belə olacağını özü də gözləyirdi. Üç dəfə sovet cəza orqanları tərfindən həbsə alınmış, barəsində cinayət işləri açılıb-bağlanmış və dilindən heç yerə getməmək haqqında kağız alınmaqla "azadlığa" buraxılmış bir şəxs daha hansı münasibətə ümid bəsləyə bilərdi. Qeyd olunan şikayətlərindən birində onun düşdüyü vəziyyət barədə yazdıqları hər şeyi daha konkret ifadə etdiyi üçün həmin ərizədən bir hissəsini olduğu kimi oxucuların nəzərinə çatdırırıq:

"Sonuncu iki il ərzində mən Az.SSR-də yarıleqal vəziyyətdə qalmışam. Bəziləri (şəxslər və idarələr) məni bütün huquqlara malik vətəndaş hesab edir, beləleri azdır, qalanları əksinə. Belə ikili, qeyri-normal vəziyyətə səbəb mənim düzgün olmayaraq 29-cu ilin seçki kompaniyasından azad edilməyimdir... Bununla yanaşı mənim seçki hüququndan məhrum olunmağım faktının əsasında bir sıra təşkilat və idarələr məni həqiqi məhrum edilmiş saymaq tendensiyası nümayiş etdirirlər, belə ki, sovet aparatının təmizlənməsi üzrə 1930-cu il təmizləmələrinə düşmüşəm, məni Azneftticarətdən 1-ci dərəcə ilə - lişeneç kimi azad ediblər... Dövlət nəzarəti idarəsi polisdən və mühafizədən tamamilə uzaq olduğu və o ümumiyyətlə heç bir siyasi funksiyalar yerinə yetirmədiyi üçün, ancaq büdcənin tərtibi və yerinə yetirilməsi məsələləri ilə məşğul olduğuna görə, aydındır ki, dövlət nəzarətçisini polisin, yaxud jandarmeriyanın hərəkətlərinə rəhbərlik edən kimi göstərmək olmaz... 8-ci ay 1932-ci il."

N.Nərimanbəylinin Müdafiəçilər Komissiyasına təqdim etdiyi arayışdan da məlum olur ki, o, 1920-ci ilin mayından sonra 13 təşkilatda işləyib. İş yerini belə tez-tez dəyişməsi də ona qarşı münasibətin göstəricilərindən biridir:



1.Az.SSR VSNX-da xarici şöbənin katibi may 1920-may 1921;

2.Xariciticarət komissarlığında, maliyyə şöbə müdiri may 1921 - fevral 1922;

3.Az.Xalq sənayeticarət komissarlığında fevral, ticarət şöbə müdiri 1922-sentyabr 1923;

4.Tiflisdə sənayeticarət komissarının hüquq məsləhətçisi yanvar 1922 - sentyabr 1923;

5.Az.Xalqsənayeticarət komisarlığında ticarət şöbə müdiri və təsər.müəsisələri idarəsinin rəis müavini;

6.Ədliyyə komissarlığında Müdafiəçilər komissiyasının üzvü sentyabr 1923 - may 1924;

7.Azkəndtəsərrüfatbank hüquq məsləhətçisi fevral 1926 - lekabr 1932;

8. Köybirliyi hüquq məsləhətçisi aprel 1924 - sent 1926;

9. Pambıqbirliyi hüquq məsləhətçisi aprel 1926 - aprel 1928;

10.Aznefticərət hüquq məs - aprel 1924 - sentyabr 1930;

11.Azsənayetikitnti kombinatı hüquq məsləhətçisi - mart 1930 - fevral 1934;

12.Azipəktrest h.m sent 1933 - mart 1935;

13.Fabrik Əli Bayramov adına hüquq məsləhətçisi iyul 1934-dən indiki vaxtadək.

Az.SSR Prokurorluğu DTK-nın Arxiv-qeydiyyat şöbəsinə 23 fevral 1955-ci ildə yazır: "Ehtiyac olmadığı üçün Nərimanbəyli Nərimanbəy Həşim oğlunun 710486 №-li (1937-ci il, 1021 № li (1923-cü il) №1349 (1925-ci il) tarixli istintaq arxiv işlərini qərarla birlikdə göndəririk. Xahiş edirəm Nərimanbəylinin 1021 və 1349 №-li istintaq arxiv işlərini onun 710486 №-li istintaq arxiv işi ilə bir-birini tamamlayan işlər kimi birləşdirəsiniz.

Qoşma: Nərimanbəylinin 710486, 1021 №-li istintaq arxiv işləri, 4 səhifəlik qərar." Az.SSR Prokurorunun xüsusi işlər üzrə müavini, 3-cü dərəcəli ədliyyə müşaviri Seliverstov".

Az.SSR Prokurorluğu DTK-nın Arxiv-qeydiyyat şöbəsinə (14 fevral 1955-ci il, 10/199-54):

Seliverstov növbəti xahişi ilə Nərimanbəyli Nərimanbəy Həşim oğlunun PR 1021 (1923-cü il) PR 1349 (1925-ci il) tarixli istintaq arxiv işlərinin göndərilməsini tələb edir.

Ancaq işdə N.Nərimanbəylinin bəraət alıb-almadığı barədə heç bir sənəd yoxdur. Görünür bütün bu istintaq-arxiv işlərinin toplanması qohumlarından kiminsə müraciəti ilə onun barəsində hər hansı qərarın çıxarılması ilə əlaqədar olmuş, lakin qeyri-müəyyən səbəbələrə görə yekun qərar qəbul edilməmiş, N.Nərimanbəyli sovet hökumətinin əbədi düşmənləri sırasında saxlanılmışdır.

Nərimanbəylilər nəslinin bir neçə nümayəndəsi də Cümhuriyyət hökumətində mühüm postlar tutmuş, Azərbaycan dövlətinə sədaqətlə xidmət göstərmiş və nəhayət onunla eyni taleni bölüşərək, sovet cəza orqanlarının kütləvi repressiyalarına məruz qalmışlar.

N.Nərimanbəylinin ən yaxın qohumlarından Əmir bəy.Nərimanbəyli Bakının general-qubernatoru, başqa bir qohumu - Fərman bəy Nərimanbəyli isə 1919-cu ilin iyun ayında yaradılmış Dövlət Müdafiə Komitəsinin katibi olmuşdur. Yeri gəlmişkən, Fərman bəy məşhur Azərbaycan rəssamı Toğrul Nərimanbəyovun atasıdır. Fərman bəy Cümhuriyyətin son dövrlərində Fransaya təhsil almağa göndərilmiş və vətənə geri qayıtdıqdan sonra repressiya olunmuşdur. N.Nərimanbəyli ilə yanaşı bir sıra qohumlarının da rejimin sərt tədbirləri ilə üzləşiməsi bu nəslin də imperiya cəza orqanlarının tərəfindən daimi nəzarətdə saxlanıldığını bir daha təsdiqləyir. Belə xüsusi diqqətə isə yalnız o şəxslərə "nəsib olurdu" ki, onların hər an mövcud quruluşa qarşı mübarizə aparmağa qalxa biləcəkləri ehtimalı nəzərə alınmaqla sovet hakimiyyətinin qatı düşmənləri sırasına düşmüşdülər.

Əmir bəy Nərimanbəyli haqqında istintaq-arxiv işi MTN arxivində PR 1295 saylı iş kimi saxlanılır.

Materiallardan aydın olur ki, həmin iş (açıldığı vaxt 40 saylı olub) 17 may 1920-ci ildə açılmış - 4 iyun 1920-ci ildə bağlanmışdır. Cəmi beş səhifədən ibarətdir.



Bakı qəza inqilabi komitəsinin 561 saylı 31 may 1920-ci il tarixli məktubundan: "FK-ya Sizin 181 saylı 17 may tarixli məktubunuza cavab olaraq bildiririk ki, göstərilən Nərimanbəyli həbs edilib və 8 mayda 60 saylı göndəriş vərəqi ilə Daxili işlər komissarının sərəncamına həbsxanaya göndərilib."

18 may 1920-ci il Daxili işlər Komissarı Sultanova aşağıdakı məzmunda məlumat göndərilir: "Nərimanbəyov Bakı qubernatoru olduğu vaxt 1920-ci ilin 28 aprelində Göyçaya sovet hakimiyyəti əleyhinə təbliğat aparmaq üçün adamlar göndərib... Yalnız qubernator kimi xidmət etməsi bizə hər şeyi göstərir. Birinci nəyə görə indiyədək avtomobil qeydiyyat üçün cənab Sultanova verilməyib..."

Tam məxfi qrifli məktubun üstündə Pankratovun belə bir qeydi var: "Nərimanbəyovu Bakı qəza inqilab komitəsindən tələb etmək".

Görünür, ilkin sovetləşmə dövrünün baş cəlladı onu şəxsən öz əli ilə güllələmək, Bakıda general-qubernator olduğu vaxt bolşeviklərə qarşı fəaliyyətinin əvəzini çıxmaq istəyirdi.

Ondan bir gün əvvəl, 17 may 1920-ci ildə məxfi əməliyyat hissəsinin rəisi Bakı qəza inqilab komitəsinə eyni tələblə müraciət etmişdi: "FK tələb edir ki, vətəndaş Nərimanbəyovu ondan götürülmüş bütün şeylərlə birlikdə onun sərəncamına göndərəsiniz. №181"

4.06.20-ci ildə isə Məxfi əməliyyat hissəsinin katibi Daxili işlər Komissarı yol. Sultanova Nərimanbəyov haqqında materialları işə əlavə etmək üçün göndərir.

## Baş Nazirin qardaşı - Rüstəm Xan Xoyski

"Azərbaycan İnqilabi Komitəsinin sədri Nəriman Nərimanov yoldaşa Ərizə: "Mənim oğlum Rüstəm artıq 5 aydır ki, Azərbaycan Fövqəladə Komitəsi tərəfindən həbs edilib və indiyə qədər həbsdədir. Heç vaxt heç bir siyasi partiyada olmamış şəxs kimi mənim oğlum Rüstəm heç vaxt siyasətə qoşulmayıb və buna görə də aprel çevrilişindən sonra o, qalıb özünü qarşısında heç nəyə görə günahkar bilmədiyi sovet hakimiyyətinə xidmət etdi. Buna baxmayaraq, güman ki, onu keçmiş Müsavat hökumətinin siyasi xadimlərindən biri hesab edirlər və onu siyasi işinə görə həbsdə saxlayırlar. Bütün son illər ərzində mənim oğlum Rüstəm təhsil almaq üçün, daim ciddi və vicdanlı zəhmətkeş olub. Öz qazancı ilə özünü saxlayıb, bu barədə məlumatları onu tanıyanların hamısı, o cümlədən y.Ə.Qarayev, y.M.D.Hüseynov təsdiq edə bilərlər. İndi budur mənim ömrümün ahıl çağında bir tikə çörəksiz mən sizdən acizanə xahiş edirəm yol. Nərimanov şəxsən, yaxud mənim xahişimi müzakirəyə qoyaraq Azərbaycan İnqilabi Komitəsi oğlumu, mənim yeganə ümidimi mənə qaytarsın və onu layiq olmadığı ləkədən xilas etsin. Mən əminəm ki, bədbəxt ağbirçək ananın xahişi Sizin tərəfinizdən cavabsız qalmayacaq. Şəhrəbanı xanım Xoyski".



Nərimanov ərizənin üstündə qeyd edib: "AFK-da baxılması üçün".

Şəhrəbanı xanım bu məktubu yazanda artıq böyük oğlu Fətəli Xan bolşeviklər tərəfindən sui-qəsd yolu ilə öldürülmüş, Gəncədə qubernator müavini olan ikinci oğlu Hüseynqulu xan sovet hakimiyyətinə qarşı üsyana rəhbərlik edənlərin sırasında olduğu üçün xaricə mühacirət etmək məcburiyyətində qalmışdı. İndi yeganə ümidi olan oğlu Rüstəmi xilas etmək naminə ömrü boyu kimsəyə ağız açmayan bu ağbirçək ana onu yaxşı tanıyan Azərbaycanın yeni rəhbərinə müraciət edirdi. Ancaq Nərimanın əvəzinə başqası olsaydı, bəlkə də o, təmsil etdiyi nəslin şan-şöhrətinə azacıq xələl gətirən bu müraciəti də etməzdi. Sonuncu ümid çırağının sönməsini də səssizcə qarşılayar, bolşevik gülləsinin qarşısına daha bir oğul göndərməsini də talenin qəzavü-qədəri sayar, bütün bunlara daxilində yaşatdığı yenilməz ucalıqdan baxardı.

Şəhrəbanı xanım bu məktubu yazanda üç hökumətinə oğlu Fətəlinin rəhbərlik etdiyi Azərbaycanın milli dövlətinin süqutundan təqribən 6 ay keçirdi. İndi artıq nə milli dövlət vardı, nə də onun Xan soyadının şərəfini fədakar ömrüylə bir neçə mərtəbə yüksəltmiş Fətəlisi. Hər ikisi bolşevik xəyanətinin qurbanı olmuşdu. İndi ana qəlbi sonbeşiyi üçün titrəyib əsirdi. O da siyasi və hakimiyyət uğrunda mübarizələrin güdazına gedə bilərdi və bu hər an gözlənilən bir reallıq idi. Bir ananın taleyində bu aqibətin necə dəhşətli sonluq ola biləcəyini düşünmək ağlasığmaz dərəcədə ağırdır. Bəlkə elə buna görə qeyri-ixtiyari bu proseslərdən sona qədər baş çıxarmayan ananın üzləşdiyi bütün bəlaların baisi, övladlarının düşməni olan bir rejimin rəhbərinə Rüstəmin xilası naminə ağız açmasına, sonbeşiyinin yaşamasının hazırkı vəziyyətdə hansı mövqedə dayanacağından daha vacib olmasını düşünməsinə pis baxmırsan. Şəhrəbanı xanımın belə son dərəcə çıxılmaz vəziyyətdə zədaganlığını qoruyub saxlaması ilə yanaşı, bir ana kimi necə uca hisslərlə yaşamasına da heyran qalırsan.

Azərbaycan Xalq Cümhuriyyətinin liderlərindən biri, görkəmli dövlət xadimi, respublikanın ilk Baş Naziri Fətəli Xan

Xoyski haqqında materialda Rüstəm Xan Xoyski ilə bağlı müəyyən məlumatlar vermişdik. Tanınmış bir nəslin nümayəndəsi olan Rüstəm Xoyskinin sovet hakimiyyətinin ilk günlərindən həbs olunmasını və yalnız bolşevik hökumətində ən yüksək məqam sahiblərindən sayılan N.Nərimanovun işə qarışmasından sonra ölüm cəzasından canını qurtarmasını da bildirmişdik. Bəli, o ilk repressiyaların qurbanlarından biri olmalı idi, ən azı on görə ki, qardaşı milli hökumətin rəhbəri kimi Azərbaycanda demokratik dövlət qurulmasında əvəzsiz xidmətlər göstərmişdi, əsl-nəcabətli bir nəslin nümayəndəsi idi. Onun məhvini labüdləşdirən başqa bir amil isə özünün Azərbaycanın dördüncü hökumətində nazir postu tutması, yeni quruluşun təbirincə desək, "əksinqilabi Müsavat hökumətinin üzvü olması" ydı və həmin məntiqə əsaslanmaqla barəsində istənilən qərar çıxarılmasını gözləmək olardı.

"Azərbaycan Cümhuriyyəti sənədlər və materiallar 1918-1920-ci illər Elm, Bakı 1998" məcmuəsində onun barəsində aşağıdakı məlumat verilib: "Rüstəm xan İskəndər oğlu Xoyski (1888-1948) AR-in siyasi xadimi. Azərbaycanın əsilli ailələrindən birinin nümayəndəsi. F.Xoyskinin kiçik qardaşı. Peterburq Universitetinin hüquq fakültəsini bitirib (1913). Gəncədə və Bakıda vəkil işləyib. Fevral inqilabından sonra siyasi mübarizəyə qoşulub. F.Xoyskinin hökumət kabinetində dəftərxananın rəisi olub (1919-cu ilin 1 yanvarına qədər), sosial himayə naziri olub. Öz postunu N.Yuśifbəylinin təşkil etdiyi hökumət kabinetində də saxlayıb (mart-dekabr 1919-cu il). Sovet Azərbaycanında Dövlət Plan Komitəsində hüquq məsləhətçisi işləmişdir (1920-ci ilin sonuna qədər). Sonrakı illərdə Moskvada müxtəlif müəssisələrdə işləmişdir".

Müstəqil Azərbaycan dövləti qurulanda cəmi 30 yaşında olan Rüstəm Xanın avtobioqrafiyasının bu qısa məlumatda öz əksini tapmayan hissələri, həm 1920-ci ilə qədərki, həm də çevrilişdən sonrakı iki ay ərzində fəaliyyəti barədə bir qədər geniş informasiya onun cinayət-istintaq işində öz əksini tapıb.



FK tərəfindən əksinqilabda günahlandırılan Rüstəm Xan Xoyskinin ittiham olunması üzrə 398 №-li iş 7 iyun 1920-ci ildə başlanıb.

1920-ci ilin 5 iyununda FK-nın onun həbsi ilə bağlı 1008 saylı vərəqinə istinadən demək olar ki, iş Rüstəm Xanın həbsindən iki gün sonra açılıb. Həbs vərəqində Rüstəm Xoyskinin, Nikolayevski küçəsi 25-də yaşadığı, yaşının 32, ixtisasının hüquqşünas, təhsilinin ali olması, 20 gündür işləmədiyi, əmək haqqı ilə yaşadığı göstərilir. Eyni zamanda aydın olur ki, axtarış zamanı Rüstəm Xanın üstündən çıxan 7 min rubl pulu Pançenko soyadlı əməkdaş başqa bir FK işçisinə təhvil vermişdir.

Rüstəm Xan Xoyski dindirilməsi zamanı tərtib edilmiş protokolda onun avtobioqrafik qeydlərindən sonra hazırda harada işləyir sualının qarşısında öz dilindən yazılıb: "Aprel çevrilişindən sonra "Sosial təminat komissarının müvəqqəti müavini olmuşam, bu ilin 17, yaxud 18-i mayına qədər". Sonra isə fikrinə davam edərək bildirir: "əmək haqqı ilə yaşamışam. 1917-ci ildə maarifçi-xeyriyyəçi "Sadxa" cəmiyyətinin üzvü olmuşam. Bitərəf. Azərbaycan Respublikası yaradıldığı vaxt mən hökumətdə dəftərxananın rəisi olmuşam. 1918-ci ilin noyabrından himayə nazirinin müavini təyin edilmiş, 27 aprel çevrilişinə qədər bu vəzifədə qalmışam. Himayə nazirinin müavini kimi mən nazirliyin ancaq işgüzar xarakterli işləri ilə məşğul olmuşam, dəftərxanaya rəhbərlik etmiş, bütün Azərbaycanda ictimai təşkilatları himayə işinə cəlb etməklə Gəncə şəhərində və Azərbaycanın digər şəhərlərində qaçqınların və var-yoxdan çıxmış əhalinin işləri ilə bağlı məsələlərin həlli ilə məşğul olmuşam. Nazir müavini kimi mən hökumətdə siyasi işlərdə iştirak etməmişəm. Nazir müavini kimi də Parlamentdə hansısa fraksiyanın üzvü kimi yox, hökumətin təyinatı ilə təyin edilmişəm. Bu cür vəzifəyə gələnlər Parlament qarşısında məsuliyyət daşımırdılar və kabinet dəyişdirilərkən əvəz edilmirdilər. Buna görə də nazir müavinləri hökumətin üzvləri hesab edilmir, qulluqçulara aid edilirdilər. Bütün bu müddət ərzində mənim heç bir siyasi partiyada hansı şəkildəsə iştirakım olmayıb. Himayə nazirliyində mənim işim ciddi

hökumət işindən daha çox ictimami xarakter daşıyıb. Təkrar edirəm bu əsasən Mərkəzi müsavat xeyriyyə cəmiyyəti, Rusiya xeyriyyə cəmiyyəti və s. ictimai təşkilatlarla bağlı idi. 27 aprel çevrilişindən sonra mən öz postumda qaldım və sosial təminat komissarı y.Abid Alimov ilk gündən mənə təklif etdi ki, onun müvəqqəti müavini kimi öz işimi davam etdirim. Beləliklə mən təqribən mayın 15-nə qədər, Sosial təminat komissarlığı Əmək komissarlığı ilə birləşənə qədər işlədim. Təqribən iki gün sonra mənə və bir neçə qulluqçuya elan etdilər ki, biz yeni işə cəlb edilənə qədər bayırda qalırıq. Bu vaxt mən Əmək və Hüquq komissarı y. Qarayevə məni xidməti işə götürmək xahişi ilə müraciət etdim. O, mənə növbəti gün yanına gəlməyi təklif etdi. Növbəti gün y. Qarayevlə danışdıqdan sonra onun razılığı ilə mən Hüquq komissarlığında vəkil götürülmək üçün ərizə verdim. Bir, yaxud iki gün sonra mən xidmətə cəlb olunmağım xahişi ilə Azərbaycan İnqilabi komitəsinin sədri y. Nərimanovun yanına getdim. Nərimanov mənə dedi ki, xidmətə qəbul ediləcəm, ancaq bir neçə gün sonra. Bu təqribən 22-23 mayda oldu. Mayın 27-28-də mən Nardaran kəndinə getdim və orada iyunun 5-də həbs edildim. Mən Nardaran kəndinə ona görə getmişdim ki, çoxdandır malyariya xəstəliyinə tutulmuşam və istəyirdim heç olmasa, bir müddət bağ evində qalam və müalicə olunam. Kənddən heç yerə çıxmadım və ilk günlər daha çox evdə uzandım. Mənim qardaşlarımın harada olduqları mənə qətiyyən məlum deyil, iki gün qabaq "Kommunist" qəzetində dərc olunmuş Xoyskinin digər şəxslərlə birlikdə Zaqataladan Gürcüstana getməsi barədəki zametkadan başqa. Hökumətin digər üzvlərinin harada olmaları mənə məlum deyil. Mən Maştağa və digər kəndləri dağıtmış və sonra eşitdiyimə görə axtarış aparmış qırmızı ordu əsgər dəstəsi tərəfindən həbs edildim. Dəstə bir neçə atlını mən yaşadığım bağ evinə göndərəndə, bağın sahibi evdə olmamışdı, onun arvadı isə bərk qorxmuşdu ki, məni həbs etməyə gedirlər. O, israr edirdi ki, mən onların qohumlarının bağ evinə keçim ki, onlarda həbs etməsinlər. Mən iti addımlarla üzümlükdən bir bağ evindən digərinə keçərkən məni gördülər və dayandırdılar və mən



qırmızı əsgərlərin sualına cavab verdim ki, mən şəhərdən gəlirəm və kim olduğumu bildirdim. Məni əvvəlcə dəstənin vzvod komandirinin yanına gətirdilər, sonra rota komandirinin yanına, nəhayət Maştağa kəndində olan briqada komandirinin yanına gətirdilər. Dəstədən isə hərbi komissarın sərəncamı ilə şəhərə Fövqəladə Komissiyaya göndərdilər. Nardaran kəndi Maştağa kəndindən təqribən 5-6 verst məsafədə yerləşir. Mənim üzərimdən tapılmış cırılmış kağızda heç nə yoxdur, orada yalnız o barədə bir neçə söz var ki, mənə kişmiş, deyəsən yataq dəsti və dərmanlar göndərirlər. Sonra kağızı yazan Heydər Əliyev məlumat verir ki, o da bağ evinə gəlməyə hazırlaşır və məni görməyə gələcək. Kağız mənim həbsimdən iki, yaxud üç gün qabaq cırılıb və təsadüfən zərflə bərabər cibimdə qalıb. Zeynalabdin Zeynalzadənin adına olan vəsiqə mənim yaşadığım bağ evinin sahibinin oğluna mənsubdur. Bu vəsiqə təsadüfən həbs edilməzdən bir neçə gün qabaq elə həmin Zeynalabdin tərəfindən şəhərdən gətirilmiş paltomun cibində olub. N.L.Bulaxın adına vizit kartoçkası - bu mənim təqribən 1914-15-ci illərdən Peterburqdan tanışıma məxsusdur. Digər qeyd də mənim tərəfimdən həmçinin təqribən 1915-ci ildə tanışımdan alınıb. Təsadüfən cibimdə qalıb. Heydər Əliyevin qeydi mənim tərəfimdən heç bir məqsəd olmadan ehtiyac olmadığı üçün bir neçə gün qabaq cırılıb. Əliyevin indi harada olduğunu mən bilmirəm. Mənim keçmişim y. Qarayevə və Torpaq komissarı Ağamalıoğluna da yaxşı tanışdır. R.Xoyski".

Dindirməni aparan müvəkkil M.Səfikürdlü 21 iyun 1920-ci ildə İnformasiya şöbəsinə yazır: "Xahiş edirəm Rüstəm xan Xoyski haqqında arayış verəsiniz. Müvəkkil Səfikürdlü". Bir gün sonra 22 iyun 1920-ci ildə İnformasiya şöbəsinin rəisi ona bildirir:

"Həbs edilmiş Rüstəm xan Xoyski haqqında bizdə heç bir məlumat yoxdur, dərhal bildirirəm".

Rüstəm Xan isə heç bir günahı olmadığında israr edir, daşıdığı soyadının yeni rejimə onu özünə düşmən sayması üçün kifayət etdiyini sanki nəzərə almırdı. Təbiət etibarı ilə sadəlövh, təvazökar və son dərəcə təmiz adam olan Rüstəm Xoyski

Azərbaycanda hakimiyyəti zorla, 11-ci ordunun gücü ilə ələ keçirmiş və onu minlərin, yüz minlərin günahsız qanını tökmək bahasına belə itirmək istəməyən bolşeviklərin məqsəd və məramlarından xəbərdar ola-ola görəsən ona rəhm ediləcəyini düşünəndə nəyə ümid bəsləyirdi. Axı o, adi insanlar sayılan həmin minlərin içərisində deyildi. O, sovet quruluşunun qatı düşməni olan bir sinfin və hökumətin nümayəndəsi, üstəlik də Fətəli Xanın qardaşı idi.

Az.SSR FK-nın sədrinə "məhbus Rüstəm xan Xoyski" başlıqlı müraciət onun necə təmiz və bir qədər də sadəlövh adam olduğunu göstərmək baxımından maraqlıdır: "Mənim tərəfimdən 21 iyunda verilmiş izahata əlavə olaraq y. Sədr Sizdən xahiş edirəm ki, mənim işimə baxıb məni həbsdən azad edəsiniz. Mən özümü tam günahsız hesab edirəm. Bundan əlavə mən xahiş edirəm ki, mənim barəmdə y. Qarayevdən, y. Behbud Şahtaxtınskidən soruşasınız. Həmin şəxslər mənim şəxsiyyətim və ehtibarlılığım haqqında məlumat verə bilərlər. 11 iyul 1920-ci il. Rüstəm Xoyski".

Sənədin üstündə qeyd edilib: "Yol. Əliyevin sərancamına işə əlavə edilsin. 12 iyul 1920."

FK istintaq hissəsinin möhtəkirlik və cinayət işləri üzrə müvəkkili A.Rozental 14 avqust 1920-ci ildə keçmiş Azərbaycan Respublikasının nazir müavini Rüstəm Xoyskinin işinə baxaraq: "işdə cinayət tərkibi tapmadığı, ittiham üçün konkret məlumatlar olmadığı, ancaq Xoyskinin müsavat hökumətində (keçmiş müsavat hökumətində nazir müavini) iştirakını, həmçinin müttəhəmin xan təbəqəsindən olmasını nəzərə alaraq" qərara gəlir: "Rüstəm Xoyskini FK-nın girovu hesab etmək".

Sənədin üzərində qeyddə yazılıb: "Rüstəm Xoyskinin sinfi mənsubiyyətinə görə sovet hökumətinin qəti əleyhdarı təbəqəsinə mənsub olmasını nəzərə alaraq qərara alınsın: FK yanında girov kimi saxlanılsın. 31 avqust 1920-ci il".

Əslində bu qərarı çıxarılmasında 10 gün əvvəl keçirilmiş Az FK-nın yığıncağının qərarına istinad edilmişdi. Rüstəm Xoyskinin PR 20433 saylı istintaq-arxiv işində saxlanılan həmin qərar 21 avqust 1920-ci ildə qəbul olunmuşdu: "Az FK-nın



yığıncağının protokolundan çıxarış: Dinlənildi: Rüstəm Xoyskinin əksinqilabi ittiham olunması üzrə iş №725. Qərara alındı: Rüstəm Xoyskinin sinfi mənsubiyyətinə görə sovet hakimiyyətinin qəti əleyhdarları sırasına mənsub olduğunu nəzərə alaraq qərar qəbul edir: Az.FK yanında girov kimi saxlanılsın".

Çox maraqlıdır ki, istintaq işində Rüstəm Xoyskinin adı hər yerdə Müsavat hökumətinin himayə nazirinin müavini kimi hallandırılır. Halbuki, o, nazir müavini işləməklə yanaşı, Fətəli Xanın sədrlik etdiyi üçüncü (22 dekabr 1918-ci il - 14 aprel 1919-cu il) hökumət kabinəsində himayə naziri olmuşdu. Bolşevik çekistlər bu faktı bilmirdilər, yoxsa, məqsədli şəkildə ona göz yumurdular. Dövlət arxivlərinin bütünlüklə onların əlində olması faktına istinadən və bir sıra hallarda istintaq işlərində bu materiallardan çıxarışların saxlanmasına əsaslanmaqla demək olar ki, yeni hakimiyyətin nümayəndələrinin həmin məlumatdan xəbərləri vardı. Sadəcə ona bilərəkdən əhəmiyyət vermirdilər. Başlıcası da ona görə ki, Rüstəm Xoyskini ən ağır cinayətlərdə ittiham etmək üçün onun Fətəli Xanın qardaşı olduğunu göstərmək, yaxud nazir müavini kimi fəaliyyətini yada salmaq kifayət idi.

Ancaq nə qədər qəribə də olsa Rüstəm Xoyskinin bəxti gətirdi. Ölüm cəzasının bir addımlığında dayanmış, taleyi tükdən asılmış çeka məhbusu həbsdən azad edildi. Öz düşmənlərinə və əleyhdarlarına heç nəyi bağışlamayan, bütün mahiyyəti ilə zorakı, qan içən rejim olduğunu dəfələrlə göstərmiş sovet hakimiyyəti Azərbaycanda ən çox ehtiyat etdiyi şəxslərdən birinin qardaşına qarşı gözlənilən cəzanı vermədi. Bu addımın səbəbinin təbii ki, hansısa humanist niyyətlərlə heç bir əlaqəsi yox idi və belə düşünmək azı sadəlövhlük olardı. Əsl səbəb barəsində isə yuxarıda bəhs etmişdik. Söhbət Şəhrəbanı xanımın N.Nərimanova müraciətindən gedir. Onun bağışlanması barəsində müraciət edilən şəxs hələ ki, Azərbaycanda ixtiyar sahibi hesab olunurdu. Hələ ki, kommunist yoldaşları Nərimanova inanır, onun sosialist inqilabını Şərqə yaymaqda mühüm rol oynayacağına, millətçilik ideyalarına aludə

olmayacağına ümid bəsləyirdilər. N.Nərimanov da öz aləmində nəyəsə ümid edirdi. O, çar Rusiyasının milli ucqar sayaraq, cəhalət və səfalət içərisində boğduğu Azərbaycanın öz dövlətini qurmaqla milli tərəqqi yoluna çıxacağına Moskva tərəfindən verilən vədlərə ümidliydi. Hələ 1922-ci il gəlməmişdi və o, bolşeviklərin əsl niyyətlərindən sonadək xəbərdar deyildi və müstəqil dövlətin başqa formada saxlanması üçün yollar axtarırdı. Ancaq çox tezliklə görəcəkdi ki, bütün bu cəhdlər əbəsdir və bolşevik vədlərinə inanmaqla o, öz ölkəsini qırmızı imperiyanın vassalına çevirənlərin cərgəsinə qoşulub. Hələ isə 1920-ci il başa çatmamışdı və Rüstəm Xoyskinin tükdən asılmış həyatını xilas etməyə səlahiyyəti vardı və o, belə bir addım atmaqla təmsil etdiyi millətə ən son xidmətlərindən birini göstərdi. Bu dəfə o gecikmədi, vaxtında xəbərdar olmadığı üçün Xudadat bəy Rəfibəylinin güllələnməsminin qarşısını ala bilmədiyinə görə keçirdiyi dərin təəssüf hissini xatırlayıb təcili Az.FK-ya göstərişini vermişdi.

Az.FK-ya "Bununla Şəhrəbanı xanım Xoyskinin həbs edilmiş oğlu Rüstəmin işi üzrə Azərbaycan İnqilabi Komitəsinin sədrinin adına xahişinə sədrin dərkənar qoymasını Sizin nəzərinizə çatdırırıq. Az.SSR İnqilabi Komitəsi 26 oktyabr 1920-ci il. №3774. Az.İnqilabi Komitənin işlər idarəsinin müdiri. kargüzar".

Rüstəm Xoyskinin həyatı və fəaliyyətinin həbsdən qurtardıqdan sonrakı dövrü barədə əlimizdə müfəssəl məlumatlar olmadığı üçün onunla əlaqəli qeydlərimizi buradaca tamamlayır və ümid edirik ki, Cümhuriyyət dövrünün tədqiqatçıları bu boşluğun aradan qaldırılmasında öz sözlərini deyəcək, onun həyatının həmin dövrünü xalqa çatdıracaqlar. Eyni zamanda ümumiyyətlə Xoyskilər nəsli və bu nəslin sonuncu ağbirçəklərindən biri, Azərbaycanın üç nəfər dövlət xadiminə həyat bəxş etmiş behiştlik Şəhrəbanı xanımın ömür yolu barədə də hərtərəfli araşdırmalar aparılmasına zəruri ehtiyac var. Bu Fətəli, Hüseynqulu, Rüstəm Xan Xoyskilərin narahat ruhları qarşısında, müstəqil Azərbaycanın bu günki nəslinin mənəvi borcudur.



## Biz onu tanıyırıqmı?



"Uca boylu, qarabuğdayı, saqqalını qırxır, lopabığ, indi qısaldıb, ingilis dəbinə uyğunlaşdırıb. Gözlük taxır, qalın səslə bir qədər burnunda danışır. Böyük, açıq alnı, qalın dodaqları var, isti qara palto geyir, başında rus dəbli dairəvi xəz papaq var (Aleksandrov). Vərəqin arxasında isə qeyd var: "Denikin ordusunun görkəmli xadimi, Azərbaycanın keçmiş naziri, Vrangelə kömək edib, Bakıda "Vahid Rusiya" qəzetini dərc etdirib."

Sadalanan əlamətlərin sahibi Viktor Viktoroviç Klenevskidir və onun barəsində bütün bu məlumatlar indiki oxucuya heç nə demir. Çünki həmin əlamətlərin sahibi ilə bu günkü oxucu arasında 80 illik zaman məsafəsi var və müasirimiz olmayan bir şəxsin zahiri görünüşü onun böyük əksəriyyət üçün

naməlum adından daha artıq bir şey deyə bilərmi? Bəs Viktor Klenevski kimdir?

Qarşımda "Azərbaycan Respublikası Müsavat hökumətinin naziri kimi ittiham olunmuş Klenevski Viktor Viktoroviç"in MTN arxivində saxlanılan PR 915 saylı istintaq işi var. İş 21 noyabr 1920-ci ildə başlanmış, 2 yanvar 1921-ci başa çatmışdır.

Əksər Azərbaycan oxucularına tanış olmayan bu şəxs haqqında həmin günə qədər doğrusu mən özüm də çox cüzi məlumata malik idim. Bildiyim yalnız ondan ibarət idi ki, V.Klenevski N.Yusifbəylinin təşkil etdiyi üçüncü hökumət kabinəsində (14 aprel-22 dekabr 1919-ci il) himayə (indiki sosial təminat) naziri və Azərbaycan Parlamentinin "Slavyan-rus cəmiyyəti" fraksiyasının üzvü olub. Əlbəttə, bu iki faktın hər bir azərbaycanlı üçün hansı əhəmiyyətə malik olmasını uzun-uzadı izah etməyə ehtiyac yoxdur. Çünki bu faktlardan biri belə kifayət edir ki, adı çəkilən şəxs Azərbaycan tarixinə düşsün və onun haqqında nəinki bir, hətta bir neçə məqalədə söhbət açılsın. Mən ona da şübhə etmirəm ki, nə vaxtsa, ilk müstəqil milli dövlətimizdə yüksək postlara layiq görülənlərin hər biri ilə əlaqədar xalqa ayrılıqda və hərtərəfli məlumatlar çatdırılacaq, onlara göstərilən bu yüksək etimadın səbəbləri axıradək açıqlanacaqdır.

Viktor Klenevskinin həyatı və fəaliyyəti ilə bağlı indiyədək Azərbaycan mətbuatında və digər kütləvi informasiya vasitələrində hansı məqamlardasa adının çəkilməsi istisna olunmaqla ümumiyyətlə bəhs edilməməsini nəzərə alıb, mövcud boşluğu aradan qaldırmaq məqsədlə MTN arxivindəki istintaq işiylə kifayətlənməyib nisbətən geniş araşdırmalar aparmağa çalışdıq. İlk əvvəl Viktor Klenevskinin sözün geniş mənasında kimliyi və Azərbaycan hökumətində himayə naziri kimi yüksək postu tutmasının bundan qabaqkı siyasi, yaxud hansısa ictimai fəaliyyəti ilə bağlı olub-olmadığını aydınlaşdırmaq lazım idi.

Bu suallara ən dolğun cavablarından biri istintaq protokolunda "mənsubiyyəti zədagan, Gəncə şəhərində anadan olmuş, daim Tiflisdə yaşamış, ünvanı - Bakı İrəvan küçəsi ev 3/5, xalq müstəntiqi" kimi səciyyələndirilən V.Klenevskinin özü



tərəfindən 22 dekabr 1920-ci ildə çeka əməkdaşları tərəfindən dindirilərkən verilib: "Mənim qaçqınların yerləşdirilməsi ilə bağlı işimlə müsəlman ictimai dairələri hələ Tiflisdə bütün müharibə ərzində işlər müdiri kimi Qafqaz cəbhəsi qaçqınlarının işi ilə məşğul olandan tanış idilər. Qaçqınların işə düzəldilməsi sahəsindəki çalışmalarımla mən bütün ictimai qruplar tərəfindən etibar qazanmışdım. Bakıya mən himayə nazirliyi tərəfindən qaçqınların işi üzrə idarəyə rəis təyin olunmaq üçün dəvət edilmişdim. 1918-ci ilin dekabrında yerində işlə tanış olandan sonra mən nümayəndə heyətinin başında Zəngəzura və Qarabağa gedib, şəxsən qaçqınların vəziyyətini araşdırıb gördüyüm bütün dəhşətlər barəsində hökumətə təcili tədbirlər görülməsi üçün geniş məruzə hazırladım. Məruzə Parlamentin üzvləri arasında yayıldı və çoxlu söhbətlərə səbəb oldu. 1919-cu ilin aprelində koalisiyalı hökumət təşkil edildi. Həmin hökumətə Parlamentin sosialist blokundan Hacınski və Səfikürdski də daxil oldular. Müsavat həmin hökumətdə çox sıxılmış şəkildə, üç, ya dörd şəxslə təmsil olunmuşdu. Mənə də, qaçqın məsələsi kimi incə bir problemlə məşğul olan şəxs kimi bu hökumətə daxil olmaq təklif edildi. Mən özümün tam siyasətdən kənar olduğumu və işgüzar niyyətlə gəldiyimi qeyd edərək razılaşdım. İşdə mən daim öz siyasətdən kənarlığımı nümayiş etdirmiş və ancaq xeyriyyəçilik fəaliyyəti ilə məşğul olmaq cəhdləri göstərmişəm. Mənim yanıma xahiş üçün gələnlər heç vaxt köməksiz qalmayıblar. Bununla bərabər mən öz əməkdaşlarımla bərabər bir neçə bitərəf qanunların qəbul edilməsini irəli sürmüşəm. Mənə uşaqlara köməklik göstərməkdə də dəstək veriblər. ...Dövlət Müdafiə Komitəsinin işləri mənim üçün həmişə qapalı idi, mən ancaq hökumətin yığıncaqlarında, idarəçilik xarakteri daşıyan işlərdə iştirak edirdim. Oktyabrda mən Tiflisə anamın yanına getdim, noyabrda xəstəxanada yatdım, orada mənim üzərimdə cərrahiyyə əməliyyatı apardılar. 1919-cu ilin dekabrında hökumətin istefasından sonra mən işdən azad edildim və Rostova getdim. Dəqiq yadımdadır, mən 10-u, ya 11-i, bizim qoşunlar Xarkovu tutduqdan sonra getdim. Onda artıq Denikinin darmadağın

edildiyi məlum idi. Mən birincisi ona görə getdim ki, Rostovda iş tapım, ikincisi bizim qoşunların yaxınlaşdığını nəzərə alaraq, beləliklə sovet Rusiyasına tez çatmaq istəyirdim. Petrovskidə mən keçmiş Azərbaycan naziri kimi əks-kəşfiyyat tərəfindən həbs edildim. Ancaq zamin durulduğu üçün iki gün sonra həbsdən buraxılıb dəhşətli panika içərisində olan Rostova gəldim. Bütün burjuylar və Denikinçilər qaçmışdılar. Mən əlbəttə, qaçmadım və bizim qoşunların gəlişini gözlədim. Onlar bir həftə sonra gəldilər. Mən xəstələndim və sağaldıqdan sonra xalq müstəntiqi kimi sovet müəssisəsində xidmətə başladım. Onda hələ Rostov yaxınlığında ağqvardiyaçılar vardı və qorxaqlar gizlənmişdilər, sovet hakimiyyətinə xidmət etmək istəmirdilər. Dərhal işə başlayan kimi məsul vəzifə tutdum. Ona görə də ağların hücumu zamanı gizlənməli idim. Apreldə bizim qoşunlar tərəfindən Petrovskiyə hücum olanda mən zavruk Barova Azərbaycan haqqında ətraflı məruzə təqdim etdim və Barov Moskvaya apardı. Daha dəqiqi apreldə yox, martda. Mayda mən Don-Rostanın məsul əməkdaşı kimi işləməyə başladım. Mayda mənim üzərimə mühüm işlər üzrə istintaq aparılması vəzifəsi qoyuldu. Oktyabr ayında mən təlimatçı-təşkilatçı kimi Kov-Rostanın tapşırığı ilə mühüm tapşırıqla Tiflis şəhərinə ezamiyyətə göndərildim. Bu tapşırığı mənə tam etibar edən köhnə kommunist-bolşevik İzrailoviç vermişdi. Öz baxışlarım, sovet hökumətinə və kommunist partiyasına münasibətim barədə mən dəfələrlə 1920-ci ilin may ayından burada, Bakıda yaşayan öz həyat yoldaşıma yazmışdım. Arvadıma yazdığım məktubları mən, işə tikməyi xahiş edirəm. 1920-ci ilin iyun ayında mən 11-ci ordunun İnqilabi Şurasına mənə iş verilməsi barədə ərizə təqdim etdim. Ərizədə mən yoldaşlar Smirinskiyə və Yeqorova isnad etmişəm. Adını çəkdiyim şəxslər mənim izahatımın düzlüyünü təsdiqləyə bilərlər".

Təbii ki, bu izahatda Klenevskinin həbsinin, ölkədə bolşevik cəza tədbirlərinin tüğyan etməsi zəminində keçmiş hökumət üzvlərinin axtarılması və onlara ümumi münasibətin də təsirləri az deyildi. Ancaq həmin göstərilənlərdə müəyyən həqiqətlər də vardı və belə həqiqətlər arasında mühüm



əhəmiyyət kəsb edənlərindən biri bu idi ki, Klenovski hökumətdə və parlamentdə milli müstəqillik ideyalarına bağlılığı, yaxud bu yolda sübuta yetirdiyi xidmətlərinə görə yox, "Slavyan-rus cəmiyyəti"nin üzvü kimi yer tutmuşdu. Azərbaycanda həm parlament, həm də hökumət tam demokratik qaydada, müxtəlif siyasi qüvvələrin iştirakı ilə, çoxpartiyalılıq əsasında formalaşdırıldığı üçün bu cür şəxslərin bir sıra vəzifələr tutması adi hal idi. Həmin dövrdə Bakıda fəaliyyət göstərən ictimai-siyasi təşkilatlar arasında müəyyən nüfuza malik olan və general Denikinlə bağlılığını gizlətməyən "Slavyan-rus cəmiyyəti" ölkənin siyasi həyatına təsir imkanlarına malik idi. Təsadüfi deyildi ki, bu cəmiyyət F.X.Xoyskinin təşkil etdiyi Azərbaycanın 3-cü hökumətində (22 dekabr 1918 - 14 aprel 1919) üç nazirlə təmsil olunmuşdu. Bunlardan biri "Slavyan-rus cəmiyyəti"nin sədri və ərzaq naziri K.Lizqar, digər ikisi isə cəmiyyətin üzvləri, 1919-cu ilin 16 yanvarına qədər maliyyə naziri olmuş İ.N.Protasyev və səhiyyə naziri E.Gindes idi. Klenevskiyə gəlincə, onu Azərbaycana himayə nazirliyində idarə rəisi işləməyə həqiqətən də dəvət etmişdilər və bu dəvətdə onunla eyni bir cəmiyyətin üzvü olan, ondan qabaqkı koalisiyalı Azərbaycan hökumətində nazir postu tutmuş "Slavyan-rus cəmiyyəti"nin sədri Lizqarın başlıca rolu olmuşdu.

"Slavyan-rus cəmiyyəti"nin hansı məqsədlər güddüyü barədə birinci kitabda müəyyən qədər bəhs edilmişdir. Cəmiyyətin hansı mövqedə durduğu onun sədrinin Azərbaycan parlamentinin açıldığı gün - 1918-ci il dekabr ayının 7-də müttəfiq qoşunların komandanına vurduğu 315 saylı teleqramdan da aydın görünür: "Slavyan-rus cəmiyyətinin Qafqaz Şurası Qafqazın bütün milli təşkilatları ilə dostluq şəraitində işləməyə can ataraq, özünün beş üzvünü bu gün açılan Azərbaycan parlamentinə göndərməyi vacib hesab edir. Vahid, bölünməz Rusiya uğrunda müttəfiq dövlətlərlə razılıqla öz fəaliyyətini davam etdirmək arzusunda olan Şura Siz Zati Alilərindən xahiş edir, Azərbaycn parlamenti üzvlüyünə bizim rus nümayəndələrin daxil olmasının Müttəfiq Dövlətlər tərəfindən elan olunmuş vahid, bölünməz Rusiyanın qurulmasına zərbə vura bilməz ki."

0"Slavyan-rus cəmiyyəti" Azərbaycan Milli Şurasında iştirak etmək üçün 27 noyabr 1918-ci ildə keçirdiyi yığıncaqda Şuraya müraciət etmək qərarına gəlmişdi. Milli Şurada "bu cəmiyyətin Azərbaycan ərazisində fəaliyyətinin arzuedilən olması, onların öz ehtiyaclarının ödəməsindən məmnunluq duymaları məqsədilə onlara ümumi dövlət quruculuğunda iştirak etməyə imkan yaratmaq üçün" həmin müraciət müsbət qarşılanmışdır. 6 dekabr 1918-ci il. Beləliklə, cəmiyyət parlamentdə 5 nəfər deputat yeri əldə etmiş və parlamentin 7 dekabr 1918-ci il tarixli ilk iclasında V.Klenevski "Slavyan-rus cəmiyyəti"ndən parlamentin mandat komissiyasına seçilmişdi.

Əlbəttə, Klenevski nazir kimi öz vəzifələrini yerinə yetirməyə də borclu idi və belə bir məsul postu tutmaqla yalnız siyasi məqsədlər güdə bilməzdi. Məhz onun himayə nazirliyinə rəhbərlik etdiyi dövrdə hansı işlərin görüldüyünü sadalamaq, bu barədə geniş hesabat vermək fikrindən uzağıq. Təbii ki, müvafiq strukturlara malik bir nazirlik təqribən 8 aylıq bir dövr ərzində fəaliyyətsiz qalmamışdı və təkcə qaçqınlar probleminin həlli ilə bağlı kifayət qədər görüləsi iş vardı. Başlıca məsələlərdən biri isə kimsəsiz uşaqların himayə olunması idi və 1919-cu ilin avqust-noyabr aylarında himayə nazirliyi tərəfindən məhz 100 nəfər küçədə qalmış uşağın və 50 nəfər onlara himayə edən şəxsin saxlanılması məqsədilə 764183 rubl ayrılması barədə göstəriş verilmiş, büdcədən əlavə pul ayrılmışdı (ARDA, f.895, s.3, iş.197, v.1).

V.Klenevskinin Bakıdan kənarda həbs edilməsi Cümhuriyyətin rəhbər işçiləri barədə məlumatların artıq Fövqəladə Komissiyanın bütün ərazi idarələrinə və şöbələrinə göndərildiyini və onların nəinki Azərbaycanda, imkan çatan hər yerdə izlənildiyini göstərirdi. Tersk vilayət FK-sının 1238 saylı orderi ilə əməkdaş Mirko tərəfindən 18 noyabr 1920-ci ildə Vladikafqaz şəhərində həbs olunmuş və axtarışa məruz qalmış Viktor Klenevskinin üzərindən 974 min rubl sovet pulu, 1100 Avstriya kronu, 240 alman markası və s. pullar çıxmışdır. Həmçinin ona məxsus kostyum, qara frak, ayı dərisindən şuba, iki çemodan və iki sakvoyaj, Vladiqafqazdan Rostova iki bilet, müxtəlif sənədlər, yazışmalar müsadirə edilmişdir. Bütün bunlar



həmin vaxt tərtib edilmiş 1942 saylı protokolda öz əksini tapıb. Ondan götürülmüş əşyaların siyahısını isə işdə saxlanan 1511 saylı qəbz təsdiqləyir.

Keçmiş müsavat nazirinin həbsindən əvvəl əməliyyat hissəsinə "Təklif olunur ki, vətəndaş Klenovskinin mənzilində axtarış keçirilsin və həbs olunsun" kimi xüsusi 781 saylı göstəriş verilməsi də sübut edir ki, V.Klenevskinin həbsi təsadüfi deyildi və bununla bağlı işlər 18 noyabr 1920-ci il tarixindən xeyli əvvəl başlanmışdı.

Həbs olunduğu günün səhəri doldurulmuş 3099 saylı Anketdə onun barəsində aşağıdakılar qeyd edilib:

"Klenevski Viktor Viktoroviç RSFSR vətəndaşı Yelizavetpol şəhərində 1883-cü ilin fevral ayında anadan olub, 37 yaş. Milliyəti polyak. Universitet qurtarıb. Anası Lyuda Luşa 63 yaşında Tiflisdə yaşayır. Arvadı Klavdiya Andreyevna 30 yaşında, Bakı, qızı Kseniya 8 yaşında, bacısı Yevgeniya 40 yaşında Tiflisdə yaşayır, qardaşı Valerian 43 yaşında, Tiflisdə yaşayır. Bitərəf, hüquqşünas və qəzet işçisi. 1917-ci ildə Tiflisdə dövlət işində işləyib. Qaçqınların işlə təmin edilməsi üzrə şöbə müdiri, Tiflis dairə məhkəməsinin üzvü olub, Hüquq nazirliyində işləyib, Azərbaycan respublikasının himayə naziri olub. Hərbi xidmətdən məsul işçi kimi azad edilib. 18 noyabrda həbs edilib. 19 noyabr 1920-ci il.

Daha bir gün sonra isə Tersk vilayət FK-nın müstəntiqi Nikolay Sumerkov keçmiş Azərbaycan hökumətinin naziri kimi ittiham olunan Klenevskinin işinə baxaraq qərara alır: "Viktor Klenevskini işlə və materiallarla birlikdə sonrakı istintaq aparılması üçün Bakı quberniyası FK-ya göndərmək, vət. Klenevskidən götürülmüş Vinoqradov Petr Titoviçə məxsus əşyaları isə müsadirə etmək".

Söhbət çeka əməkdaşı Muratovun müstəntiqə məlumat verdiyi "Priazovye diyarının qaçmış əməkdaşı Petr Vinoqradskiyə məxsus əşyalar"dan gedirdi və həmin əşyalar "vət. Klenevski yola salınarkən müsadirə olunmuşdu".

Rostov şəhərində Turinevski küçəsi 53-də yaşayan V.Klenevski dindirilmədə özü barəsində aşağıdakıları bildirir:

"1919-cu ilin aprel ayının ortalarında mən Azərbaycan Respublikasının himayə naziri təyin edildim. 1919-cu ilin dekabr ayına qədər bu vəzifədə işlədim. Sonra Rostov şəhərinə getdim və orada yolda xəstələndim. Fevral ayına qədər burada qaldım və fevralda xalq məhkəməsinə müstəntiq götürüldüm. Sonra isə radio və teleqram zalında məlumat şöbəsinin müdiri işlədim (təbliğat aparatının rəhbəri), Kavrostun təlimatçı təşkilatçısı oldum. May ayında xalq məhkəməsinin xüsusi sesiyası tərəfindən mənim üzərimə hərbi işlər üzrə istintaq aparmaq vəzifəsi qoyuldu. Bu ilin oktyabr ayında mən Tiflis şəhərinə Gürcüstanla Kavrosta arasında informasiya əlaqəsi yaradılması üçün məsul ezamiyyətə göndərildim və Vladikafqazda FK tərəfindən Azərbaycanın keçmiş naziri kimi həbs edildim. 1918-ci ildə mən 11-ci ordunun tə'limatçısı yol. Smirinskinin və Tersk vilayəti ordusunun keçmiş komandiri Yeqorovun həbsdən azad edilməsinə nail olmuşdum. Mən 1920-ci ilin aprelində Azərbaycanda əhval-ruhiyyə barədə Barova məruzə təqdim etmişdim. Barov onu Bakı şəhərindən mərkəzə aparmışdı. Mən Xan Xoyskinin burjua kabinetinə girməkdən imtina etmiş, yalnız Parlamentdə sosialist blokunu təmsil edən Yusifbəyovun koalisiya hökumətində iştirak etmişdim. Öz fəaliyyətimdə siyasətə toxunmadan, yalnız dövlət kreditindən istifadə etməklə xeyriyyəçiliklə məşğul olmuşam".

V.Klenevskinin "xeyriyyəçiliklə məşğul" olmasını Don vilayət fəhlə kəndli və kazak deputatları şurası icraiyyə komitəsinin idarəetmə şöbəsində, Rostov şəhərində 16.10.1920-ci ildə qeydiyyata alınmış №7158 saylı mandat daha aydın göstərir. Həmin mandatda aşağıdakılar qeyd edilirdi:

"Rusiya Teleqraf Agentliyinin Don vilayət şöbəsi həqiqətən təsdiq edir ki, bu mandatı təqdim edən xarici təlimatçı şöbəsinin məsul əməkdaşı Viktor Viktoroviç Klenevski təcili Tiflisdəki Rusiya missiyasının sərancamına məsul təşkilatçı-təlimatçı və Don-Rosta və Kav-Rostanın müxbiri kimi, eyni zamanda Rostovla Tiflis və Bakı arasında inforamsiya, digər əlaqələr yaratmaq üçün ezam olunur. Yol. Klenevski bu mandatı göstərməklə hərbi və ümumdövlət teleqrafından, həmçinin birbaşa xətlə xüsusi şifrələnmiş teleqramlar göndərilməsində kredit yolu ilə Rusiya Teleqraf Agentliyinin hesabına istifadə edə bilər. Yol. Klenevski adi, hərbi, sürətli və xüsusi qatarların bütün qərargah, nümayəndə və xüsusi tə'yinatlı vaqonlarında gedə bilər, bununla yanaşı onun yükləri yoxlanılmadan və müsadirə edilmədən tam maneəsiz götürülməlidir. Yol.Klenevskinin ehtiyac olduqda Gürcüstan ərazisi daxilində informasiya bürosu açmaq hüququ var və məsul təşkilatçı kimi burada çalışan şəxslərin xüsusi vəsiqələrinə imza ata bilər. Rusiya Teleqraf Agentliyinin Don vilayət şöbəsi hərbi təşkilatlardan, sovet müəssisələrindən və partiya komitələrindən, komendantlardan və fərdi şəxslərdən yol. Klenevskiyə üzərinə qoyulmuş məsul vəzifənin yerinə yetirilməsində köməklik göstərməyi xahiş edir. KavRosta və Don-Rostanın müdiri-rəhbəri, xarici təlimatçılar şöbəsinin müdiri, işlər müdiri. 16.10.1920. №311".

Bolşeviklərlə əməkdaşlıq əlaqəsini təsdiqləyən bu sənədi alanda V.Klenevski özünü müdafiə barəsində düşünürdümü, yoxsa hakimiyyət dəyişikliyindən yararlanıb Qafqazda yeni vzifə almaqmı istəyirdi. Bəlkə də bunların hər kiisini nəzərdə tutmuşdu, çünki həbs edilib Bakıya gətirildikdən sonra o, "Zaqafqaziyaya bələdliyini və burada doğulmasını" qeyd edərək hər hansı bir işdə gərək ola biləcəyinə işarə edəcəkdi.

Birinci həbs yerində dindirmələr uzun sürmədi, çünki iki gün əvvəl həbs olunmuş V.Klenevski təcili surətdə Bakıya göndərilməli idi və bu barədə Tersk vilayət FK-sına növbətçi müstəntiqə iki gün ərzində ikinci göstəriş verilmişdi: "Sədrin və istintaq şöbəsi rəisinin sərancamına uyğun olaraq, Azərbaycanın həbs edilmiş naziri Klenevski Viktor Viktoroviçi dindirib, təcili surətdə, mümkünsə, elə bu gün onun haqqında materiallar olan Bakı quberniya FK-sının sərancamına göndərəsiniz. Müvəkkil. 20 noyabr 1920-ci il. №677."

V.Klenevski 1920-ci il dekabr ayının 1-i, yaxud 2-də Bakıya gətirilir. Bu qənaətə gəlməyimizi istintaq işindəki 02 dekabr 1920-ci il tarixli 1837 saylı həbs vərəqi də təsdiqləyir.

Bir gün sonra, dekabrın 3-də Az.FK-nın müstəntiqi Pavlov tərəfindən ona qarşı Azərbaycan Respublikasında Müsavat hökumətinin naziri kimi ittiham irəli sürülür. Qərara alınır ki, Az.FK-da istintaq aparılması üçün həbsdə saxlanılsın.

Viktor Klenevski ilə bağlı doldurulmuş Anketdə isə göstərilirdi ki, o, Vladiqafqazda küçədə həbs edilib.

V.Klenevski Az.FK müstəntiqi tərəfindən 3 dekabr 1920-ci ildə dindirilir. Özünün 1917-ci ilin fevral inqilabına qədər Qafqaz cəbhəsi qaçqınlarının işə düzəldilməsi şöbəsinin müdiri olduğunu bildirən Klenevski nazir postunu tərk etdikdən sonra nə ilə məşğul olduğu barədəki suala belə cavab verir: "Yusifbəyovun hökumət kabineti istefaya çıxdıqdan sonra mən dekabrın 10-u, ya 11-i 1919-cu ildə Rostova getdim ki, orada vəkillik fəaliyyəti ilə məşğul olum və ailəmi də oraya aparım. Mən buradan məhkəmə üzvünün pasportu ilə Petrovskiyə gəldim, ancaq buna baxmayaraq əks-kəşfiyyat məni tanıyıb həbs etdi. İki gündən sonra azad edildim və Rostova gəldim. Bir həftə sonra tif xəstəliyinə tutuldum. Bolşeviklər Rostova gələn kimi xalq müstəntiqi işinə girdim.

Sual: Siz nədən heç yerdə özünüzün nazir rütbənizi qeyd etməmisiniz?

Cavab: Çünki mən bunu artıq təkəbbürlülük saymışam, bundan əlavə heç bir səbəb olmayıb. Aprel ayında Petrovsk sovet qoşunları tərəfindən tutulduqdan sonra yol. Barovun yanına gəlib ona Azərbaycan haqqında məruzə təqdim etdim."

25 dekabr 1920-ci ildə müstəntiq Ponamaryov tərəfindən Klenevskinin işi ilə bağlı şahid qismində dindirilən Aslan bəy Səfikürdski onu "müsavatçıların təkliflərinə səs verən", "bolşeviklərə simpatiya bəsləməyən" şəxs kimi xarakterizə edir. Doğrudur, Klenevskinin bolşeviklər əleyhinə olması əslində gözlənilən bir mövqe idi, çünki onun təmsil edildiyi cəmiyyət "vahid, bölünməz Rusiya uğrunda" mübarizədə öz ümidlərini Denikin, Vrangel kimi çar generallarına, müvəqqəti hökumətin monarxiyanın bərpasına çalışan zadəgan əsilli üzvlərinə bəsləyirdilər. Bütövlükdə bu qüvvələrin yolları bolşeviklərlə ayrı idi və onlar arasında mövcud qarşıdurma vəziyyəti Rusiyanı



vətəndaş müharibəsinə sürükləmiş, keçmiş imperiyanın milli ucqar saydığı Azərbaycan kimi respublikalara öz müstəqilliyini möhkəmləndirməyə böyük şans yaratmışdı. Ona görə də bolşeviklər "Slavyan-rus cəmiyyəti" kimi onların təbirincə desək, ağqvardiyaçılarla həmkarlıq edən təşkilatlara qarşı hakimiyyətlərinin ilk dövrlərində xüsusi amansızlıqla rəftar edirdilər. Klenevskinin və digər tanınmış cəmiyyət üzvlərinin həbsi olunması, sədr Lizqarın güllələnməsi məhz bunun nəticəsi idi. Aslan bəy kimi həm keçmiş, həm də yeni hökumətdə nazir postu tutan, Azərbaycanın siyasi-ictimai və mədəni mühitində tanınan bir şəxsdən ifadə alınması da təsadüfi deyildi. Cəmi iki il sonra onu və V.Klenevski barəsində ifadə verməyə məcbur edilən Camo bəy Hacınskini də imperiya cəza orqanları repressiyaya məruz qoyacaq, qaranlıq zindanlarda çürüdəcəkdi. Hələlik isə bolşevik çevrilişinə loyallıq, hətta tərəfkeşlik nümayiş etdirmiş bu şəxslər başqalarının ittiham olunmasında bir vasitə idilər. Hələlik onların arxasınca çeka əməkdaşları göndərilməmişdi, gecəyarası döyülən qapıları arxalarınca əbədi bağlanmamışdı. Aslan bəy onu ən yaxın gələcəkdə gözləyən dəhşətli taledən bəlkə hansısa naməlum daxili duyğunun gücü ilə xəbərdar olduğu üçündü ki, rəhbərlik etdiyi qurumda kommunistlərə necə şərait yaratmasından, onlara bəslədiyi simpatiyadan danışırdı: "Mən V.V.Klenevskini Azərbaycan hökumətinin keçmiş himayə naziri kimi tanıyıram. O, keçmiş Baş Nazir Yusifbəylinin kabinetinə yerli rus əhalisinin mötədil siyasi istiqamətin nümayəndəsi kimi dəvət edilmişdi. Azərbaycan Parlamentinin sosialist firqəsi hökumətin tərkibinə yerli beynəlmiləlçi sosialist partiyaların nümayəndələrinin daxil edilməsi tələbi ilə mötədil rus əhalisinin nümayəndəsinin hökumətin tərkibinə daxil edilməsinin əleyhinə idi. Ancaq müsavatçılar bununla hesablaşmadılar. Klenevski qaçqınların məsələsi ilə məşğul olurdu (qaçqınların yerləşdirilməsi) və Azərbaycan hökumətinin bütün yığıncaqlarında iştirak etmişdi. Müxtəlif dövlət məsələlərinin həllində o, daha çox müsavatçıların təkliflərinə səs verirdi. Bolşeviklərə o, simpatiya göstərmirdi. Qaçqınların işini o, qüsursuz və vicdanla yerinə

yetirir, qaçqınların hamısına milliyətindən asılı olmayaraq eyni cür yanaşırdı. O, mənim yanımda bir dəfə də bolşeviklərin izlənməsi barədə danışmamışdı və bunu edə də bilməzdi, çünki mənim yerli kommunistlərə münasibətimi bilirdi (mənim rəhbərlik etdiyim Əmək nazirliyində direktordan tutmuş bütün qulluqçular hamısı kommunist idi və partiyada məsul vəzifələr tuturdular) Müdafiə komitəsi yaradıldıqdan sonra bütün siyasi məsələlər orada müzakirə edilirdi, Klenevski bu komitəyə daxil deyildi. Yusifbəyovun kabineti yıxılan kimi Klenevski hökumətdən getdi".

Qeyd etdiyimiz kimi, 25 dekabr 1920-ci ildə Cümhuriyyət hökumətinin başqa bir naziri, sovetləşmə dövründə repressiya məngənəsində həyatını başa vuracaq Camo Süleyman oğlu Hacınski də Klenevskinin işi ilə əlaqədar Ponamaryov tərəfindən dindirilir. Görünür, bu heç də təsadüfi deyildi, çünki keçmişdə hər ikisi sosialist firqəsinə mənsub, milli hökumətin yüksək mənsəb sahibi olan Aslan bəy və Camo bəy çox qası müddətdən sonra yeni rejimin yubanmadan haqq-hesab çəkmək istədiyi düşmənlər sırasına daxil edildilər. Əvvəl onları müvəqqəti vəzifələrlə göstərdikləri loyallığa görə mükafatlandıranlar, öz hakimiyyətlərini azacıq möhkəmləndirən kimi əqidəcə və daxilən zorakılığın əleyhinə olan, rejimin qanlı metodlarına gec-tez etirazını bildirməyə özündə qüdrət tapacaq bu şəxslərə qarşı əsil münasibətlərini bildirdilər. Bolşeviklər belə amansızlıqla hər dəfə sonrakı gələn yeni mərhələdə öz əqidə və əməl düşmənlərini fərq qoymadan xalqın adından ittiham edəcək, aradan götürəcəkdilər. Bu sırada müstəqil Azərbaycanın dövlət xadimləri sözsüz ki, birinci gəlirdilər və sovet imperiyası adlanan qanlı rejim onların heç birinə Cümhuriyyət dövrü fəaliyyətlərini bağışlamadı.

Ancaq indilik isə məhv edilmək növbəsi 1918-1920-ci illərdə və daha əvvəlki dövrlərdə bolşeviklərə qarşı açıq mübarizə aparmış və yaxud buna cəhd göstərmiş şəxslərə çatmışdı. Klenevskinin işinin hərtərəfli araşdırılması da bu məqsədə, onun bolşevik düşməni olub, olmadığının dəqiqləşdirilməsi məqsədinə xidmət edirdi. Ona görə də



müxtəlif adamlardan onun barəsində məlumatlar toplanmalı, fəaliyyətinə nisbətən bələd olan şəxslər, o cümlədən Camo bəy dindirilməli idi: "Mən Klenevskini 1918-ci ildən tanıyıram. O, Azərbaycanda qaçqınların işi üzrə müvəkkil işləyirdi. Azərbaycan hökuməti yanında belə bir təşkilat fəaliyyət göstərirdi. 1919-cu ilin aprelində o, Yusifbəyovun təklifi ilə rus əhalisinin nümayəndəsi, himayə naziri kimi hökumətin tərkibinə daxil oldu. Hökumətdə siyasi məsələlərin həllində xüsusi fəallıq göstərmirdi, hökumət koalisyon idi, siyasi məsələlərlə bağlı səsvermələrdə başqa sosialist olmayan qruplar kimi səs verirdi. Bu vaxtlar hökumətdə antibolşevik xarakterli məsələlər qalxmadı və buna görə də onun antibolşevik fəaliyyəti barədə nəsə deyə bilmərəm. O, rus maraqlarının ifadəçisi idi və rus qaçqınlarının məsələləri müzakirə ediləndə rus maraqlarının qatı tərəfdarı kimi çıxış edirdi. Həmin hökumət oktyabr ayında istefaya çıxdı, böhran üç ay davam etdi. Ancaq təqribən hökumətin getməsinə iki həftə qalmış Klenevski xəstəliyinə görə məzuniyyət götürüb Rostova getmişdi. O vaxtdan etibarən mən onu görməmişəm. Mən həmin hökumətdə Azərbaycan Parlamentinin sosialist firqəsinin nümayəndəsi idim, poçt və teleqraf naziri vəzifəsini tuturdum."

Çerniqov quberniyasında doğulmuş, Bakı Stanislavsk küçəsi 69 saylı ünvanda yaşayan, həkim, 34 yaşlı Qriqori Borisoviç Bron isə eyni məqsədlə A.Səfikürdski və C.Hacınskidən bir gün əvvəl, 24 dekabr 1920-ci ildə dindirilmişdi: "Mən yol.Klenevskini 1919-cu ilin iyul ayından, məni Himayə nazirliyinə şöbə müdiri işləməyə dəvət etdiyi vaxtdan tanıyıram. Yol. Klenevski daim tabeçiliyindəki işçilərə tutduqları vəzifədən asılı olmayaraq yaxşı münasibət göstərib. Onun bütün fəaliyyəti qaçqınların və şəhərin zəhmətkeş vətəndaşlarının vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmişdi. O vaxt nazirlikdə bütün təminat sahələrinə rəhbərlik edən şəxs kimi hətta vətəndaşlığı olmayan şəxslərin y. Klenevskidən göstərilən məqsəd üçün böyük miqdarda pul aldıqlarınln şahidi olmuşam. Eyni vaxtda o həmişə qaçqınlara və uşaqlara sonuncu imkana qədər yardım göstərirdi. Müsavat hökumətinə məruzələrində o, daim

siyasətdən və milliyyətdənkənar idi. Hansısa siyasi partiyanın təqib edilməsində məncə, o iştirak etmirdi."

Bron necə deyərlər, birbaşa mətləb üstünə gəlmişdi. Onun V.Klenevskinin "hansısa siyasi partiyanın təqib edilməsində" iştirak etməməsini deməsi əslində həyatı hər an təhlükə qarşısında olan bir şəxsin xilası üçün zəmin hazırlanması demək idi. İstintaqın sonrakı gedişində bu ifadənin həqiqətən də hansı rol oynadığını dəqiqləşdirmək mümkün olmasa da, gümanımızca, onun barəsində qəti tədbir görülməsinin qarşısının alınmasında V.Klenevskinin bolşeviklərə Azərbaycandakı vəziyyət barədə məlumat hazırlaması amili ilə yanaşı belə məqamlar da nəzərə alınmışdı.

Çox maraqlıdır ki, bir tərəfdən V.Klenevskinin işi davam etdirilir, onun özü (22 dekabr 1920-ci il) və müxtəlif şəxslər dindirilərək (24-25 dekabr 1920-ci il) ifadələr alınır, digər tərəfdən də Az. FK-nın müvəkkil müavini Şepelev 1920-ci il dekabr ayının 15-də 1777 №-li işə baxaraq, Yekun qərar çıxarırdı. Elə həmin gün FK sədri V.Klenevskidən heç yerə getməmək barədə dilindən kağız alınaraq həbsdən buraxılması qərarını imzalayırdı. Məlumat üçün onu da bildirək ki, 12 dekabrda Az.FK sədri Xanbudaqov V.Klenevskini dindirmək üçün yanına gətirmək göstərişi vermişdi. Görünür həmin dindirmə zamanı protokollarda və istintaq işində öz əksini tapmayan məqəmlara toxunulmuş, 3 gün sonra V.Klenevski həbsdən azad edilmiş, ancaq işlə bağlı araşdırmalar davam etdirilmişdir. Bəlkə də dekabrın 15-dən sonrakı dindirmələr onun həbsdən buraxılmasına haqq qazandırılması üçün əlavə dəlillər toplanması məqsədilə təşkil olunmuşdur. Çünki artıq həmin dindirmələrə qədər istintaq materiallarında V.Klenevskinin bolşeviklərlə əməkdaşlığa hazır olması məlum idi.

Yekun qərarda isə deyilirdi: "Mən vət. Viktor Klenevski haqqında Müsavat hökumətinin naziri kimi işə baxaraq müəyyən etdim ki, Klenevski himayə naziri olarkən heç bir gizli fəhlə təşkilatına qarşı repressiyaya yol verməyib və nazir kimi o vaxt xidmət edib ki, onda hökumətin tərkibinə fəhlə partiyalarının nümayəndələri də daxil olublar və işdə müttəhimə qarşı heç bir



dəlil sübut yoxdur və 1920-ci ilin əvvəlindən Klenevski sovet hökumətində məsul vəzifə postları tutmaqla xidmət edib, bütün yuxarıda göstərilənlər əsasında müttəhimə qarşı dilindən Bakı şəhərindən başqa yerə getməmək haqında kağız almaq və onun işi üzrə istintaqı davam etdirməklə onu həbsdən azad etmək barədə imkan tədbiri seçilir".

Bu qərar barəsində sərt tədbirlər görülməsinin qarşısını almağa çalışan V.Klenevskinin özünü fiziki mənada qorumaq üçün müxtəlif vasitələrə əl atmasının nəticəsi idi. Təbii ki, 12 dekabr 1920-ci ildə FK sədri Xanbudaqova müraciət etməsi belə vasitələr sırasında ən təsirlilərdən biri olmuşdu. O, yaxşı başa düşürdü ki, xilas olunmağında yalnız ən yüksək dairələrə ümid bəsləyə bilər. (Klenevski Az.FK-nın istintaq şöbəsinin rəisi Kavtaradzeyə də məruzə ilə müraciət etmişdir.) Buna görə də belə müraciətlərində düşdüyü ağır vəziyyəti qeyd etməklə yanaşı, özünün hansı formadasa xidmət təkliflərini eşitdirməyi də unutmurdu: "Artıq dörd həftədir ki, mən Azərbaycanın müsavat hökumətinin deyil, koalisiyalı hökumətin keçmiş himayə naziri kimi həbs altında saxlanılıram. Mən himayə nazirliyinə şöbə müdiri olmağa öz işini yaxşı bilən şəxs kimi dəvət edilmişdim və bütün varlığımla bu işə girişmişdim. Mən daim öz bitərəfliyimi qeyd etməklə dövlət və ictimai xeyriyyəçiliyi genişləndirməyə və bununla cüzi də olsa, zəhmətkeşlərin və onların ailələrinin ağır vəziyyətini yüngülləşdirməyə çalışmışdım... May ayından mən Don-Rostada, sonra isə Kav-Rostada da işləməyə başladım. Rostanı mən əsas təbliğat aparatı sayıram və orada iştirakı xeyirxah iş hesab edirəm. Bu vaxt ərzində mən xalq müstəntiqi kimi diqqəti cəlb edə bildim və məni seçib mühüm işlər üzrə, həm cinayət, həm də siyasi (əksinqilabi) işlər üzrə istintaq aparmağı tapşırdılar. Oktyabr ayında mən mahiyyəti işdə olan təlimatda öz əksini tapmış məsul bir tapşırıqla Tiflisə ezamiyyətə göndərildim. Rostovdan mən noyabrın ilk günlərində çıxdım və tapşırığı yerinə yetirirkən həbs edildim. Ezamiyyətlə əlaqədar mən tamamilə məxfi məruzə təqdim etməli idim, mahiyyəti barədə Sizə şifahi deyə bilərəm. Özümü tamamilə günahsız sayaraq, yol.

Xanbudaqov Sizdən təkidlə xahiş edirəm mənim səhhətim və psixikam üçün məhvedici olan həbsdən azad edəsiniz...Bununla yanaşı Sizdən xahiş edirəm məni yanınıza çağırıb Sizə ezamiyyətimin mahiyyəti barədə məruzə etməyimə imkan yaradasınız. Sonda qeyd edim ki, iyul ayında mənə ixtisasım üzrə ya Hərbi tribunalda, ya da Xüsusi şöbədə iş vermək xahişi ilə 11-ci ordunun İnqilabi Komitəsi qarşısında vəsatət qaldırmışdım."

V.Klenevski 13 dekabr 1920-ci ildə FK katibi Uqarova yazdığı məktubda isə nəinki yeni hakimiyyətə xidmət göstərmək fikrini bildirmiş, hətta ən qatı kommunistlərdən də artıq dərəcədə fəhlə-kəndli hakmiyyətini möhkəmləndirmək uğrunda çalışacağını qeyd etmişdi. Nəyin bahasına olsa, həbsdən canını qurtarmağa çalışması onu daha irəli gedərək bolşevik partiyasına qəbul olmaq vədi verməyə qədər gətirib çıxarmışdı. Bütün bunlar onun Azərbaycan hökumətinin üzvü olduqda, "Slavyan-rus cəmiyyəti"nin sıralarında "vahid, bölünməz Rusiya uğrunda" mübarizəyə qoşulanda, indiki halda da ancaq öz şəxsi mənafeyini güddüyünü, istənilən məqamda aydın göstərirdi. V.Klenevski üçün hakimiyyətdə hansı qüvvələrin olması deyil, onun özünün tutduğu post və şəxsi məqsədləri əsas idi: "Bununla bərabər dünən mənim tərəfimdən FK sədri yol. Xanbudaqova izahatıma əlavə olan məruzə verilmişdir. Yol. Xanbudaqov mənim barəmdə məsələnin bu gün həll olunacağına söz verdiyi üçün, məruzə məsələnin müzakirəsində gərək ola bilər. Mən dönə-dönə xahiş edirəm, hörmətli yoldaş mənim məruzəmi sədrə verməkdən imtina etməyəsiniz."

Artıq müəyyən məqamları barədə məlumat verdiyimiz həmin məruzədə deyilirdi: "...izahatıma əlavə olaraq aşağıdakıları bildirməyi zəruri hesab edirəm: Mənim Azərbaycana xidmət göstərməyimə imkan yaradılması xahişimin əsasında birincisi mənim Zaqafqaziyada doğulmağım və daim burada yaşamaqla, yerli həyatla yaxşı tanış olmağım durur. Mən burada işimin səmərəliliyi baxımından daha lazımlı ola bilərəm. İkincisi mənim işim Sizin və yol. Kaftaradzenin gözləri qarşısında olar və mən öz işgüzarlığımı nümayiş etdirməklə fəhlə-kəndi hakimiyyətini möhkəmləndirmək sahəsindəki qızğın arzularımı



həyata keçirər, vədlərimi daha inamlı şəkildə yerinə yetirə bilərəm. Üçüncüsü isə burada, Bakıda mənim dolanışıq üçün hər cür vasitədən məhrum olmuş ailəm yaşayır. 2.Əgər mənim bu xahişim tezliklə yerinə yetirilərsə və əgər mənim Gürcüstana ezam olunmağıma etiraz edilməzsə, mən söz verirəm ki, Tiflis əlaqələrimdən istifadə edərək Az.FK tərəfindən mənə verilmiş tapşırığa uyğun son dərəcə qiymətli məxfi material təqdim edəm. Çünki burada mənə həyatım qədər əziz olan arvadım və qızım var. 3.Mənim buradakı işim ya müstəntiq, ya da Kov-Rostada olduğu kimi təbliğat işi ola bilər, yaxud yaradıcılıq və təşkilatçılıq tələb edən başqa sahədə. Mən xüsusi həvəslə sovet hökumətinin Azərbaycandakı rolu, nələr etdiyi barədə oçerklər yaza bilərəm. 4.Əgər mənim xahişim hansı səbəbdənsə yerinə yetirilməyəcəksə, onda mənə Rostova qayıtmağa icazə verməyinizi xahiş edirəm. Burada işə başlamaqla, mən köhnə kommunistlərin məni partiya üzvlüyünə qəbul edilməyə namizədliyimi irəli sürmələrini gecikdirməyəcəyəm. Çünki partiyasız özümün sonrakı fəaliyyətimi təsəvvür etmirəm. Yol. Xanbudaqov Sizin dünənki vədiniz bu gün mənim məsələmi həll edəcək və məni yenidən həyat eşqi ilə canlandıraraq, tezliklə Sizə öz təmizliyimi, inqilaba sədaqətimi və işgüzarlığımı sübuta yetirməyə inam yaradacaq. Mən yenidən qəlbimin bütün gücü ilə Sizdən xahiş edirəm, bu gün mənim məsələmi həll edəsiniz, məni həbsdən azad edib işimə və əzab çəkmiş ailəmə qaytarasınız".

25 dekabr 1920-ci ildə Az.FK-nın müstəntiqi Ponamaryov V.Klenevskinin həbsdən buraxılması haqqında sədrin imzaladığı qərardan 15 gün sonra belə bir qərar çıxarır: "vət. Müsavat naziri kimi ittiham olunan Viktor Viktoroviç Klenevskinin 777 №-li işinə baxaraq müəyyən etdim: Vət. V.V.Klenevskini həqiqətən də Müsavat hökumətinin naziri olub və bunu özü də inkar etmir, ancaq o, qaçqınların himayəsi üzrə bir mütəxəssis kimi işləyib. Müsavat hökumətində nazir olarkən gizli fəhlə təşkilatlarına qarşı heç bir repressiya tədbirində iştirak etməyib və hökumətə, onun tərkibinə fəhlə partiyalarının nümayəndələrinin üzv olduğu vaxt daxil olub. İfadələrə görə vət.Klenevski tamamilə siyasətdənkənar olub və ona qarşı açılmış işdə də heç bir dəlil

yoxdur. Yuxarıda göstərilənləri nəzərə alaraq, belə hesab edirəm ki, vət. Klenevskini keçmiş Müsavat hökumətinin naziri olduğu üçün etibarsız element kimi gənc Azərbaycan Sovet Sosialist Respublikasından təcrid etəklə vətəndaş müharibəsi başa çatanadək RSFSR-in ucqar bir yerinə sürgün etmək. Onun işinin istintaqını bitirmək və həbs edildiyi zaman ondan alınmış əşyaları və pulu qaytarmaq".

Zənnimizcə, bu qərarın məhz 25 dekabrda çıxarılmasında istintaq prosesində yol verilmiş dolaşıqları aradan qaldırmaq məqsədi güdülmüş, həmin gün dindirilmiş iki nəfər Cümhuriyyət nazirinin ifadələrinin imzalandığı tarixi nəzərə alınmışdır. Ancaq bu qərar, 18 dekabr 1920-ci ildə FK-nın 742 saylı orderi (ümumi bölməyə göndərilmiş həmin orderdə bildirilirdi ki, "Az.FK-nın komendantı sizə vət FK sədrinin əmrinə uyğun olaraq vət. Viktor Viktoroviç Klenevskini dərhal həbsdən azad etməyi təklif edir") və aşağıda təqdim etdiyimiz başqa bir qərar da onu göstərir ki, V.Klenevski 15 dekabrdan sonra da hansı müddətdəsə həbsdə saxlanılmışdır.

Burada əvvəl belə bir məqama aydınlıq gətirək ki, onun barəsində istintaq işinin tamamilə dayandırılması haqında Az.FK-nın 2 yanar 1921-ci il qərarını həbsdən azad edildiyi tarixlə eyniləşdirmək də düzgün olmazdı. Çünki 2 yanvar 1921-ci ildə də barəsində istintaq işi dayandırılaraq həbsdən azad edilmə qərarı çıxarılmış Klenevski həmin qərardan təqribən 10 gün əvvəl, 23 dekabr 1920-ci ildə Az.FK-nın sədrinə müraciətlə şəxsi əşyalarının qaytarılmasını xahiş edirdi.

"Xahiş edirəm məndən alınmış birinci dərəcəli ehtiyac duyulan əşyalarım yerləşən çemodanın geri qaytarılması haqqında göstəriş verəsiniz. Eyni zamanda Sizdən yaşamaq üçün götürülmüş pulun heç olmasa, bir hissəsinin, əgər həmin pullar Tersk vilayət FK-sından, Vladiqafqaz şəhərindən daxil olubsa, geri qaytarasınız. Əgər həmin pullar bura göndərilməyibsə, xahiş edirəm onu tələb edəsiniz. Pulun yoxluğu və əmək haqqının olmaması məni çətin vəziyyətdə qoyub".

Qeyd olunan 2 yanvar 1921-ci il qərarında isə deyilirdi: "Az. FK sədr Xanbudaqovdan, üzvlər Kavtaradze, Maniulenko, Uqarov və MK sədri Karakozovdan ibarət komissiya heyəti vət. Klenevskinin keçmiş Müsavat hökumətinin nziri kimi ittiham olunması ilə bağlı 1777 №-li işi dinləyib və nəzərdən keçirib və müttəhimin fəhlə və sovet hökumətinin işinə zərər vurmadığının sübut olunmasını aydınlaşdıraraq qərara aldıq, işi dayandırmaq, müttəhimi həbsdən azad etmək və ondan götürülmüş şeyləri qaytarmaq".



Bütün bunlardan görünür, onun azıdlığa çıxması dekabrın 15-i ilə 25-i arasındakı müddətdə baş vermişdir.

Müvəkkili Ponamaryov tərəfindən çıxarılmış qərarla 21 yanvar 1921-ci ildə Klenevskinin arxiv qeydiyyat hissəsində olan işinə 837 № ilə tikilmiş və işdə saxlanılan 414 və 642 №-li qəbzlərdə Klenevskinin Vladiqafqazda alınmış əşyalarının bir qrupunun barəsində məlumat var. Bu məlumata istinadən güman etmək olar ki, o, şəxsi əşyalarının bir hissəsini geri ala bilmişdir.

Cümhuriyyət hökumətinin himayə naziri Viktor Viktoroviç Klenevskinin həbsdən sonrakı həyatı barədə hələlik konkret məlumatlar əldə edə bilməmişik. Ancaq onun adına sovet Azərbaycanında yüksək vəzifə postu tumuş şəxslər arasında da rąst gəlməməyimiz göstərir ki, bolşeviklər hər halda Klenevskiyə etibar etməyiblər.

# İstiqlalın son nazir yadigarı - Nurməmməd Şahsuvarov

- Sizə əksinqilabi blokun xarici dövlətlərlə əlaqələri barədə nə məlumdur?

Cavab: Mənə təkcə o məlumdur ki, Rəhim Vəkilov İstanbula M.Rəsulzadəyə kəşfiyyat xarakterli materiallar göndərirdi. Onun tərəfindən göndərilən həmin materialların neft hasilatına aid olanlarını Azneftin mühəndisi Rüstəm bəy Sultanov vasitəsilə mən əldə edirdim. Onlarda neft hasilatı ilə yanaşı, mütəxəssis kimi yalnız Rüstəm bəyə aydın olan digər məlumatlar da əks olunurdu.

Sual: Belə çıxır ki, Siz kəşfiyyat xarakterli materialların toplanması və xaricə göndərilməsi ilə məşğul olmusunuz?

Cavab: Bəli, mən etiraf edirəm ki, casusluq fəaliyyəti ilə məşğul olmuşam".

Azərbaycan Xalq Cümhuriyyətinin təhsil naziri olmuş Nurməmməd Adilxan oğlu Şahsuvarov Azərbaycan SSR-də əksinqilabi "İttihad"çı təşkilatın rəhbərlərindən biri kimi bu "etiraf"ı söyləməyə məcbur ediləndə 15 aprel 1938-ci il idi və onun Az.SSR XDİK tərəfindən həbsə alınmasından artıq 42 gün keçirdi.

N.Şahsuvarov 1938-ci il mart ayının 3-də SSRİ XDİK Dövlət Təhlükəsizliyi Baş İdarəsinin 1195 saylı orderinə əsasən Moskva



şəhərində həbs edilmiş, ertəsi gün isə yaşadığı mənzildə Derevlevo kənd soveti sədri S.P.Blinovun iştirakı ilə enkevede əməkdaşları Vlasov və Makarov tərəfindən axtarış aparılmış, protokol tərtib edilərək aşağıdakılar müsadirə olunmuşdu:

1.Pasport № JQ 006031;
2.İki əmək siyahısı;
3.Müxtəlif arayışlar - 17 ədəd;
4.Müxtəlif ərizələr - 5 ədəd;
5.Çıxarışlar - 6 ədəd;
6.Köhnə vəsiqələr və zərbəçi kitabçaları - 6 ədəd;
7.Qeyd kitabçası - 1 ədəd;
8.Müxtəlif yazışmalar.

MTN arxivində saxlanılan arxiv işindən o da aydın olur ki, Nurməmməd Şahsuvarovun həbs edilib Azərbaycana göndərilməsi xahişi ilə Az.SSR XDİK 4-cü şöbə 7-ci bölməsinin rəisi DT kapitanı Fedotovun üzərində çəhrayı rəngli karandaşla: "Həbs etmək və yatabla Bakıya göndərmək. 28 iyun 37-ci il" qeydi olan arayışı Moskvaya həmin orderin yazılmasından 5 gün qabaq, 27 fevral 1937-ci ildə göndərilib. Arayışda bu qeydin aşağısında isə qırmızı karandaşla "Razıyam 7-ci ay 37-ci il" sözləri yazılmış və imza atılmışdır.

Nurməmməd Şahsuvarovun həbsə alınması barədə Azərbaycan SSR Prokurorunun köməkçisi istintaq işləri üzrə şöbə rəisinin müavini Yarovoy və Respublika Prokuroru vəzifəsini icra edən Pinksin imzaladıqları sanksiya təqribən 8 ay əvvəl, 25 iyul 1937-ci ildən hazır idi. Elə həmin gün N.M.Şahsuvarovun həbs olunması barədə XDİK 4-cü şöbənin əməkdaşları Sinman, Qriqoryan tərəfindən hazırlanan, idarə rəisinin müavini mayor Gerasimovun təsdiq etdiyi qərarın bu qədər müddətdən sonra yerinə yetirilməsi isə guya sadə bir problemlə, onun yaşadığı ünvanın dəqiqləşdirilməsi ilə bağlı idi.

Bu qərar isə necə deyərlər, öz mənbəyini aşağıdakı arayışdan götürmüşdü: "Tərəfimizdən həbs edilmiş ümumittifaq pantürkist mərkəzin üzvü professor Çobanzadə Nurməmməd Şahsuvarovun Azərbaycan SSR-də əksinqilabi ittihadçı təşkilatın rəhbərlərindən biri olduğunu göstərmişdir.

Tərəfimizdən həbs edilən əksinqilabi burjua millətçi təşkilatının fəal üzvü Hənifə Zeynallı da Şahsuvarovun təhsil müəssilərində əksinqilabi fəaliyyət göstərdiyini qeyd etmişdir.

Göstərilənlər əsasında Nurməmməd Şahsuvarovu Azərbaycan SSR CM-in 72, 73-cü maddələri ilə cinayət məsuliyyətinə cəlb etməklə həbs etməyi zəruri sayır və bu barədə DTİ 8-ci şöbəsin və XDİK işlərinə nəzarət edən prokurora xəbərdarlıq edirik. DTİ 4-cü ş-bə, 4-cü bölməsinin rəsisi DT baş leytenantı Qriqoryan, təsdiq edirəm: 4-cü şöbənin rəisi DT kapitanı Sinman 20 iyul 1937-ci il."

Əsl həqiqətdəsə, Nurməmməd Şahsuvarovun həbs sanksiyasının imzalanmasından 8 ay deyil, onun təmsil olunduğu Cümhuriyyət hökumətinin süqutunun, aprel çevrilişinin yaşı qədər - 18 il keçmişdi. Çünki o da milli hökumətdəki başqa həmkarları kimi 1920-ci ilin 27 aprelindən sonra ölkədə idarəçiliyə zorla sahib olmuş sovet rejiminin əbədi düşmənləri sırasında idi. Bu baxımdan bolşevik hakimiyyətinin uzun müddətdən sonra Şahsuvarovu yenidən "yada salması" əsla təsadüfi deyildi. Ancaq buna baxmayaraq həmin konkret addımla bağlı izah olunması lazım gələn bəzi məqamlar da var. Hər şeydən əvvəl bütün zamanların ən qanlı rejimlərindən birinin "müsavat nazirini" illərlə sərbəst buraxması və indiki qəfil həbs qərarının nə ilə əlaqədar olması, hansı zəruriyyətdən irəli gəldiyi izah edilməlidir. Əlbəttə, təkcə bu məqamların aydınlaşdırılması üçün Azərbaycanda qanlı repressiyaların növbəti dalğasının yüksəldiyi 30-cu illərin hadisələrinə ötəri də olsa nəzər salmaq, ölkə həyatında hansı proseslərin getdiyinə diqqət yetirmək lazımdır. 30-cu illərin xüsusilə sonlarına doğru siyasi sahədə öz hakimiyyətini artıq möhkəmləndirmiş bolşeviklər ölkə iqtisadiyyatında və mədəni sahələrdə də sosializmin qəti qələbəsini tam təmin etmək, ziyalılar arasında özünə inanılmış tərəfdarlardan ibarət dayaq yaratmaq məqsədi ilə siyasi cəhətdən səbatsız və əvvəlki dövrlərdə şübhəli mövqe tutmuş şəxsləri kütləvi şəkildə həbs etməyə, yaxud digər üsullarla cəmiyyətdən təcrid etməyə başladılar. Rejim özünə qatı düşmən hesab etdiyi milli qüvvələrin az qala hamısını 20-ci illərin sonu 30-cu illərin əvvələrinə qədər artıq məhv etmiş, yaxud da müxtəlif vasitələrlə zərərsizləşdirmişdi. İndi necə deyərlər, növbə milli müstəqillik ideyalarını öz yaradıcılığında bu və ya digər formada tərənnüm etmiş, tarixi yaddaşın daşıyıcısı, imperiya siyasətinin gizli əleyhdarı sayılan ziyalılara və N.Şahsuvarov kimi xeyli müddət siyasi fəaliyyətdən kənarda qaldığı üçün nisbətən az təhlükəli hesab olunan şəxslərə çatmışdı. Çünki Moskvaya Azərbaycanda dövlət müstəqilliyinin tamamilə unutdurulduğu, başlıca məqsədini "dünya proletarları ilə birləşməkdə" görən, milli şüurdan, milli yaddaşdan məhrum bir nəslin yetişdirilməsi lazım idi. Bunun üçün də 20-ci illərin kütləvi cəza tədbirləri ilə kifayətlənmək olmazdı, sovetlərin yeni tarixinin yazılması yeni-yeni faciələr, qanlar tələb edirdi. Və ölkədə belə bir ab-havanın mövcudluğu şəraitində Azərbaycan maarifçiliyinin inkişafında, məktəb, təhsil işinin tərəqqisində danılmaz xidmətləri olmuş Nurməmməd bəy Şahsuvarov da yada düşdü.

Bu görkəmli şəxsiyyətin həyatı ilə bir qədər yaxından tanışlıq üçün ilk müraciət etdiyimiz mənbə "Odlar yurdu" qəzetinin 4-cü, fevral 1990-cı il sayı oldu. "Nurməmməd Ədilxan oğlu Şahsuvarov 1883-cü ildə Azərbaycanın indiki Laçın rayonunun Minkənd kəndində anadan olmuşdur. O, ibtidai təhsilini kənd məktəbində alaraq, 1889-1903-cü illərdə Qori müəllimlər seminariyasında oxumuşdur. N.Şahsuvarov bir müddət Gəncədə rus dili müəllimi işlədikdən sonra Tiflis Aleksandrovsk müəllimlər İnstitutuna daxil olmuş və oranı 1912-ci ildə bitirmişdir. O, həmin il Kiyev universitetinin hüquq fakültəsinə daxil olmuş və həmin ali məktəbi ekstern yolu ilə 1915-ci ildə başa vurmuşdur. ... 1918-ci ilin yayında Şimali Qafqazda yaşayan xalqların milli-azadlıq hərəkatı nəticəsində Dağlılar Respublikası yaradıldı. N.Şahsuvarov həmin respublikanın xalq maarifi naziri (komissarı) təyin olundu".

1920-ci il aprelin 27-də çevrilişdən sonra N.Şahsuvarov Azərbaycan SSR xalq maarif komissiyasının müavini təyin edilmiş, sonrakı dövrdə isə əsasən pedoqoji fəaliyyətlə məşğul olmuşdur. Sovet rejiminin kütləvi repressiyaları ondan da yan keçməmiş, N.Şahsuvarov 1940-cı ildə əksinqilabi təşkilatın fəal üzvü kimi həbs olunmuş və Krasnodar diyarına sürgünə

göndərilmişdir. Əsl ziyalı olan N.Şahsuvarov orada da taleyinə yazılmış maarifçilik missiyasından kənarda qalmamış, öz ixtisası üzrə dərs demişdir. Üç il sonra Bakıya qayıtdıqdan sonra isə o, Azərbaycan Tibb institutunda rus dili kafedrasının müdiri və müəllimi işləmişdir. N.Şahsuvarov 1958-ci il avqustun 11-də Bakıda vəfat etmişdir. O, öz vətənində Azərbaycan İstiqlal dövrünün həyatdan köçən son naziri idi.

"Elm" nəşriyyatının buraxdığı mənbədə - "Azərbaycan Cümhuriyyəti sənədlər və materiallar 1918-1920-ci illər" məcmuəsində (rus dilində) N.Şahsuvarovun atasının adı sadəcə Ədil kimi verilmişdir. Həmin məcmuədə yuxarıda adı çəkilən məqalədə göstərilənlərlə yanaşı, AR-in dövlət xadimi.Nurməmməd Adil oğlu Şahsuvarovun (1883-1958) avtobioqrafiyası ilə bağlı bir sıra başqa faktlar da verilmişdir: "1919-cu ilin əvvəllərində Bakıya gəlib və təhsil nazirinin müavini vəzifəsini tutub (aprel-dekabr 1919). 1920-ci ilin mart ayının 5-dən 30-na qədər istefa vermiş H.Şahtaxtınskinin yerinə təhsil naziri olub. 1920-ci ilin 28 aprelindən sonra "İttihad" partiyasından çıxıb. Xalq maarif komissarının müavini təyin edilib. Ali məktəblərdə və texnikumlarda rus dilini tədris edib, Azərbaycan Dövlət Universitetində və Azərbaycan Tibb İnstitunda rus dili kafedrasının müdiri olub. Repressiyaya məruz qalıb və 1940-43-cü illərdə sürgündə olub".

Əlbəttə, bu qısa qeydlər N.Şahsuvarov kimi Vətən qarşısında xidmətləri olmuş bir şəxsiyyət haqqında yalnız ilkin təəssürat oyada bilər. Buna görə də Nurməmməd bəyin həyatı və həqiqətən də geniş fəaliyyəti barəsində daha ətraflı öyrənmək məqsədi ilə bir neçə mənbədən, xüsusilə onun MTN arxivində saxlanılan PR - 6399 saylı arxiv işindən daha əhəmiyyətli hesab etdiyimiz məlumatları toplamağa çalışdıq. Və ilk addımdan birinci mənbə ilə ziddiyyət təşkil edən məqamlarla qarşılaşdıq. Belə ki, N.M.Şahsuvarov həbs edilərkən tərcümeyi-halı, nəyə görə haqqında cinayət işi qaldırıldığı ilə bağlı 18 mart 1938-ci ildə doldurulmuş 1791 saylı anketdə onun doğum tarixi 1881-ci il göstərilmişdir. Yuxarıda qeyd edilən 1883-cü ilin, yaxud bu tarixin hansının doğru olması barədə hələlik qəti fikir



söyləmək mümkün deyilsə də, ikinci təqvimin doğruluğu qənaətinə gəlməyə imkan verən daha çox dəlil var.

Anketdə Nurməmməd Şahsuvarov həbs edildiyi vaxt Moskva Neft institutunda rus dili müəllimi, dosent işlədiyi, Laçın rayonunun Minkənd kəndində anadan olduğu, ictimai mənşəyinə görə kəndli, sosial vəziyyətinə görə ziyalı, bitərəf, arvadı Feonyanın 45, oğlu Cahangirin 21, qardaşı Səmədin 46 yaşında olduğu, Bakıda geoloq işləyən Surxay adlı qohumunun da onun mənzilində yaşadığı göstərilib.

Nurməmməd Şahsuvarovun nəyə görə həbs edilməsi barədə ən konkret məlumat DTİ 4-cü şöbə, 4-cü bölməsinin rəisi dövlət təhlükəsizlik baş leytenantı Qriqoryanın 1937-ci il iyul ayının 20-də yazdığı arayışda öz əksini tapıb: "Həbs edilmiş ümumittifaq pantürkist təşkilatın mərkəzinin üzvü professor B.Çobanzadə ifadəsində göstərib ki, Nurməmməd Adilxan oğlu Şahsuvarov Az.SSR-də əksinqilabi "İttihad"çı təşkilatın rəhbərlərindən biridir. Tərəfimizdən həbs olunmuş burjua-millətçi təşkilatın fəal üzvü H.Zeynallı da Şahsuvarovun tədris müəssisələrindəki əks-inqilabi fəaliyyəti barədə ifadə verib. Qeyd edilənlərə əsasən Nurməmməd Adilxan oğlu Şahsuvarovun həbsə alınaraq, Az.SSR Cinayət Məcəlləsinin 72-73-cü maddələri ilə ittiham olunmasını zəruri hesab edir və bu barədə XDİK Dövlət Təhlükəsizlik İdarəsinin 8-ci şöbəsinə və XDİK işlərinə nəzarət edən prokurora bildiririk".

Sonrakı bu tipli arayışların demək olar ki, hamısında eyni ittihamlar təkrar olunurdu: "... bitərəf, Qubkin adına institutda dosent, Moskva yaxınlığında Leninsk rayonunda Kalujsk şossesində, Derevlevo kəndi, ev 52-də, vətəndaş O.S.Mixaylinoyun mənzilində yaşayır. Azərbaycan SSR XDİK-in 14.02.1938-ci il tarixli məlumatına, Çobanzadə, Əli Səbri Qasımov, Abbas Sultanov, Pənah Qasımov, Səməd Şahsuvarovun ifadələrinə görə ittiham olunan Nurməmməd Adilxan oğlu Şahsuvarov Az.SSR XDİK DTİ tərəfindən ləvğ edilmiş antisovet millətçi "İttihad"çı təşkilatın rəhbərlərindən biridir. Az.SSR XDİK N.M.Şahsuvarovu həbsə alıb onların sərəncamına göndərməyi xahiş edir. Xahiş edirəm N.M.Şahsuvarovun həbsini,

yaşadığı yerdə axtarış aparılmasını və Bakıya Az.SSR XDİK-in sərancamına göndərilməsini sanksiyalaşdırasınız. 4-cü şöbə 7-ci bölməsinin rəisi kapitan Fedotov. 27 fevral 1938-ci il".

Nurməmməd Adilxan oğlu Şahsuvarovla bağlı ilkin materiallar nəzərdən keçirilərək guya Şahsuvarovun əksinqilabi "İttihadçı" təşkilatın üzvü olduğu aşkarlanır və buna görə onun mühafizə altında saxlanılmaqla Az.SSR CM-in 72-73-cü maddələri ilə cinayət məsuliyyətinə cəlb edilməsi barədə qərar qəbul olunur.

1938-ci ilin avqustunda Nurməmməd Şahsuvarov, Əşrəf Hacıyev, Ələkbər Mahmudov və Fətullabəy Rzabəylinin ittiham edilməsi ilə bağlı istintaq materiallarını nəzərdən keçirən DTİ 4-cü şöbə 2-ci bölməsinin baş əməliyyat müvəkkili M.Məmmədov yuxarıda adı çəkilənlərin daxil olduğu əksinqilabi "İttihad"çı təşkilatın öz qarşısına elmi sahədə ziyankarlıq işi aparmaq məqsədi qoyduğunu, bundan əlavə müttəhim Nurməmməd Şahsuvarov tərəfindən casusluq xarakteri daşıyan materiallar əldə olunduğunu müəyyən edərək, qərara alır: "Müttəhimlər N.M.Şahsuvarova, Ə.Hacıyevə, Ə.Mahmudov və F.Rzabəyliyə Az.SSR CM-in 69-cu maddəsinə görə əlavə ittiham elan olunsun, N.Şahsuvarova qarşı isə AR CM-in 68-ci maddəsi üzrə də ittiham irəli sürülsün". 4-cü şöbə rəisinin müavini baş leytenant Atakişiyev həmin şöbənin 2-ci bölməsinin rəisi Nikolayevin də imzaladığı qərarı təsdiqləyir.

N.Şahsuvarovun birinci dəfə həbs edildikdən 42 gün sonra 15 aprel 1938-ci ildə dindirilir. Görünür bu müddət ərzində onun barəsində "müvafiq" tədbirlər görülmüş və "səmimi" ifadələr verməsi üçün razılıq əldə edilmişdir.

Sual: Siz əksinqilabi təşkilatın üzvü kimi həbs olunmusunuz. Bunu etiraf edirsinizmi?

Cavab: Bəli, mən etiraf edirəm ki, əksinqilabi təşkilatın üzvüyəm.

Sual: Sizin üzvü olduğunuz təşkilat necə adlanır?

Cavab: Mənim üzvü olduğum təşkilata müsavatçılar, ittihadçılar, bitrəf millətçilər, hətta ayrı-ayrı kommunistlər daxil idi. Mahiyyət etibarı ilə bizim təşkilat Azərbaycanda sovet



hökuməti əleyhinə mübarizə aparmaq üçün yaradılmış əksinqilabi blok idi. Beləliklə, ona Azərbaycandakı mövcud əksinqilabi millətçi təşkilatlar daxil idi.

Sual: Bu təşkilatın rəhbəredici heyətinə kimlər daxil idi?

Cavab: Əksinqilabi təşkilatın rəhbər heyətinə:

1. İttihadçılardan Şahsuvarov Nurməmməd, Fətulla bəy Rzabəyli;

2. Bitərəf millətçilərdən Rüstəm bəy Sultanov.

3. Müsavatçılardan Musaxanlı Atababa, Əhməd Cavad, Rəhim Vəkilov, İdris Axundzadə;

4. Millətçi-təmayülçülərdən Pənah Qasımov, Böyükağa Talıblı daxil idilər.

Sual: Əksinqilabi təşkilata cəlb edilməyiniz barədə ifadə verin.

Cavab: Əksinqilabi təşkilata mən sürgündən qayıtdıqdan sonra müsavatçı Rəhim Vəkilov tərəfindən cəlb edilmişəm. 1930-31-ci illərdə qayıtdıqdan sonra məni Kommunist küçəsində görüb partiya və sovet hökumətinin Azərbaycanda ruslaşdırma siyasəti apardığı barədə böhtan ataraq, biz azərbaycanlıların buna qarşı mübarizə aparmalı olduğumuzu bildirdi. Mənə əksinqilabi blok yaratmaq və tələbələr arasında onların milli ruhunu yüksəltmək üçün iş aparmağı təklif etdi. Vəkilov özü müsavatçı idi, məni isə ittihadçı kimi tanıyırdı. Mənə əksinqilabi təşkilata daxil olmağı təklif edərkən Vəkilov dedi: "Biz, azərbaycanlılar siyasi baxışlarından və keçmişindən asılı olmayaraq hamımız birləşməliyik." Bundan sonra mən Vəkilova əksinqilabi təşkilata daxil olmaq barədə razı olduğumu bildirdim. ... Mən Pedoqoji texnikumun yuxarı sinif şagirdləri arasında təbliğat aparırdım. Mən onların milli hissələrini yerli şovinizm həddinə çatanadək yüksəldirdim. Məqsədə nail olunmuşdu, birinci və ikinci buraxılışın arasında 10-12 nəfər mənim təsirim altına düşmüşdülər. Məndən başqa bu pedoqoji texnikumda əksinqilabi millətçi işi müsavatçı Atababa Musaxanlı, millətçi Hüseyn Cavid, türk təbəəsi Cabbar Əfəndi (əslən Nuxalı, Türkiyədə təhsil almışdı) də aparırdılar.

Sual: Yuxarıda Siz əksinqilabi təşkilatın rəhbər heyətini saydınız. Təşkilatın Sizə məlum olan üzvlərinin adlarını çəkin.

Cavab: Yuxarıda adını çəkdiklərimdən əlavə əksinqilabi təşkilata 1.Rüstəm bəy Sultanov, mühacir Xosrov bəy Sultanovun qardaşı da daxil idi. Rüstəm bəy Sultanov təşkilata şəxsən mənim tərəfimdən, 1928-29-cu illərdə cəlb edilmişdi. 2.Həmidağa Cəvanşir, məncə NKZ-də işləyirdi, mənim tərəfimdən, 1928-29-cu illərdə cəlb edilmişdi. 3.Yusif Vəzir, Müsavat hökumətinin Konstantinapoldakı nümayəndəsi, ədəbi fəaliyyətlə məşğul olurdu, mənim tərəfimdən, 1931-32-ci illərdə cəlb edilmişdi. 4.Sübhanverdiyev Abdulla, AKİİ-də müəllim, vəfat edib.

Sual: Sizin milli təşkilat daha hansı təşkilatlarla əlaqədə idi?

Cavab: Müsavatçıların, ittihadçıların və bitrəflərin daxil olduğu əksinqilabi blok mənim vasitəmlə Krım millətçisi Bəkir Çobanzadə ilə Rüstəm bəyin mənzilində əlaqə yaratmışdı. Söhbətdən müəyyən etdim ki, o, qatı millətçidir, bəyan etdi ki, türk millətinin rifahı naminə iş aparmağa hazırdır.

Sual: Əksinqilabi blok kimin müəyyənləşdirdiyi xətlə Azərbaycanda iş aparırdı?

Cavab: Rəhim Vəkilovun sözlərinə görə o və Məmmədhəsən Baharlı İstanbulda olan "Müsavat" partiyasının lideri Məmməd Əmin Rəsulzadə ilə əlaqədə idilər və ondan Azərbaycanda əksinqilabi işi genişləndirmək barədə tövsiyyələr alırdılar. Onlar bu əlaqəni hansı yola saxlayırdılar mənə mə'lum deyidi. Bundan əlavə əksinqilabi təşkilatın üzvü Rüstəm bəy Sultanov bir dəfə mənə demişdi ki, Tiflisdə yaşayan Vəzirov adlı birisi onun qardaşı Xosrov Sultanovla əlaqə saxlayır. Təqribən 4-5 il bundan qabaq, mən müəllim Eyvazovun yanında olanda Mikayıl adlı bir müəllim, soyadını xatırlamıram, dedi ki, İrandan ittihad təşkilatının xeyli kitabı, əgər səhv etmirəmsə, "İttihadi-İslam" gətirilib. Mikayıl deyirdi ki, guya kitablar Sultan bəy Sultanov və onun qardaşı tərəfindən göndərilib. Kitablar yerli təşkilatın əlinə keçib.

Dindirilmə səhəri gün, aprelin 16-da davam etdirilir.



Sual: Şəxsən siz özünüz Dağıstan və Krım əksinqilabi təşkilatları ilə əlaqədə olmusunuz. Təklif edirik deyəsiniz şəxsən kiminlə əlaqə saxlamısınız?

Cavab: Əksinqilabi blokun başqa əksinqilabi təşkilatlarla əlaqəsi barədə mən heç nə bilmirəm. Şəxsən mən Çobanzədə ilə əlaqədə olmuşam. Dağıstanın siyasi xadimlərindən mən 1.Cəlal Karyumasovu, indi Moskvada həbs olunub, 2. Rəşidxan Kaplanovu (Yeri gəlmişkən Rəşid Kaplanov Cümhuriyyət dövründə dördüncü hökumətdə təhsil və dini işlər naziri, beşinci hökumətdə isə maliyyə naziri vəzifəsini tutmuş, sovetləşmədən sonra repressiya olunaraq güllələnmişdir. Təəssüf ki, onun barəsində arxiv-istintaq işini əldə etmək mümkün olmamışdır. Ancaq ümid edirik ki, respublikadan kənarda kütləvi cəza orqanlarının repressiyalara məruz qoyduğu onlarla həmvətənimiz kimi Rəşid bəyin işini də nə vaxtsa tapıb, onun barəsində Azərbaycan oxucusuna ətraflı məlumat çatdıra biləcəyik - L.Ş.), indi Moskvada həbs olunub, 3. Əlibəy Taxoqodini, indi həbs olunub - tanıyıram. Xaricdə mühacirətdə olanlardan: 1. Heydər Bamatovu və Nuhbəy Tarkovskini tanıyıram.

Sual: Qorxmazov və başqaları Moskvada nə üçün həbs olunub?

Cavab: Bilmirəm.

Sual: Qardaşınız Mürsəl nəyə görə həbs edilib?

Cavab: Mənə məlum deyil. Bilirəm ki, Aşqabadda həbs edilərkən onun millətcə alman olan arvadı Bakıya gəlmişdi, 1937-ci ilin payızında isə hara köçdüyünü bilmirəm".

Nurməmməd Şahsuvarov haqqında lazımi ittiham materialları toplamağa çalışan müstəntiqlər ondan əvvəl həbs edilənlərin hamısına, o cümlədən Əli Səbri Qasımova müxtəlif suallar verir, istədikləri ifadəni alana qədər dindirmə proseslərini davam etdirirdilər. Belə dindirmələrdən birində, 25 noyabr 1937-ci ildə Ə.S.Qasımov "Əksinqilabi təşkilatın üzvlərindən kimlər və konkret olaraq hansı sahələrdə, Azərbaycanın hansı rayonları üzrə əksinqilabi iş aparmağa təhkim edilmişdilər sualına cavabında deyir: Azərbaycanın rayonlarında əksinqilabi iş

aparmaq üçün əksinqilabi təşkilatın aşağıdakı üzvləri cəlb edilmişdilər. 1.Kürdüstan rayonu üzrə Sultanov Abbas və Nurməmməd Şahsuvarov..."

Şahsuvarovun işində adı başqalarına nisbətən çox hallandırılan Rüstəmbəy Paşa oğlu Sultanov belə sorğu-suallarda daha tez-tez təzyiqlərə mə'ruz qalırdı. 1875-ci ildə Laçın rayonunun Kürd Hacı kəndində anadan olmuş, Azneftin 26-lar adına Sənaye müəssəsində plan şö'bəsinin rəisi işləyən Rüstəmbəy Azərbaycanda xüsusi hörmət və nüfuz sahibi sayılan şəxsiyyətlər - Xosrov bəy və Sultan bəyin qardaşı kimi də istintaqın bütün "sınanmış" vasitələrini öz üzərində dadırdı. 1938-ci il yanvar ayının 4-nə təsadüf etmiş həmin günlərdən birində o: "Siz 1924-cü ildə kim tərəfindən və hansı antisovet siyasi partiyaya cəlb edilmisiniz sualına, "mən 1924-cü ildə yerlim Nurməmməd Şahsuvarov tərəfindən əksinqilabi "İttihad"çı təşkilata cəlb edilmişəm, deyə cavab verir. Sonra isə əksər proseslərdə eşidilən başqa bir məşhur sual səslənir:

- Nurməmməd Şahsuvarov tərəfindən hansı vəziyyətdə əksinqilabi ittihadçı təşkilata cəlb edilmisiniz? Və beləliklə ittiham üçün müvafiq hazırlıq işləri görülür, lazımi "etiraflar" əldə olunur.

"Mən Şahsuvarovla 1918-19-cu illərdə onun yaxşı əlaqələrdə olduğu qardaşım Xosrov Sultanov vasitəsilə tanış olmuşam. 1924-cü ildə Azərbaycanın sovetləşməsindən sonra mən Şahsuvarovla tez-tez görüşürdüm və hər dəfə söhbət əksinqilabi millətçi mövzulardan düşürdü. O da mənim kimi milli məsələdə partiyaya əksinqiliba qara yaxırdı ki, azərbaycanlı kadrlar sıxışdırılır, məsul vəzifələri başqa millətələrin nümayəndələri tutublar. Şahsuvarov mənim yanımda dəfələrlə belə əksinqilabi söhbətlər etmişdi. O, mənim ovqatımı, siyasi mövqeyimi öyrəndikdən sonra, məni həmin mövqelərdə möhkəmləndirmək məqsədilə 1935-ci ilə, oğlum İskəndər Sultanov həbs edilinə qədər mənimlə əksinqilabi söhbətləri davam etdirdi.

Sual: Şahsuvarov sizə Azərbaycanda əksinqilabi ittihadçı təşkilatın fəaliyyət göstərməsi barədə nə vaxt bildirdi.



Cavab: Şahsuvarov mənə Azərbaycanda əksinqilabi ittihadçı təşkilatın fəaliyyət göstərməsi barədə 1928-ci ildə öz mənzilində məlumat verdi.

Sual: Şahsuvarov əksinqilabi ittihadçı təşkilatın məqsədləri və vəzifələri barədə nə dedi?

Cavab: Bizim ittihadçı partiya Şahsuvarovun sözlərinə görə, qarşısına Azərbaycanı SSRI-dən ayırmaq və burjua-demokratik dövləti yaratmaq məqsədi qoyub.

Sual: Təşkilat hansı yollarla bu məqsədə çatmağı planlaşdırırdı?

Cavab: Təşkilat bu məqsədə aşağıdakı vasitələrlə çatmaq fikrində idi:

a)Hərbi müdaxiləyə ərzaq və canlı qüvvə ilə köməklik göstərmək. Canlı qüvvə ilə kömək göstərməkdə Şahsuvarov mənim kiçik qardaşım Xosrov bəy Sultanovun yanında olan qardaşlarımdan biri Sultan bəy Sultanovun dəstəyinə ümid bəsləyirdi. Şahsuvarov deyirdi və mən təsdiq edirdim ki, müdaxilə baş verdiyi halda Sultan bəy yerli əhalinin bir hissəsini Sovet hökuməti əleyhinə qaldıra bilər.

b) Müharibə elan ediləcəyi təqdirdə Bakını tutmaq, poçt-teleqraf xidmətini öz əlinə almaq...

Sual: Sultan bəy Sultanov hansı yolla sizin təşkilata sovet hökumətini devirməkdə köməklik göstərəcəkdi?

Cavab: Mən də Şahsuvarov kimi bilirdim ki, qardaşım Xosrov bəy Sultanov mühacirətdə fəal ittihadçı kimi sovet hökuməti əleyhinə mübarizədə böyük rol oynayır, güman edirdik ki, müdaxilə baş tutacağı təqdirdə, o, müdaxiləçilərə yanında olan böyük qardaşı Sultan bəy vasitəsilə köməklik göstərə bilər.

Sual: Siz yalan deyirsiniz. Sizə və Şahsuvarova haradan məlum idi ki, Sultan bəy əhalinin bir hissəsini sovet hökuməti əleyhinə necə qaldıra bilər? İstintaq düzgün ifadə verməyi tövsiyyə edir.

Cavab: Mən düz danışıram. Mən və Şahsuvarov əmin idik ki, müdaxilə vaxtı Xosrov Sultanov Qarabağda böyük nüfuz sahibi olan qardaşı Sultan bəydən istifadə edəcək.

Sual: Teleqraf xətlərinin və yolların sıradan çıxarılması ilə şəxsən kim məşğul olacaqdı?

Cavab: Şahsuvarovun dediyinə görə, bu iş təşkilatın Laçın və Şuşa rayonları üzrə cəlb edilmiş nümayəndələrinin üzərinə qoyulacaqdı.

Sual: Şuşa və Laçın rayonları üzrə bu işi kim görəcəkdi?

Cavab: Şahsuvarov Nurməmməd deyirdi ki, bu işi onun qardaşı Səməd Şahsuvarov görməlidir."

R.Sultanovun dindirmə protokolundan (5 yanvar 1938-ci il.):Sual: Sizə əksinqilabi ittihadçı təşkilatın digər əksinqilabi təmayüllər, o cümlədən "Müsavat"la bloku haqqında nə mə'lumdur?

Cavab: İttihadçı təşkilatın digər əksinqilabi təmayüllərlə bloku haqqında mənə heç nə məlum deyil. Nə Şahsuvarov, nə Sultan Məcid Qəniyev blok barədə mənə heç nə deməyiblər.

Sual: Siz ittihadçı təşkilatın mühacirətlə əlaqələri barədə heç nə demədiniz.

Cavab: Nurməmməd Şahsuvarovun sözlərinə görə, o, ittihadçı təşkilatın şəxsində İstanbulla, mənim qardaşım Xosrov bəy Sultanov və Əbdüləli bəy Əmircanovla əlaqədə olub. Onun dediyinə görə həmin şəxslərlə gəlmələr vasitəsilə əlaqədə olub. Mənim, "bu gəlmələr kimdir?" sualıma Nurməmməd cavab verdi ki, bu gəlmə ermənidir, bir yerdə olmur, bütün SSRİ-nin şəhərlərini gəzir və mühacirətin, Avropa dövlətlərinin bütün fəaliyyətindən xəbərdardır. Bundan əlavə Şahsuvarov mənə demişdi ki, o, xariclə həm də öz qardaşı Aşqabadda yaşayan Mürsəl Şahsuvarovun alman təbəəsi olan arvadı vasitəsilə əlaqə saxlayırdı. Qardaşı arvadı və qohumları ilə birlikdə yayda Almaniyada olurdular. Şahsuvarov onlar vasitəsilə Almaniyaya SSRİ-dəki (Azərbaycan) vəziyyət barədə məlumatlar göndərirdi".

İstintaq prosesinin uzun-uzadı davam etdirilməsi həm bu cür, həm də onun özündən istənilən ifadələrin alınması üçün lazım idi. Ancaq indi həmin protokolları sadəcə vərəqləyəndə onların hər birinin Nurməmməd bəyə nələrin, hansı təzyiqlərin və əzabların bahasına başa gəldiyini müəyyənləşdirmək çox çətindir. Bəlkə də mümkünsüzdür. Çünki təcrübəli müstəntiqlər kobud əl izlərini, ağlasığmaz işgəncə metodlarını yalnız müttəhimlərin cismani varlığında əks etdirirdilər, vərəqlərdə isə bu sınaqlardan əsər-əlamət də olmurdu. Əksər hallarda səliqə ilə tərtib olunmuş dünənin ağ, bu günün saralmış vərəqlərində soyuq müstəntiq məntiqi və yenə də əksər hallarda onun özü tərəfindən qondarılmış etiraf xarakterli cavablar sıralanırdı. Həqiqət isə tamam başqa idi. Bu gün həmin həqiqətlərin böyük əksəriyyətini biz rejimin xarakterinə, dövrün, zamanın canlı şahidlərinin qeydlərinə əsaslanıb söyləyə bilirik. Bir sıra həqiqətlər barəsində isə yalnız təsəvvürün, təxəyyülün gücü ilə nəsə demək, yaddaşımızda onların itirilmiş yerini yalnız qismən bərpa etmək mümkündür. Yenə yaxşı ki, əlimizdə bu gün rejimin qanlı cinayətlərini sübuta yetirən, insanlara necə dəhşətli metodlarla divan tutulduğunu göstərən sənədlər, materiallar var. Onlardan birini vaxtilə 2 saylı türmənin, 5-ci korpusunun 10-cu otağından Az.SSR Xalq Daxili İşləri Komissarına göndərmişdilər.

"35 illik pedoqoji fəaliyyətdən sonra məni həbs etdilər. Ötən ilin 3 martından həbsdəyəm, onun 6 ayını zirzəmidə (təkadamlıq kamerada). İşim 14 avqust 1938-ci ildə qurtarıb və prokurora göndərilib. 14 dekabrda iş Az.SSR Ali Məhkəməsinin Xüsusi Kollegiyasına verilib. Həmin ayın 21-də məhkəmənin ilkin hazırlıq yığıncağında iş Az XDİK-ə qaytarılıb. Fevralın 7-də işin bitdiyi barədə protokol tərtib edildi. Mən əlavələrimlə ona imza atdım, həmin protokol işdə yoxdur. Aprelin 7-də prokuror Valitski və bölmə rəisi Abdullayev mənə işlə tanış olmaq və ərizəmi əlavə etmək barədə vəd verdilər. İyunun 5-də müvafiq vədlərinə görə prokurora və bölmə rəisinə müraciət etdim. İyunun 19-da mən 24373 №-li işlə tanış olmağa başladım. Həqiqəti bərqərar etmək məqsədilə bir sıra qeydlər və əlavələr etmək istəyirəm".

N.M.Şahsuvarov hansı həqiqətləri bərpa etmək istəyirdi və onun bu əlavələrinin sonrakı taleyinin dəyişməsinə nə kimi təsiri ola bilərdi. Bu cavabsız sualları neçə illərdən sonra o, özünə çox vermişdi. İndilik isə bir parça, lap öləzimiş, iynə ucu boyda ümid də bəsiydi. Təki, onu eşitmək istəsinlər, söylədiyi həqiqətə

inansınlar, yol verilmiş özbaşınalıqların aşkarlanmasından çəkinməsinlər. Ancaq Nurməmməd bəy kimlərinsə həqiqəti dinləmək istədiyini düşünəndə necə yanıldığını, rejimin onun kimilərə aman verməк fikrindən uzaq olduğunu bilsəydi, bəlkə də susardı.

"1-ci Pənah Qasımov Əli Səbri Qasımova istinadən (1-ci cild, səh 108.), Əli Səbri Qasımov isə Əşrəf Hacıyevin sözlərinə görə məni əksinqilabi təşkilatın üzvü hesab edir. Ancaq B.Çobanzadə ilə üzləşməsində Pənah Qasımov göstərir ki, o, heç vaxt heç bir əksinqilabi təşkilatın üzvü olmayıb. Şahsuvarov və Əli Səbri Qasımovla əlaqələri zəif olub və onların əksinqilabi təşkilata məxsusluqları barədə heç nə bilmir. Ə.Hacıyev ifadələrində özünü heç nədə günahOar saymır və P.Qasımov, Ə.S.Qasımovla üzləşdirilməsindən məlum olur ki, onlar mənə şər atıblar. Adı çəkilən şəxslərlə mənim heç bir üzləşdirilməm olmayıb. Yalnız Rzabəyli ilə üzləşdirilmişəm. Rüstəmbəy Sultanovla 1938-ci ilin may ayının 5-də üzləşdirilməyim necə alt-üst oldusa, heç qeydə də alınmadı. Rzabəyli ilə mənim əlaqələrim 1924-cü ildən, o, Pedoqoji institutda direktor işləyəndə kəsilmişdi... R.Sultanov onun mənim tərəfimdən əksinqilabi təşkilata 1924 və 1928-ci ildə cəlb edildiyini deyir. Birinci tarixlə ikinci arasında 4 il müddət keçib. R.Sultanovun guya onun mühacirətdə olan qardaşı ilə arvadı alman təbəəsi olan öz qardaşım vasitəsilə əlaqə saxlamağım barədə dediyi tamamilə böhtandır. Bütün bunlar alçaqlıqdır. Xahiş edirəm şahid kimi Sultanovun arvadı Zeynəb xanımı dindirəsiniz və öz böhtançı ərinin yerinə qızarsın.

Zeynallı Sanılıya əsaslanan ifadəsində göstərir ki, mənim mənzilimdə müsavatçılar toplaşır. Mənim qonşum Ter-Markasovlar hər vaxt deyə bilərlər ki, mənim evimə kimlər gəlirdi. Onlarla bizim aramızda böyük bir pəncərə vardı və hər iki tərəfdən pərdəsizdi. Sanılı ilə mənim köhnə haqq-hesabım vardı. Sanılı menşevik idi. Bütün Gəncə Hacıkərim Sanılını mühafizənin agenti kimi tanıyırdı. 1930-cu ilin payızında Sanılı Yazıçılar birliyi tərəfindən AKİİ-yə Azərbaycan dili müəllimi göndərildi. Üç ay sonra o, kafedra müdiri kimi mənə müraciət etdi ki, ona dosent adı verək. Mən bu xahişi yerinə yetirmədim. Birincisi onun ali təhsili yox idi. İkincisi heç bir elmi işi yox idi və nəhayət yeni işçi kimi direktorluq, partiya təşkilatı və elmi işçilər bölməsi onu tanımırdı. Sonra o, başqa yolla bu adı almağa çalışdı və instututdan getməyə məcbur oldu. Bunlar S.M.Qəniyevə və direktor müavini Hüseynova yaxşı məlumdur. Zeynallı öz ifadəsində Sanılının böhtanına əsaslanır. Yeri gəlmişkən, 1935-ci ildə keçmiş xalq komissarı Sumbatov və Əliyev məni Zeynallı ilə əlaqələndirməyə çalışırdılar ki, (mən onunla tanış deyiləm) akademiyanın filalından mənim vasitəmlə hansısa məlumatlar alsınlar, mən akademiya xətti ilə işləməkdən imtina etdim. ... İşdə qeyd olunur ki, mənə qarşı ittiham 1938-ci il 15 martda irəli sürülüb. Bu vaxt mən Moskvada idim. Həqiqətdə mənə ittiham 1938-ci il 29 avqustda təqdim olunub. Dindirilmə protokollarının tarixi, ifadələr istənilən kimi dəyişdirilib. Axtarış 15 apreldə aparıldığı halda tarix 19 aprel 1938-ci il göstərilib. Həqiqətən karandaşla yazılmış protokol işdə yoxdur, dəyişdirilib. Onu Məmmədov diqtə etmiş müstəntiq Kukudcanov yazmışdı. Kukudcanovun "karandaşla yazım" sualına Məmədov cavab verdi - hə, biz sonra onu işləyərik. Məmmədov istintaqı Azərbaycan folklorunda deyildiyi kimi: "özü yazar, özü pozar, kim bilir, nə yazar" aparırdı. (bu qədər saxtakarlığa yol verənlər guya dəqiqliklərini nümayiş etdirmək üçün N.Şahsuvarov həbsə alınarkən yazılmış 14980 saylı qəbul qəbzində göstərirdilər ki, ondan 41 rubl 75 qəp götürülmüşdür - L.Ş.). Məmmədov məni ürəyi xəstə, böyrəklərində daş olan şəxsi sutkalarla, həftələrlə ayaq üstə qalmağa məcbur edirdi, bir gün naharsız saxladılır, bir gün su vermədilər. Kukudcanov Məmmədovdan icazəsiz mənə su verirdi, oturmağıma icazə verirdi. Mənim üçün ən təsirli vasitələrdən biri Məmmədovun dilindən çıxan küçə söyüşləri, təhqiramiz sözlər idi. Dəfələrlə Kukudcanovdan xahiş etmişdim ki, Məmmədov hansısa sərhəd gözləsin, təhqiramiz ifadələr işlətməsin. Hədə-qorxular hər saat təkrar olunurdu. Deyirdilər: - Sizi donuz kimi döyəcəklər, sizi heyvan kimi döyəcəyik. İt kimi güllələyəcəyik. Mən Məmmədovdan xahiş etmişdim ki, fiziki və mənəvi təsir

üsullarından xilas etmək üçün tez güllələsinlər. 10 qəpiklik gülləni əsirgəməyin deyirdim. Nə üçün 10, 7 qəpiklik güllə. Mən ilk dəfə öyrəndim ki, güllə 7 qəpikdir. Məmmədov mənə deyirdi ki, Şahsuvarov, sizi də Pənah Qasımovun taleyi gözləyir. Mən onun bütün dişlərini tökdüm, ağzını qulağına qədər cırdım. Sizi, Şahsuvarov döşəmədə sürüyəcəklər, top kimi ayaqlarının ucunda vuracaqlar, siz gəbərəcəksiniz, həkim çağırıb akt tərtib edəcəyik. O, bunları XDİK əməkdaşının yanında deyirdi. Soyadını bilmirəm. Mayın 22-də kağız əldə edən kimi mən İ.V.Stalinə, Yejova, Vışinskiyə və M.C.Bağırova şikayət yazdım. Mən həbsxana rəisindən xahiş etdim ki, bu məktubu çap edib göndərsinlər və şikayətin surətini işə tiksinlər. Rəis dedi ki, əvvəlcə müstəntiqə müraciət etmək lazımdır. Cavabı da müstəntiqdən almaq lazımdır. Xahiş edirəm mənim həbs edilənə qədərki İ.V.Stalinin, Molotovun, Kalininin adına bütün ərizələrimi işə əlavə edəsiniz. Yuxarıda adı çəkilən şəxslərdən başqa şahid kimi Şahnəzərov Ruben Nikolayeviçi çağırasınız. Xahiş edirəm şahidlərin ifadələrindəki ziddiyətlərə diqqət yetirəsiniz. Sənədlərdən göründüyü kimi, hamı ilə kifayət qədər üzləşdirmə aparılıb. Mən isə bir dəfə üzləşdirilmişəm. Ədalət naminə xahiş edirəm mənimlə də bir neçə üzləşdirmə aparasınız. 28 iyul 1939-cu il".

Bu ərizənin taleyi ilə əlaqədar işdən aydın olur ki, 29 noyabr 1939-cu ildə 2 №-li həbsxana rəisi Nurməmməd Şahsuvarovun ərizəsini XDİK xususi şöbəsinə göndərib.

Xüsusi şöbə isə öz növbəsində 1№-li Bayıl həbsxanasının rəisinə məxfi məktubla müraciət edib: "Həbs olunmuş Nurməmməd Şahsuvarovun ərizəsini qaytarırıq, ona elan edin ki, onun istintaq işi Xüsusi müşavirəyə göndərilib. Ərzaq ötürülməsi qadağan edilib, ay ərzində həbsxananın köşkündən ərzaq alınmasına 50 rubl ötürməyə icaazə verilir. XDİK xüsusi şöbəsinin rəis müavini leytenant Xvatov, baş əməliyyat müvəkkili kiçik leytenant Filimonov. 9 dekabr 1939".

Necə deyərlər, vəssəlam, şüttamam. Başqa cür də ola bilməzdi.



Baxmayaraq ki, istintaqın yalanlarını üzə çıxarmaq üçün N.Şahsuvarov ona qarşı dilindən ittiham irəli sürülən şəxslərlə üzləşdirilməsinə razı idi. Müstəntiqlərə isə nə belə üzləşdirmələrdə aşkarlanacaq həqiqətlər, nə də N.Şahsuvarovun 19 aprel 1938-ci ildə dindirildiyi kimi dindirmələr təsir edə bilərdi. Onların əlavə materiallar toplamadan, heç bir ittiham irəli sürmədən də yalnız keçmişinə istinadən onu düşmən elan etməyə haqları vardı. Çünki rejim belə tələb edirdi və ictimai sifariş icraçılarının yeganə vəzifəsi onu can-başla yerinə yetirmək, növbəti siyahılar üçün yeni namizədlər aramaq idi. Elə bu məqsədlə də N.Şahsuvarova belə bir sual verilirdi: "Sizin tərəfinizdən əksinqilabi təşkilata cəlb etmə faktları barədə danışın.

Cavab: Tərəfimdən birinci dindirmədə göstərdiyim şəxslər aşağıdakı şəraitdə cəlb ediliblər. 1.Yusif Vəzirov, mənimlə bir yerdə AKNİ-də işləyib. Mən onunla hələ Kiyevdən tanış idim. Y.Vəzirov tələbə olarkən mənə millətçi kimi tanış idi, müsavat dövründə o, Azərbaycanın Türkiyədəki nümayəndəsi oldu. Azərbaycana xalq düşməni Zaqfederasiyanın keçmiş sədri Musabəyovun vəsatəti ilə qayıtmışdı. Söhbətdə Y.Vəzirov antisovet ovqat nümayiş etdirirdi, böhtan atırdı ki, guya çoxları manikenə çevriliblər, ancaq hakimiyyətin tələb etdiklərini qeyri-şüuru yerinə yetirirlər. Onu sovet hökuməti əleyhinə əksinqilabi ovqatlı, tələbələr arasında əksinqilabi iş aparan şəxs kimi tanıdığım üçün o, mənim təklifimlə razılaşdı. Bu təqribən iki il yarım, üç il qabaq olmuşdu. 2. Rüstəmbəy Sultanov, Azneftin mühəndisi, 3.Həmidağa Cəvanşir, meşəçi, mülkədar, ittihadçı. Mən onunla Rüstəmbəygildə rastlaşdım. Cəvanşir əksinqilabi təşkilatda fəal iştirak edirdi. 4. Şahsuvarov Səməd mənim qardaşım. Mənimlə Bakıda görüşmüşdü. Onda Səməd Laçın rayonunda işləyirdi.

Sual: Sizə əksinqilabi blokun, yaxud təşkilatın ayrı-ayrı üzvlərinin mühacirətlə əlaqələri barədə daha nə məlumdur?

Cavab: Rüstəmbəy Sultanovun evində mən tez-tez qətiyyətli, cəsur, vaxtaşırı İrandan Azərbaycana gələn şəxs kimi Salmanın adını eşidirdim. Bilirdim ki, Salman Xosrov bəyi və

qardaşlarını Arazdan indi Xosrov bəyin qardaşlarının yaşadıqları İrana keçirmişdi.

Sual: Sizə haradan məlum idi ki, Salman tez-tez Azərbaycanda olur?

Cavab: Bu mənə Rüstəmbəy Sultanovun və onun Qarabağda yaşayan bacısı Aftab xanımın sözlərindən məlum olmuşdu".

N.Şahsuvarov və digərlərinin cinayət məsuliyyətinə cəlb edilməsi işi ilə bağlı istintaqın müddətinin uzadılması üçün 1938-ci ilin fevral, mart, aprel, may, iyun, iyul aylarında SSRİ Ali Sovetinin Rəyasət Heyəti qarşısında vəsatət qaldırılır.

R.Sultanovun həbsi və tez-tez "dindirilməsi" yuxarıda qeyd etdiyimiz kimi Nurməmməd bəyin, yaxud başqa şəxslərin ifşa olunmasından daha çox onun mühacirətdə yaşayan qardaşları barəsində məlumatlar toplanması məqsədi güdürdü. Çünki NKVD həbsxanasında saxlanılan şəxsləri istənilən cinayətdə günahkar hesab etməyə imkan vardı və bu praktika işdə dəfələrlə sınaqdan çıxarılmışdı. Başlıca məqsəd sovet hökumətinin xaricdəki əleyhdarlarını aradan götürmək üçün hansısa məlumatlar əldə etmək idi və 10 yanvar 1938-ci ildə R.Sultanovun növbəti dindirilmə protokolunda bu açıq-aydın duyulur.

Sual: İstintaqa qardaşınız Xosrov Sultanovun mühacirətdəki rolu barədə haradan məlum olduğu haqqında məlumat verin.

Cavab: Qardaşım Xosrovun mühacirətdəki fəaliyyəti barədə mən 1928-29-cu illərdə Az.KP MK-nın keçmiş katibi Əliheydər Qarayevin onun fəaliyyəti barədə "Bakınski raboçi" qəzetindəki yazısından öyrəndim. Sonra Türkiyədəki səlahiyyətli nümayəndə Meyeroviçdən öyrəndim ki, qardaşım Xosrov Trapezundda yaşayır və öz ixtisası üzrə işləyir, daha sonra isə qardaşım Xosrov barəsində keçmiş mühacir Yaqub Vəzirovdan eşitdim ki, Xosrov İstanbulda yaşayır və siyasi fəaliyyətlə məşğul olur.

Sual: İstintaqa məlumdur ki, oğlunuz hazırda əksinqilabi fəaliyyətinə görə məhkum edilmiş İskəndər Almaniyada qardaşınız Xosrovla əlaqədə olub.

Cavab: Mənim oğlum Almaniyadan SSRİ-yə 1934-cü ildə gəlib və gələndə deyib ki, Xosrovla bir vaxtlar yazışıb, sonra



isə guya onunla əlaqəni kəsib, çünki o, oğluma maddi köməklik göstərməkdən imtina edib. İskəndərin sözlərinə görə, o, Almaniyada Xosrovla görüşməyib.

Başqa bir maraqlı detal. Şahsuvarov 1939-cu il 7 aprel, Rüstəm bəy isə 1939-cu il 9 apreldə verdikləri ifadədə bəyan ediblər ki, onlar əksinqilabi təşkilata üzv olmaqda özlərini günahkar saymırlar və bu etirafı repressiya məruz qalacaqlarından ehtiyat edərək söyləyiblər. Sonra isə əlavə olaraq özlərinə və başqalarına böhtan atdıqlarını söyləyiblər.

Və nəhayət Nurməmməd bəyin ərizəsində göstərdiyi yeganə üzləşdirmə protokolu barədə. Bu sənədin hansı həqiqətləri aşkara çıxardığını, yaxud işlə əlaqədar elə bir əhəmiyyət daşımadığını araşdırmadan onu çox cüzi ixtisarla oxuculara çatdırırıq. Yalnız onu qeyd edirik ki, N.Şahsuvarovun Fətulla bəy Rzabəyli ilə üzləşdirilməsi protokoluna istinadən (22.06.38) sovet cəza orqanlarının iş metodları haqqında təsəvvürləri daha da genişləndirmək istəyirik:

"Sual: Fətulla bəy Rzabəyli siz əksinqilabi ittihadçı təşkilata müsavat dövründə Nurməmməd Şahsuvarov tərəfindən cəlb edildiyiniz barədəki ifadənizi təsdiq edirsinizmi?

Cavab: Bəli, mən 1919-cu ildə müsavat dövründə təhsil nazirliyində işləyərkən Nurməmməd Şahsuvarov tərəfindən əksinqilabi ittihadçı təşkilata cəlb edildiyimi təsdiq edirəm.

Sual: Nurməmməd Şahsuvarov Fətulla bəy Rzabəyli sizin tərəfinizdən əksinqilabi ittihadçı təşkilata cəlb edildiyini düzmü deyir?

Cavab: Fətulla bəy Rzabəyli düz demir. İttihad partiyasına mən Rzabəyli tərəfindən 1919-cu ilin sonunda, partiyanın birinci qurultayı olarkən cəlb edilmişəm.

Sual: Fətulla bəy Rzabəyli buna nə deyirsiniz?

Cavab: Şahsuvarov düz demir.Mən onu necə əksinqilabi ittihadçı təşkilata cəlb edə bilərdim ki, o, təhsil nazirinin müavini idi və itihad partiyasının liderləri Sultan Məcid Qəniyev və Qarabəy Qarabəyovla çox yaxın idi. Bundan əlavə mən ikinci dəfə İttihad təşkilatına Şahsuvarov tərəfindən 1929-cu ildə daxil olmuş, tapşırıqla millətçi təmayüllü əksinqilabi kitablar buraxmışam.

Sual: Nurməmməd Şahsuvarov, Fətulla bəy Rzabəyli 1929-cu ildə sizin tərəfinizdən əksinqilabi təşkilata cəlb edildiyini düzmü deyir?

Cavab: İnkar edirəm, Rzabəyli indi də doğru danışmır.

Sual: (Fətulla bəy Rzabəyliyə). Şahsuvarova harada və hansı vəziyyətdə 1929-cu ildə sizi əksinqilabi ittihadçı təşkilata cəlb etdiyini xatırladın.

Cavab: 1929-30-cu illərdə bir dəfə mən N.M.Şahsuvarovla Torqovıy küçəsi ilə Bolşoy Morskoyun kəsişdiyi yerdə rastlaşanda o, mənə İttihadçı əksinqilabi təşkilatın fəaliyyət göstərdiyini dedi və sənin də mütləq oraya daxil olmağın lazımdır, dedi.

Sual: N.Şahsuvarov, indi nə deyə bilərsiniz?

Cavab: Öz ifadəmdə israr edirəm ki, heç bir belə hal olmayıb və mən Rzabəyli ilə heç nə barədə danışmamışım".

8 fevral 1938-ci ildə 4-cü şöbənin əməliyyat müvəkkili DT leytenantı Y.Abdullayev: Qasımov Pənah Əkbər oğlunun, Qasımov Əli Səbri Cəmil oğlunun, Rüstəmov Rüstəmbəy Paşabəy oğlunun, Şahsuvarov Nurməmməd Adilxan oğlunun, Rzabəyli Fətullabəy Əzizbəy oğlunun, Hacıyev Əşrəf Yunis oğlunun və Mahmudov Ələkbər Əbdürrəhman oğlunun Az.SSR CM-in 64, 69 və 73 maddələri, qalanlarının isə 21, 64, 69 və 73-cü maddələri ilə ittiham olunmaları ilə əlaqədar 24373 №-li istintaq iişinə baxaraq müəyyənləşdirir:

"İstintaq materiallarının nəzərdən keçirilməsi zamanı aydın olur ki, yuxarıda göstərilən maddələr üzrə ittihamlarda həmin şəxslərin mədəniyyət cəbhəsində ziyankarlıqla məşğul olmaları barədə sənədli sübutlar yoxdur, həmçinin ittiham olunan Şahsuvarov Nurməmmədin casusluq fəaliyyəti barədə. Bununla yanaşı, istintaq tərəfindən yuxarıda adı çəkilən müttəhimlərin millətçi əksinqilabi qiyamçı təşkilatın üzvü olduqları müəyyən edilmişdir.

Həmin təşkilatın üzvü kimi onlar əksinqilabi təşkilata yeni şəxslərin cəlbedilməsi ilə bağlı iş aparmış, təşkilatın məqsəd və vəzifələrini təbliğ etmişlər ki, bu barədə işdə onların özlərinin etirafları və şahid ifadələri var. Göstərilənlə əlaqədar Qərara alıram:

İttiham qərarından 69 və 21-ci maddələr çıxarılmaqla, bütün müttəhimlər barəsində Az.SSR CM-in 64, 73 və 72-ci maddələri qüvvədə saxlanılsın".

4-cü ş-bə, 2-ci bölməsinin rəisi Məlikcanov və şöbənin rəis müavini DT baş leytenantı Atakişiyev bu qərarı təsdiq edirlər.

Ancaq maraqlıdır ki, həmin qərardan sonra da istintaq prosesi davam etdirilmişdir. Bu həm yuxarıda isnad olunan sənədlərdən, həm də aşağıdakı məlumatdan aydın olur.

1938-ci il avqustun 8-də saat 11-də 4-cü bölmənin əməliyyat müvəkkili M.Məmmədov Şahsuvarova istintaqın bitdiyini elan edən və ondan istintaqa nəsə əlavə etmək istədiyi soruşulan protokol təqdim edir. N.M.Şahsuvarov heç bir əlavəsi olmadığını bildirir.

1939-cu il sentyabr ayında 24373 saylı istintaq işinə baxan XDİK yanında Xüsusi Müşavirə Nurməmməd Şahsuvarovu:

- əksinqilabi millətçi qiyamçı təşkilatın üzvü olmaqda, Azərbaycanı SSRİ-dən zorla ayırmaq mövqeyində dayanmaqda;
- təhsil sahəsində əksinqilabi pozuculuq işi aparmaqda;
- əksinqilabi millətçi təşkilata yeni üzvlərin cəlb edilməsi ilə məşğul olmaqda günahlandırır.

Əvvəlcə günahını boynuna alıb, ancaq sonra ifadələrindən imtina edib. Bunu istintaq tərəfindən fiziki təzyiqə məruz qalacağından qorxduğu üçün etdiyini və özünə, yoldaşlarına qarşı böhtan söylədiyini bildirib.

Öz etirafından əlavə R.Sultanov, Çobanzadə, Ə.Pepinov, P.Qasımov, Qubaydulin, Berezina, A.Sultanova, C.Məmmədov, S.Şahsuvarov, Ə.S.Qasımov və Qayıbovun ifadələri ilə ifşa olunmuşdur.

Az.SSR XDİK müavini kapitan Kərimov.

SSRİ Dİ Komissarlığı yanında Xüsusi Yığıncağın 10 saylı protokolundan çıxarış: "Dinlənildi: 1881-ci il təvəllüdlü, Laçın rayonunun Minkənd kənd sakini, SSRİ vətəndaşı, bitərəf, Müsavat hökumətində maarif nazirinin müavini Nurməmməd Adilxan oğlu Şahsuvarovun ittiham edilməsi ilə bağlı 24373 №-

li İş. Qərara alındı: Nurməmməd Adilxan oğlu Şahsuvarov millətçi antisovet, qiyamçı təşkilatda iştirakına görə 3 mart 1938-ci ildən hesablanmaqla 5 il müddətinə Krasnoyarsk diyarına sürgün edilsin. Xüsusi Yığıncağın katibliyinin rəisi İvanov 9 feral 1940-cı il".

Xüsusi Müşavirənin 9 fevral 1940-cı il qərarı ilə Nurməmməd Şahsuvarov və Rüstəm bəy Sultanov 5 il müddətinə Krasnoyarsk diyarına sürgünə göndərilirlər...

20 mart 1940-cı ildə Az.SSR XDİK Moskvaya 1-ci Xüsusi Şöbənin rəisinə məlumat verir: "SSRİ XDİK yanında Xüsusi Müşavirənin 9 fevral 1940-cı ilə qərarı ilə Nurməmməd Şahsuvarov məhkum edilərək Krasnoyarsk şəhərinə göndərilib. 13 mart 1940-cı ildən Kransoyarsk UXDİK-nin sərancamındadır".

Nurməmməd bəy bir də 16 ildən sonra Stalinin ölümü ilə böyük bir qrup respressiyaya məruz qalanlara bəraət veriləndə sovet orqanlarının yadına düşür və 13 iyun 1956-cı ildə Şahsuvarovun işi NS yanında DTK-nın Uçot-arxiv şöbəsinin rəisi mayor Axundovun imzası ilə Az.SSR Ali Məhkəməsinin sədr əvəzi Ə.Əliyevə göndərilir.

9 noyabr 1955-ci ildə Az SSR Prokurorunun müavini 3-cü dərəcəli ədliyyə müşaviri Babayevin imzası ilə Az. SSR Ali Məhkəməsinin Cinayət İşləri üzrə Məhkəmə kollegiyasına Şahsuvarovun, Əli Səbri Qasımovun, R.Sultanovun, Əşrəf Hacıyevin, Mahmud Ələkbərovun haqqındakı cinayət işlərinin sübuta yetirilmədiyinə görə və sonuncunun işində cinayət tərkibi olmadığına görə 1940-cı il 9 noyabr qərarının ləğv edilməsi və işi bağlamaq barədə protest verir.

21 fevral 1956-cı il Az.SSR Prokurorunun xüsusi işlər üzrə müavini İ.İsmayılov DTK arxiv şöbəsindən: "Əli Səbri Qasımovun, Nurməmməd Şahsuvarovun və b. işləri göndərməyi" xahiş edir və bildirir ki, "Az.SSR Ali Məhkəməsinin 17.12.1955-ci il qərarı ilə onlar haqqındakı cinayət işi dayandırılmışdır"

Beləliklə Nurməmməd Şahsuvarov bəraət aldı.



## Milyonçu mesenatın nazir oğlu

Azərbaycanda ən böyük sənaye maqnatlarından sayılan, milyonçu Şəmsi Əsədullayevin (1840-1913) adı əsrin başlanğıcında təkcə öz vətənində və Rusiyada deyil, Avropanın Bakı neftinə maraq göstərən dövlətlərində də məşhur idi. Şəmsi Əsədullayevin neft mədənləri, sənaye müəssisələri vardı, bir-birindən yaraşıqlı və dəbdəbəli mülklərin sahibiydi. Özü də bu obyektlər və mülklər təkcə Azərbaycanda deyil, Rusiyanın bir neçə iri şəhərində, o cümlədən Moskvada və hətta uzaq xaricdə də yerləşirdi. Ancaq onu öz vətənində məşhurlaşdıran, hörmət və nüfuz sahibi kimi tanıdan var-dövlət sahibi olmasından daha çox mesenatlığı, onlarla, yüzlərlə adama əl tutması idi. Azərbaycan övladları üçün açdığı məktəblər, millətinə göstərdiyi xeyriyyəçilik xidmətləri, ölkənin gələcəyini düşünərək qabiliyyətli gənclərin Rusiya və Avropanın tanınmış ali təhsil ocaqlarında oxumalarına maddi yardımlar etməsi, ixtisası uyğun gələnləri öz zavodlarında və mədənlərində işlə təmin etməsi idi. Onun sənaye obyektlərində Behbudağa Cəvanşir, Məmmədhəsən Hacınski kimi məşhur dövlət və siyasi xadimlər, Azərbaycanın başqa tanınmış şəxsləri işləmişdilər.

Bir sözlə milyonçu, mesenat Şəmsi Əsədullayev milli tərəqqi yolunda böyük xidmətləri olan bir şəxsiyyət kimi tariximizdə özünə əbədi yaşamaq haqqı qazınmış bir insandır. Onun zəmanəsinin əsl ziyalısı kimi təhsilə və elmə yüksək

qiymət verməsi, bu yolda bütün imkanlarını əsirgəməməsi deyilənləri bir daha təsdiqləyir. O, bir çox soydaşlarımızın təhsil aldığı Tiflisdəki Aleksandrovski Müəllimlər İnstitutunun əsas himayədarlarından biri olmuş, Bakıdakı təhsil ocaqlarına müntəzəm maliyyə yardımları göstərmişdir. Ş.Əsədulalyev 1903-cü ildə Moskvaya köçmüş və ömrünün axırına qədər orada yaşamışdır. Moskvada dəbdəbəli saraylardan heç nə ilə geri qalmayan bir neçə mülki olan Ş.Əsədullayev bu mülklərdən birini həmin şəhərdə təşkil edilmiş müsəlman xeyriyyə cəmiyyətinə bağışlamışdır. Təkcə bu faktın özü onun necə insan olduğunu, xalqı üçün hansı işlər gördüyünü əyani nümayiş etdirir. Bəlkə də bütün bunlar kasıb bir kəndlinin ailəsində doğulduğuna görə idi. O, çətinlik nə olduğunu görmüşdü və dünya malına aludə deyildi.

Ş.Əsədullayevin oğul nəvəsi məşhur yazıçı Ümmülbanu (Banin) "Qafqaz günləri" (Bakı, "Yazıçı", 1992) kitabında yazırdı: "... ailəmizin tanınma tarixi çox uzaqdan deyil, atamın babasından, Əsədullahdan başlayıb. Bu sözün mənası "allahın sevimlisi" deməkdir və həqiqətən də, ad özünü doğruldub. Həmən ulu babam adi kəndli ola-ola bir gün qoyun otardığı daş-kəsəkli torpağından neft fəvvarə vurub və kişini milyonçuya çevirib".

Bolşevik hakimiyyəti cəza orqanlarının kütləvi repressiyalarına məruz qalan Cümhuriyyət nazirlərindən biri də Şəmsi Əsədullayevin oğlu Mirzə Əsədullayev idi. Qızı onun haqqında yazırdı "Ailənin böyük oğlu olduğuna görə neft firmamızın Xəzər sahillərinə, Volqa boyuna səpələnən, Moskvada böyük filialı olan, bir ucu Varşavaya gedib çatan müxtəlif müəssisələrinə rəhbərlik edirdi. Belə tərəqqidən həvəslənərək təsərrüfatı daha da genişləndirmək fikrindəydi. Geniş Rusiya ərazisində səfərlərə öyrəşmiş bir adam üçünsə Berlin çox da uzaq yer deyildi. Odur ki, sorağı tez-tez Almaniyadan gəlirdi".

Özlərinə sinfi düşmən hesab etdikləri bir şəxsin üstəlik Azərbaycanın müstəqil dövlətində yüksək məqam sahibi olmasını, hökumətin tərkibində millətinin iqtisadi və mənəvi yüksəlişi uğrunda əzm və peşəkarlıqla çalışmasını bolşeviklər



necə bağışlaya bilərdilər. "Bəy-xan hakimiyyəti" adlandırdıqları Xalq Cümhuriyyətini devirmələrinə savadsız kütlənin nəzərində haqq qazandırmaq üçün də Mirzə Əsədullayevin həbsi və cəzalandırılması göydəndüşmə bir imkan idi və bu imkandan qanlı rejimin quruculari məharətlə istifadə etdilər.



Муəллифин атасы-Мирзə Əсəдуллаjев.

Həbsə almazdan bir müddət qabaq onun və ətrafında olan adamların izlənilməsini təşkil edir, keçmişi və əlaqələri barəsində müfəssəl məlumatlar toplamağa çalışırlar. Əslində Mirzə Əsədullayev həm 11-ci ordunun xüsusi şöbəsinin, həm də Azərbaycan ÇK-sının nəzarəti altına düşür. Hər iki cəza orqanına rəhbərlik edən cəllad Pankratov onun cəmiyyətdən təcrid edilməsinin bacardıqca sürətləndirilməsi ilə bağlı tabeliyindəki işçilərə qəti göstərişlər verir. Bir-biri ilə sanki yarışa girən bu əməkdaşlar bütün imkanları işə salırlar.

113 №-li əməkdaş agenturanın rəisinin tapşırığı əsasında ona xəbər verir: "Sizin 1236 saylı tapşırığınıza görə məlumat verirəm ki, Mirzə Şəmsi oğlu Əsədullayev Balaxanı həbsxanasında oturub, ancaq hazırda FK-ya keçirilib, guya onu güllələmək istəyirlər. Bu məlumatlar M.Əsədullayevin yaşadığı Qoqol küçəsindəki evində həbsxanaya ona yemək aparan M.Əsədullayevin xidmətçisindən toplanıb. M.Əsədullayevin qızı hazırda Mərdəkanda bağ evindədir".

Agentura yolu ilə toplanmış bu məlumatlar onun əksinqilabi fəaliyyətdə günahlandırılaraq həbs edilməsi üçün daha tutarlı dəlillərin əldə olunması məqsədi güdürdü. Ancaq təbii ki, heç bir siyasi partiyanın üzvü olmayan və siyasi məsələlərlə çox az maraqlanan bir şəxsə qarşı belə ittihamlar irəli sürülməsi üçün faktlar əldə etmək əslində mümkün deyildi.

Əlbəttə, yeni hakimiyyətin məntiqi ilə belə ittihamlara əslində ehtiyac yox idi. Çünki hakimi mütləqlik hüququ onların bütün hərəkətlərinə haqq qazandırırdı. Çünki Mirzə Əsədullayev kimi insanların dünyası sona yetmişdi. Ümmülbanu yazdığı kimi: "Bir neçə gün sonra səhər tezdən küçədə çalınan "İnternasional" himninin səsinə yuxudan oyandım. Yerimdən qalxanda gördüm ki, küçədəki əsgərlər nə görkəmcə, nə də geyimcə Azərbaycan əsgərlərinə oxşamırlar. Bunlar rus əsgərləri idi... Mən öz gözlərimlə bir dünyanın sonunu gördüm".

MTN arxivində saxlanılan PR 688 saylı iş. Rəngi saralmış vərəqlər Mirzə Əsədullayevin taleyinin ən ağır günlərinin bəlkə də həyatda olan yeganə şahidləridir.

İstintaq-arxiv işindən aydın olur ki, o, aprel işğalından təqribən bir ay sonra 1920-ci il may ayının 2-də həbs edilib. Həmin gün Az.SSR FK-nın sədri Pankratov 129 saylı Order imzalayaraq komissar Djuravskiyə: "Axtarış aparmaq və Mirzə Əsədullayevi həbs etmək" tapşırığı verib.

Sənədin arxasında bu əmri yerinə yetirmiş komissarın imzası var: "M.Əsədullayevi həbs etdim" 27.05.1920.

Eyni gündə Az.SSR FK-da 783 saylı həbs vərəqi doldurulub: "Əsədullayev Mirzə Şəmsi oğlu 45 yaş, təhsili orta neft sənayesi işləri üzrə mütəxəssis, sənayedən gələn vəsaitlə yaşayır, ailəlidir, 129 nömrəli orderlə həbs edilib". Sənədin arxasında qeyd var: otuz səkkiz min rubl götürüldü.

FK-da qeydə alınmaqla həbs edilənlər və saxlanılanlar üçün tərtib olunan anketdə isə onun barəsində göstərilənlərə özünün dedikləri əsasında bir sıra yeni məlumatlar da əlavə edilir:

"Əsədullayev Mirzə Şəmsi oğlu, Azərbaycan dövlətinin vətəndaşı, müsəlman, Bakı şəhərində arvadı və dörd qızı ilə yaşayır. Bitərəf. Neft sənayeçisi, Şəmsi Əsədullayevin müəssisəsində varis, firmanın səlahiyyətli nümayəndəsi. 1919-



cu ildə ikinci hökumət kabinəsinin üzvü olub. Xəzinədən əmək haqqı alıb. Şəxsi əmlakı olmayıb. Məsuliyyətə cəlb edilməyib. Hərbi xidmətdə olmayıb".

"Nə vaxt həbs olunmusunuz?" sualının qarşısında "FK tərəfindən order təqdim edilmədən 27 may 1920-ci ildə həbs edilmişəm. Məni həbs edəcəklərini bildiyim üçün evdə qalıb FK agentini gözləmişəm. Qoqol küçəsi 9 nömrəli binada yerləşən mənzilimdə həbs olunmuşam. Tutulduğum üç gün ərzində bir dəfə də dindirilməmişəm. Nəyə görə həbs olunduğum və ittihamın nədən ibarət olduğu mənə aydın deyil".

Anketin "Məhbusun qeydləri" adlanan hissəsində isə Mirzə Əsədullayev yazıb: "Xüsusi həkimimin rəyinə görə xəstəliyimin cərrahiyyə əməliyyatına ehtiyacı olduğuna baxmayaraq, mənim bütün xahişlərim cavabsız qalıb".

Az.SSR FK əməkdaşları Kvyatkovski və İvanovun onun mənzilində və üzərində apardıqları axtarış nəticəsində aşağıdakılar aşkar edilib götürülür: "25 min rubl pul, iki gümüş pul, böyük tapança, 40 ədəd gülləsi ilə birlikdə, kiçik "Brauninq" №153859, patron darağı və iki sumka güllə ilə birlikdə, 20 ədəd gümüş qaşıq, gümüş süd qabı iki ədəd, gümüş qaşıq 4 ədəd, 2 ədəd gümüş şamdan və s. gümüş əşyalar".

Müvafiq protokol tərtib edilərək götürülmüş əşyalar Uvarov soyadlı digər əməkdaşa təhvil verilir.

Ümmülbanu atasının həbsini belə xatırlayır: "Hava xoş, təbiət gözəl olsa da, atam evdə qapanıb qalır, çölə çıxmağa cəsarət etmirdi. Sarı rəngli nazir şəridini şkafın siyirməsinə atmışdı... Bir müddət ciddi dəyişiklik baş vermədi. Sonra atamı həbs etdilər. Nazir, varlı adam və rəqib bir partiyanın başçısı olduğu üçün təzə rəhbərlərin gözündən kənarda qala bilməzdi. Ertəsi gün evimizi yoxlamaq üçün komissiya gəldi. Evi yoxlayıb belə qərara gəldilər ki, mənzilimiz bizə lazım olduğundan çox genişdir. Elə həmin gün komissar, arvadı və əməkdaşları bizim evə köçdülər."

Oxucu yəqin razılaşar ki, çox məşhur bir soyadın məşhur nümayəndəsi olmasına baxmayaraq, Mirzə Əsədullayev və onunla bərabər bu soyadı daşıyanlar barəsində məlumatlı şəxslər barmaqla sayıla bilər. Əlbəttə, sovet rejiminin

mövcudluğu illərində Azərbaycanın bu cür əsilzadə, milyonçu ailələri haqqında söhbət açmaq qeyri-rəsmi şəkildə yasaq edilmişdi. "Əsilzadə", "milyonçu" sözlərinin özünün arzuolunmaz sayıldığı, antisovet ifadələr siyahısına salındığı bir vaxtda quruluşun özünə düşmən bildiyi həmin şəxsləri necə təbliğ etmək olardı. Belə insanlar, onların nəsillərə nümunə olan xeyirxah əməlləri barədə nüfuz sahiblərinin ara-sıra qeydlər istisna edilməklə yalnız rejimin süqutunun son illərində açıq yazmaq və danışmaq imkanı yarandı. Müstəqil bir dövlətin vətəndaşları 20-ci əsrin Şərqdə ilk demokratik respublikası olmuş Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları barəsində istənilən qədər məlumat almaq və onların şərəfli ömür yolunu öyrənmək imkanı qazanmışlar. Fəaliyyəti ilə qürur duyduğumuz həmin hökumətin nazirlərindən biri kimi Mirzə Əsədullayevin həyatının hərtərəfli tədqiq və təbliğ olunması'da bizlərin mənəvi borcudur.

Mirzə Şəmsi oğlu Əsədullayev 1875-ci ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Bakı gimnaziyasında başa vurduqdan sonra o, atası Şəmsi Əsədullayevin neft şirkətində əmək fəaliyyətinə başlamışdır. Ancaq sonra təhsilini heç bir ali məktəbdə davam etdirməməsinə baxmayaraq, atası onun mükəmməl təhsil görməsi, dövrünün əsl ziyalısı kimi yetişməsi üçün evdə hərtərəfli təhsil görməsinə lazımi şərait yaratmışdı. Atası Moskvada yaşadığı illərdə Bakıda neft şirkəti ilə bağlı bütün məsələləri həll edən Mirzə üçün bu fəaliyyət ikinci məktəb rolunu oynayır, o, sahibkar kimi şirkətin az qala bütün işləri ilə məşğul olmaqla kifayət qədər püxtələşir. Mirzə Əsədullayevin Avropa ölkələrini gəzməsi də onun dünyagörüşünün formalaşmasında mühüm rol oynamış, Avropa mədəniyyətini qavramasına, bir ziyalı kimi formalaşmasına güclü təsir göstərmişdir. Məktəbdə və evdə rus dilində təhsil aldığı üçün türk dilini mükəmməl bilməyən M.Əsədullayev 1912-ci ildə Moskva konservatoriyasında oxuyan Üzeyir Hacıbəyovdan ana dilində dərs almışdır. Ü.Hacıbəyov Parisin Sorbonna Universitetində oxuyan kiçik qardaşı Ceyhun Hacıbəyliyə (1991-1962) 1912-ci ildə yazdığı məktubda bu məsələyə toxunur. ("Ədəbiyyat və incəsənət" qəzeti, 4 noyabr



1988-ci il). Üzeyir bəy kimi dahi şəxsiyyətdən, Azərbaycan publisistikasının ən böyük nümayəndələrindən birindən dərs almaqla türk dilini necə öyrənməyin mümkünlüyü barədə isə əlavə nəsə deməyə ehtiyac yoxdur.

Bəlkə də elə bu dərslərin təsiri idi ki, onda nəinki Azərbaycan ədəbiyyatına, həmçinin milli mətbuata çox böyük maraq yaranmışdı. Təsadüfi deyildi ki, 1915-ci il martın 11-də Mirzə Əsədullayev "Qardaş köməyi" adlı qəzet buraxmağa başlamışdı. Cəmi bir nömrəsi çapdan çıxan qəzetdə göstərilirdi ki, əldə olunacaq gəlir hərbzadə müsəlmanlar nəfinə, o cümlədən birinci dünya müharibəsi zamanı çar ordusundakı azərbaycanlılardan ibarət (rus mətbuatında "Dikaya diviziya" adı ilə tanınan) süvari qoşun hissələrindəki döyüşçülərə sərf ediləcəkdir.

Mirzə Əsədullayevin doğma milləti yolunda göstərdiyi xidmətlərdən biri də onun "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nə sədrlik etməsi idi. Qarşısına xalqın maarifləndirilməsi, imkansızlara yardımlar göstərilməsi və s. xeyirxah məqsədlər qoymuş bu cəmiyyət məhz bu vətənpərvər şəxsin vəsaiti hesabına bir sıra işlər görə bilmişdi. Bu xidmətlərinin nəticəsi idi ki, o, 1917-ci il martın 27-də Bakıda yaranmış Milli Müsəlman Şurasının Müvəqqəti icraiyyə komitəsinə üzvü seçilmişdir. Çünki həm ziyalılar, həm də xalq onun hansı əqidənin və yolun sahibi olduğunu dəfələrlə görmüşdülər, ona görə də lazımi məqamda geri çəkilməyəcəyinə, bacardığı köməkliyi göstərəcəyinə bel bağlayır, inandıqlarını gizlətmirdilər. Bu inam və etibar Cümhuriyyət dövründə ona daha böyük etimad göstərilməsi ilə nəticələndi.

Mirzə Əsədullayev əvvəlcə Azərbaycan parlamentinə üzv seçildi. Sonra isə əslində heç bir fraksiyada təmsil olunmayan bu bacarıqlı iş adamına yeni bir etimad göstərib Azərbaycan hökumətinin naziri postunu etibar etdilər. O, Fətəli xan Xoyskinin başçılıq etdiyi üçüncü hökumətdə (1918-ci ilin dekabrı - 1919-cu ilin mart ayına qədər) ticarət və sənaye naziri oldu. Çox mühüm bir sahəyə rəhbərlik edən Mirzə Əsədullayev Azərbaycanın xarici ölkələrlə ticarət əlaqələrinin yaradılmasına

və yerli sənayenin inkişaf etdirilməsinə ciddi səy göstərmişdir. Arxiv sənədləri sübut edir ki, o, nazir işlədiyi dövrdə artıq neçə illər atasının şirkətində qazandığı təcrübədən istifadə etməklə mövcud imkanların Azərbaycanda sənaye və ticarət işinin dirçəldilməsinə yönəldilməsinə çalışmış və bu məqsədinə ümumən nail olmuşdur.

Onu fərqləndirən, başqalarının gözündə ucaldan cəhətlərindən biri də son dərəcə obyektiv və səmimi olması idi. Hansısa mənafe xatirinə yüksək dövlət postu tumağa heç vaxt can atmayan M.Əsədullayev əksər çiyindaşları kimi vəzifəni xalqa xidmət üçün əlverişli imkan və vasitə hesab edirdi. Onun 1919-cu il aprel ayının 12-də Baş Nazirə yazdığı məktub da aydın göstərir:

"Zati Aliləri cənab Nazirlər Şurasının sədrinə

Ticarət və sənaye naziri M.Əsədullayevdən (12 aprel 1919-cu il): "Hökumət böhranının fövqəladə uzanması və Kabinetin yenidənqurulması ilə əlaqədar, mənim üzərimə düşən Ticarət və sənaye naziri vəzifəsini yerinə yetirmək çox çətinləşmişdir ki, mənim fikrimcə, işə zərər gətirə bilməz, o cümlədən mənim fəaliyyətimə və mənim tərəfimdən idarə edilən Nazirliyə. Göstərilənlər məni Siz Əlahəzrətlərinə məni Ticarət və sənaye naziri vəzifəsindən azad etmək barədə acizanə xahişlə müraciət etməyə məcbur edir."

Mirzə Əsədullayev məşhur milyonçu Musa Nağıyevin qızı Ümmül-Banu ilə ailə həyatı qurmuşdur. 1905-ci ildə axırıncı - dördüncü uşaq doğularkən Ümmül-Banu vəfat etmişdir. Onun xatirəsinə yeni doğulmuş uşağa anasının adını qoymuşlar. Atası həbsdən azad edildikdən sonra bir müddət Bakıda qalıb, 1924-cü ildə vətəni tərk edən Ümmül-Banu (Banin) sonralar ailəsi ilə birlikdə Fransanın paytaxtı Parisdə yaşamışdır. İndi o, yazıçı kimi bütün Avropada tanınmışdır. Ümmül-Banunun atası haqqında xatirələrini vaxtı ılə YUNESKO-nun əməkdaşı Ramiz Abutalıbov Cümhuriyyət dövrünün yorulmaz tədqiqatçısı M.Əliyevə göndərmişdir. (Mövsüm Əliyev "Odlar yurdu" yanvar 1989, №2). Yəqin həmin xatirələrin vətəndə yenidən çapının təşkili ilə həm Əsədullayevlər qarşısında mənəvi borcumuzu yerinə yetirər, həm də mərhum tədqiqatçının ruhunu şad edərdik.



Mirzə Əsədullayev isə 1920-ci ildə, qızından 4 il əvvəl Azərbaycan SSR hökumətindən rəsmi icazə alaraq xaricə getmiş,



[illegible]



[illegible]

ömrünün sonuna kimi (1936) Fransanın paytaxtı Parisdə yaşamışdır. Şəhərin müsəlman qəbristanlığında dəfn olunan Mirzə Şəmsi oğlu Əsədullayev (1875-1936) haqqında

"Azərbaycan Cümhuriyyəti sənədlər və materiallar 1918-1920-ci illər" məcmuəsində yuxarıda göstərilən məlumatlardan əlavə həmçinin onun 1918-ci ildən Bakı neft sənayeçiləri Şurası qurultayının sədri olduğu qeyd edilmişdir.

1920-ci il avqust ayının 29-da FK müstəntiqi Miskeviç tərəfindən dindirilən Mirzə Əsədullayev belə bir şəxsiyyət idi. Dindirilmə Protokolu belə bir müqəddimə ilə başlayır: "45 yaşlı, evdə təhsil almış, atasının yanında işləmiş (tacir), inqilabdan sonra atasının işini davam etdirmiş, valideynləri tacir olan, hazırda "Şəmsi Əsədullayev" adına firmada işləyən Mirzə Əsədullayev".

Müstəntiqin suallarına təmkinlə cavab verən keçmiş nazir deyir: "Həbs edilməyimin səbəbi mənə aydın deyil. Bakıda yaşayıb öz işimlə, neft sənayesi ilə məşğul olurdum. 1918-ci ilin 21 aprelində ailəmlə birlikdə İrana getdim və orada həmin ilin noyabrına qədər qaldım. Getməyimin səbəbi Bakıda qeyri-normal həyatla bağlı idi. Bu vəziyyət məni ailənin bir hissəsini Moskvaya göndərməyə məcbur etmişdi. Qalanlarını isə Rəştə apardım. Bakıda könüllü ordunun komanda heyəti mənə məlum deyil. Axtarış vaxtı tapılmış "Brauninq" tipli kiçik cib tapançası mənim yanımda yaşayan Xoroşova məxsusdur. Həmin silahın daşınması üçün tərəfindən Bakı şəhər komendantına ərizə yazılmışdı. İkinci tapança nadir nüsxə kimi kolleksiya nümunəsidir. Ordenlərə gəlincə mənim heç vaxt ordenim olmayıb, ümumiyyətlə almamışam. Həmin ordenlərə gəlincə görünür onlar Türk zabiti tərəfindən verilənlərdir. Belə bir hal olmuşdu ki, bir nəfər Türk zabiti məndən min rubl pul borc verməyi xahiş etmişdi. Mən pul verməyə tərəddüd edəndə o bağlamada ordenləri mənə verib dedi ki, zabit kimi bunların arxasınca dönəcək. Bundan sonra o, bir daha qayıtmadı. Mənim mənzilimdə tapılan ordenlər həmin ordenlər olmalıdır. Bağlı karobkada saxlanılan gümüş qablar isə şəfqət bacısına (adını, soyadını xatırlamıram) məxsusdur, saxlanılmaq üçün onun tərfindən qoyulmuşdur. Qalanları mənim ev əşyamdır. Mənim fəaliyyətim yol. Nərimanova, C.Vəzirova, Baba Əliyevə, Vasili Tateşviliyə və bir çox başqalarına yaxşı tanışdır. Qəti surətdə deyə bilərəm ki, onların hamısı məni ancaq yaxşı tərəfdən tanıyırlar".

Bu dindirilmənin aparıldığı ərəfədə artıq Mirzə Əsədullayev həbs edildiyi vaxt onun bacısı tərəfindən yazılmış xahiş ərizəsinə artıq müəyyən razılıq verilmiş, 3 gün əvvəl o, FK-nın təcridxanasından Bakı türməsinə göndərilmişdi. Bu xahişnaməni Sara xanımla yanaşı, Mirzənin digər iki bacısı da imzalamışdılar.

"Əksinqilab ilə mübarizə üzrə FK-ya

Qoqol küçəsi 9 saylı binada yaşayan Sara xanım Həsənova, qızlıq soyadı Əsədullayeva tərəfindən ərizə: "Cari ilin may ayının 27-də mənim qardaşım Mirzə Əsədullayev həbs edilib. Onun müntəzəm surətdə həkim köməyi tələb edən xəstə vəziyyəti həbs altında saxlanıldığı üçün onu bu imkandan məhrum edir və ona güclü fiziki əzablar verir. Buna görə, mən Fövqəladə Komissiyadan xahiş edirəm onu həbsdən azad edərək mənim və mənim bacılarımın himayəsinə versin. Bakı şəhəri 27 may 1920-ci il.

Biz aşağıda imza edənlər, Sara xanım Həsənova, Ağabacı Meylamova və Xədicə xanım Nağıyeva, qızlıq familiyaları Əsədullayeva, qardaşımız Mirzə Əsədullayevi zaminə götürərək, öhdəlik götürürük ki, Fövqəladə Komissiyanın ilk tələbi ilə onu Fövqəladə Komissiyaya təhvil verəcəyik".

Sənədin üstündə yol. Qrubnikova qeydi var. Çıxış №-935, 30.06.1920.

Fövqəladə Komissiyanın həbsxanasında 4 iyun 1920-ci ildən yatdığı qeydiyyata alınan Mirzə Əsədullayevin həbsdən azad edilməsi xahişi 26 avqust 1920-ci ildə 3149№-li sənədlə Fövqəladə Komissiya tərəfindən Bakı türməsinə göndərilir.

Nəhayət, 1920-ci il avqust ayının 29-da müstəntiq Miskeviç tərəfindən qərara alınır: "Mən FK istintaq hissəsinin möhtəkirlik və cinayət işləri üzrə səlahiyyətli nümayəndəsinin müavini vəzifəsində olan Miskeviç 29 avqust 1920-ci ildə Mirzə Əsədullayevin 772 saylı işi üzrə baxaraq və adı çəkilən Əsədullayevin böyük neft sənayeçisi, zavod, həmçinin ən nəhəng ev sahibi olmasını və tacir silkindən olmasını nəzərə alaraq Qərar qəbul etdim: Əsədullayevi girov hesab etmək və

işi arxivə göndərmək. Səlahiyyətli nümayəndənin müavini Miskeviç, səlahiyyətli nümayəndə M.Səfikürdski".

Sonra üstündən illər ötdükdən sonra qızı onun həbsxana həyatını belə yada salırdı: "Həftədə iki dəfə həbsxanaya yemək aparır, atamı isə ayda iki dəfə görə bilirdim. Qocalsa da, arıqlasa da, atam ruhdan düşmür, Cəmilin canfəşanlığı sayəsində həsxanadan çıxacağına ümid bəsləyirdi... Cəmilin dostu komissar axır ki, atamın həbsxanadan çıxarılmasına nail oldu və dekabrın axırına yaxın atam evə qayıtdı".

Daha sonra isə ona xaricə getmək üçün xarici pasport düzəldir və nəhayət Fransaya getməsini təşkil edirlər. Qızı yazır: "Tiflisə yola düşdük. Orada atamın Batuma gəlməsini gözləyəcəkdik. Atam Batumdan Fransaya getməli idi və biz onu yola salacaqdıq. Hələlik o, pasport gözləyirdi".

1921-ci ilin noyabr ayında baş tutan bu mühacirətdən bir müddət keçmiş Cəmilə ərə gedən Ümmülbanu özü də ən ümdə arzusuna - xaricdə yaşayan qohumlarının yanına getmək arzusuna qovuşur.

Biz Mirzə Əsədullayevə həbsdən azad olunmasında bir komissarın köməklik göstərdiyi barədə qızının qeydlərinə şübhə ilə yanaşmırıq. Ancaq belə bir gümanımızı gizlətmirik ki, onun həbsdən buraxılmasında Azərbaycanın o dövrkü rəhbərlərindən kiminsə, bəlkə də N.Nərimanovun rolu olmuşdu. Əks-halda fəhlə-kəndli hökumətinin və bolşevik ideologiyasının qatı düşmənini nəinki həbsdən azad edər, əksinə böyük məmuniyyətlə güllələyərdilər. Çünki, Mirzə Əsədullayev sadəcə milyonçu Şəmsi bəyin oğlu, sinfi düşmən olan bir kapitalist deyildi, o, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin naziri, candan sevdiyi millətinin, Vətəninin tərəqqisi yolunda xidmətləri olan bir şəxsiyyət idi. Onun kimilər yaşadıqca Azərbaycanın müstəqilliyinə, azadlığına inam, xalqın öz gücünə sonsuz güvənci yaşayırdı.



## Aslan bəy Səfikürdlü

1920-ci il aprel ayının 25-də Azərbaycan milli hökumətinin ən sonuncu müşavirələrindən biri keçirilirdi. Bütün parlament fraksiyalarının iştirak etdikləri bu müşavirədə gündəlikdə duran başlıca məsələ 11-ci qırmızı ordunun şimal sərhədlərimizə yaxınlaşması ilə əlaqədar yaranmış son dərəcə təhlükəli vəziyyətdə çıxış yolu tapılmasından ibarət idi. Artıq bir aya yaxın müddətdə M.Hacınskinin müxtəlif fraksiyalarla danışıqlar aparıb yeni hökumətin qurulması ilə bağlı razılığa nail ola bilməməsi aydın göstərirdi ki, parlamentin onun üzərinə qoyduğu kabinet təşkiletmə missiyası baş tutmayacaq. Yaranmış



*Асланбәј Агалар оғлу Сәфикурдски.*

təhlükəli durumda vəziyyətdən yeganə çıxış yolunu o, hakimiyyətin Azərbaycan kommunistlərinə təhvil verilməsində gördüyü barədə fikrini gizlətmir və təklifinin səsə qoyulmasını istəyirdi. M.Hacınskinin bu təklifi ilə ilk razılaşanlardan biri parlamentin sosialist fraksiyasının üzvü, sonuncu hökumət kabinetində ədliyyə və əmək naziri postu tutmuş Aslan bəy Ağalar oğlu Səfikürdlü (türk soyadlarını ruslaşdıran bolşeviklər onun da soyadını təhrif edərək sənədlərdə Səfikürdski kimi göstərmişlər - L.Ş.) oldu. Yerli kommunistlərin hakimiyyətə gəlmələrinə siyasi dəstək vermiş A.Səfikürdlü Azərbaycanın sovetləşməsindən heç iki il keçməmiş həbs edildi. Əslində hərbi müdaxilə təhlükəsi və təzyiqlərlə əldə etdikləri qanunsuz hakimiyyətlərinə zahiri legitimlik donu geydirməkdə onlara yardımçı olmuş bir şəxsin xidmətlərinin kommunistlər tərəfindən belə tezliklə "unudulma"sı hansı səbəblərlə bağlı idi?

Əlbəttə, bu hər şeydən əvvəl 11-ci ordunun süngüləri üzərində qurulmuş bir hökumətin ən başlıca təlimat və göstərişləri Moskvadan alması, məcburi qaydada mərkəzdə gedən siyasi proseslərə qoşulması ilə izah olunmalıdır. 1918-ci ilin 30 avqustunda bolşevik rəhbərinin həyatına guya Rusiya eserlərinin nümayəndəsi tərəfindən törədilmiş sui-qəsd ssenarisindən sonra (hadisədən bir qədər keçmiş izi itirmək üçün eser qadın Kaplan məhkəməsiz güllələnmişdi) eser partiyası Sovet Rusiyasının əsas düşmənləri sırasında yer tutmuşdu. Bu partiyaya qarşı aparılan siyasi mübarizə 1919-22-ci illərdə daha geniş vüsət almış və terror aksiyaları, kütləvi həbslərlə müşayiət olunmuşdu. Azərbaycanda sovetləşmənin ilk illərində müsavatçıların, ittihadçıların başlıca qüvvələrinin aradan götürülməsindən sonra repressiyalar dalğasının genişlənməsi ilə növbənin Zaqafqaziya eserlərinin bir hissəsi olan azərbaycanlı sosialist inqilabçılara çatması bu baxımdan təsadüfi deyildi, mərkəzdə gedən proseslərin yerlərdə məntiqi əks-sədası idi. Sonrakı dövrlərdə də mərkəz qarşısında hesabat verən müxtəlif səviyyəli rəhbərlər ağına-bozuna fərq qoymadan bütün fəaliyyətlərini onun göstərişlərinə uyğunlaşdırmağa, istiqaməti Moskvaya baxıb müəyyən etməyə, orada həyata keçirilən hər



hansı tədbiri daha geniş miqyasda yerinə yetirməyə çalışdılar. Əgər mərkəz eserlərin əksinqilabi fəaliyyəti ilə bağlı cinayət işləri qaldırırsa, Azərbaycan necə bundan kənarda qala, cavabdeh şəxslər lazımi siyasi fəallıq göstərməyə bilərdilər. Aslan bəyin 1920-ci ilin aprelindəki mövqeyi məhz ona görə çox qısa zamanda unuduldu ki, yeni ictimai sifariş daha mühüm əhəmiyyət daşıyırdı, eserlərin yolverilməz fəaliyyəti ifşa olunmalıydı və Azərbaycan FK-sı bu tapşırığı canla-başla yerinə yetirdi. Zaqafqaziya eserlərinin işi ilə bağlı sovet kütləvi cəza orqanları tərəfindən istintaqa cəlb edilənlərin bir qrupu da azərbaycanlılar idi.

Moskva DSİ Xüsusi Şöbəyə, tam məxfi: "Az.FK Bakı eserlərinin prosesi ilə bağlı mühakimə olunmuş şəxslərin həbs edildiyi tarixlərlə əlaqədar bildirir: Hacınski 7 aprel 1922-ci ildə, Səfikürdski 8 aprel 1922-ci ildə həbs ediliblər. Az.FK sədrinin müavini Qaber-Korn, SEKO rəisi Quliyev. 14 04.24-cü il".

Həbs olunduğu vaxt FK-nın tərtib etdiyi xüsusi anketdə Aslanbəy barəsində aşağıdakı avtobioqrafik məlumatlar öz əksini tapmışdır:

"Səfikürdski Aslan Ağalar oğlu 1884-cü ildə sentyabr ayında Gəncə quberniyası Gəncə qəzasının Kürd kəndində anadan olub. 1992-94-cü illərdə müəllim Poqorelovun evində təhsil alıb, sonra Gəncə müsəlman gimnaziyasına daxil olub, oranı 1902-ci ildə bitirib və Xarkov Universitetinə daxil olub, burada bir il oxuyub. Sonra Peterburq Universitetinin hüquq fakültəsinə dəyişilib. Burada 4 il oxuyub, ancaq dövlət imtahanlarını Xarkov Universitetində verib, 1908-ci ildə diplom alıb. 1909-cu ildə vətənə qayıdıb və vəkil köməkçisi olub, 1913-cü ildə Dairə Məhkəməsindən vəkil rütbəsi alıb və 1914-cü ilə qədər vəkil işləyib. 1916-cı ilə qədər Gəncə Dumasının üzvü olub. 1918-ci ilə qədər vəkil işləyib. 1918-ci ildə Gəncə İcraiyyə Komitəsinin üzvü və Müəssislər Məclisi üzvlüyünə namizəd olub (Müsəlman sosialist blokundan). Bu blokun tərkibində Zaqafqaziya Seyminə daxil olub. 1919-cu ildə Azərbaycan Parlamentinin üzvü seçilib və hökumətin tərkibinə daxil edilib. Əmək naziri olub. 1920-ci ilin aprel ayına, sovet qoşunları gələnə

qədər Parlamentin üzvü olub. 1920-ci ilin may ayında Xalq Komissarları Şurası tərəfindən Ədliyə komissarlığının Kollegiya üzvü, 1922-ci ilin aprelində Xalq hakimləri qurultayında isə Xalq Məhkəməsinin sədri seçilmişdir. 1904-cü ildə Peterburq Universitetinin tələbəsi olarkən SİP-ə daxil olub. 1905-ci ildə Peterburqda nümayişdə iştirak etdiyinə görə həbs edilib, bir ay mühafizə bölməsində yatıb və bir illiyə universitetdən xaric olunub. Bakıda Persidski küçəsi 5-də yaşayır".

Bu anketlə bağlı ilk əvvəl onu qeyd edək ki, Aslan bəyin avtobioqrafiyası ilə bağlı başqa bir mənbədə, "Azərbaycan Cümhuriyyəti sənədlər və materiallar 1918-1920-ci illər" məcmuəsində onun doğum və ali təhsilini başa vurduğu tarixlər fərqlidir.

1998-ci ildə işıq üzü görmüş həmin məcmuədə AR-in siyasi xadimi Aslan bəy Ağalar oğlu Səfikürdlünün 1880-ci ildə anadan olduğu 1937-ci ildə vəfat etdiyi, 1905-ci ildə Peterburq Universitetinin hüquq fakültəsini bitirdiyi göstərilmişdir. Orada öz əksini tapmış məlumatlara görə o, "Müsəlman xeyriyyə cəmiyyəti"nin və Yelizavetpolda "Aktyorlar yoldaşlığı cəmiyyəti"nin rəhbərlərindən biri. K.Əmircanovla birlikdə Kiyevdə (1917) Rusiya xalqlarının muxtariyyəti məsələsinin müzakirə olunduğu Qeyri-rus xalqları qurultayının işində iştirak edib. Yelizavetpol və Şuşa dairə məhkəmələrində vəkil vəzifəsini yerinə yetirib. 1917-ci ilin martında Yelizavetpolda qəza icraiyyə komitəsinin üzvü olub. Zaqafqaziya Seymində müsəlman sosialist blokuna daxil olub. Azərbaycan Parlamentinin üzvü. Əmək və poçt-teleqraf naziri (dekabr 1918-ci il - aprel 1919-cu il), Ədliyyə və əmək naziri (aprel 1919-cu il - mart 1920-ci il). 1919-cu ilin iyununda ADR Dövlət Müdafiə Komitəsinin üzvü təyin edilib. 1920-ci ilin 27 aprelində Azərbaycan kommunistləri ilə danışıqlarda təslimçi mövqe tutub. Sonra Azərbaycan SSR Xalq Ədliyyə komissarının müavini, "Azneft"in hüquq məsləhətçisi olub".

Digər bir mənbədə, tədqiqatçı Mövsüm Əliyevin "Odlar yurdu" qəzetinin 1989-cu il sentyabr sayında (№ 19) dərc





Аслан бәј Сәфикүрдски

edilmiş məqaləsində göstərilir: "Aslan bəy Səfikürdski 1880-ci ildə keçmiş Gəncə qəzasının Səfikürd kəndində doğulmuşdur. Orta təhsilini Gəncə klassik gimnaziyasında aldıqdan sonra o, Peterburq universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Peterburq həyatı A.Səfikürdskinin bir ziyalı kimi formalaşmasında mühüm rol oynamışdır. O, burada azərbaycanlı tələbələrin təşkil etdiyi həmyerlilər təşkilatının üzvü olmuşdur. Aslan bəy ali təhsilini başa çatdıraraq 1905-ci ildə Gəncəyə qayıtmışdır. O, tezliklə Gəncədə "Müsəlman xeyriyyə cəmiyyəti"nin rəhbərlərindən biri, həmçinin "aktyorlar cəmiyyətinin" sədri olmuşdur. 1915-ci ildə Peterburq universitetinin professoru Boduen-de Kurtilin sədrliyi altında Kiyevdə ölkənin qeyri-rus millətlərinin qurultayı keçirilmişdir. Qurultayda Azərbaycandan Qasımbəy Əmircanov və Aslan bəy Səfikürdski nümayəndə kimi iştirak etmişlər. İlk dəfə olaraq bu qurultayda Azərbaycan muxtariyyəti haqqında məsələ qaldırılmışdır. 1919-cu ildə A.Səfikürdski bu münasibətlə yazmışdır: "O vaxt elan olunmuşdur ki, Azərbaycanda məskun olan xalqlar tam muxtariyyət almalıdırlar. Qurultayda iştirak edən Gürcüstan və Ermənistan nümayəndələri də bu cür nöqteyi-nəzərdə dayanmışlar. Onda Qafqaz xalqları arasında sərhədlər barədə indikinə nisbətən mübahisə və fikir ayrılığı az idi. O vaxt bildirilmişdir ki, Azərbaycan bütün Bakı və Yelizavetpol (Gəncə) quberniyalarını, Zaqatala dairəsini, İrəvan və Tiflis quberniyalarının bir hissəsini əhatə etməlidir ki, Azərbaycan türkləri ilə məskundur. Gürcüstan və Ermənistan nümayəndələri buna etiraz etmədilər. Hal-hazırda isə təəssüf ki, bu məsələdə razılıq yoxdur" "Azərbaycan" qəzeti №110, 28 may 1919." A.Səfikürdski müxtəlif illərdə Gəncə və Şuşanın qəza məhkəmələrində iş kəsmək üzrə andçı-müvəkkil vəzifəsini icra etmişdir. 1917-ci ilin martında A.Səfikürdski yeni yaranmış Gəncə qəza icraiyyə komitəsinin tərkibinə seçilmişdir.

1919-cu ildə ədliyyə naziri olarkən A.Səfikürdlünün göstərişi ilə nazirliyin nəzdində Azərbaycanda ilk dəfə olaraq hüquq elmləri üzrə mükəmməl kitabxananın təşkilinə



başlanılmışdır. O, 1937-ci il oktyabr ayının 15-də Bakı şəhərində ağır xəstəlikdən sonra vəfat etmişdir.

İstintaq-arxiv işinə qayıdaq. Yenicə Xalq Məhkəməsinin sədri seçilmiş bir şəxsi həbs etmək üçün onun əksinqilabi fəaliyyəti barədə FK-nın əlində təkzibedilməz sübutlar olmalı idi. Aslan bəyi bir çoxları kimi yalnız Cümhuriyyət hökumətinin və parlamentinin üzvü olduğuna görə günahlandırmaq mümkün deyildi. Çünki qeyd etdiyimiz kimi o, yeni hakimiyyəti inkar etməmiş, əksinə onun gəlişinə səs vermiş və bu mövqeyinə görə anketdə sadalanan yüksək vəzifələr almışdı. İndi qəfləti ona qarşı ittihamlar irəli sürülməsi, dünənki səlahiyyət sahibinin bir neçə günün içərisində düşmən elan edilməsi yalnız yuxarılardan gələn siyasi sifarişin nəticəsi ola bilərdi. 1921-22-ci illərdə Sovet Rusiyasının müxtəlif ərazilərində eserlərin işi adlı gurultulu siyasi proseslərin getməsi, eyni zamanda başqa siyasi partiyaların barəsində görülən tədbirlər belə bir sifarişin həqiqətən olduğunu sübuta yetirir.

1922-ci il 31 mayda Cümhuriyyət prarlamentinin sosialist fraksiyasının başqa bir üzvü eser R.Qaraşarlı Aslan bəyin əksinqilabi siyasi fəaliyyətinin aşkarlanması məqsədilə FK əməkdaşı Valik tərəfindən dindirilir: "- 1921-ci ildə siz Səfikürdskinin evində tez-tez olurdunuz?

Cavab: Çox nadir hallarda olurdum, yadımdadır Novruz bayramı günü olmuşdum.

Sual: Yadınızdadırmı siz xəstə olarkən Səfikürdski ilə Hacınski eyni vaxtda yanınıza gəlmişdilər?

Cavab: Yox, belə hal olmayıb. Xəstəliyim vaxtı çox adamlar mənə baş çəkiblər, ona görə bilmirəm, onlar olublar, ya yox."

Aslan bəyin özünün ilk dəfə dindirilməsi həbsdə alındığı vaxtdan təqribən iki ay sonra baş verir. Sovet cəza orqanlarının belə üsullara əl atması təsadüfi deyildi. Artıq sınaqdan çıxarılmış bu üsulla görünür, onu mənəvi cəhətdən tamamilə sındırmaq, cəmiyyətdəki mövqeyinin istintaq işinə qətiyyən təsir etmədiyini nümayişkaranə şəkildə göstərmək istəyirdilər. Bu müddət istintaq üçün bəzi məhbuslara qarşı digər təzyiq formalarının işə salınması baxımından da əhəmiyyətli sayılırdı.

1922-ci il iyun ayının 3-də "mülkədar ailəsinin nümayəndəsi" Səfikürdski FK əməkdaşı Valikin suallarına cavab verməli olur:

- Sizdə 1921-ci ildə belə bir məsələ qaldırılıbmı ki, Azərbaycanda müsəlman xalqları qruplarının və demokratik qüvvələrin daxil olduğu vahid tələb partiyası yaradasınız?

Cavab: Yox, belə məsələ qaldırılmayıb.

Sual: 1921-ci ildə "Xalqçı" Bakı təşkilatı ilə SİP Bakı təşkilatının arasında hansı münasibətlər olub?

Cavab: Bizim onlarla münasibətimiz yox idi.

Sual: 1921-ci ildə siz şəxsən SİP Bakı təşkilatından olan nümayəndələr, yaxud ayrı-ayrı şəxslərlə əlaqədə olmamısınız ki?

Cavab: Xeyr.

Sual: Siz Ter-Ohanyanı tanıyırsınızmı?

Cavab: Xeyr, tanımıram, soyadını da eşitməmişəm.

Sual: Krestovski ilə tanışsınız?

Cavab: Bəli, Müsavat dövründən tanışam.

Sual: O, sizdə olub?

Cavab: Yox, bir dəfə də olmayıb.

Sual: Siz ötən ilin yayında Feyzullayevə Krestovski barəsində nəsə tapşırıq vermisinizmi?

Cavab: Xeyr, verməmişəm.

Sual: Siz Osintsevi və Sizovu tanıyırsınızmı?

Cavab: Osintsevi tanıyıram, Sizovu yox.

Sual: 1921-22-ci illərdə sizin mənzilinizdə SİP Bakı təşkilatının nümayəndələrinin sizin Azərbaycanlı eserlər qrupu ilə yığıncağı olubmu?

Cavab: Xeyr.

Sual: Eyni vaxtda Osintsev, Sizov və Krsetovskinin SİP-in fəaliyyəti haqqında informasiya xarakterli məruzəsini xatırlamırsınızmı?

Cavab: Xeyr, belə hal olmayıb.

Sual: Osintsev sizin mənzilinizdə olubmu?

Cavab: Xeyr, olmayıb.



Sual: Sizə Osintsev gizlənəndə onun gizləndiyi yer məlum idimi?

Cavab: Bilmirəm, o, gizlənib, ya yox.

Sual: 1921-ci ildə siz eser ədəbiyyatı oxumusunuzmu?

Cavab: Xeyr.

Sual: Feyzullayev sizin mənzilinizdə olubmu?

Cavab: O, mənim mənzilimdə ancaq Novruz bayramında olub.

Sual: SİP Bakı təşkilatı sizə fəaliyyətə nəzarət etmək və partiya işində bir-birinə qarşılıqlı köməklik göstərmək təklif edilməyib ki?

Cavab: Belə təklif almamışam.

Sual: Güman etmirsinizmi bu məlumatlar haradan yarana bilər?

Cavab: Güman edirəm ki, donosdur.

Sual: Güman etmirsiniz ki, belə xəbərçiliklər SİP-in bəzi üzvləri tərəfindən şəxsi qərəzlik məqsədilə yayıla bilər?

Cavab: Ola bilər ki, bu belədir.

Sual: Belə ifadənin sizin qrupun hansısa üzvü tərəfindən verilə biləcəyini mümkün hesab edirsinizmi?

Cavab: Xeyr, mən bunu mümkün hesab etmirəm."

İyirmi gündən sonra, 1922-ci il 23 iyunda eyni əməkdaş tərəfindən Aslan bəyin dindirilməsi davam etdirilir. Bu dəfə ona qarşı daha sərt münasibət göstərməklə kifayətlənmir, həmçinin barəsində istənilən qərarın çıxarılmasına qadir olduqlarını və buna haqları çatdıqlarını açıq bildirirlər. Bu adicə istintaq prosesi deyil, rejimin mahiyyətini bütün çılpaqlığı ilə üzə çıxaran bir məqam idi. Bəlkə də Aslan bəy kommunistləri dəvət etməyə səs verməsinin peşimançılığını həmin o andakı qədər heç vaxt çəkməmişdi. Ancaq atıq gec idi. Kommunistlər nəinki verdikləri bütün vədlərə xilaf çıxmışdılar, hətta daha irəli gedərək 1920-ci ilin aprelində neytral qalmış qüvvələrin də məhvi yolunu tutmuşdular. İndi o, Azərbaycanı milli dövlətçilik ideyalarından əbədi uzaqlaşdırmaq üçün onu qan gölündə boğmağı qarşısına məqsəd qoymuş bolşevik rejiminin kütləvi cəza orqanının müstəntiqi ilə üzbəüz oturmuşdu:

“ - Siz Az.FK Kollegiyasının siyasilərin aclığı barədəki qərarından çıxarışı gördünüzmü?

Cavab: Bəli, gördüm.

Sual: Siz həmin qərarın Az.MİK-in sədri y.Ağamalıoğlu tərəfindən təsdiq edildiyini gördünüzmü?

Cavab: Bəli, bu çıxarışdı onun təsdiqi “Ağa” kimi getmişdi, sonrası aydın deyildi. Mən bundan şübhələndim ki, bu imza həqiqətənmi y.Ağamalıoğlunundur, belə ki, mən bilirəm, o, həmişə “Ağamalı” yazaraq qol çəkir. Yol. Moroz incidi və dedi ki, bilirsiniz, siz buna görə güllələnməyə layiqsiniz.

Sual: Siz güman edirsiniz ki, rəsmi sənəddə uydurma qol çəkilə bilər?

Cavab: Mən bunu güman etmirəm.

Sual: Siz hansı əsasla Az.MİK sədrinin imzasına şübhə etdiniz?

Cavab: Mən Ağamalıoğlunun əvvəlki imzasını yaxşı tanıyıram, bu məncə, oxşamırdı.

Sual: Siz nə üçün öz fikrinizi kağıza yazıb və qol çəkmədiniz.

Cavab: Çünki biz şərtləşmişdik, bizə 22-də elan olunan məlumatın surəti bizdə saxlanılacaq, bu halda mən yuxarıda göstərilən bəyanatımı yazardım.

Sual: Siz bəyanat yazdığınız tərzdə surət sizdə saxlanacaqdı, niyə buna razılaşmadınız?

Cavab: Çünki yol. İosem əsli mənim bəyanatımla birlikdə özü ilə götürmək istəyirdi. O, Bayıl islah əmək evində olarkən mənim şikayətimə əsəbiləşdi, surəti verməkdən imtina etdi və dedi ki, bura xalq məhkəməsi deyil.”

Aslan bəy Səfikürdlünün ittiham olunması ilə əlaqədar materialların toplandığı MTN arxivində saxlanılan PS 20251 saylı istintaq-arxiv işində xüsusi maraq doğuran sənədlər arasında 34 səhifəlik agentura məlumatları da var. Bu məlumatlar Aslan bəyin həbs edilməzdən xeyli əvvəl orqanların nəzarəti altında olduğunu, onun yeni hakimiyyətin nəzərində həmişə səbatsız şəxs sayıldığını birbaşa təsdiqləyir. Onlarla tanış olduqdan sonra bir daha inanırsan ki, bolşevik rejimi insanlara daim bir vasitə



kimi baxıb, vəzifəyə gətirdiyi şəxslərin müntəzəm izlənməsini təşkil edib, barələrində kifayət qədər məlumatlar toplayıb, vaxtı çatdıqda isə dünən fərman verənin özünü həbsxana küncünə atıb. Digər maraq doğuran cəhət isə bu sənədlər toplusunun altında FK sədrinin müavini ilə yanaşı SOO rəisi Beriyanın imzasının olmasıdır. 10-15 aprel 1921-ci ildə başlamış bu istintaq-təhqiqat işi başlıca ittiham kimi Aslan bəyin işinə əlavə olunmuşdur. Milli hökumətin və parlamentin üzvü olmuş bir şəxsin ətrafında aparılan tədbirlərlə onları qismən də olsa tanış etmək məqsədilə həmin məlumatların bir hissəsini kiçik ixtisarla oxucunun nəzərinə çatdırırıq.

... Agentura məlumatı (1921-ci il, 20 avqust) Eser Krestovkiyə Lənkəranda Vəliyev soyadlı Bakıda müsəlman eser qrupunda işləmiş bir nəfər tələbə Lənkəranda təşkilatın özəyinin yaradılması işi ilə məşğul olmağı təklif edib. Tələbə Feyzullayev də belə təkliflə ona müraciət edib və sonda bu müraciəti müsəlman qrupunun üzvləri Səfikürdski və Qaraşarovun adı ilə bağlayıb. Onlar tez-tez Lənkərana xidməti işlə əlaqədar gəlir, burada Lənkəran qəza torpaq şöbəsinin müavini Belolikpetski ilə görüşürlər. Belolikpetski çox bacarıqlı və səviyyəli işçidir. Rusiyada hüquqşünaslıq, Almaniyada Kənd Təsərrüfatı institutunu bitirib. İmperialist müharibəsində Maxnonun, Denikinin, Kornilovun tabeçiliyindəki qüvvələrin tərkibində olub. Sovet qoşunlarına qarşı döyüşən qoşunların formalaşdırılmasında iştirak edib. Müəyyən edilib ki, Feyzullayev həqiqətən də, Səfikürdski və Qaraşarov tərəfindən Lənkərana göndərilib. Qaraşarov qəzalarla müntəzəm əlaqə saxlayır.

... 28 avqust 1921-ci ildə Səfikürdskinin evində Feyzullayev, Krestovskinin iştirakı ilə söhbətdə Səfikürdski dedi ki, müsəlman qrupunun hələ güclü təşkilati işi yoxdur, ancaq onlar qəzalarla əlaqə yaratmaqla məşğuldurlar və bu işi müəyyən qədər görə biliblər. Təşkilati işin vəziyyətini təhlil edərək o bildirdi ki, etibarlı şəxslər olmayınca, ilk təşkilatlar arasında əlaqə möhkəmlənməyincə, geniş iş aparmaq lazım deyil. Səfikürdski belə fikirdədir ki, yaxın gələcəkdə bolşeviklər ya

silahlı kəndlilərin, ya da genişlənən iqtisadi dağıntıların təzyiqi altında öz mövqelərini əldən verməyə məcbur olacaqlar. O, ilk təşkilatların əsas məqsədinin kəndli üsyanları zamanı həddi aşmanın və hakimiyyətin müsavatçılar və ittihadçılar tərəfindən ələ keçirilməsinin qarşısının alınması olduğunu bildirir. Lənkəranda möhkəm özəklər yaratmaq üçün rus eserlərinin razılığı ilə müsəlman və rus eserlərin birləşməsi qərara alınıb.

Feyzullayevin ümumi təşkilati işlə yanaşı bəzi kommunist partiyası liderlərinə və FK nümayəndələrinə qarşı terror mübarizəsi məqsədilə döyüş qruplarının yaradılması təklifi Səfikürdski tərəfindən hələlik qəbul edilməyib.

28 avqustda Qaraşarovun Krestovski ilə görüşü oldu. Qaraşarov ziyalı adam təsiri bağışlayır, eserdir. Onun sözlərinə görə hazırda Azərbaycan Baş milis idarəsinin rəisidir. O, deyir ki, 8 min nəfər milis onun çağrışı ilə çıxış etməyə həmişə hazırdır. Kommunist partiyasını şarlatanlar, quldurlar partiyası adlandırır. Deyir ki, onun şagirdlərindən bir hissəsi bu partiyanın tərkibində SİP-ə sadaqətli olaraq qalır.

1921-ci il 6-13 noyabra qədər olan məlumatlardan: "...Müsəlman və rus qrupları arasında əlaqə üzrə işlər zəif gedir. İndiyədək bir ümumi yığıncaq olmuş, Səfikürdski Feyzullayev, Sizov və İvan Ter-Ohanyan iştirak etmişlər. Yığıncaqda əlaqə yaratmaq, birgə iş aparmaq üçün rus qrupu Moskvadakı mərkəzlə əlaqə yaratmalı və oradan alınan ədəbiyyatı, təlimatları, qərarları tanış olmaq üçün müsəlman qrupuna verməlidir. İşlərin birləşdirilməsi istiqamətində fəaliyyət Sizovun sözlərinə görə dayanıb, hər iki qrup hələlik müstəqil iş aparır. Ter-Ohanyan müsəlman qrupun işinə şübhə ilə yanaşdığı üçün indiyədək təlimatı yayılmaq üçün müsəlmanlara verməyib. Sizovun dediyinə görə, Qara-şəhərdən olan eser Sorokin ona Yaşıl Terek və Kubanın nümayəndəsi olan və Bakıya sosialist partiyaları ilə əlaqə yaratmaqla çevriliş təşkil etmək istəyən qoşun atamanı ilə əlaqəyə girməyi təklif edib. Ataman Sorokindən xahiş edib ki, vətəndaş hakimiyyətini eserlərə, hərbi hakimiyyəti isə onlara və Vrangelçilərə təklif etmək şərti ilə partiya komitəsində çevriliş barədə məsələ qaldırsın. Onun sözlərinə görə, Bakıdan keçməklə Terek və Kubana gələn polkovnik Zelenkeviç ümumi üsyanın hazırlanması ilə məşğuldur".

1921-ci il 13-30 noyabr: "Bir qrup şəxs Sizovun mənzilində yığışmışdı. Osintsev Amerikaya, yaxud İrana getmək istədiyini bildirdi. Sizov və Sundukyan onu Bakıda saxlamaq istəyirlər və ona rus və müsəlman qruplarının işini əlaqələndirmək üçün Səfikürdskinin yanında işləməyi təklif etdilər. Osintsev ehtiyat edir ki, xarici görkəminə (saqqal saxlasa da) görə, onu FK agentləri tanıya bilərlər. Sundukyan bildirdi ki, Ter-Ohanyan tezliklə Ermənistana gedəcək, ona görə də müsəlmanlarla əlaqəni Səfikürdskiyə millətçi kimi pis münasibət bəsləsə də özü saxlayacaq. 1917-1918-ci illərdə Şamxor hadisələri zamanı türk qoşunları gedərkən ermənilər tamamilə soyulublar və bu soyğunçuluqda Səfikürdski iştirak edirdi və o, topun üstündə Gəncəyə getmişdi.

Krestovski ədəbiyyatı götürmək üçün Feyzullayevin yanında oldu, ancaq ədəbiyyat Səfikürdski, Qaraşarov və Camo Hacınskidə idi. 29 noyabrda rus və müsəlman eserlərin birgə yığıncağında müsəlmanlar tərəfindən Səfikürdski, C.Hacınski və Feyzullayev iştirak etdilər.

Hümmətçilərlə eserlər arasında vahid Azərbaycan Sosialist partiyası kimi tamamilə birləşmə haqqında hümmətçilər tərəfindən Pepinov, eserlər tərəfdən Səfikürdski və Hacınski arasında razılıq əldə olunub. Birləşmənin platforma layihəsinin və bəyannaməni hümmətçilər tərəfindən Pepinov, eserlər tərəfdən Hacınski hazırlayıblar. Ancaq bütün bu işlər həbslər başlandığı üçün baş tutmayıb. Birləşmə Pepinovun israr etdiyi kimi partiyanın adı üstündə razılıq əldə edilməməsinə görə yox, Pepinovun özünü ordusuz general heseb etməsinə görə baş tutmayıb".

1921-ci il 3-11 dekabr: "Müsəlman və rus qruplarında bütün iş dayandırılıb. Hacınski və Tixonovun sözlərinə görə sovetlərə seçki ilə əlaqədar bütün eserlərə nəzarət edilir. Hacınski Krestovskiyə vəd verib ki, Osintsevin həbsdən qurtarılması üçün ondan asılı olan bütün mümkün tədbirləri görəcək. Hacınski

Şternlə məktublaşır, o, Hacınskidən Bakıdakı işlərlə bağlı ona məlumat verməyi xahiş edib".

Bütün bunlar bir daha göstərir ki, Azərbaycan parlamentinin fəal üzvlərindən olan, Cümhuriyyətin Fətəli Xan Xoyskinin başçılıq etdiyi üçüncü hökumətidə əmək və poçt-teleqraf, Nəsib bəy Yuusifbəylinin rəhbərliyi altında təşkil olunan dördüncü hökumətində isə ədliyyə və əmək naziri işləmiş A.Səfikürdlüyə bolşevik hakimiyyətinin səlahiyyətli nümayəndələri heç vaxt inanmamış, onun siyasi mövqeyinin gec-tez özünü büruzə verəcəyini nəzərə almışdılar. Azərbaycanın müstəqilliyi dövründə bu siyasi xadimin hansı işləri gördüyü, milli dövlət quruculuğu yolunda fədakarlıqla çalışması da onlara bəlli idi və əslində açıq etiraf etməsələr də, bu xidmətlərini də Aslan bəyə bağışlamaq fikrində deyildilər.

Azərbaycanın ilk Parlamentinin açılışında Səfikürdski sosialist blokundan mandat komissiyasının üzvü seçilmişdir. Həmin iclasda siyasi məhbuslara amnistiya elan olunması ilə bağlı İttihad partiyasının təklifi ilə əlaqədar yaradılmış 5 nəfərdən ibarət komissiyanın üzvlərindən birinin Aslan bəy olduğu barədə məlumatı dövlət arxivində saxlanılan tarixi sənəd də təsdiqləyir (ARDA, f.894, s.10, iş.105, v.60-61).

Parlamentin 1918-ci il 20 dekabr iclasındakı çıxışında o, Zaqafqaziyada sülhün, əmin-amanlığın bərqərar olunması mövqeyindən çıxış etmişdi. Halbuki, bolşeviklər tamamilə başqa mövqedə dayanır, xalqlar arasındakı münaqişənin qızışdırılması ilə vəziyyəti gərginləşdirmək, sinfi və milli ədavətdən öz siyasi maraqları üçün istifadə etmək yolu tutmuşdular: "Bizcə, mübahisəli məsələləri silah gücü ilə həll etmək yolu tutmuş Qafqaz xalqları öz güclərini həddən artıq qiymətləndirirlər. Bizim vəzifəmiz Qafqaz xalqlarının ümumi maraqlarına çox ağır zərbə vuracaq bu toqquşmanı dayandırmaqdır... Bizim borcumuz, Azərbaycan xalqının borcu müharibə aparan tərəflər arasında sülh bayrağı ilə dayanmaqdır."

Səfikürdlü əmək və ədliyyə naziri, sosialist blokunun lideri kimi Azərbaycanın müstəqilliyinin əbədi və dönməz olması mövqeyində idi və bunu xalqımızın əzəli haqlarından biri hesab



edirdi: "Müstəqillik bütün xalqlara verilməlidir, o cümlədən yaşamaq və idarə olunmaq bacarığı olan Azərbaycana. Bu demokratik baxış böyük rus inqilabı tərəfindən elan olunmuşdur. Ancaq bununla yanaşı, mən belə hesab edirəm ki, öz müstəqilliyini elan etməklə Azərbaycan Rusiya hökuməti ilə yaxın dostluq etməlidir, gələcək Azərbaycanı Rusiya ilə həm iqtisadi, həm mədəni baxımdan sıx bağlayır. Siyasi cəhətdən təcrid olunmaq hər iki xalqın xeyrinə deyil." ("Azərbaycan" qəzeti 1919-cu il 28 may).

Siyasi cəhətdən son dərəcə fəal olan Aslan bəy parlamentin digər fraksiyalarının nümayəndələri arasında da hörmət və nufuz sahibi idi. Təsadüfi deyildi ki, Parlamentin rəyasət heyətinin seçkilərində (29.12.1919.) A.Səfikürdskinin də parlament sədrinin müavinliyinə namizədliyi irəli sürülmüşdü. ("Azərbaycan" qəzeti 30 dekabr 1919).

Bu qısa qeydlərimizi Azərbaycan dövlətinin həqiqətən demokratik bir dövlət olduğunu və siyasi əqidəsindən asılı olmayaraq, hökumətdə vəzifə tutan şəxslərin hər birinin öz fəaliyyətində bu meyarları gözləməyə çalışdıqlarını bildirməklə yekunlaşdırmaq istərdik. Yəni bu ümumi tələblər Aslan bəy üçün də yazılmamış bir qanun idi. Ancaq təbiəti etibarı ilə demokratik şəxs olan Aslan bəy bütün cəmiyyətin bu normalara uyğunlaşdırılması tərəfdarı idi və 1919-cu ilin 28 noyabrında onun imzaladığı amnistiya qərarı bunu bir daha sübut edir. Müstəqil dövlətin ilyarımlığı münasibətilə ədliyyə naziri A.Səfikürdskinin imzaladığı həmin amnistiya ilə 1918-ci ilin 28 mayına qədər cinayət etmiş bütün şəxslərin azadlığa buraxılması nəzərdə tutulmuşdu (ARDA, f.895, s.6, iş.4, v.4).

Qısaca desək Aslan bəy kommunistlərin adamı deyildi və sovetləşmənin ilk illərində tutduğu yüksək vəzifələrə baxmayaraq, Azərbaycanın müstəqilliyini, milli dirçəlişini arzuladığı üçün onların adamı ola da bilməzdi. Və onun barəsində istintaqın gəldiyi nəticə mövcud quruluşun mahiyyətinə uyğun olmaq baxımından tam məntiqi idi.

Hökm: "Az.SSR 1922-ci il dekabrın 10-da Ali İnqilabi Tribunal yol. Poluyanın sədrliyi, Romanov və Babayevin üzvlüyü, Klüçevin katibliyi ilə tərkibdə açıq məhkəmə iclasında Sosialist

inqilabçılar partiyasının Zaqafqaziya təşkilatının işi üzrə dövləti cinayətlərlə bağlı günahkar sayaraq müəyyənləşdirir: Səfikürdski Aslan Ağalar oğlu üç il müddətinə azadlıqdan məhrum edilsin. Gündüz saat 3."

Aslan bəyin dindirilmələrdən birində özünü repressiyadan qurtaracığına ümidlə dediklərinin də bir əhəmiyyəti olmadı: "Şəxsən mən və Rusiya Müəssislər Məclisi seçkilər üzrə müsəlman ittifaqı blokunan siyahısında adı keçən yoldaşlarım 1918-ci ilin sonu, 1919-cu ilin əvvəllərində Bakıya gəldik. Türkiyə qoşunlarının getməsi və ingilislərlə, Biçeraxovun Bakıya girməsi ərəfəsində keçmiş Zaqafqaziya Seyminin bütün üzvləri Bakıya dəvət edildilər (əlbəttə yalnız müsəlmanlar). Parlamentin formalaşdırılması zamanı biz Seymin keçmiş üzvləri "Hümmət" partiyasının üzvləri ilə birlikdə Azərbaycan parlamentinə daxil olub, S.Ağamalıoğlunun sədrliyi altında vahid fraksiya yaratdıq. Vahid sosialist fraksiyası 1919-cu il ərzində və 1920-ci ilin əvvəlində mövcud oldu. İngilislərin və Biçeraxovun Bakıya girməsindən sonra sosialistlərin, xüsusilə bolşeviklərin təqibi başlandı. Bakıya Denikin agentləri və zabitləri gəlməyə başladılar. Bütün keçmiş Bakı milisi tərksilah edildi və azsaylı Azərbaycan qoşunları və hərbi nazirlik ingilislərin təzyiqi ilə Bakıdan uzaqlaşdırıldı. Azərbaycan hökumətinin ləğv ediləcəyi gözlənilirdi. Müxtəlif yerli şübhəli elementlər ingilislərə kömək etməyə başladılar, hətta xidmətə girdilər. İş o yerə çatdı ki, Bakı şəhərinin Azərbaycan hökuməti tərəfindən təyin edilmiş polis rəisi, deyəsən Arçil Yeriqarov ancaq ingilislərin əmrinə tabe edildi və Azərbaycan hökumətini saymırdı. Belə gərgin vəziyyətdə Azərbaycan parlamenti çağrıldı və cinayətkarlar hökumətə daxil olmaqdan imtina etdilər, hətta danışıqlara girdilər (yol.Ağamalıoğluna və Qarayevə məlumdur). İngilislər Azərbaycan hökumətini tamamilə ləğv edib, Denikinə tabe edəcəkləri hədəsi ilə təşkilati işləri tezləşdirməyi tələb etdilər. Yaranmış vəziyyəti ölçüb-biçərək biz hökumətə daxil olmağa məcbur olduq və mən parlamentin bütün sosialist blokunun qərarı ilə hökumətin üzvülüyünə daxil oldum və Əmək



nazirliyini formalaşdırmağa başladım. Mənə qədər nazirlik mövcud olmamışdı və o, Parlamentin sosialist fraksiyasının tələbi ilə yaradılmışdı. Nazirliyin təşkili üçün mən əməkdaşlar seçdim və dəftərxana müdiri kimi kommunist Səid Kazbekovu dəvət etdim, sonra Dağıstanda Denikin və Dağıstan hakimiyyəti tərəfindən öldürüldü. Nazirliyin bütün əməkdaşları Kazbekov və mənim şəxsi katibim Kazım Cəfərov (kommunist) tərəfindən işə götürülmüşdülər. Ruhulla Axundov və b. Əmək nazirliyi yaranana qədər Azərbaycan gəncləri polis və xüsusilə Biçeraxov, ingilislər və Denikin agentləri tərəfindən izlənmələrindən ehtiyat edərək açıq şəkildə özlərini kommunist adlandırmaqdan çəkinirdilər. 1919-cu ildə biz qızışdırıcı qüvvələrə və Biçeraxov-ingilisləri müdafiə edən təşkialatlara qarşı vahid cəbhə yaratmaq, daxildə isə millətçi partiyalarla mübarizədə mövqelərimizi gücləndirmək üçün SİP-in yerli təşkilatlarına və menşeviklərə Azərbaycan parlamentinə daxil olmağı təklif etdik. Ancaq onlar imtina etdilər və buna görə də müsavatçılar rus sosialistləri əvəzinə Slavyan-rus cəmiyyətinin üzvlərini dəvət etdilər. SİP-in bizim fraksiyaya belə münasibətindən sonra biz nəinki danışıqları müdafiə etmədik, hətta bir-birimizə gizli inamsızlıq bəslədik. Bu inamsızlıq bizi bir neçə SİP üzvünün Biçeraxovun Zakaspiysk-Qafqaz hökumətində iştirak etdiyi və general Biçeraxovdan cəsurluğa görə Georgiyevsk xaçı alması barədə eşidəndə düşmənçiliyə çevrildi. "Znamya truda" qəzetində dəfələrlə Əmək nazirliyi və şəxsən mənim əleyhimə məqalələr dərc edilmişdi. Bununla yanaşı "Novıy mir" qəzeti mənim hərəkətlərimə qarşı heç bir məqalə dərc etməmiş, əksinə mənim bütün elanlarımı, Yusifbəyova açıq məktubumu həvəslə dərc etmişdi... Hərbi Tribunaldan xahiş edirəm, bizim 1919, 1920, 21 və 22-ci il, çevrilişə qədər və sonrakı fəaliyyətimizə qiymət verərək bizim və partiya üzərində hökm çıxarsın".

Sosialist inqilabçılar partiyasının Zaqafqaziya təşkilatının işi üzrə məhkum edilmişlərdən biri Cümhuriyyət hökumətinin digər naziri Camo bəy Hacınski ilə bağlı qeydlərimdə mən eserlərin həbs olunub Moskvaya Butırsk həbsxanasına

aparıldıqdan sonra ağır vəziyyətdə saxlanmaları ilə əlaqədar yuxarı instansiyalara yazdıqları şikayət ərizəsindən bəhs etmişdim. Həmin sənədi hazırlayan və imzalayan 12 nəfər məhbusdan biri Aslan bəy olduğunu və onun yazıldığı dövr üçün çox böyük cəsarət nümunəsi sayıldığını nəzərə alaraq, ərizədən müəyyən məqamları yenə oxucuya xatırladırıq

"...11 aprel 1923-cü ildə biz doğma şəhərdə verilmiş müddəti başa çatdırıb ailələrimizdən ayırıb Moskvaya Butırski həbsxanasına göndərildik. Burada həbsxananın müdiriyyəti mövcud sərt rejimə baxmayaraq, bizə qarşı münasbətdə göstərilən sərt mövqeni gündən-günə daha da sərtləşdirməkdədir və bunu guya həbsxananın istintaq üçün nəzərdə tutulduğu ilə izah edir. Bizə bayırdan heç bir barat çatdırılmır. Bizə iki həftədir ki, verilməli olan ərzaqlar çatdırılmır, halbuki müəyyən olunmuş qaydaya görə hər beş gündən bir ərzaq verilməlidir, həm də həmin ərzaqların öz vəsaitimizlə alınması üçün şərait də yaradılmır. Yalnız həkimin xəstələrin vəziyyəti ilə bağlı yoxlamasından sonra ancaq onlara şəxsi vəsaitləri ilə ağ çörək almağa icazə verildi. Bizə az-çox yararlı yemək verilməli olduğu halda, çoxsaylı bəyanatlarımızı baxmayaraq bu sahədə heç bir dəyişiklik baş verməyib. 22 gündür ki, heç bir yağlı yemək almırıq, halbuki bizim üçün mətbəxdən yağ ayrılır. Sizdən aşağıdakı məsələlərin yerinə yetirilməsini xahiş edirik...":

Səkkiz müxtəlif xarakterli tələb irəli sürən həbsxananın 12-ci dəhliz, 52-ci otağının məhbus sakinləri 1923-cü il 15 maydan etibarən "biz tələblərimizin yerinə yetilmədiyi vaxta qədər aclıq elan edirik", deyə öz qəti qərarlarını bildirirdilər. Mübaliğəsiz demək olar ki, bu cəsarətli aksiya Butırsk kimi bir həbsxananın tarixində görünməmiş bir siyasi etiraz forması idi və onun meydana çıxmasında məhz Azərbaycan Cümhuriyyəti hökumətinin iki nəfər nazirinin xüsusi rolu olmuşdu. C.Hacınski və A.Səfikürdlü. Butırsk həbsxanasının komendantının surəti DSİ məxfi şöbəsinə, Andreyevaya 1923-cü il 16 mayda ünvanlanmış məktubundakı həyacanın başlıca səbəbkarları olmuş bu şəxslərlə göstərdikləri bu iradəyə görə də iftixar hissi



keçirməyə dəyər: "Bu il aprel ayında Bakı islah əmək evindən DSİ-nin sərancamına göndərilmiş 19 nəfər siyasi məhbusdan 12 nəfəri bu ilin 16 mayından aclıq elan etmişdir. Aclığın səbəbi 8 müxtəlif tələbdir".

Onların nəyə qadir olduqlarını bildikləri üçün hər iksinin həbs müddəti başa çatdıqdan sonra Azərbaycana qayıtmalarından narahatlıq keçirməyə başlamışdılar. DSİ-nin Çelyabinsk dairə şöbəsi 1925-ci il 13 martda Moskvaya Andreyevaya belə bir məlumat göndərmişdi: "Çelyabinsk təcridxanasında saxlanılan aşağıda adı çəkilən üç nəfər məhbusun həbs müddəti 1925-ci il aprelin 25-də başa çatır. 1.Səfikürdski Aslan bəy Ağalar oğlu - 8 apreldə, 2.Anoşin Nikolay Pavloviç - 11 apreldə, 3.Hacınski Camo Süleyman oğlu - 11 apreldə. Xahiş edirəm, mənə onları hara göndərmək barədə vaxtında məlumat verəsiniz, şöbə rəisi Korostin".

1925-ci il aprel ayının 13-də isə Korostin Moskva DSİ-yə eyni şəxsə vurduğu teleqramda soruşur: "Səfikürdski və Hacınskinin Krıma Feodosiyaya getməsinə icazə vermək olarmı".

Səhəri gün DSİ Çelyabinsk quberniya şöbəsinə, onun teleqramına yubadılmadan cavab verilir: "Səfikürdski və Hacınskinin Feodosiyaya sərhəd quberniyasına getməsinə icazə vermək olmaz. 14 aprel 1925-ci il".

Bu tipli yazışmalara ilk cavabı isə DSİ Çelyabinsk quberniya şöbəsinin rəisi 1925-ci il aprel ayının 4-də almışdı və təhlükəli məhbusların haralara ayağının dəyməsinə qəti surətdə icazə verilmədiyindən xəbərdar idi: "Səfikürdski və Hacınskiyə aprelin 3-də BDSİ yanında Xüsusi müşavirə tərəfindən Zaqafqaziyada, Şimali Qafqazda, sərhədyanı ərazilərdə, Moskva və Leninqrad quberniyalarında yaşamaq qadağan edilmişdir".

Onların harada yaşamalarına icazə verilməsi barədə orqandaxili yazışmaların aparıldığı təqribən iki aylıq bir müddətdə Zaqafqaziya FK-nın rəhbərləri Moskva DSİ Xüsusi Şöbəsinə tam məxfi qrifli məktub və teleqramlar göndərməkdə davam etmişdilər: "Zaq.FK xahiş edir 1922-ci ildə mühakimə edilmiş türk eserləri Hacınski və Səfikürdskinin harada

yerləşdikləri barədə məlumat verəsiniz. Zaq.FK sədrinin müavini Kvantaliani, SOÇ rəisi Beriya, SEKO rəisi Valik, 28 fevral 1925-ci il".

Bu müddətdə qəbul edilmiş Yekun qərarda isə : "26 mart 1925-ci ildə mən BDSİ xüsusi şöbəsinin 3-cü bölməsinin əməkdaşı Xoroşkeviç Bakı eserləri prosesi üzrə 10.12.22-ci ildə 3 il həbs cəzası alaraq Çelyabinsk siyasi təcridxanasında saxlanılan Hacınski Camo Süleyman bəy oğlunun, Səfikürdski Aslan bəy Ağalar oğlunun işi üzrə materiallara baxaraq müəyyən etdim:

Hacınski və Səfikürdlü 1921-ci ilin avqust-sentyabr aylarında Sosialist İnqilabçılar "Xalqçı" partiyasının üzvü olmuşlar və SİP-in Bakı təşkilatı ilə sıx əlaqəyə girmişlər. Hacınski SİP-in Bakı təşkilatı üçün ədəbiyyat, məktub və pul almışdır. Onların həbs müddəti 7 aprel 1925-ci ildə başa çatır. Onların Qafqazda SİP-in fəal üzvləri ilə geniş əlaqələrini nəzərə alaraq, onlara həbs müddəti başa çatdıqdan sonra azad yaşamağa icazə vermək olmaz. Təklif edirəm ki, onların işini məhdudlaşdırma ilə əlaqədar BDSİ yanında Kollegiyanın Xususi müşavirəsinə baxılmaq üçün təqdim edib, sonra arxivə verəsiniz." Sənədin aşağısında qeyd var: " Razıyam. Təklif edirəm üç il müddətinə Qafqazda, cənubi-şərqdə, Moskva və Leninqrad quberniyalarında yaşamaq qadağan edilsin."

BDSİ yanında Kollegiyanın Xususi müşavirəsi məhz bu qərara əsaslanaraq Hacınski və Səfikürdskiyə üç il müddətinə Qafqazda, cənubi-şərqdə, Moskva və Leninqrad quberniyalarında yaşamaq qadağan etmək barədə yuxarıda göstərilən 3 aprel 1925-ci il qərarını çıxarmışdı.

Üç illik həbs cəzasından sonra daha üç il vətəndən kənarda yaşamağa məhkum edilən Aslan bəy sonra yenidən Bakıya qayıtmış ixtisasına uyğun sahələrdə çalışmış, "Azneft"in hüquq məsləhətçisi işləmişdir.





Кенерал-лејтенант Әлиаға Шыхлински.

## Artilleriyanın Allahı

"Sizə tam artilleriya generalı böyük hərbi mütəxəssis Əliağa Şıxlınskini həbs edib ÜFK-nın Qafqaz idarəsinin istənilən şöbəsi vasitəsilə Moskvaya göndərməyi təklif edirəm." Hərbi İnqilabi Şuranın üzvlərindən birinin 11-ci ordunun Xüsusi şöbəsinin rəisi Pankratova 10 may 1920-ci il, 382 saylı bu müraciəti məmnuniyyətlə yerinə yetirildi. "Böyük hərbi mütəxəssis" olduğu etiraf edilən general Əliağa Şıxlınski həmin günlərdə qırmızı ordunu onun kimi nadir hərbi dühaların köməyi ilə nizami qoşun hissəsinə çevirməyə çalışan bolşeviklər tərəfindən həbsə alındı və Azərbaycanın böyük sərkərdəsi, müstəqil dövlətin müdafiə naziri olmuş tam artilleriya generalı Şəməd bəy Mehmandarovla bərabər Moskvaya göndərildi.

Ancaq bu iki müxtəlif hadisənin baş verdiyi zaman kəsiyində onu sovet hakimiyyəti əleyhinə əksinqilabi fəaliyyətdə, Gəncə qiyamında iştirakda suçlayaraq, istintaq altında saxladılar. 55 yaşlı general həbsxana şəraitində qoşununda çavuş olmağa ləyaqəti çatmayan dünənki qaragüruh nümayəndələri tərəfindən heysiyyatına toxunan sorğu-suala tutuldu.

Belə günlərdən biri. 1920-ci ilin 31 mayı. MTN arxivində saxlanılan PR 19871 saylı istintaq-arxiv işindəki həmin tarixdə tərtib edilmiş Protokoldan aydın olur ki, Əliağa Şıxlınski may ayının 31-də işlə bağlı şahid qismində dindirilib: "Çevrilişdən



sonra Gəncə ilə danışıqlar aparılırdı. İnqilabi Komitə məsələyə kəskin yanaşırdı, onlar tərəfindən əmr olunmuşdu ki, telefon vasitəsilə əməliyyat göstərişləri verilməsin. Danışıqları diviziya komandiri D.Şıxlınski və onun adyutantı Əfəndiyev aparırdı. Mən D.Şıxlınski ilə bir dəfə şəxsi məsələmə görə (24.05) söhbət etdim. O soruşdu ki, nə vaxta qədər ehtiyata təyin edilib. Bilmək istəyirdi əşyalarını Gəncədə qoysun, yoxsa özü ilə götürsün. Novruzov çevrilişdən bir neçə gün sonra raport yazmışdı. Ona getməyə icazə verildi. D.Şıxlınski telefonla məlumat verdi ki, gürcü zabitlər istefa veriblər və İvorin bütün gürcüləri həbs etmək göstərişi verib. Sonra da bütün zabitlərə elan edib ki, kim xidmət etmək istəmirsə, qoy silahını qoyub getsin... Bizə İrəvandan xəbər verdilər ki, əvvəl diplomatik nümayəndə (Haqverdiyev), sonra parlament üzvləri Camalbəy Qasımbəyov və Kazımbəyov bizdə Qərargahda Şıxlınski, Şahtaxtınksi, Qədimov və familyalarının müəyyənləşdirilməsi mümkün olmayan üç rus satqın var..."

Azərbaycanda milli ordu quruculuğunda böyük xidmətlər göstərməsindən başqa general daha hansı "günahların" sahibi idi. Bolşevik orqanının tam məxfi qrifli "Agentura məlumatından çıxarış"da bu "günahlar" belə sıralanıb: "tam artilleriya generalı, hazırda Az.SSR hərbi-dəniz komissarının müavini Əliağa Şıxlınski 1)1917-1918-ci illərdə sovet hakimiyyətinə qarşı mübarizə aparmaq üçün hərbi hissələr yaratmaqda fəal iştirak etməkdə; 2) 1920-ci ildə qırmızı orduya qarşı cəbhə yaradılmasında ciddi cəhd göstərməkdə; 3)Fürsətdən istifadə edərək hərbi-dəniz komissarının etimadını qazanmış, fəhlə-kəndli hakimiyyətinin Gəncə və Gürcüstandakı düşmənləri ilə gizli əlaqə saxlamaqda davam etməkdə; 4)Sovet hakimiyyətinə rəğbət göstərən bütün Azərbaycan zabitlərini həbsə almaqda və həbs edilməsinə yardım etməkdə; 5)15-17 mayda çevrilişdən sonra çox mühüm əhəmiyyətə malik olan Könüllü ordu sənədlərinin məhv edilməsində iştirak etməkdə; 6)Mayın 25-də Gəncədəki üsyan barəsində xəbəri olmaqda və onun təşkilatçıları ilə əlaqəsi saxlamaqda" ittiham olunmuşdur.

Bu ittihamların hər biri qan içən rejim qullarının fikirləşmədən istənilən şəxsi divara dayayıb güllələməsi üçün

kifayət edərdi. 1917-1918-ci illərdə sovet hakimiyyətinə qarşı mübarizə aparmaq üçün hərbi hissələr yaratması və 1920-ci ilin aprel çevrilişi ərəfəsində qırmızı ordunun Azərbaycana müdaxiləsinin dayandırılması istiqamətində işlər görülməsi kimi bu gün hər bir vətənpərvərdə qürur hissi doğuran, generala bəslənən məhəbbəti qat-qat artıran ittihamlar isə nəinki müttəhimin özünün, bütün nəslinin məhv edilməsi üçün yetərli idi. Sovet hakimiyyətinin düşməni sayılmaqdan, qırmızı orduya qarşı çıxmaqdan daha dəhşətli bir günah ola bilərdimi? Əslə təsadüfi deyildi ki, generalın bu sahədəki fəaliyyətinin aşkarlanması və dəqiqləşdirilməsi məsələsini Az.FK-nın sədri Pankratov kimsəyə etibar etməmiş, özü üzərinə götürmüşdü.

Həmin Protokol bu sözlərlə başlayır: "1920-ci il iyun ayının 1-də mən, Azərbaycan Fövqəladə Komissiyasının sədri Pankratov tərəfimdən həbs edilmiş general Şıxlınski dindirildi".

- Şıxlınski bəyan etdi ki, hələ Qırmızı Ordunun gəlişindən əvvəl Azərbaycan hüdudlarında Yusifbəyov hökuməti tərəfindən sərhədlərin hər hansı qoşun, o cümlədən Qırmızı ordunun müdaxiləsindən qorunması barədə qərar qəbul edilmişdi. Ancaq Qırmızı orduya qarşı çıxmağa silah və əsgəri güc kifayət etmədiyi və mümkün olmadığı üçün parlament iclasında vətəndaş müharibəsinin qarşısının alınması məsələsi qoyulmuşdu. Bu məsələnin müzakirəsi zamanı aydın oldu ki, kommunist fraksiyasından başqa parlamentin heç bir fraksiyası öz üzərinə Azərbaycanda kortəbii hərəkətlərin qarşısını almağı götürmədi. Onlar öz ultimatumlarında hakimiyyəti təhvil verməyi tələb etdilər. Azadlığına təminat alan hökumət (bolşeviklərin təminatı bütün milli hökumət üzvlərinin, o cümlədən general Əliağa Şıxlınskinin repressiyaya məruz qalmaları oldu - L.Ş.) öz səlahiyyətlərindən əl götürüb bu səlahiyyətləri kommunistlərə verdi.Azərbaycanın müdafiəsi məsələsi hökumətdə dəfələrlə qaldırılmışdı. Ancaq sonuncu dəfə bu məsələ silahın çatışmaması və dəniz qüvvələrinin olmamasına görə çətinləşmişdi. İngiltərəyə göndərilən sorğuya cavab alınmışdı ki, Azərbaycan hökumətində qalmış silah ehtiyatı, onun say tərkibi və zəruri tələbatı barədə məlumat verilsin. Uzun cəhdlərdən sonra qırmızı ordunun Qafqaza irəliləməsinin dayandırılması fikrinə gəlindiyi



üçün Antanta Azərbaycan hökumətinə zəruri silahları vermək qərarına gəldi. Bü vəd sadə bir səbəbə görə - qırmızı ordunun təcili hərəkəti ilə yerinə yetirilməmiş qaldı.

Azərbaycan hökumətinin Dağıstan tərəfdən sərhədi möhkəmləndirməsi, yaxud Sovet Rusiyası ilə əlaqə yarandıqda sərhədlərlə bağlı müqavilə şərtlərinin yerinə yetirilməsinə çalışılması qəribə mövqe nümayiş etdirməkdən başqa bir şey olmazdı. Hələ Könüllü ordunun tərksilah edilməsi və silahın alınması zamanı hökumətdə tərksilah edilmiş zabitlərdən istifadə olunması fikri yaranmışdı. Bu barədə rəsmi qərar yox idi, ancaq məsələ özlüyündə həll edilmişdi. Hərbi nazirlik onları qəbul etməmişdi, ancaq hökumət tərəfindən bir neçə vədə əsasən bəzi adamlar qəbul edildilər, baxmayaraq ki, rəsmi şəkildə Azərbaycan ordusunun tərkibinə daxil olmadılar. Polkovnik Qluxaryev və yüngül top bateriyasında xidmət edən digər zabitlərlə də belə oldu. Bu batereya mümkün olduğu halda bolşeviklərin çıxışlarının qarşısını almaq üçün ezam olunmuşdu...

Lazımi nəticə verməyən bu təşəbbüslər və milli hökumətin həmin vaxt həyata keçirməyə çalışdığı digər tədbirlər barəsində artıq bolşvik cəza orqanlarının əlində müəyyən sənədlər olması əslində generalı özünümüdafiə imkanlarından tam məhrum edirdi. Ancaq çevriliş yolu ilə hakimiyyəti ələ keçirmiş bolşeviklər ona ciddi ehtiyac duyduqları üçün həbs olunmasına baxmayaraq, generalı ən azı müyyən müddət başqa milli hökumət üzvlərinin taleyinə yazılmış amansız qərar gözləmirdi. Onun xeyrinə olan digər, əsasən subyektiv amillər də vardı. Bunlar arasında generalın N.Nərimanov kimi himayədarının olmasını, onun çevrilişdən az sonra Ç.İldırım kimi nüfuz sahbi ilə bir yerdə işləməsini və s. əlaqələrini göstərmək mümkündür. Ona qarşı irəli sürülən son dərəcə ağır ittihamlara baxmayaraq, sağ saxlanılması və mərkəzə xüsusi məqsədlə yola salınmasının bizə məlum olmayan digər səbəblərinin mümkünlüyünə şübhə ilə yanaşsaq da, bunu tamamilə istisna da etmirik.

Yəqin yuxarıda sadaladığımız amillərlə əlaqədar idi ki, onun verdiyi ifadədə özünümüdafiə çalarlarından daha çox arxayınçılıq, sanki nəyəsə ümidli olması görünməkdədir:



Шыхлински вә арвады Нигар ханым



"...Həmin batareyanı hərbi məktəbə qarnizon komandirinin müavini general Usubbəyov yerləşdirmişdi. Bu sahədə keçirilən bütün tədbirlərdən onun sözsüz xəbəri olmalı idi. Gürcü zabitləri barədə nə qədər düzgün məlumatlandırılmışam, bilmərəm. Cavad Şıxlınski tərəfindən İnqilabi Komitəyə hərbi komissar Çingiz İldırıma telefonla məlumat verilmişdi ki, gürcü zabitləri istefa vermişlər və İldırımın əmri ilə zabitlər həbs olunmuşlar. Bu əmr İldırımın Hüseynovla və başqaları ilə məsələnin müzakirəsi nəticəsində qəbul edilmişdi. Bu müzakirələrdə mən iştirak etmədim, ancaq o zaman təsadüfən İnqilabi Komitədə olmuşdum. Mənim fikrim belə idi ki, onları mane olan şəxslər kimi təcrid etmək, bununla da təhlükəni aradan qaldırmaq lazımdır. Hərbi komissarlıqda olan əsgərlər tərəfindən gəmidən tapılmış sənədləri müəyyən etmək üçün mən Qaytabaşıya tapşırıq verdim və indi hərbi komissarlığın kvartirmeystr şöbəsində xidmət edən podporuçik Qulubəyovu ona köməkçi təyin etdim. Bu sənədlər enikin ordusunun Azərbaycanda casusluq fəaliyyətinin açılması baxımından əhəmiyyət kəsb edirdi. Orada bu sahədə iş görmüş çoxlu adamların soyadları vardı və həmin adlar barəsində məndən başqa Qaytabaşı, Karqanteli və Qulubəyov da bilirdilər. General Mehmandarov da bilirdi. Bu sənədlərin sonrakı taleyi belədir - mənim göstərişimlə onlar məhkəmə şöbəsinə verilməli idi, ancaq sonradan general Qaytabaşı mənə məruzə etdi ki, sənədlər Fövqəladə Komissiyaya verilib. Sənədlərin sonrakı taleyi mənə məlum deyil. Həmin casuslara gəlincə, onlar arasında Mazayev və daha iki nəfər var idi, hər üçü mənim tərəfimdən həbs olunub və komendantlıqda həbsdə saxlanırdılar...

1-ci Tatar, 2-ci Qarabağ qoşunlarının və 3-cü Şəmkir alayının Gürcüstan cəbhəsinə atılmasına gəlincə heç nə deyə bilmərəm, çünki bunların heç biri ilə bağlı mən əmr verməmişəm. Mən ancaq demişəm ki, əgər köməklik göstərmək mümkündürsə, bunu yaxın olduğu üçün güman ki, Gəncədən etmək olar. Ancaq mən eyni zamanda demişəm ki, bu təhlükəlidir, çünki erməni sərhədi ilə yaxındır və Gəncə üçün təhlükə yarana bilər..." 1 iyun 1920-ci il Ə.Şıxlınski.

Artıq oxucuya tanış olan "Elm" nəşriyyatının 1997-ci il tarixli məcmuəsində Əliağa İsmayıl oğlu Şıxlınskinin (1865-1943) qısa tərcümeyi-hal qeydlərində yazılır: "Tiflis hərbi gimnaziyasını və Mixaylovski artilleriya məktəbini (Peterburq) bitirmişdir. Rus-yapon müharibəsinin (1904-1905) iştirakçısı, Port-Arturun müdafiəsində batareyaya komandirlik etmişdir. Döyüş ordenləri ilə təltif olunmuşdur. Çarskoselsk artilleriya məktəbində oxumuş və burada dərs demişdir (1906). 1910-cu ildən etibarən artilleriya diviziyasının komandiri olmuş, sonra yenidən pedoqoji fəaliyyətə qayıtmışdır. Birinci dünya müharibəsinin iştirakçısı kimi müxtəlif komandir vəzifələrində olmuşdur. 1914-cü ildə general-mayor, 1917-ci ildə general-leytenant rütbəsi almışdır. 1917-ci ilin noyabrında istefaya çıxmışdır. 1917-ci ilin dekabrında Azərbaycan korpusunu (Gəncə) formalaşdırmışdır. AR hökumətində hərbi nazirin müavini vəzifəsi postunu tutmuşdur. 1919-cu ilin iyununda tam artilleriya generalı rütbəsi verilmişdir. 1920-ci ilin avqustunda N.Nərimanovun təklifi ilə S.Mehmandarovla birlikdə Moskvaya göndərilmişdir. 1921-ci ilin payızından Bakıda olmuşdur. Hərbi məktəbdə dərs demişdir. "Qısa rus-türk hərbi lüğəti"ni (1926) tərtib etmişdir".

Zəngin bir ömür tarixçəsinə malik general Ə.Şıxlınski millətimizin başını uca etmiş şəxsiyyətlərimizdən biri olmuşdur. 1920-ci il avqust ayının 1-də V.İ.Leninə yazdığı məktubda Şıxlınski Nikolay ordusunda "artilleriyanın Allahı" sayılırdı, "onlar (general Səməd bəy Mehmandarovla birlikdə - L.Ş.) hərbi mütəxəssislər olmaq etibarı ilə əvəzsizdirlər" deyən N.Nərimanov qətiyyən mübaliğəyə yol vermirdi. General Əliağa Şıxlınski nəinki döyüş əməliyyatlarında, həmçinin nəzəri baxımdan artilleriyanın Allahı idi. Onun 1910-cu ildə Peterburq yaxınlığında Luqa şəhərində V.M.Kuroçkinin yeni mətbəəsində çapdan çıxmış "Səhra toplarının cəbhədə işlədilməsi" adlı kitabı minlərlə artilleriyaçının yetişdirilməsində əvəzsiz mənbə olmaqla yanaşı, bu elm sahəsində çox yüksək elmi dəyərə malik bir əsərdir. Belə ki, Əliağa Şıxlınski artilleriya tarixində ilk dəfə gözlə görünməyən hədəfə toplardan atəş açmaq texnikasını işləyib hazırlamış və onların təkmilləşdirilməsi işinə yeniliklər



gətirmişdir. Ömrünün ahıl çağlarında Bakı qarnizonunun hərbi elmi cəmiyyətinin sədr müavini işləyib. "Gələcək müharibədə toplar", "Toplardan piyada və süvarilərlə qarşılıqlı əməliyyatı", "Topların dağlıq yerlərdə atəş xüsusiyyəti haqqında", "Alay topları haqqında" hərbi elm üçün böyük əhəmiyyəti olan silsilə mühazirələr oxumuşdur. Artilleriya atəşinin aparılmasında məşhur "Şıxlınski üçbucağı"nın böyük rolu dünyanın bir sıra ölkələrinin tanınmış hərbi mütəxəssisləri tərəfindən etiraf edilmişdir. Belə ki, "Şıxlınski üçbucağı" təkcə rus artilleriyasında deyil, Fransa, İsveçrə, Norveç və Avstriya artilleriyalarında da böyük şöhrət qazanmışdır. "Üçbucağın" ətraflı şərhi və yazılışı ilk dəfə 1912-ci ildə çap olunmuşdur. O, həmçinin hava hədəflərini vurmaq üçün atəş qaydalarının hazırlanması, alay və batalyon toplarının yaradılması kimi gərəkli hərbi ideyaların müəllifi idi.

Əliağa Şıxlınski həmçinin "Rusca-azərbaycanca qısa hərbi lüğət"in ilk yaradıcısıdır. 1926-cı ildə "Azərbayan hərbi redaksiyasında" nəşr edilmiş lüğət, doğma dilimizdə hərbi nizamnamələrin hazırlanmasında, hərbi elmi ədəbiyyatın tərcüməsində xüsusi rol oynayıb.

Əliağa Şıxlınskinin öz hərbi və bədii əsərlərini sadə, oxunaqlı dildə yazmasını onun çoxsahəli istedadının başlıca xüsusiyyətlərindən hesab edən görkəmli azərbaycan filosofu Heydər Hüseynov EA-nın "Xəbərlər" məcmuəsinin 8-ci sayında 1945-ci ildə yazırdı: "Əliağa Şıxlınski dünyada şöhrət qazanmış rus topçuluq elmi sahəsində kəşflərlə tanış olmaqla yanaşı, dil və ədəbiyyat məsələləri ilə də yaxından məşğul olurdu. O, Azərbaycan dilini təkmil bilirdi. İslah ifadə quruluşu, yeni söz yaradıcılığı ilə ciddi məşğul olmuşdur".

Əliağa Şıxlınskinin atası Şıxlınskilər nəslində ilk savadlı adam İsmayıl ağa olub. O, hərbi işə də meyl göstərmiş, süvari dəstəsinin tərkibinə daxil edilmişdi. 1804-cü ildə Qazax-Dilican yolu üstündə şahzadə Abbas Mirzənin qoşunlarını məğlub edən süvari dəstəsinin üzvlərindən biri olması dediklərimizə əyani sübutdur. Məhz atasının yolu ilə gedən Əliağa Şıxlınskilər nəsilində Avropada təhsil alan ilk şəxs olub və hərb sənətində

ondan neçə mərtəbələrlə yüksəklərə ucalıb. Yeri gəlmişkən, Əliağa Şıxlınskinin qardaşı da süvari zabiti adı alıb.

Şıxlınskilər nəslinin məlum olan ən birinci nümayəndəsi Ağdolaq Məmmədağa 16-cı əsrdə Qazax qəzasında ad çıxarmış şəxs imiş. Ulu babalarından Əli Qazax oğlu çox dəli-dolu, igid bir adam olub.

Əliağa Şıxlınski Molla Vəli Vidadinin nəvəsi idi. Şıxlınskilər nəslindən çıxmış başqa məşhur şairlərdən biri aşıq şeri və klassik üslubda yazıb-yaratmış Kazım ağa Salikdir. Şəcərədən gələn bu fitri istedad nəslin bir çox başqa nümayəndələrinin, o cümlədən onun özünə də təsirsiz qalmamışdı. Əliağa Şıxlınski ara-sıra yaradıcılıqla məşğul olmuş, gözəl şerlər yazmışdır.

Onun həyat yoldaşına, ilk azərbaycanlı hərbi şəfqət bacısı Nigar xanıma yazdığı "Ey sevdiyim, ey dilruba" şeri doğrudan da, istedad sahibi olduğunu göstərir.

Ey sevdiyim, ey dilruba,
Səbrim, qərarımsan mənim
Səd mərhaba, səd mərhaba
Nə türfə yarımsan mənim...
Mənim baharda bülbülüm,
Mənim qızılca sünbülüm
Gülşəndələrdə zərif gülüm
Bağlarda barımsan mənim.

Nigar xanım Vidadinin nəvəsi Əliağa Şıxlınskinin anası Şah Yəmən xanımın əmisi oğlu Hüseyn Əfəndi Qayıbzadənin qızıdır. Əliağa Şıxlınski təhsilini Tiflisdə sonra qayınatası olan Hüseyn Əfəndinin yanında almışdı. O, Nigar xanımla 1909-cu il oktyabr ayının 27-də ailə həyatı qurub. Nigar xanım 1931-ci il 15 avqustda vəfat edib.

Klassik ədəbiyyatı gözəl bilən Əliağa Şıxlınski həm də öz gənc müasirləri S.Vurğunun, O.Sarıvəllinin şerlərini rus dilinə tərcümə etmişdir. S.Vurğun "Böyük ədib", "Sədaqət", O.Sarıvəllinin C.Cabbarlının ölümünə həsr etdiyi "Yaşar" şerləri tərcüməsi arxivində qalıb. C.Cabbarlı yaradıcılığına onun xüsusi məhəbbəti olub. Bunu "Zabitin yaddaşı" dəftərçəsindəki qeydlərdən aydın görmək olar.



Ədəbiyyatla yanaşı, digər elm sahələrinə də xüsusi maraq göstərən Əliağa Şıxlınski yüksək intellekt sahibi, əsl ziyalı idi. Onun son dərəcə gözəl dildə və üslubda yazılmış "Xatirələrim" əsəri həm Azərbaycan hərb tarixinin çox mühüm bir dövrünün öyrənilməsi baxımından son dərəcə böyük əhəmiyyətə malikdir, həm də bir sənət əsəri kimi qiymətlidir. "Xatirələrim" SSRİ EA-nın Azərbaycan filialı tərəfindən rus və Azərbaycan dillərində 1944-cü ildə çap olunmuşdur. Əliağa Şıxlınski dövrünün Səməd bəy kimi hərbi dühalarının və bir sıra digər istedadlı sərkərdələrinin ilk portret cizgilərini yaratdığı xatirələrini görkəmli filosof H.Hüseynovun məsləhəti və onun birbaşa köməyi ilə ömrünün ahıl çağında qələmə almışdır. Son nəfəsinə qədər vətənə, millətə sədaqətlə xidmət göstərmiş bu nadir şəxsiyyətin həmin əsəri onun Azərbaycana sonuncu övladlıq borcu olmuşdur. Hərbi memuarlar sırasında layiqli yer tutan "Xatirələrim" hələ Azərbaycanın neçə hərbçi nəslinin yetişdirilməsində əvəzsiz mənbələrdən biri olacaq, türk balaları üçün mərdlik, kişilik məktəbinin əbədi kitabı kimi yaşayacaqdır.

Əliağa Şıxlınski rus-yapon və birinci dünya müharibəsi cəbhələrində sərkərdəlik qabiliyyəti və rəşadət nümayiş etdirmiş bir hərbçi idi. Onun döyüşlərdə göstərdiyi böyük şücaət qeyri-millətlər, o cümlədən ruslar tərəfindən dəfələrlə etiraf olunmuş, təkcə Port-Arturun müdafiəsinə görə 6 orden almışdır. Ə.Şıxlınski qazandığı xidməti uğurlara və döyüş əməliyyatlarına komandirlik etmək məharətinə görə həmçinin "İgidliyə görə" sözləri yazılmış qılınc, 4-cü dərəcəli Anna ordeni, Qızıl qılınc nişanı, qılınc və bantla birgə Vladimir ordeni üzərində "İgidliyə görə" sözləri yazılmış qızıl silah və Georgi ordeninin 4-cü dərəcəsi ilə təltif olunmuşdur. 1908-ci ilin noyabr ayının 25-də ona vaxtından qabaq polkovnik hərbi rütbəsi verilərkən əla xidmət göstərdiyi xüsusi vurğulanmışdı.

Port-Artur döyüşlərinin şahidləri rus yazıçıları - Aleksandr Stepanovun "Port-Artur" və "Zvonaryovlar", Trofim Borisovun "Port-Arturçular" romanlarında Əliağa Şıxlınski və Mehmandarovun qəhrəmanlıqları barədə böyük hərarət və məhəbbətlə söhbət açılıb.

Əliağa Şıxlınskinin müstəqillik dövründə Azərbaycanda hərbi nazirliyin və milli ordunun təşkilində göstərdiyi xidmətlər barədə çox yazılıb. Uzun müddət hərbi nazirin müavini olmuş məşhur general gənc dövlətin etibarlı müdafiəsi ilə bağlı məsələlərin həllində yorulmaq bilmədən çalışmış, Azərbaycan ordusunu yüksək döyüş qabiliyyətinə malik səviyyəyə çatdırılmasında şəxsi təcrübəsini, bütün biliyini və səyini əsirgəməmiş, gələcək hərbi kadrların və mütəxəssislərin hazırlanmasını da unutmamışdır. Hərbi nazirliyin müvafiq strukturlarının formalaşdırılması kimi son dərəcə mühüm iş Səməd bəylə yanaşı, həmçinin onun şəxsi qayğısı və gündəlik nəzarəti altında həyata keçirilmiş, artıq 1919-cu ilin ikinci yarısında bu hərbi qurum nəinki həmin, hətta hazırkı dövrün tələblərinə tam cavab verən bir orqana çevrilmişdi. Ə.Şıxlınskinin hökumətin bütün dairələrində, ölkə rəhbərliyi səviyyəsində nüfuz sahibi olması yalnız bu fəaliyyətinin deyil, həmçinin onun istənilən məsələyə ümumdövlət mənafeyindən yanaşmasının, Azərbaycan naminə kimsəyə güzəştə getməməsinin nəticəsi idi. Ancaq o, bəzənDbelə yüksək hörmət və nüfuz sahibi olmasından baş ağrısı da çəkib, əsəb və gərginlik də keçirib.

Arxiv-istintaq işində saxlanılan sənədlərdən biri buna şahidlik edir. Ə.Şıxlınski hökumət səviyyəsində söz sahibi olmasından narahatlıq keçirən şəxslərin yaydıqları şayiələrə cavab olaraq Qazax general-qubernatoru Əmir xan Xoyskiyə yazırdı:

"Əziz Əmir xan. Qəzetdə təqribən aşağıdakı məzmunda material gedib: "Qazaxdan provakasiya xarakterli şayiələr eşidilir ki, guya general Əliağa Şıxlınski, doktor Qarabəyov və Qarabağ general-qubernatoru hakimiyyəti ələ keçirmək üçün hərbi çevriliş etmək barədə düşnürlər..."

Sorğular göstərdi ki, bu barədə Siz, Ömər Faiq Əfəndi və Parlamentin üzvü Mustafa Vəkilovla danışmısınız. Siz özünüz bilirsiniz yüksək hərbi mənsəbli hərbi adam üçün belə sui-qəsdlərdə iştirak etmək necə ağır cinayətdir. Cəmi bir dəfə mənə Sizi görmək nəsib olub və mən əminəm ki, tutarlı əsas olmadan Siz mənə qarşı belə ittiham irəli sürməzdiniz: görünür, Siz özünüz



bu barədə etibar etdiyiniz adamdan eşitmisiniz. Sizdən xahiş edirəm təcili surətdə mənə, Sizə tendensiyalı, tamamilə yalan xəbəri kimin dediyi barədə məlumat verəsiniz, bununla mən özümə qarşı qərəzli böhtanın kökünü kəsə və günahkarı məsuliyyətə cəlb etdirə bilərəm. Sizə hörmət edən Ə.Şıxlınski."

Ə.Şıxlınski Azərbaycanda zabit kadrlarının çatışmadığı bir dövrdə keçmiş çar ordusunda xidmət etmiş azərbaycanlıların, xüsusilə zabitlərin vətənə qayıtmaları və milli hərbi hissələrdə yerləşdirilmələri ilə bağlı az iş görməmişdir. O, nəinki azərbaycanlıların, hətta vaxtılə hərbi qulluq illərindən yaxşı tanıdığı bir sıra digər xalqların nümayəndələrinin hərbi quruculuq proseslərinə cəlb edilmələri üçün şərait yaratmışdır. Aşağıdakı məktub məhz onun belə xeyirxahlıqlar göstərməsindən xəbər verən daha bir sənəddir.

"Çox hörmətli Əliağa! Mən bu gün keçmiş rus ordusundan xidmət yoldaşım və dostum tam artilleriya generalı Mehmandarova məktub yazdım. Əliağa sənə qarşı da eyni hisslərlə müraciət edirəm, mənə Azərbaycan ordusunda hansısa vəzifə verəsiniz. Mən Könüllü orduda kiçik bir vəzifə - kazak briqadasının komandiri vəzifəsi tuturdum. Mən ailəmi dolandırmaq naminə hər cür vəzifə ilə kifayətlənərəm. Siz bilirsiniz mən hər cür vəzifənin öhdəsindən gələ bilərəm və Azərbaycan Respublikasına sədaqətlə xidmət edəcəyim barədə and içə bilərəm. Həyat yoldaşım və qızlarım Vera və Nadejda Sizə, Əliağa və həyat yoldaşınız - Nigar xanıma səmimi salam göndərirlər. Sizə sədaqətli olan V.İrmanov. 31 mart 1920-ci il, Kutaisi şəhəri".

Az.FK Ə.Şıxlınskinin kimliyini, hansı imkanlara malik olmasını yaxşı bildiyi üçün onu həbsə almaqla öz nəzarəti altında saxlamağa, beləliklə də bolşevik hərbi işinin dirçəldilməsində iştiraka məcbur etməyə çalışırdı. Bunun ən yaxşı və asan vasitələritndən biri sözsüz ki, keçmiş çar və milli Azərbaycan ordusu generalının günahkar olduğunu sübuta yetirmək idi.

FK-nın növbəti dindirməsində artıq ona qarşı irəli sürülən ittihamların konkretləşdirilməsinin müşahidə olunması bu sifarişlə bağlı idi. Onun Gəncə üsyanının təşkilində müəyyən rol oynadığına şübhə etməyən müstəntiq bu fəaliyyətin nədən

ibarət olduğunu müəyyənləşdirməyə çalışırdı: "- Sizin soyadlınız Cavan Şıxlınski ilə münasibətəlriniz necədir?

Cavab: Çox mehriban, qohumluq duyğularından başqa bizim yoldaşlıq münasibətlərimiz də olub. Belə ki, cavanlıq illərində bir yerdə xidmət etmişik, bir komandada. Mən Yapon müharibəsində və Çin yürüşündə olarkən məzuniyyətə gələndə həmişə elə məqamlar seçirdim ki, məzuniyyət vaxtı Cavanla görüşüm. 1918-ci ildə təqribən fevralda Cavanla birlikdə Azərbaycanda xidmətə başladıq.

Sual: Siz Cavandan və onun vasitəsilə neçə məktub almısınız?

Cavab: İki məktub almışam. Birini diviziyanın böyük adyutantı Əfəndiyev vasitəsilə, ikincini qol çəkməklə. Biri məndə indi kitelimin cibində qalır.

Sual: u məktublarda nə barədə məlumat verilirdi?

Cavab: Onların məzmunu ancaq ailə münasibətlərinə aid idi. Xidmətə aid heç bir ciddi şey yox idi.

Sual: Cavan tərəfindən çətin vəziyyətə düşdüyü və şimalla bağlı sizə ciddi suallarla müraciət etdiyi ifadə edilmirdi ki?

Cavab: Cavan möhkəm adamdır, ideyasına inamlı və iradəildir və həmişə öz sərbəsliyini nümayiş etdirməyə çalışıb. Ancaq mənim dəlillərimlə də həmişə hesablaşıb və onlara böyük əhəmiyyət verib.

Sual: Hansı məsələlərlə balğı o sizə məsləhət üçün müraciət edib, təsadüfi, yoxsa, özünün şəxsi?

Cavab: Konkret halları xatırlamıram. Ancaq əksər hallarda taktiki məsələlərlə bağlı və s. Yaxud hansısa, göstəriş alırdı, hərdən gəlib mənimlə necə hərəkət etmək barədə bir stəkan çay süfrəsində arxasında məsləhətləşirdi. Şəxsi məsələlərlə bağlı onunla tez-tez məsləhətləşirdik.

Sual: Çevrilişdən sonra siyasi məsələlərlə bağlı danışıqlar olurdumu?

Cavab: Çevrilişdən sonra nə şəxsi, nə də başqa cür Cavanla siyasi məsələlərlə bağlı söhbətimiz olmayıb. Ancaq bir dəfə Çingiz Cavanı telefonla yanına çağırdı və dedi ki, 1-ci diviziyada döyüş şəraiti yaranıb və buna görə də onu döyüş sahəsinə rəis təyin etmək lazıdır. Bununla əlaqədar Çingiz Cavanın fikrini də



soruşmuşdu ki, o, yeni hakimiyyətdə xidmət etmək istəyirmi. Cavan soruşmuşdu, Əli Ağanın özü yerində qalırmı. Çigiz tərəfindən Əli Ağanın fikrindən asılı olmayaraq bu məsələ ilə bağlı cavab gözlənildiyi üçün Cavan müsbət cavab vermişdi. Qeyd etmək lazımdır ki, mən istəməzdim ki, təcrübəli böyük zabitlər kənarda qalsınlar, yaxşı nə varsa saxlamaq lazımdır. Mən qəti əminəm ki, sovet hakimiyyətinə uyğunlaşacaq və əla döyüş materialı verəcək və yeni quruluşa sadiq olacaq.

Sual: Cavan sizə üsyan məsələsi ilə əlaqədar müraciət etməmişdi ki?

Cavab: Güman edirəm ki, Cavan bu barədə mənə heç vaxt xəbər verməzdi. Birincisi ona görə ki, mənim xidmətə münasibətimi bilir, ikincisi məni qatmamaq üçün. Gəncədə üsyan olduğu barədə mən heç nə bilmirdim.

Sual: Üsyanda iştirak etmək və onun rəhbəri olmaq ciddi məsələdir.

Cavab: Məsələ həddən ziyadə ciddidir. Cavanın üsyana nə dərəcədə aidiyyatı olduğu məsələsinə toxunmadan, mən qəti əminəm ki, o heç bir vəchlə mənə özünün iştirak edəcəyi gözlənilən üsyana hazırlıq barəsində deyə bilməzdi.

Sual: Sizə məlumdur ki, tapılmış sənədlər çoxları tərəfindən oxunub və sənədlərin məzmunu sizə məlumdurmu?

Cavab: Sənədlər podpolkovnik İbrahimbəyov, Qaytabaşı, sonra Qulubəyov tərəfindən oxunmuşdu. Sonra bütün sənədlər məhkəmə hissəsinin sərancamına verilmişdi. Şəxsən mən aşağıdakı sənədləri görmüşdüm: Könüllü ordu agentinin olan bir nəfərin və Mazayevin adlarının çəkildiyi, 3-cü Gəncə piyada alayı haqqında və ümumilikdə ordumuz barədə qeydlər olan kimin tərəfindən yazıldığı bilinməyən əlyazma məlumatı. İfadəm 3 səhifədə mənə oxundu və düzəlişlər məlumdur. Ə.Şıxlınski".

11-ci ordunun xüsusi şöbəsinə: "Xarici işlər komissarlığı inqilabi komitənin Əliağa Şıxlınskinin adına olan 472№-li vəsiqəsini, xalq xarici işlər komissarlığının 5734№-li vəsiqəsini, adı çəkilən Əliağa Şıxlınskinin sorğu vərəqini Moskvaya getmək hüquq verən vəsiqə, aparılmasına icazə verilən əşyaların siyahısı

və iki ədəd fotoşəkillə birlikdə sizə göndərir. İşlər müdiri. Qərbi siyasi şöbənin müdiri. 21 iyul. Bakı şəhəri. "

Onun günahının sübuta yetirilməsi üçün Azərbaycan ordusunun həmin dövrdə həbs edilmiş başqa bir yüksək rütbəli zabiti, casusluqda ittiham olunan İlyas Əliqulu oğlu Şahtaxtınski müstəntiq Qubin tərəfindən dindirilir. Həmin dindirilmə protokolundan çıxarış (1920-ci il 29 iyun) eyni qovluqda saxlanılan digər istintaq işinə daxil edilmişdir. İ.Şahtaxtınskinin ifadəsindən bəzi məqamları nəzərinizə çatdırırıq: "General Ə.Şıxlınskini mən Azərbaycan ordusunun qərargahında xidmətdən tanıyıram. Onun sovet hakimiyyətinə qarşı münasibəti ilə əlaqədar deyə bilər ki, o azacıq da olsa razı deyildi, əksinə həmişə köhnə general kimi qırmızı ordunun hərdən məruz qaldığı məğlubiyyətlərə sevinirdi. Könüllü orduya qarşı Ə.Şıxlınski çox mehriban və nazakətli idi. Könüllü ordunun nümayəndələrinə qarşı bomba atılanda Ə.Şıxlınski tutulmuş bolşevik terrorçuları ilə öz yavəri kapitan Çaevskiyə məmuniyyətlə bildirmişdi. "Siz eşitmisinizmi həmin yaramazları artıq həbs ediblər." bu sözləri mən özüm eşitmişdim. Sonra qırmızı ordu Dərbənddə olarkən Ə.Şıxlınski Azərbaycan ordusu qərargahının qeri-nizami rotasının komandiri Kalımova əmr etmişdi ki, silahlarını təmizləyib, daim Qərargahda olsunlar. Belə əmrin səbəbini onunla izah etmişdi ki, qırmızı ordu yaxınlaşır, buna görə də bolşeviklərin Bakıda çıxışları ola bilər. Bu il aprel ayının 15-də (təqribən) mən Şuşaya Qarabağ qoşunlarının qərargahına ezam olundum. Bu vaxt hərbi nazirin vəzifəsini müvəqqəti icra edən Ə.Şıxlınskidən general Səlimovun adına vəziyyətin ciddiliyi nəzərə alınaraq, Quba alyanın batalyonunun, bütün Tatar atlı alayının bolşeviklərlə mübarizə üçün göndərilməsi barədə şifrteleqram gəldi. Bu telqramı mən oxudum. General Səlimov cavab teleqramı göndərdi ki, Azərbaycan iki cəbhədə davam gətirə bilməz.

General Şıxlınskinin sovet hakimiyyəti dövründəki xidməti işləri barədə mən heç nə deyə bilmərəm, çünki həmin vaxtı həbsdə olmuşam."

11-ci ordunun xüsusi şöbəsinin müstəntiqi Qubin tərəfindən Ə.Şıxlınskinin işi ilə əlaqədar bu tipli dindirilməyə



cəlb edilən şəxs Sokolov Vasili Nikolayeviç olur. Sokolov Gəncə üsyanında iştirak və ağqvardiyaçı generalla əlaqədə ittiham edilirdi: "Sual: General Cavan Şıxlınski teleqraf xətti və telefonla kiminlə neçə dəfə, nə vaxt və nə barədə danışmışdı?

Cavab: Azərbaycanda sovet hökumətinin qurulmasının ilk günlərində hərbi və dəniz komissarı y.İldırım general Cavan Şıxlınskini telefona çağırdı və ona təklif etdi ki, xidmətdə qalıb-qalmadığı barədə fikrini bildirsin (Cavan Şıxlınskinin mənə dedikləri əsasında ifadə verirəm) və soruşmuşdu ki, sovet hökumətinə təmiz xidmət edəcəkmi? Bu təklifə C.Şıxlınski xahiş etdi ki, bu barədə Ə.Şıxlınski ilə məsləhətləşməyə imkan verilsin. İldırım cavab verdi ki, Əliağa buradadır və dəstəyi ona verdi. Əliağa Cavana dedi: "çevriliş qansız baş verdi, vəziyyət əladır, mən xidmət edirəm" və bundan sonra Əliağa dəstəyi İldırıma verdi. Cavan Şıxlınski ona dedi ki, o, qalıb sovet hakimiyyətinə xidmət etməyə razıdır və vicdanla xidmət edəcək. Bundan sonra mənə məlumdur ki, C.Şıxlınski İldırımla telefonla gürcü zabitlərin həbsi barəsində danışdı və mayın 20-nə qədər (o, Yelizavetpolda qarnizon rəisi və Azərbaycan birləşmiş diviziyasının komandiri kimi qalmışdı) beş dəfə özünün böyük yavəri rotmistr Əhməd Əfəndiyev vasitəsilə Əliağa Şıxlınskini telefona çağırmaq barədə teleqraf göndərmişdi. Ancaq C.Şıxlınski ilə Ə.Şıxlınski arasında danışıq olub-olmadığı barədə mən bilmirəm.

Sual: Siz C.Şıxlınskinin inamı və tapşırığı ilə yavər Əfəndiyevin Ə.Şıxlınski ilə danışdığını mümkün hesab edirsinizmi?

Cavab: Bu imkanı, Əfəndiyevin sərbəst surətdə Cavanın adından danışmasını mən mümkün hesab edirəm, çünki Əfəndiyev Cavan Şıxlınskinin tam inamını qazınmışdı, məxfi yazışmalar aparılmasını ona tapşırmışdı və bundan əlavə Cavan Şıxlınski ağır eşidirdi və Əfəndiyevdən texniki baxımdan da istifadə edirdi.

Sual: Cavan Şıxlınski Əliağa Şıxlınski ilə nə barədə danışmaq istəyirdi?

Cavab: Cavan Şıxlınski özünün xidməti vəziyyəti barəsində çox maraqlı idi. 2.Yelizavetpol diviziyasında ərzaq

ehtiyatı yox idi. 3.Qohumluq əlaqələrinə görə və Cavan Şıxlınskinin öz dayısı Əliağa Şıxlınskiyə hörmətdən başqa məhəxbətlə yFnaşdığını, atasından çox istədiyini əlavə etməyi lazım bilirəm.

Sual: Nə üçün Cavan Şıxlınski məhz Əliağa Şıxlınskiyə müraciət edirdi?

Cavab: Ona görə ki, o, Əliağa Şıxlınskini bütün həyati məsələlərdə yüksək nüfuz sahibi sayırdı və ona müraciət edirdi.

Sual: Cavan Şıxlınski Əliağa Şıxlınski ilə Yelizavetpolda sovet hakimiyyəti əleyhinə qarşı üsyanın təşkili və ona rəhbərlik barədə məsləhətləşmişdimi?

Cavab: Əgər Cavan Şıxlınski üsyanın təşkilində iştirak etmişdisə o, Əliağa Şıxlınski ilə məsləhətləşməli idi. Üsyanda iştirak edənə qədər onu necə təşkil etmək barədə.

Sual: Cavan Şıxlınski üsyanın təşkilində iştirak etmişdimi?

Cavab: Bilmirəm və təsəvvür etmirəm ki, vicdanlı söz vermiş şəxs üç həftə sonra onu necə poza bilər."

Bu məqsədlə istintaqa cəlb olunan üçüncü şəxs B.N.Qluxarev soyadlı bir zabit idi. Onun dindirilməsini məxfi-əməliyyat hissəsinin rəisi Aşukin aparıb.

B.N.Qluxaryevin ifadəsindən: "1-ci əlahiddə batareyanın vəziyyətinin qeyri-müəyyənliyinə görə, bu məsələnin aydınlaşdırılması üçün Azərbaycan ordusunun Qərargah rəisi Qaytabaşının yanında oldum. Mən orada olarkən Şıxlınski gəldi. Mən Şıxlınskiyə dedim ki, əgər məni Azərbaycan ordusunda xidmətdə saxlasalar mən xidmət edəcəyəm, əgər Rus sovet ordusunda olsa mən xidmət etməyəcəyəm. Mənim bu sözlərimin yaxşı təsir oyatdığı Şıxlınski dedi "gözlə" təkər fırlanır və tezliklə yaxşı dövrlər gələcək. Bu vaxt sovet ordusu komissarlarından kimsə gəldi, Şıxlınski susdu, mənə göz vurub, sovet ordusunu təriflməyə başladı. Mən maraqlandığım batareya məsələsi ilə bağlı heç nə öyrənə bilmədən getdim".

İstintaq-arxiv işində saxlanılan daha bir sənəd.

"Xüsusi şöbəyə yol.Pankratova "İyunun 5-dən saat 12-yə 15 dəqiqə qalmış Qarnizon rəisinin idarəsindən 28-ci diviziyanın qırımızı əsgəri Səfərəliyev Mustafanın yanına gələrək iki



məktub təqdim edib, biri xüsusi şöbənin adına, ikincisi qarnizon rəisinin adına. Həmin şəxs açıq məktubları ataraq qaçmışdır. Xüsusi şöbənin adına olan məktub göndərilir. Qarnizon rəisinin adına olan açılmış məktubu siz Qarnizon rəisinin idarəsində görə bilərsiniz, lazım bilinsə onu da sizə göndərəcəklər. Kargüzar."

Qarnizon rəisinə: "Yaxınlarda, axşam mən bildim ki, əksinqilabçıların izinə düşüb, əsas araqızışdıranları tutublar: general Şıxlınskini, Jilyayevi, Usubbəyovu, bu xəbər bizim üçün xoşdur, ancaq məsələ bundadır ki, onlar əmr verən idilər, icraçı kimi qalıblar. Bu Çaevski (Şıxlınskinin yavəri), Həmid Rüstəmbəyov (polkovnik Jilyayevin yavəri) və eyni zamanda ana tərəfdən Usubbəyovun əmisi oğlu, ata tərəfdən isə Əli Bayramovun işinə görə ölüm cəzasına məhkum olunmuş keçmiş daxili işlər naziri Şəfi Rüstəmbəyovun əmisi oğludur. Hərbi nazirliyin komendantı Artemenkodur. Əsas rolu Gəncə şəhər sakini kimi Rüstəmbəyov və həmin keçmiş nazirin qohumları oynayırlar."

Bütün bu araşdırmalar və dindirmələrdən sonra 1920-ci il iyun ayının 29-da artıq 11-ci ordu xüsusi şöbəsinin baş hərbi müstəntiqi olan Qubin tərəfindən qərar verilir:

"Az.SSR hərbi-dəniz komissarının müavini Əliağa Şıxlınskinin əksinqilabda ittiham olunması ilə bağlı işə baxaraq, aşkar etdim:

Keçmiş hərbi nazirin müavini tam artilleriya generalı Əliağa Şıxlınski özünün əksinqilabi hökumətinin müdafiəsi, RSFSR qırmızı qoşunlarının Azərbaycan ərazisinə buraxılmaması üçün tədbirlər görmüş, qoşunlar daxil olduqdan, sovet hökuməti möhkəmləndirilməyə başladıqdan sonra Azərbaycan qırmızı ordusunun sıralarına daxil olmuş, məsul yoldaşların etimadını qazanmağa nail olmuş və sovet Azərbaycanının hərbi-dəniz komissarının müavini təyin edilmişdir. Özünün xidməti vəziyyətindən istifadə edərək, dəfələrlə birbaşa teleqraf xətti və telefonla qohumu Az.SSR 1-ci piyada diviziyasının keçmiş komandiri general Cavan Şıxlınski ilə nəzarətsiz danışıqlar aparmışdır (sonuncu dəfə 24 mayda, üsyana bir gün qalmış). Bütün ciddi məsələlərdə dayısı Əliağa Şıxlınski ilə məsləhətləşən və onu yüksək nufuz sahibi hesab edən Cavan

Şıxlınski Gəncədə sovet hakimiyyətinə qarşı çıxışların təşkilatçıları və rəhbərlərindən biri olmuşdur. C.Şıxlınskiyə məsləhətlər verməsi və onu yönəltməsi halı Əliağa Şıxlınskinin üsyanda iştirak etdiyini söyləməyə tam əsas verir. Könüllü ordunun güllələnmiş polkovniki Qluxarevin Ə.Şıxlınskinin sovet hökumətinin devrilməsini nəzərdə tutan tezliklə yaxşı günlərin gələcəyinə ümid etməsi barədəki ifadəsi Ə.Şıxlınskinin sovet hakimiyyəti əleyhinə çıxış etməyə hazırlaşması faktını təsdiq edir. Bundan əlavə müttəhim Ə.Şıxlınski qohumu C.Şıxlınski vasitəsilə Gürcüstanda yaşayan Könüllü ordunun generalı İrmanovla əlaqə saxlamış və ağqvardiyaçı, sovet quruluşunun düşməni olan zabitləri onların fəhlə-kəndli hakimiyyətinə münasibətini bilərək, Azərbaycan qırmızı ordusuna xidmətə götürmüş və onları himayə edərək, özünü onlarla bir sırada qoymuşdur.

Müttəhimin hərbi texnika (artilleriya) sahəsində zəngin biliyə malik olmasını və Qafqaz İnqilabi cəbhəsinin hərbi inqilabi şurasının üzvü y.Orconikidzenin təklifini nəzərə alaraq qərara gəldim: Ə.Şıxlınskini 577№-li işinə baxılmaq üçün ÜFK-ya göndərmək. Qərar təsdiq edilir. Xüsusi şöbənin rəisi Pankratov, 29 iyun 1920-ci il."

Əliağa Şıxlınski Moskvaya çatdıqdan sonra onun şəxsi əşyalarını yoxlayan ÜFK Xüsusi şöbəsinin komendantlığı 1920-ci il 18 avqustda 2462 №-li qəbz tərtib edir: "Əliağa İsmayıl oğlu Şıxlınskinin üstündən səksən iki min beş yüz rubl, 14 nikolay rublu, cib saatı metal qolbağla, bir soyadlı möhür, bıçaq, dəri pul qabı, dəri bumajnik, 10 ədəd açar çıxdı".

Həmin şöbənin komendantlığının eyni gündə apardığı ikinci yoxlama nəticəsində isə onun üstündən "bir ədəd qızıl nişan üzüyü, bir ədəd brelok çıxdı"ğı qeyd edilərək 2463 №-li qəbzlə sənədləşdirilmişdir.

1920-ci ilin 3 sentyabrında ÜFK Xüsusi şöbəsinə Butırsk həbsxanasının rəisinə tapşırıq verilməsi üçün ÜFK işlər müdiri, qeydiyyat-reqistrasiya şöbəsinin rəisi tərəfindən göndərilən 1611 saylı talona əsasən Əliağa İsmayıl oğlu Şıxlınskinin "çağırılan kimi dairə hərbi komissarlığına müdafiəsiz gəlmək



barədə kağız alınmaqla" dərhal həbsdən azad edilməsi əmr olunur.

Əliağa Şıxlınski bir müddət Moskvada Ali topçuluq məktəbində müəllim işlədikdən sonra Peterburqda topçuluq Akademiyasında mühazirələr oxuyur. Bir il Rusiyada yaşadıqdan sonra N.Nərimanovun xahişi ilə yenidən Bakıya qayıtmış, Bakı qarnizonunun hərbi-elmi bilik cəmiyyətində topçuluqdan mühazirələr oxumuşdur.

Ə.Şıxlınski 1943-cü ildə vəfat etdi. Dünyadan sonsuz köçməsinə baxmayaraq, bu gün onun qoyub getdiyi zəngin hərbi elmi irs vətənin neçə gənc hərbçilər nəslinin yetişməsində əvəzsiz mənbədir. Bu gün Azərbaycan ordusunun hərbi və döyüş qabiliyyətini durmadan artırmağı, millətə təmənnasız xidməti, mənəvi təmizliyini qorumağı öz müqəddəs vəzifəsi sayan hər bir əsgər və zabit onun övladı, davamçısı adlanmağa layiqdir.

Moskvaya gedən Əliağa Şıxlınski ona verilmiş Sorğu vərəqində "hərbi işə münasibəti" qrafasında yazıb: "bütün ömrü boyu hərbi xidmətdə olub - könüllü şəkildə". Bu onun bir insan kimi öz həyatının mənasını təşkil edən başlıca amili müəyyənləşdirməsi, keçdiyi ömür yolunu qiymətləndirməsi idi. Bəli, Ə.Şıxlınski bütün ömrü boyu hərbi xidmətdə oldu, çar ordusunda qulluq etdiyi vaxtda da, sonra müstəqil Azərbaycanda hərbi işin möhkəm təməlinin qoyulmasında bütün varlığı ilə çalışında da, nəhayət sovet rejiminin ciddi nəzarəti və təzyiqi altında işləyəndə də əsl hərbçi kimi qaldı. Əsgəri xidmətdən tam artilleriya generalı rütbəsinə qədər yüksəlmiş bu insanın həyatında, taleyində çox şey dəyişdi, yalnız xidməti borca münasibəti, dəmir hərbi nizam-intizamı dəyişmədi. Əsgər Əliağa Şıxlınski ilə ordu generalı Əliağa Şıxlınski arasında bu iki sahədə fərq yalnız onun daşıdığı çindən ibarət oldu.

## Dövlət nəzarətçisi Məmmədbəyov

"Bakı quberniya vergi idarəsi"nin sənədli materiallarında Bakı quberniyası Şağan kənd sakinlərinin 1886-cı ildən sonra tərtib olunmuş siyahısı üzrə adı keçən şəxslərdən biri Heybətqulu bəy Həbibulla oğlu Məmmədbəyovdur. Həmin siyahıda göstərilir ki, Nəsrulla bəy Nəcəfqulu bəy oğlu Məmədbəyov Bakı qəza idarəsində tərcüməçi işləyib və 7 ha üzüm bağı var. Daha sonra qeyd olunanlardan aydınlaşır ki, Nəsrulla bəy Nəcəfqulu bəy oğlu 1845-ci ildə anadan olub, onun oğlanları Məmmədbəy 1872-ci il, Nəcəfqulu bəy 1883-cü il və İsa bəy 1889-cu il təvəllüdlüdür, qardaşı Həbibulla bəy 1847-ci ildən, qohumları Cəfərqulu bəy 1880 və Heybətqulu bəy 1883-cü ildəndir.

Bu nəslin şəcərəsi barədə daha irəliki əsrlərə aid məlumat əldə etmək mümkün olmasa da, bir həqiqətə şübhəmiz yoxdur ki, Məmmədbəyovlar qədim tarixi kökə malik mülkədar ailəsinin nümayəndələri idilər. Uzun illər Heybətqulu bəyin dədə-babaları torpaq və var-dövlət sahibi kimi tanınmış, yaşadıqları ərazidə nüfuz sahibi olmuşdular. Ancaq tale elə gətirdi ki, Nəcəfqulu bəyin nəvələri Heybətqulu və Cəfərqulu Məmmədbəyovlar zadəgan əslinə mənsubluqlarından sonralar çox böyük əziyyətlər çəkdilər, onlara qarşı irəli sürülən ittihamların mayasında dayanan səbəblərdən biri də bu mənsubluq oldu.



Heybətqulu bəylə bağlı tədqiqatlarımız əsasən, bu şəxsiyyətin Cümhuriyyət dövrü hökumətindəki fəaliyyəti və sovet rejimi tərəfindən repressiyaya məruz qalması ilə əlaqədardır.

"Azərbaycan Cümhuriyyəti sənədlər və materiallar 1918-1920-ci illər" məcmuəsində Heybətqulu bəyin təvəllüd tarixi 1888-ci il göstərilmişdir. Ancaq həm yuxarıda istinad etdiyimiz tarixi sənəddə, həm də MTN arxivində saxlanılan (PR 1363 və PR 41373) işlərdə bu tarix tamamilə fərqlidir. Belə ki, 1925-ci il mayın 19-da FK tərəfindən təkrar həbs olunan Heybətqulu bəy Məmmədbəyov bir gün sonra əməkdaş F.Babayev tərəfindən ilk dəfə dindirilərkən "Tərcümeyi-halınızı danışın" sualına cavabında: "1879-cu ildə Şağan kəndində bəy ailəsində anadan olmuşam" - demişdir.

1937-ci ildə artıq üçüncü dəfə sovet cəza orqanlarının repressiyasına məruz qalan Heybətqulu bəyin dindirilmə protokolunda 1878-ci il təvəllüdlü, Əzizbəyov rayonu Şağan kəndi, arvadı və dörd uşağı, 1923-26-cı illərdə DSİ tərəfindən repressiya olunub qeydi edilmişdir. Zənnimizcə, 1879-cu ilin Heybətqulu bəyin təvvəllüd tarixi kimi qəbul olunması daha düzgündür. Çünki bunu həm özünün verdiyi ifadə təsdiqləyir, həm də əsrin əvvəllərində ictimai-siyasi fəaliyyətlə məşğul olan bir şəxsin 14-15 yaşında uşaq olması o qədər də inandırıcı deyil.

Heybətqulu bəy Məmmədbəyovun mayın 20-də F.Babayev tərəfindən dindirilməsi zamanı söylədiyi digər faktlar da onun doğum tarixinin 1888-ci il olduğunu ciddi şübhə altında qoyur.

"1892-ci ildə rus-tatar məktəbinə daxil olub 1896-cı ildə bitirmiş və Mixaylovsk məktəbinə daxil olmuşam. 1902-ci ildə orada mühasib kursunu bitirmişəm. Bundan sonra Şəmsi Əsədullayevin kontorunda 1905-ci ilə qədər müqavilə ilə işlədim. 1905-ci ildə əvvəl Tağıyevin yanında, 6 aydan sonra isə Əmiraslanov qardaşlarının kontorunda mühasib olmuşam. 1917-ci ilə qədər burada işləmiş, 1918-ci ilin 10 fevralında Zaqafqaziya Seyminə üzv seçilmişəm. 1918-ci ilin payızında türklər Bakını tutandan sonra Bakı şəhər bələdiyyəsinin üzvü seçilmişəm. 1918-ci ildə Seymin üzvü kimi Azərbaycan

parlamentinə seçilmişəm. 1919-cu ilin 22 dekabrında "İttihad" partiyasının üzvü kimi dövlət nəzarəti nazirliyinə namizədliyim irəli sürülüb. 21 mart 1920-ci ilə qədər dövlət nəzarətçisi olmuşam. Azərbaycan sovetləşənə, yəni aprelin 27-nə qədər parlamentin üzvü olaraq qalmışam... Yadımda deyil 1920-ci ilin hansı ayındasa, İnqilabi komitənin zəmanəti ilə bir neçə bankın ləğv edilməsi üzrə komissar təyin olunmuşam. 1920-ci ilin 12 iyununda mən yol.Qarayev tərəfindən Qarabağ rayonu qaçqınlarının yerləşdirilməsi üzrə səlahiyyətli şəxs təyin edilmişəm. 1921-ci ilin iyununa qədər bu vəzifədə qalmışam. Vəzifədən çıxdıqdan sonra Şağan kəndinə gedib 1922-ci ilin avqustuna qədər orada qalmışam. Yol.Məmmədhəsən Hacınski tərəfindən xidmətə dəvət edilmiş və Zaqafqaziyadövlətticarətin Bakı şöbəsinin rəis müavini təyin olunmuşam. 23-cü ilin iyununda işdən çıxdım və Şağan kəndinə getdim. 15 iyunda AZ. FK tərəfindən həbs edildim və 27 noyabra qədər həbsdə yatdım. Azad edildikdən sonra əvvəlcə metal-sindikatda, sonra Azipəkdə, axır zamanlar isə Azneftticarətdə baş mühasib işlədim".

Yəqin ki, əlavə dəlilə, yaxud şərhə ehtiyac qalmır. Necə deyərlər, faktlar hər şeyi daha konkret şəkildə aşkara çıxarmaqla, həqiqəti tam ifadə etmiş olur.

Bu protokolda Heybətqulu bəyin kimliyi ilə bağlı məlumatda Bakı şəhərində Mixaylovski uçilişini bitirdiyi, atasının ixtisasca çörəkçi olduğu, 1923-cü ilin 15 iyunundan 27 noyabrına qədər Az.FK-da həbsdə yatdığı da qeyd edilib.

"Siz nə üçün həbs edilmisiniz?" sualına cavabında isə o, "İttihad" təşkilatına mənsubluqda ittiham olunmuşam" - demişdir.

Qeyd olunanlara əlavə kimi onun avtobioqrafiyasına aid başqa konkret faktları da oxucunun diqqətinə çatdırırıq.

Məmmədbəyov Heybətqulu bəy 1910-cu ildə "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin, "Nəşri maarif" və "Nicat" cəmiyyətlərinin yaradıcılarından biri olmuşdur. O, həmçinin "İttihad" partiyasının (1917), Zaqafqaziya Seyminin (fevral 1918), Azərbaycan parlamentinin (dekabr 1918) üzvü olmuşdur. Cümhuriyyətin sonuncu, beşinci hökumətində Dövlət nəzarətçisi (dekabr 1919- mart 1920) postunu tutmuş, 1920-ci ilin aprel çevrilişindən sonra özü göstərdiyi kimi müxtəlif sovet idarələrində işləmiş, bir neçə dəfə repressiyaya məruz qalmışdır.

Bir insan ömrünün rəqəmlərə sinmiş ən qısa ifadəsi. Ancaq düşünəndə ki, bu adi rəqəmlərin hər birinin arxasında mənalı bir ömrün ağlı-qaralı illəri, bu illərin acılı-şirinli yaşantıları, xatirələri yatır, adamı maraq bürüyür. Onu incəliyinə qədər öyrənməyə, araşdırmağa çalışırsan.

Məmmədbəyov Heybətqulu bəy Həbibulla oğlu Az.FK tərəfindən 173 saylı orderlə yaşadığı Persidski küçəsində 120 saylı evdə 1925-ci il 19 mayda komissar Qriçman tərəfindən həbs edilib. Elə həmin gün onun mənzilində axtarış aparılıb və müxtəlif yazışmalarla bərabər üstündə bıçağı olan Avstriyada istehsal edilmiş tüfəng götürülüb.

Əslində, FK Heybətqulu bəyin həbsi ilə bağlı bir neçə ay əvvəldən hazırlıq görmüşdü. Bunu H.Məmmədbəyova 9 aprel 1925-ci ildə Azneftticartdən verilmiş vəsiqə də təsdiq edir. İşdə saxlanılan həmin vəsiqədə göstərilir ki, Heybətqulu bəy Məmmədbəyov Azneftticarətdə baş mühasib işləyir.

Az.FK-nın 360 saylı anketindən:

"Heybətqulubəy Məmmədbəyov türk, 47 yaş, bitərəf, mühasib, arvadı Çülsüm 38 yaş, oğlu Əmirulla 17, Nadir (oxuyur) 15, Adil 6 yaş, qızı Rəbiyyə 10 yaş (oxuyur), 1923-cü ildə "İttihad" partiyasına mənsub olduğu üçün FK tərəfindən həbs edilib, əmək haqqı ilə yaşayır".

Az.FK-nın müvəkkil köməkçisi Pevzner Az.FK-da saxlanan Müsavat Parlamentinin üzvü (onun bitərəf deyil, müsavat üzvü kimi göstərilməsi gələcək ittihamlara siyasi don geyindirmək üçün lazım idi - L.Ş.), ixtisasca mühasib, Bakı Persidski küçəsi 120-də yaşayan, Az.SSR CM-in 61-ci maddəsi ilə gizli "İttihadi-İslam" təşkilatına mənsubluqda ittiham edilən və törətdiyi cinayət Az.FK-a tərəfindən tam təsdiq olunan Heybətqulubəy Məmmədbəyovla bağlı materillara baxaraq güman edir ki: "Heybətqulubəy Məmmədbəyovu həbs etmək və təcili istintaqa başlamaq haqqında Qərar çıxarmaq olar".

"Çünki, o, həmçinin əksinqilabi Bakı komitəsinin fəal üzvü olmuş və mövcud quruluşun devrilməsi üçün fəal iş aparmışdır".

Pevznerin bu qərarını müvəkkil Vilkov, SEKO və SOÇ rəisi vəzifəsini icra edən Nikolayev, Az.FK sədrinin müavini Petrov imzalayıblar.

Pevznerin "Az.FK-nın islah evində saxlanılan vət. Məmmədbəyovun ittiham olunması üzrə 288 saylı istintaq işi üzrə çıxardığı Qərar da FK əməkdaşları tərəfindən eyni ardıcıllıqla imzalanır:

"İşdəki materiallardan görünür ki, Məmmədbəyov keçmiş ittihadçılardandır. "İttihadi-İslam"ın Bakı komitəsinin üzvü kimi qatı islamçı, keçmiş parlament üzvü... Az.FK tərəfindən 1923-cü ildə özünün Türkiyədəki panislamçı liderlərlə birgə antisovet fəaliyyətinə görə həbs edilmiş 1924-cü ilin fevralına qədər həbsdə saxlanmışdır. Dindirmə zamanı Məmmədbəyov 20-ci ildən sonra özünün İttihad partiyasında iştirakını inkar edir və bildirir ki, Azərbaycanın sovetəşməsi günündən sonra sovet müəssisələrində işləyib və heç bir antisovet işi aparmayıb və belə işlər görülməsini cinayətkarlıq sayır. Bütün bunlara görə qərara alıram 288 saylı istintaq işi üzrə keçən Məmmədbəyov Heybətqulu, bəy nəslindən, ona qarşı irəli sürülən ittihamda günahkar hesab edilsin, ancaq sovet hakimiyyətinin möhkəm vəziyyətini və Məmmədbəyovun azadlıqda qalmasının Azərbaycanda fəhlə-kəndli hökumətinin dinc quruculuq işinə maneçilik göstərmədiyini nəzərə alaraq Az.FK-nın razılığı olmadan Bakı şəhərindən kənara getməmək barədə dilindən kağız alınmaqla həbsdən buraxılsın."

H.Məmmədbəyov Azərbaycanda ilk ziyalılardan idi ki, "panislamçı liderlərlə birgə antisovet fəaliyyətinə görə" ittiham olunurdu və bu yarlığı dövriyyəyə buraxanlar gələcəkdə onlarla dövlət xadimini, ziyalını "panislamçı", "pantürkçü" olmaqda günahlandıraraq məhv edəcəkdilər.

Müvəkkil köməkçisi F.Babayev də Məmədbəyov haqqında seçilmiş qəti imkan tədbirini - həbs altında saxlanma qərarını qüvvədə saxlamağı məqsədəmüvafiq hesab edir. 20 may tarixi ilə işə əlavə olunmuş bu sənəd onu ikinci dəfə cəza orqanının



qaranlıq zindanlarında əzab çəkməyə məcbur etdi. Bu dəfə daha bir aydan artıq müddətdə keçmiş hökumət üzvünə müxtəlif vasitələrlə təzyiqlər göstərildi, onu vətən qarşısındakı xidmətlərinə görə ittiham etdilər. Özünə qarşı təzyiqlər azmış kimi, yanına gələn bütün şəxslərə də şübhə ilə yanaşdılar, onların hər hərəkətində, hər addımında hakimiyyətə təhlükə axtardılar.

1925-ci il 30 mayda Tarliyev soyadlı bir əməkdaş Nikolayevə yazdığı raportda bildirirdi: "Sizin tapşırığınızla mən Azneftticarətin işlər müdiri vətəndaş Həyatova müttəhim Məmmədbəyovla müvəkkil Babayevin yanında 30-cu otaqda görüşməyə icazə verdim. Bir müddət sonra qapını bir qədər aralayıb gördüm ki, Babayev balkondan çasovoyu çağırmaq üçün iki addım kənarlaşanda Həyatov Məmmədbəyovun qulağına nəsə pıçıldadı və Məmmədbəyov məni görməyib başını tərpətdi. Əlbəttə, bütün bunlar bir anlığa baş verdi. Məni görəndə hər ikisi özünü itirdi, Məmmədbəyovun rəngi itdi, Həyatov isə başını aşağı saldı. Mən Məmmədbəyova müraciətlə "məgər sizin xidməti işinizdən yaxşı heç nə demək olmaz" dedim və görüş bitdiyi üçün getməsini bildirdim. Mənim yanımda Həyatov çox həyacanlandı və dedi: "bununla mən onu təhqir edirəm, belə ki, yol.Bağırov onu yaxşı tanıyır və s.". Məndən sonra o, gedə bilmədi və Babayevə dedi ki, Məmmədbəyova ancaq onu bildirib ki, Nərimanbəylini də həbs ediblər. Ancaq məncə və onların görünüşündən belə nəticə çıxarıram ki, bu belə deyil. Məlumat üçün bildirirəm".

3 iyun 1925-ci ildə Məmmədbəyov yenidən, bu dəfə Pevzner tərfindən dindirilir:

Sual: "İttihadi-İslam" partiyasında keçmiş işiniz barəsində siz nə deyə bilərsiniz və oradakı işiniz nədən ibarət idi?

Cavab: Keçmiş "İttihad" partiyası 1917-ci ildə Rusiyada müsəlmanlıq adı altında yaradılmışdı və 1920-ci ildə türklərin Azərbaycandan getməsindən sonra "İttihad" partiyası olaraq adlandırıldı. Bütün azərbaycanlıların birliyi ideyasına xidmət edirdi. Mənim işim ondan ibarət idi ki, bizim partiyanın nümayəndəsi kimi müsavat hökumətində təmsil olunam...

Sual: Sovet hakimiyyətinin Bakıya, ümumiyyətlə Azərbaycana gəlməsindən sonra "İttihad" partiyası hansı işləri görürdü?

Cavab: Mayın ilk günlərində bütün "İttihad" təşkilatı və qəzalardan təsadüfən gəlmiş bir neçə nəfər (onların soyadlarını xatırlamıram) Aşurbəyovgilə yığışaraq partiyanı buraxmağı və bu barədə qəzalardakı təşkilat bölmələrinə təcili partiyanı buraxmaq və bütünlüklə sovet hakimiyyətinə tabe olmaq barədə xəbər verməyi qərara aldılar. Göstərilən teleqram keçmiş poçt-teleqraf komissarı C.Vəzirovun icazəsi ilə yerlərə şəxsən mənim tərəfimdən göndərilmişdir. Buradan göründüyü kimi bizim partiyamız Azərbaycanın sovetləşməsindən sonra heç bir iş görə bilməzdi və heç bir iş görmədi.

Sual: Deməli, Siz sovetləşmədən sonra partiyada öz şəxsi iştirakınızdan qəti imtina edirsiniz. Bəs sizə digər "İttihad"çıların işi barəsində nə məlumdur?

Cavab: Hazırkı vəziyyətdə "İttihad" partiyasında işləməyimi qəti inkar edirəm, başqalarının işi barəsində də heç nə bilmirəm, həmçinin hansısa "İttihad"çılar tərəfindən hansısa işlərin görülmədiyini deyə bilmərəm, əgər belə iş haradasa aparılırsa bununla bağlı mənə heç nə məlum deyil.

Halbuki sovet hakimiyyətinin ilk illərində xüsusilə müsavatçılar və ittihadçılar tərəfindən Azərbaycanın müstəqilliyinin bərpası uğrunda gizli təşkilatlar yaratmaqla mübarizə aparıldığı Heybət bəyə yaxşı məlum idi. Çünki onun keçmiş milli hökumət və parlament üzvləri ilə sıx əlaqələri belə fəaliyyətlərdən xəbərdar olmasına tam imkan verirdi.

Qeyd etdiyimiz kimi, 1925-ci il iyun ayının 22-də Məmmədbəyovun dilindən kağız alınır və komendanta təqdim olunan 157 saylı orderlə o, həbsdən azad olunur.

Cəmi 16 səhifədən ibarət olan H.Məmmədbəyovun ikinci həbs işi bununla yekunlaşır. Qarşıda isə onu 37-ci ilin qara günləri, cəza orqanlarının yeni təzyiqləri və daha ağır ittihamlar gözləyirdi.

H.Məmmədbəyovun həyatının ən qaynar, məhsuldar və daha çox yaddaqalan dövrü sözsüz ki, onun Zaqafqaziya Seyminə



və Azərbaycan parlamentinə üzv seçildiyi, dövlət naziri təyin edildiyi vaxtlar olub. Orta təhsilini Şağan kəndində alan Heybət bəy Bakı Mixaylovsk şəhər uçilişinin hesablayıcı kursunu bitirib və mühasib ixtisası alıb. Kursu bitirdikdən sonra H.H.Məmmədbəyov müxtəlif ticarət müəssisələrində hesablayıcı işləyib, sonra isə Bakı şəhər upravasının torpaq şöbəsinin müdiri olub. Ali təhsil almasa da, fərdi şəkildə məşğul olmaqla o, zəmanəsinin yüksək səviyyəli ziyalıları ilə ayaqlaşıb, onlardan geri qalmayıb. Təbiətən fəal, açıqgöz adam olması ona həyatda uğur qazandıran cəhətlərdən idi.

"Azərbaycan parlamenti", "Bakı polistmeysteri idarəsi" fondunun arxiv materiallarında və Cümhuriyyət hökumətinin himayə nazirliyi tərəfindən 1920-ci ildə çap olunmuş "Ünvan-təqvim"də Heybətqulu Məmmədbəyov haqqında aşağıdakı məlumatlar verilir:

1.1918-ci ilin may ayında Zaqafqaziya Seyminin buraxılaraq Seymin keçiş müsəlman üzvlərinin iştirakı ilə Azərbaycan Milli Şurası yaradılıb. 1918-ci ilin 28 mayında Heybətqulu Məmmədbəyovun daxil olduğu Milli Şura Azərbaycanın müstəqilliyi haqqında akt elan edib.

2.Azərbaycan parlamentinin 1918-ci il dekabr - 1919-cu il dekabra qədərki iclas protokollarından məlum olur ki, Heybətqulu Məmmədbəyov parlamentin "İttihad" fraksiyasının üzvü olub.

3.1918-ci ildə Heybətqulu Məmmədbəyov parlamentin işçi qrupuna, 1919-cu ildə isə təsərrüfat-bölüşdürücü komissiyasına daxil olub. 1919-cu ilin 17 avqustunda o, Müəssislər məclisinin çağrılması üzrə Mərkəzi komissiyanın rəyasət heyətinə üzv seçilib.

4.1919-cu ilin sentyabr ayından Heybətqulu Məmmədbəyov Azərbaycan dilində nəşr edilən "İttihad" qəzetinin redaksiya kollegiyasının üzvü olub.

5.1919-cu ilin 22 dekabrında Heybətqulu Məmmədbəyov milli hökumətin tərkibinə dövlət nəzərat naziri kimi daxil edilib.

6.Bakı şəhər bələdiyyəsinin 1919-cu ilin may ayına aid jurnalına əsasən Heybətqulu Məmmədbəyov 1919-cu ilin

mayından 1920-ci ilin yanvarına qədər Bakı şəhər bələdiyyəsinin üzvü, 1920-ci ilin yanvarından martına qədər isə bələdiyyə qlasnısı olub.

Onun Cümhuriyyət dövründəki çoxsahəli fəaliyyəti barədə ətraflı söhbət açmadan yalnız bir faktı qeyd etmək istərdik. Heybət bəy o dövrdə talenin Azərbaycanın bəxtinə yazdığı həqiqətən də əvəzedilməz insanlarla bir cərgədə dayanmağa layiq olmağa çalışmışdı. Onun və əqidə yoldaşlarının öz ömürlərini fədakarcasına sərf etdikləri işlərin ümumilikdə bir adı vardı - Azərbaycanın qüdrətli dövlətə çevrilməsi, millətimizin dünyanın tərəqqi etmiş millətləri ilə eyni cərgədə dayanması, öz halal haqqı olan azadlığını, müstəqilliyini möhkəmləndirməsi. Bu cür işıqlı düşüncələrin gələcək ittihamların əsasını təşkil etməsi təsadüfi deyildi. Milli ruha, milli dirçəlişə yad-rejimin başqa yol tutması, onun kimi qəlbində azad vətən yanğısı gəzdirənləri dinc buraxması təəccüblü görünə bilərdi.

Üçüncü dəfə həbs ediləndə Heybətqulu bəy artıq 50 yaşını keçmiş bir şəxs idi və qaranlıq zindanda əzab-əziyyət çəkdiyi sonuncu gündən 12 il keçmişdi. Qarşımda arxiv-istintaq işlərində tez-tez təsadüf edilən bir ittiham sənədi var. Maştağa üzrə müsadirə adlanan bu sənəddə "keçmiş mülkədar, SSRİ vətəndaşı, bitərəf, pensiyaçı" H.Məmmədbəyov haqqında deyilir: mühakimə edilməyib, Bakı ş. 1917-ci ildə "İttihad" partiyasının, Zaqafqaziya Seyminin üzvü olub. Müsavat dövründə parlament sədrinin müavini, Dövlət nəzarətçisi. Azərbaycana türk nizami qoşunlarının dəvət edilməsində fəal iştirak edib. İki dəfə əksinqilabi fəaliyyətinə görə həbs edilib. Mövcud quruluşa qarşı düşmən əhval-ruhiyyədə olmaqla qardaşı keçmiş starşinə Cəfərqulu bəylə birlikdə kənddə əksinqilabi şayiələr yayır, kəndlilərlə əksinqilabi söhbətlər aparır. XDİK Maştağa RB-nin rəisi l-t Ziyalov. Təsdiq edib Sumbatov.

Bu tipli ittihamlarla doldurulmuş ikinci həbs kağızı qardaşı, "52 yaşında, mülkədar, SSRİ vətəndaşlığından məhrum olunmuş, bitərəf, bağçılıqla məşğul olan, Şağan kəndində yaşayan" Məmmədbəyov Cəfərqulu bəy Həbibulla oğlu barədə yazılıb. Beləliklə, 1937-ci il 7 dekabrda Maştağa RB tərəfindən 117 saylı



order Heybətqulu bəyin, 118 saylı order isə qardaşının həbsi üçün yazılır və hər ikisi Şağan kəndində həbs olunur.

Məni həmin sənədlərdə xüsusilə maraqlandıran Heybət bəyin parlament sədrinin müavini olması və Azərbaycana türk nizami qoşunlarının dəvət edilməsində fəal iştirak etməsi ilə əlaqədar qeydlər oldu. Heybət bəyin arxiv sənədlərində adı Azərbaycan parlamentinin açıldığı 1918-ci ilin 7 dekabr günü (ARDA f.894, siy.10, iş 105, vər. 60-61) olur. Orada göstərilir ki, parlamentin komissiyalarının seçilməsi məsələsinə baxılmış və Heybət bəy təsərrüfat komissiyasına İttihad fraksiyasının nümayəndəsi kimi daxil edilmişdir. Bu komissiyaya müsavat fraksiyasından Abbasqulu Kazımzadə, millətçi menşeviklərdən Tsxakaya, həmçinin "Slavyan-rus cəmiyyəti"ndən M.Mixaylov, V.Klenevski, S.Vonsoviç də daxil edilmişlər. AXC Parlamenti üzvlərinin siyahısında (ARDA f.894, siy.10, iş 58, vər. 8-10) 84 nəfərin arasında Heybət bəyin adı keçir. Parlamentin komissiya üzvlərinin 1919-cu ilin aprelinə aid siyahısında isə onun adı yenə də təsərrüfat-bölüşdürücü komissiyanın tərkibində verilir (ARDA f.894, siy.10, iş 58, vər. 5-7). 1919-cu il 30 dekabrda parlamentin yeni tərkibi seçilərkən sədr yenə də Ə.Topçubaşov, birinci müavin Həsən bəy Ağayev seçilir. Birinci müavinliyə irəli sürülən namizədlər (Səfikürdlü və S.M.Qənizadə) arasında Heybət bəyin adı yoxdur. ("Azərbaycan" qəzeti 30 dekabr 1919-cu il). 1920-ci il 13 yanvarda isə Parlamentin Rəyasət Heyəti seçilir S.M.Qənizadə sədr müavini, M.Hacınski katibin birinci müavini, B.N.Kiçikxanov isə ikinci müavini seçilirlər ("Azərbaycan" qəzeti 13 yanvar 1920-ci il). 23 yanvarda sədrin birinci müavini H.Ağayev istefa verir. ("Azərbaycan" qəzeti 23 yanvar 1920-ci il). Ümumiyyətlə, arxiv sənədlərində Heybət bəyin parlamentin sədr müavini olması ilə bağlı qeydə rast gəlmədik. Onun Azərbaycana türk nizami qoşunlarının dəvət edilməsində fəal iştirak etməsinə gəlincə isə, bu barədə əlimizdə tutarlı fakt olmasa da, Heybətqulu bəyin həmin işdə fəallıq göstərməsinə şübhə etmirik. Çünki o, 1918-1920-ci illərdə Azərbaycanda milli hökumətin möhkəmləndirilməsində bütün qüvvəsi ilə çalışmış, rus işğalından sonra da tutduğu yola sadiq

qalmışdır. Cəza orqanlarının daim diqqət mərkəzində olması da əslində bu fəaliyyətinin dolayısı ilə etiraf edilməsi ilə əlaqədar idi.

1937-ci il 6 dekabrda hər iki qardaşın evində Y.Qəmbərov və İ.Dadaşovun iştirakı, Ziyalovun rəhbərliyi ilə axtarış aparılır və tərtib olunan axtarış protokolunda heç nə tapılmadığı göstərilir. Qardaşların mənzillərindən onların əksinqilabi fəaliyyətlərini təsdiqləyən sənədlər çıxacağını güman edən "çekistlərin" ümidləri doğrulmur. Bəlkə də bu uğursuzluğun acığını çıxmaq üçün onları Dadaş Dadaşovun iştirakı ilə şəxsi axtarışa da məruz qoyurlar. İşin 7 və 8-ci səhifələrdən aydın olur ki, qardaşların üst-başının hərtərəfli yoxlanması da lazımi nəticə verməyib.

Heybətqulu bəyin qısa avtobioqrafiyasının əks olunduğu anketdə yenə də (10 dekabr 1937-ci il) onun 1878-ci ildə Əzizbəyov rayonun Şağan kəndində anadan olduğu göstərilib. Yaşayış yeri kimi isə Bakı Poluxin küçəsi 136 göstərilmiş, mühasib, pensiyaçı. Təhsili natamam orta, bitərəf. 1923-cü və 1926-cı illərdə Az.FK tərəfindən repressiyaya məruz qalıb. Ailə üzvləri arvadı Gülsüm 45 yaş, oğlu Əmirulla 30 yaş, Nadir 27 yaş, Adil 21 yaş, qızı Ruqiyyə 24 yaş. Maştağada ordu evində (yəqin hərbi hissənin binası nəzərdə tutulur - L.Ş.) saxlanır.

Qardaşının anketindən məlum olur ki, o, 1870-ci ildə anadan olub (deməli Cəfərqulu bəy həbs edildiyi vaxt 52 deyil, 67 yaşında imiş), ixtisasca çörəkçidir, sosial mənşəyi mülkədar, bitərəf, üzümçülükdən əldə etdiyi gəlirlə yaşayır. Repressiya olunmayıb. Ailə üzvləri arvadı - Bəyim xanım 55 yaş, oğlu Mehdi 36 yaş, Rzaqulu 32 yaş, Şamil 26 yaş, Həbibqulu 23 yaş, Amvel 16 yaş, qızı Böyükxanım 18 yaş, Badam 12 yaş, Kiçikxanım 9 yaş. Maştağada ordu evində saxlanır.

Kənd sovetinin sədri Dadaşov özü yazmadığı xəttindən görünən xasiyyətnamədə qeyd edir ki, "H.Məmmədbəyov müsavat vaxtında parlament üzvü, ministr olmuşdur. Onun torpaq sahələri olmuş, adamları istismar etmişdir. 4-5 muzdur saxlamış, 1918-ci ildə Şağan və Mərdəkanda müsavat dayağını təşkil etmiş bu adam 1919-cu ildə Şağan sakini Bəşir Zülfüqar oğlunu



öldürtmüşdür. Dəgər tərəfdən Şirəli Məmmədsadıq oğlunu öldürtmüş, özləri hökumət olduqlarından heç bir ölçülər görülməmişdir. 1920-ci ildən bu vaxta qədər daim camaatı iki hissəyə bölməyə çalışmaqdadır. Bu adam 1918-ci il mart davasının yaradılmasına böyük yardım etmiş və 1918-ci ildə türklərin Azərbaycana gəlməsinə səbəb olmuşdur. Bu adam daima Bəşir bəy Aşurbəyovla, Bababəyovla, Yusif bəy Nəsibbəyovla oturub-durmuşdur".

1937-ci il 7 dekabrda Mərdəkan kənd partiya təşkilatının qapalı iclası keçirilir və "Bəratəlqol" tərtib edilir. Əli Balaxanov, Zeynal Dadaşov, İsmayıl Dadaşov, Cabbar Vəliyev, Məzahir Əliyevin iştirakı ilə "ifşa olunmuş xalq düşmənlərinin tör-töküntüləri haqqında" məsələ müzakirə olunur.

"1.Eşidildi: baş sovet seçkilərinə maneçilik törədən xalq düşmənlərinin tör-töküntülərindən Şağan kəndindən partiya təşkilatına gəlmiş məlumata əsasən keçmiş müsavatçı, müsavat parlament üzvü olan Cəfərqulu bəy Məmmədbəyov və Heybətqulu bəy Məmmədbəyovlar sovet seçkilərində bu günkü günə qədər bir dəfə də olsun özləri və həyat yoldaşları iştirak etməmələrinə baxmayaraq, kütlənin də bu işdən yayınmasına səbəb olmuşlar və seçki kompaniyasına zərbə vurmuşlar. Hansı ki, Şağanda ifşa olunmuş Mirzə Mədət bunların ən yaxın əlaltılarıdır. Heybətqulu bəy və Cəfərqulu bəy kəndin ən ziyalı mülkədarları muzdur əməyindən istifadə etməkdədirlər. Belə ki, bunların 10 hektarlarla üzüm bağları vardır. Mərdəkan Varoşilov kolxozuna bu şəxslər vasitəsilə bir neçə zərbə vurulmuşdur".

Əgər kommunistlər, yəni xalqın "seçilmiş və inanılmış" nümayəndələri onlar haqqında bu fikirdə idilərsə, deməli qardaşların "xalq düşməni" elan edilməsi heç bir çətinlik törətməyəcəkdi. Məsələ əslində həll olunmuşdu, indi istintaq işinin sənədləşdirilməsi qalırdı. Bununla əlaqədar XDİK əməkdaşları və müstəntiqlər əl-ayağa düşmüşdülər, sanki Məmmədbəyov qardaşlarını ən ağır ittihamlarla mühakimə etmək üçün sübutlar toplamaq sahəsində bir-birilə yarışa girmişdilər.

XDİK həbsxanasına salındığı günün səhəri, 1937-ci il dekabr ayının 7-də Heybətqulu bəy istintaq tərəfindən dindirilir.

Sual: Siz hansı ildə və nəyə görə seçki hüququndan məhrum edilmisiniz?

Cavab: 1935-ci ildə müsavat hökumətinin üzvü kimi Şağan kənd soveti tərəfindən seçki hüququndan məhrum edilmişəm.

Sual: Müsavat hökumətində siz hansı vəzifəni tutmusunuz?

Cavab: Mən müsavat hökuməti parlamentinin üzvü, həmçinin onun dövlət nəzarətçisi olmuşam. Parlamentin yarandığı dövrdən ləğvinə qədər üzvü olmuşam, dövlət nəzarətçisi 22 iyul 1919-cu ildən 1920-ci ilin martına qədər.

Sual: Siz hansı vaxtdan əksinqilabi müsavat partiyasına daxil olmusunuz?

Cavab: Mən müsavat partiyasına daxil olmamışam, ancaq 1918-ci ilin sonunda "İttihad" partiyasının üzvü və "İttihad"ın MK üzvü olmuşam.

Sual: Keçmiş Az.DSİ tərəfindən nəyə görə həbs olunmusunuz?

Cavab: Birinci dəfə mən 1924-cü ildə 3-4 ay həbsdə saxlanmışam, ikinci dəfə 1926-cı ildə isə həbsdə 32 gün saxlanmışam. Həm birinci, həm də ikinci dəfə mənə qarşı ittiham irəli sürülməyib.

Sual: Sizin türk nizami hissələrinin Azərbaycana dəvət olunmasında nə kimi iştirakınız olub?

Cavab: Nizami türk hissələrinin Azərbaycana dəvət edilməsində mən iştirak etməmişəm. Həmin vaxt mən Zaqafqaziya Seyminin üzvü idim və Tiflisdə idim.

Sual: İstintaq müəyyənləşdirmişdir ki, siz xüsusi olaraq Türkiyəyə nizami türk hissələrini dəvət etmək üçün getmisiniz. Bunu təsdiq edirsinizmi?

Cavab: Təsdiq etmirəm.

Sual: İndiyədək ifşa olunmuş xalq düşmənlərindən kimləri tanıyırsınız?

Cavab: Müsavat parlamentində işləyərkən mən indi ifşa olunmuş xalq düşmənlərindən: 1.Əliheydər Qarayevi; 2.Mirzədavud Hüseynovu və Müzəffər Nərimanovu tanıyıram.



1905-ci ildən Sultan Məcid Əfəndiyevi və Baba Əliyevi tanıyıram.

Sual: Yuxarıda adı çəkilən şəxslərlə hansı əlaqələr saxlamısınız?

Cavab: Onlarla mən yalnız tanışlıq əlaqələri saxlamışam.

Sual: Onlarla görüşəndə nədən söhbət edirdiniz?

Cavab: Onlarla görüşəndə mən ümumiyyətlə söhbət etmirdim, ancaq salamlaşmaqla kifayətlənirdik.

Sual: İndi ifşa olunmuş xalq düşmənlərindən siz şəxsən kimi tanıyırdınız?

Cavab: Daha heç kimi tanımıram.

Sual: Bu doğru deyil, istintaqa məlumdur ki, siz xalq düşməni Qasım Nağıyevi tanımısınız və onunla yaxın əlaqə saxlamınsınız. Etiraf edirsinizmi?

Cavab: Xeyr, etiraf etmirəm.

Sual: Sizin qardaşınız Cəfərqulu bəy Məmmədbəyov müsavat hökumətində hansı vəzifə tutub?

Cavab: Mənim qardaşım müsavat dövründə Şağan kəndinin starşinası idi.

Sual: İndi qardaşınızla hansı əlaqə saxlayırdınız və tez-tezmi onun yanına gedirdiniz?

Cavab: Mən qardaşımla az-az görüşürdüm, 1937-ci ildə onu cəmi 3-4 dəfə görmüşdüm.

Sual: 1920-ci ildən başlayaraq xidmətinizdən danışın?

Cavab: 1920-ci ilin iyunundan iyuluna qədər fərdi bankların ləğvi üzrə komissar. 1920-ci ilin iyulundan 1921-ci ilin avqustuna qədər Qarabağ rayonu qaçqınlarının yerləşdirilməsi üzrə səlahiyyətli şəxs. 1923-1924-cü illərdə "Zaqdövlətticarətin" Bakı şöbəsinin rəis müavini. 1924-cü ildən 1926-cı ilin iyuluna qədər baş mühasib. 1926-cı ilin avqustundan 1931-ci ilə qədər "Azneftixracın" mühasibi. 1934-35-ci illərdə... mərkəzi təftiş komissiyasında məsul şəxs.

Sual: İstintaq müəyyən edib ki, siz qardaşınızla bərabər şayiələr yaymısınız və həmkəndlilərinizlə əksinqilabi söhbətlər etmisiniz. Etiraf edrisinizmi?

Cavab: Xeyr, etiraf etmirəm.

Eyni gündə, 1937-ci il dekabr ayının 7-də cəza orqanının qolçomaq hesab etdiyi Cəfərqulu bəy də istintaqa cəlb olunur. Az qala qardaşına verilənlərin təkrarı olan suallar. Və təqribən eyni cavablar. Bir çox hallarda nə həmin trafaret sualların, nə də candərdi cavabların işin ümumi gedişinə təsiri olmurdu. Hər şey əvvəlcədən ölçülüb-biçildiyi üçün tərtib olunan dindirmə protokolları kiminsə günahının müəyyənləşdirilməsindən daha çox zamanın ümumi ovqatını əks etdirirdi.

"Siz seçki hüququndan nə vaxt və nə üçün azad edilmisiniz?

Cavab: Seçki hüququndan 1921-ci ildə məhrum edilmişəm.

Sual: Siz əksinqilabi müsavat partiyasına hansı ildə daxil olmusunuz?

Cavab: Əksinqilabi müsavat partiyasına mən heç vaxt daxil olmamışam.

Sual: Sovetləşməyə qədər sizin hansı var-dövlətiniz vardı?

Cavab: Mənim qardaşım Heybət bəylə bərabər 30 ha əkin sahəmiz, 5 ha üzüm bağımız, 4 atımız, 200 qoyunumuz vardı.

Sual: Qardaşınız Heybətqulu bəy müsavat hökumətində hansı vəzifəni tuturdu?

Cavab: Mənim qardaşım müsavat dövründə parlament üzvü idi.

Sual: Qardaşınız Heybətqulu bəy sizin yanınıza tez-tezmi gəlirdi?

Cavab: Təqribən ayda bir dəfə gəlirdi, son dəfə isə o, üç ay idi ki, yanıma gəlmirdi."

Sözsüz ki, nə Heybətqulu, nə də Cəfərqulu bəyin onları düşmən gözündə görən bir rejimin repressiyasından xilas olmaq imkanları yox idi. Onların bütün özünümüdafiə cəhdlərinə baxmayaraq, cəza orqanının əlində hər ikisini əksinqilabi fəaliyyətdə ittiham edəcək kifayət qədər əsas vardı. Bu tipli ifşaedici materiallar arasında həmkəndlilərindən alınmış ifadələr də vardı. Bəzi məqamları nəzərə alıb həmin ifadələrin kimlər tərəfindən verildiyini bildirmirik.Əsasən rayon bölməsinin rəisi Ziyalovun dindirdiyi, adını çəkmədiyimiz həmin şəxslərin 1937-ci il dekabr ayının 6-sı tarixinə aid ifadələrindən bəzi məqamları oxucunun diqqətinə çatdırırıq. Yeri gəlmişkən, xatırladaq ki,



Məmmədbəyov qardaşları həmin gün həbs olunmuş və səhəri gün istintaqla üzbəüz dayanmışdılar.

Sual: Sizə həmkəndliləriniz Heybətqulu və Cəfərqulu bəy Məmmədbəyovların əksinqilabi fəaliyyəti barədə nə məlumdur?

Cavab: Onlar qardaşdırlar. Bir dəfə 1937-ci ilin sentyabrında mən kəndə qayıdanda yolda ağacın altında Heybətqulu və Cəfərqulu bəy Məmmədbəyovları və onların qohumu Şirəli Zeynalovu gördüm. Cəfərqulu bəyin dəvəti ilə mən onlara yaxınlaşdım. Adi söhbətlərdən sonra Cəfərqulu bəy kolxoz quruculuğundan danışdı və özünün bu barədə əksinqilabi fikirlərini söylədi ki, guya kolxozda aclıqdır, hər hansı formada kolxozlar ləğv ediləcək. Cəfərqulu bəy məni dilə tutdu ki, mən imkanlı adam kimi nahaq kolxoza girmişəm və arvadımı klubda işləməyə qoyuram. Cəfərqulu bəy mənə dedi ki, qadınlar kolxozda işləmək, məktəbə getməklə ancaq pozğunluq öyrənirlər. Cəfərqulu bəy bütün əksinqilabi söhbətlərində şəriətə əsaslanırdı.

Sual: Heybətqulu bəy qardışının əksinqilabi söhbətlərinə necə reaksiya verirdi?

Cavab: Heybətqulu bəy qardaşının əksinqilabi söhbətlərini təqdir edirdi.

Sual: Heybətqulu bəy öz qardışı Cəfərqulu bəylə tez-tezmi olurdu?

Cavab: Heybətqulu bəy Bakıda Cəfərqulu bəy isə Şağan kəndində yaşayır. Buna baxmayaraq, o, tez-tez kəndə gəlir, qardaşıgildə qalırdı.

Elə həmin gün natamam orta təhsilli, 3 uşaq atası, başqa bir Şağan kənd sakini tamamilə eyni suallara cavab verməli olur.

Sual: Sizə həmkəndliləriniz Heybətqulu və Cəfərqulu bəy Məmmədbəyovların əksinqilabi fəaliyyəti barədə nə məlumdur?

Cavab: Cəfərqulu bəy Məmmədbəyov keçmiş mülkədar, kənd starşinası və müsavatçı kimi mövcud quruluşa qarşı düşmən mövqedə qalmaqda davam edirdi. O, Cəfərqulu bəy söhbətlərində müntəzəm surətdə kolxozçularda və zəhmətkeşlərdə mövcud quruluşa qarşı nifrət oyatmağa çalışıraq deyirdi ki, "Eybi yox bir qədər dözmək lazımdır, tezliklə sovet

hökuməti olmayacaq". O mənimlə şəxsi söhbətlərində bir neçə dəfə sovet hökuməti ədalətsiz hökumətdir və onun sonuna az qalır, bununla yanaşı nifrətlə hakimiyyəti istismarçı adlandırır və kolxozçuların, fəhlələrin ac olduğunu deyirdi. Cəfərqulu bəyin belə əksinqilabi söhbətini sonuncu dəfə 1936-cı ilin noyabr ayında kolxozçuların yanında eşitmişdim.

Sual: Siz Heybətqulu Məmmədbəyov haqqında nə deyə bilərsiniz?

Cavab: Heybətqulu bəy Məmmədbəyov daim Bakıda yaşamaqla ayda təqribən 2-3 dəfə qardaşının yanına gəlirdi. Heybət bəy indi ifşa olunmuş xalq düşmənləri Baba Əliyev, Qasım Nağıyevlə, Qardaşovlarla və b. ilə sıx əlaqə saxlayırdı. Mənim yanımda Heybətqulu bəy əksinqilabi fikirlər söyləməyib.

1937-ci ilin 6 dekabrında başqa bir Şağan kənd sakini də eyni suallara cavabında sanki həmyerlilərinin fikirlərini təkrarlayır.

"Onlar doğma qardaşdırlar. Onlar kənddə ifşa olunmuş xalq düşmənləri Baba Əliyev, Qasım Nağıyev, Mədəd Qardaşovla və b. ilə sıx əlaqə saxlayırdılar. Onlar tez-tez bir-birlərinin evinə gedir və əksinqilabi şayiələr yayırdılar ki, guya tezliklə sovet hakimiyyəti yıxılacaq, kolxozlar ləğv ediləcək və s. Xüsusilə mühazirələrin əleyhinə təbliğat aparırdılar. 1936-cı ildə kooperativin yanında Şağan kəndində savadsızlığın ləğvi məktəbləri açmaq məsələsi qaldırılanda Cəfərqulu bəy bunun əleyhinə oldu".

Nəhayət, 6 dekabr gününə təsadüf edən başqa iki ifşaedici ifadə. Həmkəndlilərini əksinqilabi fikirlər söyləməkdə günahlandıran bu şəxsləri əvvəlkilərdən fərqləndirən bir cəhət onların ÜK(b)P üzvü olmalarıdır. Görünür, Məmmədbəyovların sovet hakimiyyətinin düşməni olmalarını qəti sübuta yetirmək üçün son sözü kommunistlərin deməsi məsləhət bilinib.

"Sual: Həmkəndliləriniz Heybətqulu və Cəfərqulu bəy Məmmədbəyovların keçmişini xarakterizə edin.?

Cavab: Onlar doğma qardışdılar, müsavat hökuməti dövründə əksinqilabi müsavat təşkilatının üzvü idilər və fəal iş aparırdılar. Heybət bəy müsavat parlamentinin sədr müavini idi.



1917-ci ildə Bakı kommunasının yıxılmasından sonra Heybət bəy Türkiyəyə getdi. Türkiyə hökuməti ilə danışıqlardan sonra müsavat partiyasının tapşırığı ilə türk nizami qoşun hissələrini Bakıya gətirdi. Onlar qatı müsavatçı və varlı təbəqəyə mənsub və o dövrdə varlı, nüfuzlu şəxs kimi bizim üzərimizdə məhkəmə qurmağa qədər kənddə hökmranlıq edirdilər. Onlar iki qardaş Şağan kəndində revolverdən atəş açmaqla fəhlə Bəşir Zülfüqar oğlunu və Şirəli Məmməd Tahir oğlunu öldürmüşdülər. Onlar Baba Əliyevin qohumu idilər və ona görə indiyədək həbs edilməmişdilər.

Sual: Siz Heybətqulu və Cəfərqulu bəylərin törətdikləri barədə nə deyə bilərsiniz?

Cavab: Onlar böyük nüfuzlarından istifadə edərək Şağan və ətraf kəndlərdə narazı elementlərə təsir göstərirdilər. Seçki əleyhinə iş aparırdılar...

Sual: Siz Heybətqulu bəyin və Cəfərqulu bəyin əksinqlabi fəaliyyəti barədə daha nə deyə bilərsiniz?

Cavab: Onların əksinqlabi fəaliyyəti barədə xahiş edirəm Zeynal Dadaşovu, Rəhim Rəhimovu, Əbdüləmi Əliyevi, Mirzə Əsədullaeyvi, Bəhmən Teymurovu dindirəsiniz".

"Kənd ağsaqqallarının söhbətindən mənə məlumdur ki, həmkəndlilərim Heybət bəy və Cəfərqulu keçmişdə fəal müsavatçı olublar. Onlardan Heybət bəy müsavat parlamentinin sədr müavini, onun qardaşı Cəfərqulu bəy isə 9 il ərzində kənd starşinası və əksinqilabi "Müsavat" partiyası Şağan kənd təşkilatının sədri olub Heybət bəy və Cəfərqulu bəy müsavat dövründə kənddə həmkənlilərimdən: fəhlə Bəşir Zülfüqarovu və Şirəli Məmməd Tahir oğlunu öldürüblər. Onların böyük müsavatçılar kimi kənddə güclü təsirləri var. Bu özünü partiya və hökumətin kənddə həyata keçirdiyi tədbirlərdə göstərir... Mən bir neçə ay əvvəl Heybət bəyə sual verdim ki, nəyə görə o, seçki məntəqəsinə gəlməyib? O dedi: "Nə fərqi var, onsuz da kimi deyəcəklər, siz onu da seçəcəksiniz."... Heybət bəy 6 ha bağı olduğu halda indiyədək vergi ödəməyib...

Sual: Onlar kimlərlə əlaqə saxlayırdılar?

Cavab: Onlar indi ifşa olunmuş xalq düşmənləri Baba Əliyev, Qasım Nağıyev, Ağabəy Aşurbəyovla əlaqə saxlayırdılar".

Sovet hakimiyyətinin bütün sonrakı dövrü seçkilərlə bağlı Heybət bəyin dilindən söylənən bu doğru qənaəti təsdiqləmədimi.?!. Yerlərdə nəinki hakimiyyətin barmaqla göstərdiyi şəxsi seçdilər, hətta xüsusi canfəşanlıq edərək "layiqli namizəd"ə 95-97 faiz səs verdirdilər. Dünyanın ən saxtakar seçkilərini "keçirən" rejim on illərlə öz qanunsuz hakimiyyətini zorakılıqla xalqa qəbul etdirdi.

7 dekabrda daha iki nəfər Şağan kənd sakini Məmmədbəyovların əleyhinə ifadə verməyə məcbur edilirlər.

"Heybətqulu və Cəfərqulu bəy Məmmədbəyovlar kəndin ən varlı qolçomaq ailəsindəndirlər. Onlar iki qardaş əksinqilabi müsvavat təşkilatının üzvü olublar və xalqa güclü təsir göstəriblər. Heybət bəy müsavat hökumətində parlament sədrinin müavini, Cəfərqulu bəy isə kəndin ağası. Həm Heybət bəy, həm də Cəfərqulu bəy Azərbaycan sovetləşəndən sonra müstəsna hüquqlarından məhrum olunublar. Onlardan Heybət bəy 1922-ci ildə həbs edilib. Yeddi aylıq həbsdən sonra Heybət bəy azad edilib. Heybət bəy və Cəfərqulu bəy 1919-cu ildə Əzizbəyov rayonunda böyük nüfuza malik olmaqla həmkəndlilərimiz Bəşir Zülfüqar oğlunu, Şirəli Məmməd Tahir oğlunu öldürüblər. Heybət bəyin həm də müsavatda böyük nüfuzu olduğu üçün onu 1918-ci ildə Türkiyəyə türk nizami hissələrini Bakıya dəvət etmək üçün göndəriblər. Bu şəxslər kənddə əksinqilabi şayiələr yayırlar və seçkilər əleyhinə təbliğat aparırlar.

Sual: Siz onların əksinqilabi fəaliyyəti haqqında hansı konkret sübutlara maliksiniz?

Cavab: Heybət bəy və Cəfərqulu bəy ifşa olunmuş xalq düşmənləri Baba Əliyev, Qasım Nağıyev və M.Aşurovla sıx əlaqə saxlayırdılar. Şəxsən atam demişdi ki, onlar 1937-ci ilin iyulunda onu kolxozdan çıxarmaq və ictimai işlərdən boyun qaçırmaq üçün razı salmağa çalışmışdılar. Onlar kənddə sovet hökumətinin



tezliklə yıxılacağı və kolxozun ləğv ediləcəyi şayiələrini yayırdılar".

İkinci şəxsə ünvanlanmış sualdan açıq-aydın görünür ki, əməkdaş nə cavab veriləcəyindən tam xəbərdardır.

- Sizə Heybətqulu bəy Məmmədbəyovun əksinqilabi fəaliyyəti barədə nə məlumdur?

- Təqribən 1937-ci ilin sentyabr ayında mən çimərlikdən kəndə gələrkən yolun altında oturmuş Heybət bəyi, Cəfərqulu bəyi və Şirəli Zeynalovu gördüm. Mən Cəfərqulu bəyin dəvəti ilə onlara yaxınlaşdım. Söhbət əvvəl ümumi məsələlərdən gedirdi, birdən Cəfərqulu bəy kolxoz quruculuğundan danışdı və fərdi təsərrüfatı tərifləməyə başladı. O dedi ki, guya kolxozda aclıqdır və məni qınadı ki, ailəm kolxozun üzvüdür, arvadım klubda işləyir.

Dekabrın 7-də Cəfərqulu bəy dindirilməklə yanaşı, həm də iki nəfərlə üzləşdirilir. Ona qarşı artıq tanış ittihamlar yenidən səslənir.

"Cəfərqulu Məmmədbəyov keçmişdə iri qolçomaq və kənd starşinası olub. O, mövcud quruluşa qarşı düşmən mövqedə olub və kənddə ətrafına kolxozçuları, zəhmətkeşləri yığaraq, onlara guya sovet hakimiyyətinin tezliklə yıxılacağından danışıb. Belə söhbətlərdən birində mən də iştirak etmişəm. 1919-cu ildə seçkilər zamanı əhaliyə təklif edirdi ki, müsavata səs versinlər".

XDİK Qala -Maştağa RB-nin rəisi leytenant Ziyalov həbs işi üzrə 2161 saylı Heybətqulu bəy və Cəfərqulu bəy Məmmədbəyovların işinə baxaraq Əzizbəyov rayonunun Şağan kəndində sovet hakimiyyəti əleyhinə iş aparan əksinqilabi qolçomaq qrupun olduğu barədə məlumatlara əsasən həmin qrupa mənsub Heybətqulu bəy Həbibulla oğlu Məmmədbəyov və Cəfərqulu bəy Həbibulla oğlu Məmmədbəyovun istintaqa cəlb edilmələri qərarına gəlir. Onun irəli sürdüyü Yekun ittihamda deyilir:

"Keçirilən istintaq zamanı müəyyənləşdirilmişdir ki, Şağan kəndində 1937-ci ildə təcrid edilmiş və seçki huququndan məhrum olunmuş iki qardaşdan ibarət əksinqilabi qrup kolxozun dağıdılması, əhali arasında məğlubiyyət ovqatının yaradılması

təbliğatı ilə məşğul olmuş, partiya və hökumətin tədbirlərinə, o cümlədən qadınların İttifaq Ali Sovetinə seçkilərdə iştirakına, savadsızlığın ləğvi məktəblərində oxumalarına qarşı çıxmışlar. Heybətqulu bəy və Cəfərqulu bəy həmkəndlilərlə söhbətlərdə faşist ideologiyasını təbliğ edirdilər ki, qadın kolxozda işləməkçün yox, ev işləri üçün yaranıb, onlar məktəbə gedib əxlaqsızlıq öyrənirlər. Sovet hakimiyyətinin tezliklə yıxılacağı barədə əksinqilabi şayiələr yayırdılar".

Göstərilənləri nəzərə alan Maştağa RB ə/m-nin köməkçisi Yaroşkeviç qardaşlara qarşı aşağıdakı itihamları irəli sürür:

1.Heybətqulu bəy Məmmədbəyov 59 yaşında, keçmiş mülkədar, hüquqlardan məhrum edilmiş, Şağan kənd sakini, orta təhsilli, bitərəf, ailəli, müsavat parlamentinin keçmiş sədr müavini, dövlət nəzarətçisi, "İttihad" partiyasının MK üzvü, Zaqafqaziya Seyminin üzvü. 1923 və 1926-cı illərdə əksinqilabi fəaliyyət üstündə keçmiş DSİ tərəfindən həbs edilib, hazırda pensiyaçı, Şağan kəndinə gələndə öz qardaşı ilə əláqəyə girərək əksinqilabi iş aparıb.

a)Partiya və hökumətin kənddə kolxoz quruculuğu, qadınların məktəbə getməsi və İttifaq Ali Sovetinə gözlənilən seçkilərdə iştirakı kimi tədbirlərin həyata keçirilməsinə qarşı çıxmaqda;

b)Sovet hakimiyyətinin yaxın vaxtlarda yıxılacağı barədə təxribatçı şayiələr yaymaqda ittiham olunur.

İstintaqda özünü günahkar hesab etməyib, ancaq ifadələr və üzləşdirmələrlə ifşa olunur.

2.Cəfərqulu bəy Məmmədbəyov 67 yaş, keçmiş mülkədar ərəb əlifbasında savadlı, keçmiş kənd starşinası, həbs vaxtı bağçılıqla məşğul olub. Şağan kəndində öz qardaşı ilə əlaqəyə girərək əksinqilabi iş aparıb.

Ona qarşı da eyni ittihamlar irəli sürülür və istintaqda özünü günahkar hesab etmədiyi, ancaq ifadələr və üzləşdirmələrlə ifşa olunduğu göstərilir.

İstintaqı bu iş üzrə bitmiş hesab edilir və işə Az. XDİK üçlüyünün baxması üçün təqdim etmək qərara alınır.



12 dekabr 1937-ci ildə 31 №-li Protokoldan çıxarış tərtib olunur.

2161 saylı istintaq işi dinlənilərək 8.12.1937-ci ildən RB-də həbsdə saxlanılan Heybətqulu bəy Həbibulla oğlu Məmmədbəyovun yuxarıda göstərilən ittihamlara əsasən əmlakı müsadirə edilməklə güllələnməsi Qərara alınır. Üçlüyün katibi Koqan.

Eyni saylı protokoldan çıxarışla 12 dekabr 1937-ci ildə Cəfərqulu bəy Həbibulla oğlu Məmmədbəyovu da günahkar bilir və... əmlakı müsadirə edilməklə güllələnməsi barədə qərar çıxarılır. Üçlüyün katibi Koqan.

Bu qərarın qəbul olunmasından 3 gün sonra, dekabrın 15-dən 16-na keçən gecə Məmmədbəyov qardaşları güllələniblər.

18 iyul 1956-cı ildə Az.SSR Prokurorunun müavini böyük ədliyyə müşaviri İ.İsmayılov Az.SSR NS yanında DTK sədrinin müavini Zamanova 10/1029-55-628s saylı məktub göndərir: "Arxiv-istintaq işlərinə baxılması ilə əlaqədar 12 dekabr 1937-ci ildə XDİK üçlüyü tərəfindən ittiham olunan Heybətqulu bəy və Cəfərqulu bəy Məmmədbəyovlar qardaşlarının işini aşağıdakı vəziyyətlərin dəqiqləşdirilməsi üçün yenidən yoxlamağı xahiş edirəm:

1.Doğrudanmı Məmmədbəyovlar keçiş mülkədar və hüquqlardan məhrum edilmiş olublar.

2.Heybətqulu Məmmədbəyov müsavat parlamentinin üzvü, dövlət nəzarətçisi, Zaqafqaziya Seyminin üzvü olubmu. O, 1923 və 1926-cı illərdə əksinqilabi fəaliyyətə görə keçmiş DSİ tərəfindən həbs edilibmi və hansı səbəbdən ittiham olunmayıb.

3.Cəfərqulu Məmmədbəyov çarizm, yaxud müsavat dövründə kənd starşinası işləyibmi.

4.Məmmədbəyovlar antisovet, antikolxoz təbliğatı aparmaqda günahlandırılıblar, ancaq bu ittihamlarda özlərini günahkar hesab etməyiblər, onların ittiham edilməsi ziddiyətli ifadələrə əsaslanıb. Günahlarını müəyyən etmək, onların əksinqilabi fəaliyyətlərinin konkret nədə ifadə olunduğunu aydınlaşdırmaq üçün göstərilən şahidləri yenidən dindirmək lazımdır.

5.Başqa şahidlərin dindirilməsi ilə yuxarıda göstərilən... şahidlərin ifadələrini yoxlamaq.

6.Yoxlama başa çatan kimi, xahiş edirəm işi Sizin yekun qərarınızla bərabər Az.SSR Prokurorluğunun DTK-da istintaqa nəzarət üzrə şöbəsinə göndərəsiniz. Əlavə arxiv-istintaq №77851, səh 46".

Bununla əlaqədar yenidən iş açılır və şahidlər yenidən dindirilirlər. Bu prosesdə ən maraqlı məqamlardan biri odur ki, vaxtilə Məmmədbəyovları əksinqilabi fəaliyyətdə ittiham etmiş şəxslərdən bir neçə nəfəri onlarla eyni taleni yaşamış, XDİK tərəfindən həbs olunmuşlar. Həmin ifadələrin əksəriyyətində "Qardaşların hər ikisi həddən ziyadə dövlətli idilər" və "Cəfərqulu bəy kəndxuda olarkən kəndlilərlə qanuni rəftar edirdi" kimi etiraflar səslənir.

Həmin şahid ifadələrinin alınmasında DTK-nın istifadə etdiyi metodlar əvvəlki dövrlərdəkindən heç də fərqlənmirdi. Təqribən eyni ssenari ilə aparılan bu dindirmələrin birini nümunə üçün diqqətinizə çatdırıram.

Sual: Siz Şağan kəndindən olan Məmmədbəyov Heybətqulu bəy və Cəfərqulu bəyi tanıyırsınızmı və onlarla münasibətiniz necə olmuşdur?

Cavab: Bəli, mən Şağan kənd əhlləri Məmmədbəyov qardaşlarını tanıyıram, onlar mənim həmyerlilərimdir. Aramızda düşmənçilik və şəxsi qərəzlik olmamışdır.

Sual: Bu iki qardaş haqqında nə deyə bilrəsiniz?

Cavab: Heybətqulu şəhərdə qulluqda olardı. O ki, qaldı Cəfərqulu bəyə o kənddə yaşayırdı və kənd işlərilə məşğul idi. Onlar qalan kənd əhlinə nisbətən dövlətli idilər.

Sual: Bu iki qardaşın sovet hökuməti əleyhinə və kolxoz əleyhinə olan fəaliyyətləri barədə nə bilirsiniz?

Cavab: Bu haqda heç nə eşitməmişəm.

Sual: Cəfərqulu bəy Şağan kəndində kəndxuda olmuşdu və o, kəndlilərə nə cür münasibət bəsləmişdir?

Cavab: Cəfərqulu bəyin kəndxuda olub-olmadığını deyə bilmərəm, ancaq o, kəndlilərə yaxşı münasibət bəsləmiş və onun kəndliləri incitməsi mənə məlum deyil.



25 iyul 1956-cı ildə DİN arxiv idarəsinin rəisinə məktub yazan DTK istintaq şöbəsinin rəisi Məmmədov Az.SSR Prokurorunun müavini böyük ədliyyə müşaviri İ.İsmayılovun sorğusuna cavab vermək məqsədilə ondan aşağıdakı məlumatların dəqiqləşdirilməsini xahiş edir:

1.Doğrudanmı Məmmədbəyovlar keçiş mülkədar və hüquqlardan məhrum edilmiş olublar.

2.Heybətqulu Məmmədbəyov müsavat parlamentinin üzvü, dövlət nəzarətçisi, Zaqafqaziya Seyminin üzvü olubmu. O, 1923 və 1926-cı illərdə əksinqilabi fəaliyyətə görə keçmiş DSİ tərəfindən həbs edilibmi və hansı səbəbdən o, ittiham olunmayıb.

3.Cəfərqulu Məmmədbəyov çarizm, yaxud müsavat dövründə kənd starşinası işləyibmi.

Müstəntiq Bağırov 1956-cı il 11 dekabrda Məmmədbəyovların işinə baxaraq XDİK üçlüyünün 12 dekabr 1937-ci il qərarının qüvvədə saxlanmasını lazım bilən yekun qərar çıxarır. 14 gün sonra sənədi imzalayan mayor Zamanov Məmmədbəyovlara bəraət verilməməsi qərarı ilə razılaşır.

Cəfərqulu bəy Məmmədbəyovun həyat yoldaşı Bəyim xanım Ağabəy qızı, Bakıda Kamo küçəsi 7, bina 3-də yaşayan, 3 avqust 1957-ci ildə SSRİ prokuroru Rudenkoya məktub yazır və bir surətini də SSRİ DTK-nın sədri Serova göndərir: "Mənim ərim Cəfərqulu Məmmədbəyov 1937-ci il dekabrın 5-də XDİK orqanları tərəfindən həbs edilib. Bakı kommunası dövründə 1918-ci ildə mənim ərim Şağan kənd sovetinin sədri olub. Kommuna yıxıldıqdan sonra o, üç ay ərzində kəndxuda oldu. Sonra öz xahişi ilə azad edildi. Ondan sonra kənd təsərrüfatı ilə məşğul olub. Əlavə etmək lazımdır ki, 1928-ci ildə o, sərbəst yaşayan oğlanlarının köməyindən də istifadə edirdi. Ərimin işinə yenidən baxılmasını arzulayaraq, 1955-ci ilin iyun ayında Azərbaycan DTK-na müraciət etdim. Mənim ərizəmi Az.SSR Prokurorluğuna göndərdilər. Sonuncu işi yenə DTK-ya qaytardı. Beləliklə, mənim məlumatım var ki, DTK işçiləri Şağan kəndində olub və ərimin işi ilə məşğul olublar. Qeyd edim ki, ərimin işi qayınım Heybətqulu Məmmədbəyovun işi ilə əlaqədar çətinləşib. ... Yuxarıda göstərilənlərlə əlaqədar, xahiş edirəm

SSRİ prokurorluğu şəraitində ərimin işinə baxılmasında şəxsən iştirak etməklə nəticəsi barədə mənə məlumat verilməsini lazım olan şəxsə tapşırasınız. Belə xahiş ancaq uzun illərdən bəri beş uşağımın üzərində qalmış ləkəni götürməkdir. Ümid edirəm ki, 75 yaşımda xahişim yerinə yetiriləcək və bununla ailəm bəraət alacaq."

İşdəki bir arayışdan (Şağan kənd soveti tərəfindən 1935-ci il mart ayında təqdim edilib) isə məlum olur ki, Cəfərqulu Məmmədbəyov 1928-ci ildən VPİ-nin tələbəsi olan oğlunun himayəsində yaşayıb.

Az.SSR Prokurorunun müavini Melkumyan həmin vaxt Heybətqulu Məmmpdbəyovun PR-1363 saylı arxiv-istintaq işi əsasında protokol icmal tərtib edərək onun ikinci dəfə hansı səbəbə görə həbsə alındığı və məhkum olunmadığını bir daha dəqiqləşdirir: "19 may 1925-ci ildə Heybətqulu Məmmədbəyov Az.FK tərəfindən həbs edilib. Həbs edilərkən o, Azneftixracın baş mühasibi işləyib. Həbs haqqında qərarda göstərilir ki, Heybətqulu Məmmədbəyov keçmiş müsavat parlamentinin üzvü kimi gizli "İttihadi-İslam" təşkilatının üzvü olub və Bakı təşkilatının üzvü kimi sovet hakimiyyətini devirmək üçün fəal iş aparıb. Məmmədbəyov 1925-ci il 20 may və 3 iyunda dindirilib. Həmin ifadələrdə o, göstərib ki, 1923-cü ildə İttihada mənsub olduğuna görə həbs edilib və 5 ay sonra həbsdən buraxılıb. 1918-ci ildə Zaqafqaziya Seyminin üzvü, 1918-ci ilin sentyabrında Bakı upravasının üzvü seçilib, 1919-cü ildə dövlət nəzarət naziri təyin edilib. 1922-ci ildə Məmmədhəsən Hacınski tərəfindən Dövlətticarətə rəis müavini kimi dəvət olunub. 1924-cü ildə Azneftticarətdə işləyib. İttihad partiyası 1920-ci ildə özünü buraxdığını elan edib və ondan sovet hökumətinin idarə edilməsində iştirak etməyib. O, qəti surətdə sovet hökuməti idarələrində işləməkdən imtina edib.

Az.FK-nın qərarı ilə Heybətqulu Məmmədbəyov irəli sürülmüş ittihamda günahkar hesab edilib, ancaq sovet hakimiyyətinin möhkəmliyini, həmçinin onun azadlıqda olmasının dinc quruculuğa mane olmayacağını nəzərə alıb Məmmədbəyovu dilindən Bakı şəhərindən getməmək barədə



kağız almaqla həbsdən azad ediblər. 22 iyun 1925-ci ildə Heybətqulu Məmmədbəyov həbsdən azad edilib və iş arxivə təhvil verilib".

1957-ci il 9 oktyabrda Az.SSR Prokurorunun müavini Melkumyan Şağan kənd sakini, 1911-ci il təvəllüdlü, "Kaspar"da kapitan-mürəbbi işləyən Pənahov Hacı Murad Şirəli oğlunu dindirir.

O, "Şirəli Məmməd Tahir oğlunu kim öldürüb" sualına cavab verərək deyir: "Görünür, söhbət mənim atam Şirəli Məmməd Səid oğlundan gedir. O, həqiqətən də 1918-ci ildə Məmmədbəyovların qohumu Qadaşov Mövsüm tərəfindən öldürülmüşdü. Biz onda balaca idik və heç kim atamın qatillərinə qarşı iş qaldırmadı. Atamın ölümünə o vaxtkı hakimiyyət tərəfindən də heç bir reaksiya göstərilmədi."

11 noyabr 1957-ci ildə Az.SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasına Az.SSR Prokurorunun müavini İ.İsmayılov 10/1029-55 saylı protest göndərir: "Bəyim xanımın ərizəsinə əsasən Cəfərqulu Məmmədbəyovun işinə yenidən baxılması üçün vəsatət qaldırması nəzərə alınaraq XDİK üçlüyünün qərarının aşağıdakı əsaslarla ləğv edilməsi lazım bilinir: 1.Cəfərqulu Məmmədbəyov XDİK-in təşkil etdiyi təcrid edilməsi nəzərdə tutulan şəxslərin siyahısına əsasən 1937-ci ilin 7 dekabrında tutulduğunua görə. Həmin siyahıya o, kəndxuda, xalq düşməni Baba Əliyevlə əlaqəsi olan və əksinqilabi şayiələr yayan şəxs kimi salınıb. O, cəmi bir dəfə dindirilib və heç nədə özünü günahkar hesab etməyib. 2.Heç bir şeyi sübut etməyən ifadələr Cəfərqulu Məmmədbəyovun əksinqilabi cinayətləri üçün dəlil ola bilməz. 3. ... öz əvvəlki izahatlarını uzun müddət keçmək bəhanəsi ilə dəqiqləşdirə bilmədilər. 4.Həyat yoldaşının təqdim etdiyi arayışdan görünür ki, Cəfərqulu Məmmədbəyovun seçki hüquqları 1935-ci ildə bərpa edilmişdir.

Xahiş edirəm, Cəfərqulu Həbibulla oğlu Məmmədbəyov barəsində XDİK üçlüyünün 12 dekabr 1937-ci il qərarını ləğv edəsiniz və kifayət qədər dəlil olmadığı üçün işi dayandırasınız. Heybətqulu Məmmədbəyov barəsində protest qaldırılmır."

21 noyabr 1957-ci ildə məhkəmə kollegiyası Cəfərqulu Məmmədbəyova qarşı cinayət işini ləğv edir və ona bəraət verir.

Cəfərqulu Məmmədbəyova bəraət verilməsi barədə 7 dekabr 1957-ci ildə Ali Məhkəmənin sədr müavini İmanovun imzası ilə oğlu Şamilə arayış təqdim olunur.

Ancaq Heybətqulu Həbibulla oğlu Məmmədbəyov barəsində 1937-ci ildə çıxarılmış hökm qüvvədə saxlanılır. Sovet rejimi ölümündən 20 il sonra da Azərbaycanın milli istiqlalının əldə edilməsi və möhkəmləndirilməsi uğrunda qızğın fəaliyyət göstərmiş bir şəxsiyyətə bəraət verməkdən ən azı ehtiyat etdi. Əslində onun son nəfəsinə qədər mübarizə apardığı bir hakimiyyətdən bəraət almağa ehtiyacı yox idi. Əksər çiyindaşları kimi onun da bəraəti Azərbaycanın yenidən öz azadlığına, müstəqilliyinə qovuşması oldu.



## Bolşeviklərin mənşə və əqidə düşməni

1940-cı il may ayının 22-də saat 12.15-də bir gün əvvəl həbsə alınmış Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin və Parlamentinin daha bir üzvü, Rüstəmbəyov Bəxşiş bəy Əsəd bəy oğlu öz tərcümeyi-halını istintaqa danışmağa məcbur edildi və bu barədə DTN 2-ci şöbə 4-cü bölməsinin rəisi leytenant Məmmədov tərəfindən dindirmə protokolu tərtib olundu: "1870-ci ildə Salyanda Əsəd bəy Baba bəy oğlunun ailəsində doğulmuşam. 1880-ci ildən 1883-cü ilə qədər Salyan normal uçilişində, 1883-cü ildən 1890-cı ilə qədər Bakı şəhərində realnı uçilişdə oxumuşam. 1890-91-ci ildə Moskva şəhərinə getmiş, orada texniki uçilişdə təhsilimi davam etdirmişəm. 1893-cü ildə Peterburqda Texnoloji instituta daxil olmuş, 1899-cu ildə oranı bitirmişəm. Sonra Bakı şəhərinə gəlmiş, burada Şəmsi Əsədullayevin neft mədənlərində 1907-ci ilə qədər işlər müdiri vəzifəsində işləmişəm. Mən Musa Nağıyev, Tağıbəy Səfərəliyevla birlikdə Cavad və Akuşinsk balıq vətəkələrinin icarəçisi, eyni zamanda müdiri olmuşam. 1910-cu ildən 1917-ci il fevral inqilabı başlayana qədər Musa Nağıyevin neft mədənlərində müdir işlədim. 1917-ci ilin fevral, yaxud martından 1918-ci ilə qədər quberniya komissarlığının üzvü olmuş, 1918-ci ildə Salyan şəhərində qəza rəisi təyin edilmişəm. Bakıda mart hadisələrinə qədər Salyanda qəza rəisi işlədim. Sonra qardaşım

Fətulla bəyin ailəsilə Salyandan çıxıb Şuşaya, oradan isə azərbaycanlılarla ermənilər arasında münaqişə olduğu üçün Gəncəyə getdim. Bakı türklər tərəfindən tutulduqdan sonra Salyana qayıtdım və 15 gün sonra Bakıya gəldim. Bakıda türklərin vaxtında balıqçılıq idarəsinin rəisi işlədim. 1919-1920-ci illərdə Müsavatın hakimiyyəti vaxtı Azərbaycan parlamentinin üzvü oldum. Sovet hakimiyyəti qurulduqdan sonra 1920-ci ilin noyabr ayının ortalarına qədər neft komissarlığında texniki büro rəisinin müavini işlədim. Həmin vaxtdan sonra gizli şəkildə İrana mühacirət etdim və 1921-ci ilin martına qədər orada mühacirətdə qaldım. 1921-ci ilin martında Salyana qayıtdım və aprel ayının sonlarında yenidən Bakıya gəldim. 1921-ci ildən 1929-cu ilə, pensiyaya çıxana qədər müxtəlif idarələrdə işlədim. Daha çox pambıq sənayesinə aid sahələrdə çalışmış, Azdövlətpambığın idarə heyətinin üzvü olmuşam".

Bəxşiş bəyin dediklərinə istinad edən dövlət təhlükəsizliyi əməkdaşının ilk sualları onların dəqiqləşdirilməsi ilə bağlı olur:

- Yuxarıda dediniz ki, mart hadisələrindən sonra Gəncəyə getdiniz. Deyin, o zaman Gəncə kimin əlində idi?

Cavab: Məncə, Gəncə onda Seymin əlində idi və hakimiyyətin başında burjua İsmayıl xan Ziyadxanov dayanırdı. Qoşunlara isə gürcü Ağamanov və bir də deyəsən Şıxlınski komandirlik edirdi. Mənim oraya gəlməyimdən 15-20 gün sonra Nuru paşa gəlib çıxdı.

Sual: Müvəqqəti hökumətin hakimiyyəti illərində siz nə işləyirdiniz?

Cavab: Kerenski hakimiyyəti vaxtı mən quberniya komissarlığının üzvü idim, məni qubernator, yaxud kim hesab edirsiniz, fərqi yoxdur.

Sual: Siz quberniya komissarlığında işləyərkən hansı siyasi partiyanın nümayəndəsi idiniz?

Cavab: Mən bitərəf idim və məni hansı partiyanın quberniya komissarlığına üzvlüyə irəli sürdüyünü bilmirəm. Ancaq keçmiş məşhur müsavatçı Məmmədhəsən Hacınski mənə demişdi ki, mən quberniya komissarlığının üzvü təsdiq edilmişəm.



Hacınskinin özü müvəqqəti hökumət vaxtı Bakı İcraiyyə komitəsinin üzvü idi.

Sual: 1920-ci ildə Siz hansı məqsədlə İrana mühacirət etdiniz?

Cavab: Mən keçmiş müsavat hökumətinin adamı və parlamentinin üzvü kimi sovet hökuməti tərəfindən tutulacağımdan qorxduğum üçün İrana mühacirət etmişdim.




Dindirmə 14.05-də dayandırılır.

MTN arxivində saxlanılan PS-1800 saylı arxiv-istintaq işindən (başlanıb 1940-cı il 22 may, qurtarıb 1940-cı il 28 avqust) aydın olur ki, B.Rüstəmbəyovun həbs olunması haqqında qərar DTN 3-cü şöbə 1-ci bölməsinin rəisi baş leytenant Avakimov tərəfindən 1940-cı il may ayının 20-də çıxarılmışdır.

Həmin gün kütləvi cəza orqanının milliyətcə erməni olan daha bir əməkdaşı Az.SSR XDİK-dən daxil olmuş materiallara baxaraq "1870-ci ildə anadan olmuş, Salyan şəhər sakini, bitərəf,

hazırda əlil, heç yerdə işləməyən Rüstəmbəyov Bəxşiş bəy Əsəd bəy oğlunun işi üzrə" aşağıdakıları müəyyən edir: "Rüstəmbəyov bəy ailəsindəndir, keçmiş qəza rəisi olub, müvəqqəti hökumət vaxtı qubernator köməkçisi, müsavat dövründə qubernator, müsavat parlamentinin üzvü, Azərbaycandakı Türk qoşunları komandanlığı ilə əlaqə saxlayıb və Türk komandanlığının Azərbaycana dəvət edilməsinin təşəbbüskarlarından biri olub. Salyanda inqilabi hərəkatın əzilməsində bilavasitə iştirak edib. 1920-21-ci illərdə İranda mühacirətdə yaşayıb və orada Ərdəbil hərbi dairəsi komandanı Kərbəlayi xan Naxçıvanski ilə əlaqədə olub. Bundan əlavə, məlumatlara görə, 1930-cu ildə Azərbaycanda əksinqilabi təşkilatın fəal üzvü olub. Qeyd edilənlər əsasında qərara aldım: Kaqanoviç 6-da yaşayan Rüstəmbəyov Bəxşiş bəy Əsəd bəy oğlu həbs edilsin və axtarışa məruz qalsın". Onun bu qərarını 3-cü şöbənin rəis müavini kapitan Silyayev təsdiq edir və beləliklə adı Azərbaycan tarixinin ən şərəfli dövrlərindən birinə dövlət xadimi kimi yazılmış daha bir insanın taleyində özünün çoxdan gözlədiyi qara gün gəlib çatır. Bu kağızın mürəkkəbi qurumamış, ixtisasca müəllim-mühəndis olan B.Rüstəmbəyova qarşı qəti imkan tədbiri seçilir və CM-in 68, 72-ci maddələri ilə həbs qərarı çıxarılır.

Səhəri gün isə 1940-cı il 21 may tarixli 211 saylı orderlə Rüstəmbəyovun mənzilində axtarış aparılır və o, həbs olunur.

Baş əməliyyat müvəkkili Tkaçov, XDİK əməkdaşları Ələsgərov, Xəlilov onun mənzilində axtarış tədbirini çox böyük həvəslə və qayda-qanuna tam uyğun keçirir, binanın sədri Midilinin, ev sahibəsinin iştirakını da unutmurlar. Nəticədə B.Rüstəmbəyova məxsus pasport (№083478), pensiya kitabçası, əmək kitabçası, torpaq sahəsinin sxemi, 1 ədəd 7 kv.m xalça, 3 ədəd kiçik xalça, 2 ədəd nikel çarpayı, 1 ədəd palıd stol, 6 ədəd stul, 2 ədəd kreslo, 20 ədəd Böyük Ensklopediya, 6 ədəd Kiçik Sovet Ensklopediyası, Şekspirin əsərləri 4 cilddə, Şillerin əsərləri 4 cilddə və s. müsadirə edilir.

Ancaq nədənsə axtarışın aparıldığı tarix kimi 22 may qeyd olunmuşdur.



1940-cı ilin 22 mayında orqanların başqa bir erməni əməkdaşı, həbsxana rəisinin köməkçisi Avanesov həbs edilənin Anketini doldurur və əlavə olaraq onun ailə tərkibi haqqında məlumatları oraya daxil edir: "atası və anası vəfat edib, arvadı Sofya Pavlovna Rüstəmbəyova, 55 yaş, nəvəsi Pərviz İsmayıl oğlu musiqi məktəbində oxuyur, qardaşı Rüstəmbəyov Şahbaz Əsəd bəy oğlu 61 yaş, Bakıda yaşayır, qardaşı Fətulla Rüstəmbəyov 73 yaş Bakıda yaşayır, 1899-cu ildə Peterburqda Texnologiya instititutunu bitirib".

Nəhayət üçüncü erməni, Karapetyan tərəfindən elə həmin gün Bəxşiş bəy Rüstəmbəyovun əl izləri çıxarılır (daktiloskopiya).

Bəxşiş bəy haqqında Azərbaycan mətbuatında indiyədək demək olar ki, ayrıca bir məqalə yazılmamış, onun xalqa tanıdılması sahəsində lazımi iş aparılmamışdır. Halbuki, o, nəinki Azərbaycan parlamentinə üzv seçilmiş, həmçinin Nazirlər Şurasının tərkibinə daxil edilmiş, nazir müavini olmuşdur.

Heç bir siyasi partiyanın üzvü olmayan Rüstəmbəyov Bəxşiş bəyin Azərbaycan parlamentinə namizədliyi keçmiş Cavad qəzasının müsəlman milli komitəsinin 1918-ci il 30 noyabr yığıncağında irəli sürülmüşdür. Zənnimizcə, Bəxşiş bəyin Parlamentin aqrar komissiyasının üzvü olmasının bir səbəbini də məhz onun namizədliyinin bu komitə tərəfindən irəli sürülməsində axtarmaq lazımdır (ARDA, f.894, s.10, iş 58, v.5-7).

O, həmçinin Parlamentin mandat komissiyasının sədri seçilmiş, gənc respublikanın ali qanunvericilik orqanının müzakirəsinə çıxarılan bir sıra mühüm məsələlərlə bağlı öz mövqeyini bildirmiş, bəzi qanunların qəbulunda fəallıq göstərmişdir. Arxiv sənədlərində Cümhuriyyət Parlamentinin 1919-cu il 28 yanvar iclasında mandat komissiyasının sədri Rüstəmbəyov Bəxşişbəyin məruzə ilə çıxış etdiyi qeyd olunmuşdur.

Onun adına rast gəldiyimiz başqa bir sənəd 1918-ci ilə aid parlament üzvlərinin siyahısıdır. Bu siyahıda "Müsavat" və

bitərəflər fraksiyası başlığı altında Rüstəmbəyov Bəxşişbəyin adı çəkilmişdir.

Yaxud, Bakı polisinin 13 mart 1920-ci ilə aid 3361 saylı əmrində Axçala-Arakelinsk balıq sənayesi cəmiyyətinin rəhbəri Rüstəmbəyov Bəxşiş bəyin adı qeyd olunmuşdur. Əlbəttə, balıq sənayesinin problemlərindən baş açan bir şəxs kimi onun bu ictimai etiamda layiq görülməsi təsadüfi deyildi və tam təbii qəbul edilə bilər. Ancaq bu da şəksizdir ki, Bəxşiş bəyin cəmiyyət sədri seçilməsi yalnız peşəkarlıq xüsusiyyətləri, həmin sənaye sahəsində hörmət və nüfuz sahibi olması ilə bağlı deyildi. Göstərilən etimadın ən başlıca səbəbləri sırasında onun bir insan kimi ədalətli və obyektiv olması, imkanı çatdığı qədər başqalarına əl tutmağa çalışması da vardı.

Başqa bir arxiv məlumatı isə Rüstəmbəyovun öz işinə necə məsuliyyətlə yanaşdığını, Azərbaycanın ağır günlərində bütün biliyini və qüvvəsini ümumi məsələlərin həllinə sərf etdiyini, hətta bu yolda sağlamlığını əsirgəmədiyini əyani surətdə sübuta yetirir. Azərbaycan Parlamentinin fəaliyyətinə aid 1919-cu il 15 oktyabr tarixli həmin sənəddə göstərilir ki, aqrar komissiyanın üzvü Rüstəmbəyov öz məzuniyyətindən istifadə etmək istəməyib. Zənnimcə, bu sadə qeydin arxasında onun şəxsiyyəti, xalq işinə münasibəti barədə çox şey gizlənib.

Cümhuriyyət dövründə Azərbaycan Parlamentinin sədri və Türkiyədəki səlahiyyətli nümayəndəsi olan Əlimərdan bəyTopçubaşov 1918-ci il oktyabr ayının 31-də Konstantinapoldan Fətəli Xana yazırdı: "Qəti məlum oldu ki, səhər paraxod yola düşür və onunla Xəlil bəy Xasməmmədov və Əsəd bəy Rüstəmbəyov (güman ki, Bəxşiş bəy Əsəd oğlu Rüstəmbəyov nəzərdə tutulur, çünki Azərbaycanda Əsəd bəy Rüstəmbəyov soyadlı nazir müavini olmamışdır - L.Ş) gəlirlər... Mən istəməsəm də, yenidən prestij məsələsinə toxunmalıyam. Bunu deməklə mən kimisə tənqid, ya da ittiham etməkdən uzağam. Əgər istəyirsiniz buraya göndərdiyiniz şəxslər siyasi təmsilçilik etsinlər, onlarda təlimatın olmamasının və fraksiya tərəfindən hüquq və vəzifələrinin müəyyənləşdirilmədiyinin təbii nəticəsini görmək lazımdır. Xəlil bəy soruşanda ki, Səlim



bəy Behbudov xarici işlər nazirinin müavini, Əsəd bəy Rüstəmbəyov maliyyə nazirinin müavinidir, mən çox narahat oldum. Onlar özlərini belə adlandırırdılar... Əlbəttə, mən ritual və mərasimlərdən danışmıram, belə şeylərə heç vaxt simpatiyam olmayıb, mən dövlətimizin təmsilçisinin necə olması ilə maraqlanıram... Mənim tərəfimdən Əsəd bəy Rüstəmbəyova 81 lirə, Xəlil bəyə 200 lirə verilmişdir".

Bu qeydləri oxucunun nəzərinə çatdırmaqda məqsədimiz Ə.Topçubaşov kimi böyük şəxsiyyətin hökumət üzvləri qarşısında qoyduğu ciddi tələbləri xatırlatmaqdan, hökumətin vəzifəli şəxslərinin, o cümlədən Bəxşiş bəyin rəhbərlik etdikləri sahələrin fəaliyyəti ilə əlaqədar xarici səfərlərə çıxmalarını göstərməkdən daha çox, Azərbaycanı birinci müstəqillik dövründə necə yüksək səviyyəli insanların idarə etdiyini bir daha vurğulamaqdan ibarətdir.

Bəxşiş bəy Əsəd oğlu Rüstəmbəyov həbsə alındıqdan artıq bir gün sonra, 1940-cı il 22 mayda onun barəsində Zeynalabdin Hüseynbəyovdan belə bir ifadə alınmışdı: "Mən əksinqilabi fəaliyyətlə məşğul olduğumu etiraf edirəm. 1934-cü ildən başlayaraq həbs edildiyim vaxta qədər fəal əksinqilabi iş aparmışam. Məni antisovet işinə birinci dəfə həmyerlim Bəxşişbəy Rüstəmbəyov cəlb edib. O, keçmişdə iri mülkədar olub və Muğanda böyük nüfuz sahibi olub. İxtisasca mühəndis-texnoloqdur. O, eyni zamanda "İttihadi-İslam" partiyasında mühüm mövqeyə malik idi. Mən onun mənzilinə gedərkən aşağıdakı şəxsləri görmüşəm. Nəriman Nərimanbəyli, vəkil, keçmiş müsavatçı, Hüseynbəyov, keçmiş mülkədar, indi həbs edilib, Əfəndiyev, mülkədar oğlu, Muradxanov Əlibəy, göz həkimi, qəza idarəsi məmurunun oğlu, Muradxanov Abdulla, həkim pediatr, Mustafa Vəkilov, Parisdə hüquq fakültəsini bitirib, çar məmurunun oğlu, Qazaxdandır, mənimlə xaricdə təhsil alarkən tanış olub, indi həbs edilib. Rüstəmbəyov Müsavat hökumətini tərifləməkdən başladı və dedi ki, səni də xaricdə oxumağa Müsavat hökuməti göndərmişdi. İndi isə heç kimi xaricə oxumağa göndərmirlər. Buna görə də Azərbaycan ziyalıların sayının artması baxımından inkişafdan qalır,

mühəndislərin, həkimlərin sayı artmır. O, deyirdi ki, Azərbaycan Respublika kimi formal surətdə mövcuddur, müstəqilliyi yoxdur, əslində bütün hüquqları Moskvanın əlindədir. Bütün təbii sərvətləri, xüsusilə çıxarılan neft ölkə hüdudlarından kənara, Rusiyaya aparılır və əldə edilən gəlir onun ehtiyaclarına sərf edilmir. Mən əvvəllər onun bu söhbətlərinə, xüsusilə milli kadrlarla bağlı dediklərinə etiraz edirdim, mübahisə edirdim, sonralar isə onun millətçi görüşlərini birmənalı qəbul etməyə, əksinqilabi ideologiyasına şərik çıxmağa başladım. Mənə tapşırıq verildi ki, təşkilatın işində iştirak etməklə tələbələri imkan daxilində millətçi ruhda yetişdirəm, tələbələrdə Türkiyəyə simpatiya oyatmaq üçün öz mühazirələrimdə rus sözlərindən qaçmaqla daha çox türk terminləri işlədəm, iş yoldaşlarım və akademik heyəti milli hissləri oyatmaqla antisovet ideologiyanın hazırlanmasına yönəldəm..."

İstintaq işinə əlavə olunmuş bir sənəd isə həm məzmunu, həm də xarakteri etibarı ilə özünü fəhlə-kəndli hakimiyyəti adlandıran bir quruluşun mahiyyətinə daha çox uyğun gəlir. Üslubu olduğu kimi saxlanılmış bu sənəd yəqin ki, oxucuya sovet cəza orqanlarının metodları haqqında az şey deməyəcək.

Yoxlama : "Haman yoxlama verilir XDİK-nın Səlyan rayon şöbəsinə ondan ötəri ki, Səlyan şəhər sakini 1870 ildə təvəllüd tapmış Rüstəmbəyov Baxşalıbəy Əsəd bəy oğlu Səlyan şəhərində və onların rayonlarında böyük makinə və mülk sahibi olmışdır. 17-18-ci illərdə əli altında qocılar saqlamış misal üçün kalba rəşid kar cəbrayıl oğlanları hilal və cəhanqir bunların vasitəsilə bir neçə şəxsləri ölditdirmiş misal üçün 1918-ci ildə şəhərin birinci məhəlləsində yaşayan həbib bəyi ölditdirmişdir. Zəhmətkeş depuptatlarının səlyan şəhər soveti icraiyyə komiteti sədri Rəhimov, katib Əhmədov 04.1940, №273".

İlk baxışda dəlil-sübutsuz olduğu üçün əsaslı görünməyən bu ittihamların arxasında bütün bir şəhərin adından danışmaq səlahiyyəti olan şəxsin imza atması hər şeyi dəyişir. Bəli, əgər "zəhmətkeş depuptatlarına" rəhbərlik edən bir şəxs Bəxşiş bəy haqqında neqativ fikirlər söyləyirsə, onun xalq düşməni



olduğunu sübuta yetirməyə ehtiyac qalırmı? Son dərəcə sadə və sınanmış üsuldur. Həm də dövrün məntiqinə tam uyğundur.

Əslində yuxarıdakı ifadə və bu sənədlə kifayətlənib onun barəsində istənilən hökmü çıxara bilərdilər. Çünki sovet cəza orqanlarının bu tipli yarım səhifəlik bir sənədlə kiminsə taleyini həll etməsi ötən illərdə dəfələrlə sınaqdan çıxarılmışdı. Ancaq istintaq Bəxşiş bəyə qarşı tamam başqa yol tutdu. Onu da Cümhuriyyət dövrünün digər dövlət və ictimai xadimləri kimi uzun-uzadı dindirmələrə cəlb etdilər, xariclə gizli əlaqələrini, ətrafına kimlərin cəmləşdiyini və s. məsələləri müəyyənləşdirməyə çalışdılar. Sonda hansı qərarın çıxarılacağını yaxşı bilən Bəxşiş bəy istintaqın təzyiqlərinə dözərək özünü axırıncı döyüşçü kimi apardı. O, məhbəsin soyuq məzarı xatırladan divarları arasında ömrünü başa vurmuş çiyindaşlarının taleyini bir qədər fərqli şəkildə yaşadı. Ancaq mahiyyət dəyişməz qaldı, vətənin daha bir işıqlı zəkası zülmət qaranlıqda zorla söndürüldü. Həmin günə qədər isə hər anı görünməz məşəqqətlərlə dolu bitib-tükənməz, əzabı illərə sığmayan bir neçə ay keçdi...

Sovet cəza orqanları onların necə şəxsiyyət, xalqa, vətənə gərəkli insanlar olduğunu və ölüncə bu yoldan dönməyəcəklərini bildikləri üçün heç kimə güzəşt etmədilər. Bu insanların ən sonuncularından biri kimi Bəxşiş bəy də rejim tərəfindən unudulmadı və 20-ci ilin məşum 27 aprelindən 20 il sonra istintaqla üzbəüz qaldı. O da digər çiyindaşları kimi millətinə, vətəninə təmənnasız xidmət göstərdiyi, onun düşmənlərinə qarşı barışmaz olduğu üçün ittiham edildi. Bu ittihamlar müxtəlif tarixli dindirmə protokollarına çevrilib, istintaq-arxiv işində qalaqlandı.Bu protokolları bir çox eyni tipli sənədlərdən fərqləndirən yeganə cəhət isə odur ki, onlarda ilin, ayın tarixi ilə yanaşı, tək-tək işlərdə olduğu kimi istintaqın aparıldığı saat da dəqiqliklə qeyd edilib.

1940-cı il 23 may saat 9.30: "Sual: Əvvəlki ifadələrinizdə demisiniz ki, sovet hakimiyyəti qurularkən repressiyadan qorxaraq İrana mühacirət etmisiniz. İrandan nə vaxt Sovet ərazisinə qayıtmısınız?

Cavab: İrandan, təqribən 1921-ci il martın 20-də gizli qayıtmışam. Qayıtmağımda məqsəd öz vətənimdə işləmək arzum olub. İrana indi adlarını unutduğum iki şahsevənlinin köməyi ilə Molla Cəbrayılla keçmişəm.

Sual: İranda hansı şəhərdə yaşamısınız və mühacirlərdən kiminlə rastlaşmısınız?

Cavab: İranda şəhərdə yox, adını indi unutduğum kənddə yaşamışıq və mühacirlərdən heç kimi görməmişəm.

Sual: Sizin hansı ildə şəxsi suvuran qurğunuz olub?

Cavab: Salyanda Tatar məhəlləsi kəndində mənim iki suvuran qurğum olub. Bu qurğular sovet hakimiyyətinə qədər mənimlə Mir Sadıx Miriyevin olub.

Sual: İstintaqa mə'lumdur ki, siz 1918-ci ildə Türk qoşunları komandanlığı ilə danışıqlarda və Salyanda inqilabi hərəkatın yatarılmasında fəal iştirak etmisiniz.

Cavab: 1918-ci ildə Bakıda sovet hakimiyyəti qurulduqdan sonra mən Salyanda qəza rəisi idim və ailəmi götürüb Gəncəyə getmişəm. Bir neçə gün sonra Nuru paşanın rəhbərliyi ilə Gəncəyə türk qoşunları gəldi. Əhməd bəy və ləzgi Ramazan Paşa da gəldilər. Gəncədə Tiflisdən və Bakıdan gəlmiş Seymin, keçmiş Müvəqqəti hökumətin nazirləri Behbud bəy Cəvanşir, Fətəli xan Xoyski, Ağa Aşurov, Məmmədhəsən Hacınski və b. gəldilər. Onlar Nuri paşanın vaxtında Gəncədə də nazir idilər. Mən həmin nazirlərə dedim ki, qayda-qanun yaradılması üçün onlar türk qüvvələrinin Sabirabada və Petropavlvska göndərilməsinə nail olsunlar. Hacınski mənə dedi ki, öz hakimiyyətlərini yaratmaq üçün onlar Sabirabada və Petropavlovska Ramazan Paşa və Türk qoşunlarının digər zabitlərini Sabiri, İbrahim Əfəndini və b. göndərəcəklər. Mən Ramazan paşa ilə ilk dəfə Gəncə vağzalında görüşdüm. Mən dedim ki, Cəvanşir və Hacınskinin təklifi ilə onun yanına gəlmişəm və sonra onunla bərabər Sabirabada getdim və ora Türk hakimiyyətinin altına alındı. Salyanın Polad-Tuğay kəndində Vəzirov Nəcəfbəy, Tağızadə Abbasqulu və qardaşından ibarət nümayəndə heyəti Ramazan paşaya Salyana girməyə müraciət etdilər. Salyan bolşeviklərin əlindən alındı.



Sual: İndi etiraf edirsinizmi ki, türk işğalçılarının burjuaziyaının hakimiyyətini bərpa etməsi üçün çağrılmasının təşəbbüskarlarından biri olmusunuz.

Cavab: Bəli, Sabirabad və Petropavloska çağrılmalarının təşəbbüskarlarından biri mən olmuşam."

Dindirmə saat 20.00-da davam etdirilir: "Sual: Yaxın əlaqələrinizi istintaqa bildirin.

Cavab: Mənim yaxın dostlarım və tanışlarım aşağıdakılardır: Yunqelson Boris, Qoldenberq İosif Leokoldoviç, Zeynal Hüseynbəyov - professor, ATİ-də dərs deyib, Salyandandır. Kərimbəyov Nurəlibəy Səmədbəy oğlu, tacir Salyandan, Nağıyev Hüseynağa, Mirzə Nağıyev, Məsmə Muradxanova Məşədi Ağabəy qızı, 45 yaşında, oğlu Cavad Feyzulla bəy oğlu Muradxanov keçmiş pristavın oğludur, 23 yaşında. Muradxanov Əsədulla bəy 75 yaşında.

Sual: Qohumlarınızdan və yaxınlarınızdan kimlər XDİK orqanları tərəfindən repressiya olunub?

Cavab: Tağıyev Zeynal bəy Sadıx bəy oğlu, Muradxanov Əli bəy Əsədulla bəy oğlu, Əliyev Muxtar Ağakişi oğlu, Baba Əliyev, Həmid Sultanov, əvvəllər onun yanında işləmişəm. Talıblı Böyükağa, yaxşı münasibətimiz olub, Həsənov Abbasqulu, Kərimbəyov Əlihüseyn, Hüseynbəyov İsmayılbəy, Nəriman Nərimanbəyli.

Sual: Qohumlarınızdan və yaxınlarınızdan kimlər mühacirət edib?

Cavab: Kərimbəyov Ağaəlibəy Səməd bəy oğlu, Səlimov Mövsüm, Bakılıdır, İstanbuldan Londona gedib, neft sənayesi işçisi, Meylamov Xələf, Türkiyəyə gedib, Soltan Hüseynzadə, müsavat ordusunun zabiti, İrvana gedib, Sultanov Xosrov bəy, keçmiş Müsavat torpaq naziri, 1923-cü ildə deyəsən Türkiyəyə mühacirət edib, Əmircanov Əbdüləlibəy Nuxalıdır, Müsavat parlamentinin üzvü və maliyyə naziri, 1920-ci ildə Türkiyəyə mühacirət edib, İbrahim Heydərov, Doktor Rəfiyev Gəncəli, Müsavat dövründə səhiyyə naziri, 1920-ci ildə mühacirət edib, Adilxan Ziyadxanov, Gəncəli, Müsavat dövründə İrana göndərilib və orada qalıb, Məmməd Əmin Rəsulzadə, Müsavat

partiyasının lideri Moskvadan Finlandiyaya gedib, oradan Türkiyəyə, Polşaya keçib, Əsədullayev Əli və Mirzə, keçmiş neft sənayeçiləri, Mirzə Müsavat dövründə ticarət naziri olub, Parisə mühacirət edib, orada Mirzə ölüb, Mahmudbəyov Əliəsgərbəy Şamaxılı, keçmiş Tağıyev fabrikinin müdiri, Türkiyəyə gedib, Tağıyev Ağahüseyn, Əmiraslanov Teymur, 1923-cü ildə İrana gedib, müsavat dövründə dəmir yolunun rəisi olub".

Dindirmə 3.05-də qurtarıb. Məmmədov.

9.30-dan 3.05-ə qədər, 18 saata yaxın müxtəlif təzyiq metodlarından istifadə ilə aparıldığına qəti şübhə olmayan istintaq prosesində daha hansı məqamları üzə çıxarmaq, Bəxşiş bəyin rejim qarşısındakı bağışlanılmaz günahlarını sübuta yetirmək istəyirdilər. Əslində qohumları və tanışları arasında kifayət qədər sovet hakimiyyətinin düşməni olan bir şəxsin özünün kimliyinin, hansı vəzifəni tutmasının elə bir əhəmiyyəti yox idi. Bunu ittiham edən də, ittiham olunan da yaxşı başa düşürdülər. Ancaq sorğu-sual prosesi eyni ciddi-cəhdlə davam etdirilirdi və yenə də saatına qədər hər şey guya dəqiq sənədləşdirilirdi.

25 may 1940-cı il saat 9.30:

"- Türkiyədə olan Kərimağa Əlibəyovun Azərbaycanda hansı qohumları var? O, Türkiyəyə gedənə qədər Bakıda Türk konsulluğunda işləyərkən Azərbaycanda harada yaşayırdı?

Cavab: Türk konsulluğunda işləyərkən Vorontsov küçəsində indi nömrəsini unutduğum ikimərtəbəli evin ikinci mərtəbəsində yaşayırdı.

Sual: Onunla yaxınlığınız nə ilə əlaqədar idi?

Cavab: Biz bir-brimizin yanına gəlib gedirdik.

Sual: Onun vasitəsilə Türk konsulluğundan daha kimlərlə tanış idiniz?

Cavab: Bir dəfə Ağaəli bəyin mənzilində olarkən orada Türk konsulluğundan bir nəfər var idi, bilmədim konsulun özü idi, ya başqası, ancaq biz tanış olmadıq.

Sual: Siz Türk konsulu ilə tanış deyildiniz?

Cavab: Xeyr.



Sual: Sizinlə Ağaəli bəyin arasında mübahisə nə üstündə baş vermişdi?

Cavab: Müsavat dövründə Azərbaycanda bir nəfər Fətibəy adlı türk qubernator işləyirdi. O, Gəncə Türklər tərəfindən tutulanda, 1918-ci ildə Gəncəyə gəlmişdi və Türk komandanlığı, Müsavat dövründə keçmiş daxili işlər naziri Behbud bəy Cəvanşirlə yaxın idi. Fətibəy Türk ordusunun keçmiş zabiti idi. Mən 1918-ci ildə Salyandan Gəncəyə gedərkən Fətibəylə ilk dəfə Cəvanşirin yanında tanış olmuşdum. Cəvanşir ona vəd vermişdi ki, Bakı tutulandan sonra Fətibəyi oraya qubernator təyin edəcək. Həqiqətən də Cəvanşir onu qubernator təyin etdi. Sovet hakimiyyəti qurulduqdan sonra Fətibəy Bakıda qaldı və Kərimbəyov və mənimlə yaxşı münasibətdə oldu. Sonra mən Bakıdan gedəndə Kərimbəyovun məsləhəti ilə bir sıra əşyalarımı Fətibəyin yanında qoydum, ancaq geri qayıdanda o, artıq Bakıda yox idi. Beləliklə, bizim aramızda müəyyən soyuqluq yarandı.

Sual: Sizi sovet hakimiyyətinə qarşı casusluq etməyə ilk dəfə kim cəlb edib?

Cavab: Mən uşaq deyiləm ki, kimsə məni belə çirkin işə cəlb etsin, ikincisi məni heç kim casusluq işinə cəlb etməyib.

Sual: 1918-ci ildən başlayaraq siz Türk komandanlığının nümayəndələri ilə əlaqədə olmusunuz.

Cavab: Mən ancaq bir dəfə 1918-ci ildə Bakı türklər tərəfindən tutulduqdan sonra Mürsəl Paşa ilə tanış olmuşam. Mürsəl Paşa Türk qoşunları qərargahının rəhbərlərindən biri idi.

Sual: Siz hansı şəraitdə tanış olmuşdunuz?

Cavab: Mən Musavat nazirlərindən birinin kabinetində oturmuşdum, onun yanına Mürsəl Paşa gəldi və həmin nazir məni onunla tanış etdi".

İki gün sonra, 1940-cı il 27 may saat 9.40-da Məmmədov Rüstəmbəyov "dialoqu" davam etdirilir. 70 yaşlı məhbusun öz ifadələrində nə qədər dəqiq olduğunu yoxlayan XDİK əməkdaşı istintaqın lap əvvəlində ona verdiyi suallardan birini yenidən təkrarlayır:

"- Müsavat dövründə siz parlament üzvlüyünə hansı partiya tərəfindən irəli sürülmüşdünüz?

Cavab: Mənim parlament üzvülüyünə namizədliyim Salyan milli komitəsi tərfindən irəli sürülmüşdü".

Rüstəmbəyovdan eyni cavabı aldıqda isə Məmmədov gələcək istintaq prosesləri üçün Azərbaycan ziyalıları və ictimai cəhətdən nisbətən fəal olmuş nümayəndələri arasından namizədlər müəyyənləşdirən erməni və rus həmkarlarının yolu ilə gedərək sualları həmin məqsədə doğru yönəldir:

- Milli komitə kimin təşəbbüsü ilə, hansı ildə yaradılmışdı və tərkibi kimlərdən ibarət idi?

Cavab: Nə vaxt yaradıldığını dəqiq bilmirəm, ancaq mən 1918-ci ildə Salyana qəza rəisi təyin edilərkən komitə artıq fəaliyyət göstərirdi. Mən qəza rəisi olarkən milli komitə ilə birlikdə işləyirdim. Həmin dövrdə komitənin rəhbərliyi həmin dövrün nüfuzlu ruhanilərindən - Mir Əşrəf Ağa, sonra İrana mühacirət etdi, Mir Bağır Ağa, sonra sovet orqanları tərəfindən həbs edildi və məhkum olundu, Mir Məmməd Əli Fəttah və s. ibarət idi.

Sual: Keçmiş Salyan qəzasında 1918-ci ildə sizin tərəfinizdən hansı dəstələr yaradılmışdı?

Cavab: Mənim tərəfimdən bəylərdən və varlı kəndlilərdən ibarət xüsusi dəstələr yaradılmışdı.

Sual: Bu dəstələr hansı məqsədlə yaradılmışdı?

Cavab: Bu dəstələr müvəqqəti hökumət müdafiə məqsədilə yaradılmışdı.

Sual: Bu dəstəyə kimi rəhbər təyin etmişdiniz?

Cavab: Bu dəstəyə Ağabəy və Adıgözəl bəy rəhbər təyin edilmişdilər. Hər ikisi sonra öldü.

Sual: 1918-ci ildə Gəncədə olarkən, Ramazan paşa ilə Sabirabada getməzdən qabaq Nuru Paşa ilə nə barədə söhbət etdiniz?

Cavab: Mən Nuru Paşa ilə söhbət etmədim. Türk komandanlığından mən Ramazan Paşa ilə və Əhməd bəy Ağayevlə söhbət etdim. Sonuncu azərbaycanlı idi və İstanbulda yaşayırdı, Nuru paşa ilə Gəncəyə gəlmişdi. Sonra Xəlil Paşa ilə tanış idim, o, Nuru Paşadan yaşlı idi. Xəlil Paşa Zəqafqaziyadakı Türk ordusunun baş komandanı idi. Mən onunla İttihad



partiyasının qarşısında böyük İttihadçı Qarabəy Qarabəyovun yanında tanış oldum.

Sual: Siz keçmiş İttihad partiyasının rəhbəri Qarbəyovla hansı münasibətdə idiniz?

Cavab: Qarabəyovla mən dost idim, o da parlament üzvü idi.

Sual: Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra siz Qarabəyovla neçənci ilə qədər görüşdünüz?

Cavab: O, Moskvaya gedənə qədər. Mənim İrana qaçmağıma qədər onunla görüşürdüm, oradan qaytdıqdan sonra onu görmədim.

Sual: Siz hansı ilə qədər İttihad partiyası ilə yaxın olmusunuz?

Cavab: Mən heç vaxt İttihad partiyası ilə yaxın olmamışam.

Sual: Sizin əksinqilabi fəaliyyətinizə sonra qayıdarıq, İndi isə deyin, sizə Müsavat partiyasının lideri M.Rəsulzadənin Türkiyədən Polşaya getməsi barədə informasiyanı kim verib?

Cavab: Sizi əmin edirəm mənə bu informasiyanı kimin çatdırdığını indi unutmuşam.

Sual: Bəs Səlimov Mövsümün Londona getməsini kimdən eşitmisiniz?

Cavab: Onu da xatırlamıram.

Sual: Siz mühacir İbrahim Heydərovun Parisdən Türkiyəyə getməsini və Mirzə Əsədullayevin Parisdə ölməsini haradan bilirsiniz?

Cavab: Bu barədə kimin dediyini xatırlamıram.

Sual: Siz xaricdən gələn azərbaycanlılardan kimlərlə əlaqə saxlamısınız?

Cavab: Zeynal Hüseynbəyov, Parisdə oxuyub, professor, Mustafayev, Parisdə oxuyub, Ələsgərbəy Mahmudbəyov, sovet vaxtı İstanbulda işləməyə göndərilib, Əli, Müsavat hökuməti tərəfindən xaricə göndərilmişdi.

Sual: Adlarını çəkdiyiniz şəxslərdən kim sizi siyasi mühacirlərin işi barədə məlumatlandırıb?

Cavab: Bunu indi xatırlamadığım üçün deyə bilməyəcəyəm. Mənə bu barədə onların deyib, demədiyi də sualdır". Dindirmə saat 14-də dayandırılır.

Arxiv sənədləri arasında rastlaşdığım kimliyini dəqiq müəyyənləşdirə bilmədiyim Rüstəmbəyov soyadlı şəxslərin bəziləri ilə bağlı məlumatları bu adamların arasında Bəxşiş bəyə qohumluğu çatan, onunla eyni kökə malik olanların gələcək tədqiqatlar nəticəsində aydınlaşacağı ümidi ilə oxucunun nəzərinə çatdırıram.

Azərbaycan Xalq Cümhuriyyətinin hərbi nazirlik üzrə №55, 3.02.1919-cu il tarixli əmrə əlavə edilən siyahıda Rüstəmbəyovun podporuçik kimi 6 dekabr 1918-ci ildən etibarən 2-ci piyada alayında xidmətə götürüldüyü qeyd edilir.

Kuban və Don respublikaları yanında Azərbaycanın diplomatik nümayəndəsi Rüstəmbəyov Rusiyanın cənubundakı silahlı qüvvələrin ali komandanlığı yanında Azərbaycanın maraqlarının müdafiəsi məqsədilə Cümhuriyyətin nümaynədəsi kimi akkreditə olunmuşdur.

Balaxanı-Sabunçu polis idarəsinin 1920-ci ildə kostyum alan əməkdaşlarının siyahısında 6-cı sahənin pristavı Rüstəmbəyov qeyd olunur.

Azərbaycan Respublikasının Ünvan-təqvimində isə Rüstəmbəyov soyadlı başqa bir şəxsin adı Göyçay şəhərinin pristavı kimi göstərilmişdir.

1940-cı il may ayının 29-da Məmmədov Rüstəmbəyovu xarici kəşfiyyatın agenti kimi SSRİ-yə qarşı casusluq fəaliyyəti ilə məşğul olmaqda və antisovet təşkilatının üzvü kimi sovet hakimiyyəti əleyhinə iş aparmaqda günahlandıraraq, onun Az.SSR CM-in 68, 72, 73-cü maddəlri ilə cinayət məsuliyyətinə cəlb edilməsi barədə qərar çıxarır və təsdiq üçün prokurora göndərir. Əslində keçmiş Cümhuriyyət hökumətinin və parlamentinin üzvünün antisovet fəaliyyətdə günahlandırılmasında təəccüblü bir şey yox idi, Bəxşiş bəyə qarşı bu ittiham ən azı qırmızı imperiyaya lazımi xidmət göstərmədiyi üçün irəli sürülə bilərdi. Onun birdən-birə üç maddə ilə cinayət məsuliyyətinə cəlb edilməsi qərarına gəlincə isə bu istintaqın yeni təzyiq metodundan başqa bir şey deyildi. Artıq çıxarılmış qərarın təsdiqinə nail olunacağı təqdirdə cəza orqanının yeni qanlı cinayətləri üçün daha bir stimul əldə ediləcəkdi.



Həmin gün, yenidən dindirilən Bəxşişbəy Rüstəmbəyov çox güman ki, barəsində çıxarılmış qərarın psixoloji təsiri altında olmuşdu: "Sual: Yaxın dost və tanışlarınızdan kimlər sizə müntəzəm gəlib-gedib?

Cavab: Hüseynbəyov, Kərimbəyov, Mirzə, Məşədi və Məmmədağa Nağıyevlər, Yunqelson, Qoldenberq, Semyon Benax və b.

Sual: Onlardan kimlər sizdə eyni vaxtda olub?

Cavab: Onlar əksər hallarda yanımda eyni vaxtda olublar.

Sual: Yanınıza gələnlərdən kimlərlə siyasi söhbətlər edirdiniz?

Cavab: Heç kimlə siyasi söhbətlər etmirdim.

Sual: Bizə məlumdur ki, siz yaxın dostlarınızla sistemli surətdə antisovet söhbətlər etmisiniz.

Cavab: Mən antisovet söhbətlər etməmişəm".

Saat 14.30-da dayandırılan dindirmə 22.30-da davam etdirilərkən Rüstəmbəyov antisovet söhbətlər etdiyini, sovet hakimiyyətindən narazı qaldığını "etiraf edir". "Öz narazılığımı dostlarımın yanında bildirmişəm, deyir. İndi həmin söhbətləri əksinqilabi söhbətlər sayır və özümü müqəssir bilirəm".

Bu sonuncu cavabın nəyin nəticəsi olduğunu izah etməyə ehtiyac varmı? Ən yumşaq halda bu barədə istintaqın yalnız psixoloji təsir vasitələri ilə kifayətlənmədiyini demək yetməzmi? 70 yaşlı ziyalı bir insanın, bir el ağsaqqalının ruhunu incitməmək üçün bəlkə daha yumşaq ifadələr tapmaq lazımdır. Ancaq məncə, hər hansı dolayı ifadə axtarmadan da həqiqət oxucuya aydındır. Rejimin qəddar, qaniçən mahiyyəti barədə yetərincə məlumatlı olan bəsirətli Azərbaycan oxucusu FK, XDİK zindanlarında sələflərinin başına hansı müsibətlərin açıldığından xəbərdardır. Ona "sadəcə bu metodlar növbəti dəfə Bəxşişbəy Rüstəmbəyovun üzərində sınaqdan çıxarıldı" demək bəs edər.

Növbəti dəfə, təqribən bir ay sonra, iyulun 24-də yenidən dindirilən Bəxşişbəy Rüstəmbəyovun dövrünün qabaqcıl ziyalısı kimi Azərbaycanın taleyi ilə bağlı məsələlərdə iştirak etdiyi bir daha üzə çıxır. Məhz bu dindirmə zamanı o, Azərbaycan istiqlalının ən böyük mücahidlərindən biri, Səttarxanla tanış olduğunu bildirir. Bu məlumatdan aydın olur ki, Bəxşiş bəy bir sıra çiyindaşları kimi bütöv Azərbaycanın taleyi barədə düşünən bir insan olub.

"Sual: Muğandan sizin yanınıza kim gəlib?

Cavab: Muğandan mənim yanıma heç kim gəlməyib. Mənim soyadlım Aslan Rüstəmbəyovun yanına indi sürgün edilmiş Mir-Mehdi adlı birisi gəlmişdi.

Sual: Zeynalbdin Hüseynbəyov həbs edilənə qədər həbs ediləcəyindən ehtiyat etmirdi ki?

Cavab: O, bu barədə mənə heç nə deməyib.

Sual: O, həbs edildəndən sonra həyat yoldaşı sizin evinizdə olubmu?

Cavab: Xeyr.

Sual: Siz keçmiş Ağdaş qəzasından kimi tanıyırsınız?

Cavab: Ağdaş qəzasından Əşrəf Qarxunlunu tanıyıram. O, Müsavat Parlamentinin üzvü idi.

Sual: Siz İranda cəmi bir dəfə olmusunuz?

Cavab: Mən İranda bir dəfə də 1920-ci ilə qədər olmuşam. İrana Budu Mdiviani ilə birlikdə Səttarxanla ticarət müqaviləsi bağlamağa getmişdim. Ancaq müqavilə bağlamaq mümkün olmadı, biz üç gün Ənzəlidə qalıb geri qayıtdıq. Bizimlə bərabər Behbud bəy Cəvanşir də orada idi. Onu sonralar İstambulda öldürdülər.

Sual: Nə üçün müqavilə bağlamaq mümkün olmadı?

Cavab: Danışıqları Mdivani aparırdı və o, bizə müqavilə bağlanmamasının səbəbini izah etmədi.

Sual: Səttərxan kim idi?

Cavab: Səttərxan İran hökumətini tanımayan inqilabçı idi.

Sual: Həmin üç gündə siz İranda harada yaşadınız?

Cavab: Biz şəxsi evdə yaşadıq.



Sual: Azərbaycanın şairləri və ədəbiyyavçıları arasında dostunuz, tanışlnız varmı?

Cava: Yazıçı Şirvanzadə ilə yaxın münasibətimiz var. Dramaturq Nəcəf bəy Vəzirov mənim qohumumdur. Mən şair Səməd Mənsurla da Məmməd Yusif Cəfərovun mənzilndə görüşmüşəm.

Sual: Məmməd Yusif Cəfərov kimdmr?

Cava: Məmməd Yusif Cəfərov keçmiş Dövlət Dumasının üzvü, Müsavat dövründə isə Parlamentin sədr müavini, nazir olmuşdur. O, 1938-ci ildə ölüb.

Sual: Məmməd Yusif Cəfərovun mənzilində tez-tezmi olurdunuz?

Cavab: 1925-ci ildən 1927-ci ilə qədər tez-tez gedirdim. O mənim evimə az gəlirdi. 1927-ci ildən sonra onunla küçədə az-az görüşürdük.

Sual: Mühacirətdə olan dostlarınız arasında Xosrov bəy Sultanovun adını çəkdiniz. Onun Türkiyəyə qaçması haqqında sizə nə məlumldur?

Cavab: Biz Xosrov bəy Sultanovla sadəcə tanış idik, onun Türkiyəyə qaçması haqqında mənə heç nə məlum deyil.

Sual: Həbs edilənə qədər siz kiminlə həbs ediləcəyiniz barədə danışmısınız?

Cavab: Son 7-8 ayda mən həbs ediləcəyimi güman etdiyim barədə çox danışmışam. Mən ona görə danışmışam ki, şəhərdə şayiə yayılmışdı ki, şərqdə vəziyyət gərginləşən kimi köhnə adamların hamısını tədric edəcəklər.

Sual: Nə üçün siz özünüzə köhnə adam kimi yanaşırsınız?

Cavab: Mən ona görə özümü köhnə adam sayıram ki, əslim bəydir, Əsədullayevin, sonra isə Nağıyevin müəssisəsində müdir olmuşam, Müsavat parlamentinin üzvü olmuşam.

Sual: Salyan müsəlman milli komitəsinə kim rəhbərlik edirdi?

Cavab: Salyan müsəlman milli komitəsinə böyük ruhani şəxs Mir, Əşrəf Ağa rəhbərlik edirdi.

Sual: O, hansı partiyaya mənsub idi?

Cavab: O, heç bir partiyaya mənsub deyildi."

İstintaq yenə də nəzərdə tutulduğu müddətdə başa çatmadığı üçün müddətin uzadılması haqqında 1940-cı il 17 iyunda növbəti dəfə qərar çıxarılır. 2-ci şöbənin əməliyyat müvəkkili kiçik leytenant Becanovun Rüstəmbəyovun istintaq işinin bir ay müddətinə, iyulun 22-nə qədər uzadılması qərarı ilə 2-ci şöbənin rəisi kapitan Qriqoryan razılaşır, XDİK sədrinin müavini kapitan Kərimov təsdiq edir.

Ancaq bu uzadılma da kifayət etmir və iyul ayının 15-də istintaqın müddəti təkrar bir ay artırılır.

1940-cı il avqust ayının 7-də o, təkrar dindirilir: "Sual: Siz nə qədər pambıq tədarükü sistemində işlədiniz?

Cavab: Altı ilə yaxın, 1923-cü ilin aprelindən 1928-ci ilin sonuna qədər.

Sual: Sizin vaxtınızda hansı pambıq zavodları tikilib?

Cavab: Mənim vaxtımda Yevlax, Noraşen, Gəncə pambıq zavodları tikilib.

Sual: Bəs Naxçıvanda?

Cavab: Bəli, Naxçıvanda zavod tikilməsi də.

Sual: Siz xammal təminatı barədə fikirləşmədən iki zavod tikdirilməsi təklifi etməyinizin səhv olduğunu etiraf edirsinizmi?

Cavab: Mənim xammal barədə hesablamalarım işdə özünü doğrultmadı".

İstintaqın bitdiyi barədə baş müstəntiq baş leytenant Süleymanov 1940-cı il 28 avqustda protokol tərtib edir. Rüstəmbəyov 7 saat ərzində işlə birinci səhifədən 86-cı səhifəyə qədər tanış olduğunu və istintaqa əlavə nəsə bildirmək istəmədiyini qeyd edərək həmin protokolu imzalayır.

70 yaşlı, fiziki əməyə yararlı olmayan Bəxşiş bəy Rüstəmbəyova şimal iqliminə dözə biləcəyi göstərilən sanitar pasport verilir. Necə deyərlər, bu da növbəti saxtakarlıq dolu amansızlıq. Onu bilərəkdən ölümün pəncəsinə göndərirlər.

281 saylı iş üzrə 31 avqustda Süleymanov tərəfindən tərtib edilən yekun ittiham 1940-cı il 16 sentyabrda Kərimov tərfindən təsdiq edilir. Bəxşiş bəy Rüstəmbəyova antisovet təbliğatı apardığına görə, XDİK yanında Xüsusi Müşavirənin qərarı ilə 8 il əmək düşərgəsində saxlanılmaqla həbs cəzası verilir.



1940-cı il oktyabr ayının 5 -də işə tikilmiş (səh 90) 126 saylı protokoldan çıxarışda bütün bunlar bir daha müfəssəl şəkildə öz əksini tapır.

Az.SSR DTN şöbə rəisi kapitan Dəmirov 23 avqust 1950-ci ildə SSRİ DTN-nin "A" şöbəsinin rəisi general-mayor yol. Qertsovskiyə belə bir məktub göndərir: "SSRİ Prokurorluğunun 66/241 ss 26.10.48 tarixli direktivini yerinə yetirmək üçün xahiş edirik antisovet təbliğatı apardığına görə, XDİK yanında Xüsusi Müşavirənin qərarı ilə 8 il müddətinə mühakimə edilmiş Bəxşiş bəy Rüstəmbəyovun harada yerləşdiyi barədə məlumat verəsiniz".

Bu məktuba SSRİ DTN-nin "A" şöbəsinin rəis müavini polkovnik Sablin 12 sentyabr 1950-ci ildə cavab verir: "Rüstəmbəyov Bəxşiş bəy Əsəd bəy oğlu 15.12.1942-ci ildə Poltavsk vilayət məhkəmə kollegiyasının 29.11.42-ci il qərarı ilə XDİK Usol düşərgəsindən azad edilmişdir".

Başqa bir sənəddə isə göstərilir ki: "Rüstəmbəyov Bəxşişbəy Əsəd bəy oğlu 1942-ci il 18 dekabrda düşərgədən azad olduqdan sonra Özbəkistan SSR-in Qarşı Qaşqadərə vilayətinə gəlib, oradan əvvəlki yaşayış yerinə Bakıya qayıtmayıb. Qohumlarının dediyinə görə, 1947-ci ildə cəzaçəkmə yerində vəfat edib".

1958-ci il yanvar ayının 7-də Az.SSR Prokurorunun köməkçisi Tovmasyan B.Rüstəmbəyovun həyat yoldaşı Sona xanım Rüstəmbəyovanın ərinə bəraət verilməsi ilə bağlı ərizəsinə əsasən qərar tərtib edir və təsdiq üçün onu Az.SSR Prokurorunun müavini İ.İ.İsmayılova göndərir. 1958-ci il yanvar ayının 31-də öz təsdiqini tapan həmin qərarla Sona xanımın ərinin nəhayət bəraət alacağı ilə əlaqədar sonuncu ümidləri də puça çıxır. Ona bildirilir ki, ərizəsinə baxılıb. "Rüstəmbəyovun bəy ailəsindən, iri mülkədar, balıq vətəkələrinə, pambıq zavoduna, su nasoslarına sahib olması, 1918-ci ildə iki nəfər bolşeviki güllələməsi nəzərə alınaraq və Az.SSR CPM-in 430-cu maddəsi əsas götürülərək, ona bəraət verilməsi məqsədəmüvafiq sayılmır".

Stalinin ölümü ilə guya yumşalmış, keçmişin bəzi səhvlərini ehtiraf etmək məcburiyyəti qarşısında qalmış sovet rejimi Bəxşişbəy Rüstəmbəyova və onun kimi onlarla dövlət, siyasət adamlarına münasibətdə öz həqiqi mahiyyətini gizlədə bilmədi. Adı Azərbaycanın dövlət müstəqilliyi, azadlığı ilə bağlı olanların bu rejim yaşadıqca bəraət almayacaqları açıq şəkildə büruzə verildi.

Əslində ölümündən sonra da bu şəxsiyyətlərədən, onların ailələrindən mümkün olduğu qədər qisas alan rejimin Bəxşiş bəyə bəraət verməməsi tam təbii idi. Çünki o da dahi çiyindaşları kimi, bütün şüurlu həyatını Azərbaycana, qəlbən sevdiyi vətəninin tərəqqisinə və azadlığına sərf etmişdi. Bəxşiş bəy Rüstəmbəyovun bəraəti onun və başqa Vətən mücahidlərimizin uğrunda mübarizə apardıqları ideallarin yenidən təntənəsi, Azərbaycanın öz müstəqilliyini bərpa etməsi oldu.



## Azərbaycan Xalq Cümhuriyyəti hökuməti

### 1-ci hökumət (28 may 1918-ci il 17 iyun 1918-ci il)

1.F.Xoyski - sədr (bitərəf) (sui-qəsd yolu ilə öldürülüb);

2.X.Sultanov - hərbi nazir ("Müsavat", "İttihad", repressiya olunub, sonra mühacirətə gedib, Türkiyə, Almaniya və s. olub);

3.M.Hacınski - xarici işlər naziri ("Müsavat", repressiya olunub, həbsxanada ölüb);

4.N.Yusifbəyli - maliyyə və xalq təhsili naziri ("Müsavat", sui-qəsd 1olu ilə aradan götürülüb);

5.X.Xasməmmədov - ədliyyə naziri ("Müsavat", mühacirətə gedib, Türkiyə);

6.M.Y.Cəfərov - ticarət və sənaye naziri ("Müsavat", repressiya olunub);

7.X.Məlikaslanov - yollar naziri (bitərəf, repressiya olunub);

8.A.Şeyxülislamov - torpaq və əmək naziri ("Hümmət", Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin tərkibində olub və çevrilişdən sonra xaricdə yaşayıb);

9.C.Hacınski - dövlət nəzarətçisi (sosialist bloku, repressiya olunub).

## 2-ci hökumət
## (19 iyun 1918-ci il 7 dekabr 1918-ci il)

1.F.Xoyski - sədr (bitərəf);
2.S.Mehmandarov - hərbi nazir (repressiya olunub);
3.M.Hacınski - dövlət müşaviri ("Müsavat")
4.X.Sultanov - torpaq nazir ("İttihad")
5.B.Cəvanşir - daxili işlər naziri (bitərəf, sui-qəsd yolu ilə aradan götürülüb);



6.Ə.Əmircanov - maliyyə naziri ("İttihad", Türkiyəyə mühacirət edib);
7.X.Məlikaslanov - yollar naziri (bitərəf);
8.N.Yusifbəyli - xalq təhsili və dini işlər naziri ("Müsavat")
9.A.Aşurov - ticarət və sənaye naziri (bitərəf, çevrilişdən sonra Rostova gedib, sonrakı taleyi məlum deyil);



10.X.Rəfibəyov - xalq səhiyyəsi və himayə naziri ("Müsavat", repressiya olunub və güllələnib);
11.İ.Ziyadxanov - hərbi işlər müvəkili, 28 apreldə öldürülüb;
12.Ə.Topçubaşov - portfelsiz nazir (Fransada Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı olub və orada mühacirətdə yaşayıb);
13.X.Xasməmmədov - portfelsiz nazir ("Müsavat").

## 3-cü hökumət
## (22 dekabr 1918-ci il - 14 aprel 1919-cu il)

1.F.Xoyski - sədr (bitərəf);
2.S.Mehmandarov - hərbi nazir;
3.M.Hacınski - xarici işlər naziri ("Müsavat");
4.X.Sultanov - torpaq nazir ("İttihad");
5.T.Makinski - ədliyyə naziri (repressiya olunub sənədləri tapılmayıb);
6.E.Gindes - xalq səhiyyəsi naziri ("Slavyan-rus cəmiyyəti", məlum deyil);
7.X.Məlikaslanov - yollar naziri (bitərəf);
8.N.Yusifbəyli - xalq təhsili və dini işlər naziri ("Müsavat")
9..M.Əsədullayev - ticarət və sənaye naziri (repressiya olunub, sonra Fransaya mühacirət edib);
10.K.Lizqar - ərzaq naziri ("Slavyan-rus cəmiyyəti", repressiya olunub və güllələnib);
11.A.Səfikürdlü - poçt-teleqraf və əmək naziri (sosialist bloku, repressiya olunub);
12..R.Xoyski - himayə naziri (bitərəf, repressiya olunub).

## 4-cü hökumət
## (14 aprel 1919-cu il - 22 dekabr 1919-cu il)

1.N.Yusifbəyli - sədr ("Müsavat");
2.S.Mehmandarov - hərbi nazir;

3.A.Səfikürdlü - ədliyyə və əmək naziri (sosialist bloku);
4.N.Nərimanbəyli dövlət nəzarəti naziri ("Müsavat", repressiya olunub);
5.V.Klenevski - himayə naziri ("Slavyan-rus cəmiyyəti", repressiya olunub);
6.M.Y.Cəfərov - xarici işlər naziri ("Müsavat");.
7.X.Məlikaslanov - yollar naziri (bitərəf)
8.C.Hacınski - poçt-teleqraf naziri (sosialist bloku);
9.Dostakov - səhiyyə naziri ("Slavyan-rus cəmiyyəti", məlum dyeil);
10.R.Kaplanov - təhsil naziri ("Əhrar", repressiya olunub, Dağıstanda);
11.A.Qardaşov - əkinçilik naziri ("Əhrar", məlum deyil);
12.Ə.Əminov - ticarət və sənaye naziri (repressiya olunub);
13.14.A.Həsənov - maliyyə naziri - (məlum deyil);
14.X.Amaspur - portfelsiz nazir (Daşnakstyun, məlum dyeil).

## 5-ci hökumət
## (24 dekabr 1919-cu il - 1 aprel 1920-ci il)

1.N.Yusifbəyli - sədr ("Müsavat");
2.S.Mehmandarov - hərbi nazir;
3..F.Xoyski xarici işlər naziri (bitərəf);
4.M.Hacınski - daxili işlər naziri;
5.C.Hacınski - poçt-teleqraf naziri (sosialist bloku);
6.M.Rəfiyev - səhiyyə və ictimai himayə naziri ("Müsavat");
7.X.Məlikaslanov - yollar naziri (bitərəf)
8.Ə.Pepinov - əmək və əkinçilik naziri ("Hümmət", repressiya olunub, güllələnib);
9.H.Şahtaxtınski - təhsil və dini işlər naziri (repressiya olunub);.
10.N.Şahsuvarov təhsil və dini işlər naziri (repressiya olunub);



11.X.Xasməmmədov - ədliyyə naziri ("Müsavat");
12.E.Məmmədbəyov - dövlət nəzarət naziri ("İttihad", repressiya olunub və güllələnib).

**Qeyd:** Ziyadxanov İsmayılxan Əbülfət oğlu - Azərbaycanın ikinci hökumətinin tərkibində 6 oktyabr 1918-ci ildə baş verən dəyişikliklər zamanı hərbi işlər müvəkkili təyin olunub. Moskva Universitetinin hüquq fakültəsini bitirib, Tiflis Dairə məhkəməsində prokuror köməkçisi işləyib. 1905-ci ildə gizli "Müdafiə" cəmiyyətinin əsasını qoyanlardan olub. Birinci Dövlət Dumasına üzv seçilib (1906-cı il). Əvvəl Kadet partiyasına daxil olsa da, sonralar heç bir partiyada təmsil edilməyib, bitərəf qalıb. 1917-ci ildə ictimai təşkilatların İcraiyyə Komitəsi tərəfindən Gəncə şəhər polisinin rəisi təyin edilib. 1918-ci ilin martında daşnaklara qarşı silahlı dəstələr yaradılmasına rəhbərlik edənlərdən olub. 1919-cu ilin iyun ayında Cümhuriyyət hökumətinin İrana göndərilən diplomatik nümayəndə heyətinə başçılıq edib.


Исмаилхан Зиядханов.

1920-ci ilin 28 aprelindən sonra bolşeviklər tərəfindən müəmmalı şəkildə (güman ki, daşnakların iştirakı və təhriki ilə - L.Ş.) öldürülüb. İsmayılxanın qardaşı Adilxan Ziyadxanov Azərbaycanın görkəmli diplomatlarından biri olub. Adilxan Ziyadxanov Fətəli Xan Xoyskinin Baş Nazir olduğu dövrdə Azərbaycan Xalq Cümhuriyyəti hökumətiin ikinci və üçüncü kabinetlərində Xarici İşlər Nazirinin müavini kimi məsul bir post tutub. Nəsib bəy Yusifbəylinin sədrlik etdiyi sonuncu hökumətin tərkibində isə

o, İranda Azərbaycanın diplomatik nümayəndəsi kimi fəaliyyət göstərib. Aprel çevrilişindən sonra təqiblərə məruz qalacağını yaxşı bildiyi və qardaşının öldürüldüyündən xəbərdar olduğu üçün respublikaya qayıtmayıb. 1921-ci ildə İranda konsulluq açılmasının təşəbbüskarı olub. 1934-cü ildən sonra Türkiyəyə mühacirət edib və ömrünün sonuna qədər burada yaşayıb.



# Qaynaqlar


1. Rəfiq Özdək "Türkün qızıl kitabı", Bakı, "Yazıçı" ədəbi nəşrlər evi, 1996.

2. "Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti 1918-1920", Bakı,"Gənclik", 1990.

3. "Azərbaycan Cümhuriyyəti sənədlər və materiallar 1918-ci 1920-ci illər", Bakı, "Elm", 1998.

4. "Nağı bəy Şeyxzamanlının xatirələri", Bakı, "Qartal", 1997.

5. Əliağa Şıxlınski "Xatirələrim", SSRİ EA-nın Azərbaycan filialı, Bakı, 1944.

6. Elşad Qoca "Cəllad etirafı", Bakı, "Şuşa", 1999.

7. Elşad Qoca "Sibir dərsi", Bakı, "Şuşa", 2000.

8. Ş.Nəzirli "Azərbaycan generalları", Bakı, "Gənclik", 1991.

9. Tadeuş Svyataxovski "Rusiya Azərbaycanı 1905-1920-ci illər", "Azərbaycan" jurnalı, 1989-cu il № 11.

10. Maqsud Mahmudzadə "Dünyanın bəzəyi Naxçıvan", Bakı, "Nicat" 1998.

11. İsmayıl Musayev "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər)".

12. Məmməd Cəfərli "Siyasi terror və Azərbaycan almanlarının taleyi", Bakı, 1998.
13. Hacıağa İbrahimbəyli "Səməd bəy Mehmandarov", Bakı, 1946.
14. Azərbaycan Sovet Ensklopediyası 3-cü tom, Bakı 1979.
15. Azərbaycan Sovet Ensklopediyası 10-cu tom, Bakı 1987.
16. ARDA, f.894, s.10, iş.105, v.60-61.
17. ARDA, f.895, s.6, iş.4, v.4.
18. ARDA, f.83 s.1 iş 12 v.6.
19. ARDA, f.83 s.1 iş 4 v.24, 25.
20. ARDA, f.83 s.1 iş 2, v.24.
21. ARDA, f.83 s.1 iş 1 v.37 "d" 57.
22. ARDA, f.83 s.1 iş 68, v.13.
23. ARDA, f.83 s.1 iş 167, v.12.
24. ARDA, f.83 s.1 iş "08, v.61.
25. ARDA, f.83 s.1 iş 206, v.61.
26. ARDA, f.83 s.1 iş 319, v.5.
27. ARDA, f.336 s.559 iş, v. 13,66,181,162,92,87, 30.
28. ARDA, f.336 s.14, iş 560, v.213, 194, 175, 109, 40.
29. ARDA, f.917 s.1 iş 40, v.321.
30. ARDA, f.894, s.10, iş 58, v.5-7.
31. ARDA, f.894, s10, iş 135, v.5.
32. ARDA, f.895, s.3, iş.197, v.1.
33. "Azərbaycan" qəzeti 1919-cu il 28 may.
34. "Azərbaycan" qəzeti, 1918-ci il 17 noyabr.
35. "Azərbaycan" 22 avqust 1919-cu il 16 noyabr.
36. "Azərbaycan" qəzeti 30 sentyabr 1919-cu il
37. "Azərbaycan" qəzeti 7 oktyabr 1919-cu il
38. "Azərbaycan" qəzeti 1919-cu il 30 dekabr.
39. "Odlar yurdu" qəzeti dekabr 1988-ci il № 23.
40. "Odlar yurdu" qəzeti 22 noyabr 1989-cu il № 22.
41. "Odlar yurdu" qəzeti dekabr 1989-cu il № 23.
42. "Odlar yurdu" dəzeti fevral 1990-cü il № 4.
43. "Kommunist" qəzeti 16 may 1920-ci il
44. "Ədəbiyyat və incəsənət" qəzeti, 4 noyabr 1988-ci il.
45. MTN arxivi PR - 1021 saylı iş.



46. MTN arxivi PR - 1349. saylı iş.
47. MTN arxivi PR - 1295 saylı iş.
48. MTN arxivi PR - 20433 saylı iş.
49. MTN arxivi PR - 915 saylı iş.
50. MTN arxivi PR - 6399 saylı iş.
51. MTN arxivi PR-- 688 saylı iş.
52. MTN arxivi PS- 20251 saylı iş.
53. MTN arxivi PR - 19871 saylı iş.
54. MTN arxivi PS - 1800 saylı iş.
55. MTN arxivi PS - 3435 saylı iş.
56. MTN arxivi PR - 41373 saylı iş.
57. MTN arxivi PR - 28879 saylı iş.
58. "Kafkazski almanax" (1877).
59. Tadeuş Svyataxovski "Rusiya Azərbaycanı 1905-1920-ci illər", "Azərbaycan" jurnalı, 1989-cu il № 11.
60. Ümmülbani (Banin) "Qafqaz günləri", Bakı, "Yazıçı", 1992.
61. M.S.Ordubadi "Qanlı günlər", Bakı, 1991.

## MÜNDƏRİCAT

Məlum repressiyanın naməlum səhifələri .......................... 3
Milli tərəqqi yolunun cığırdaşı .......................... 12
Yüksək intellekt, dönməz iradə sahibi .......................... 34
Nərimanbəylilərin nazir nümayəndəsi .......................... 63
Baş Nazirin qardaşı - Rüstəm Xan Xoyski .......................... 92
Biz onu tanıyırıqmı? .......................... 101
İstiqlalın son nazir yadigarı - Nurməmməd Şahsuvarov 120
Milyonçu mesenatın nazir oğlu .......................... 143
Aslan bəy Səfikürdlü .......................... 155
Artilleriyanın Allahı .......................... 176
Dövlət nəzarətçisi Məmmədbəyov .......................... 196
Bolşeviklərin mənşə və əqidə düşməni .......................... 223
Azərbaycan Xalq Cümhuriyyəti hökuməti .......................... 245
Qaynaqlar .......................... 251



**Lətif Şüküroğlu**
**(Lətif Şükür oğlu Babayev)**

**"Cümhuriyyət hökuməti repressiya məngənəsində"**
**(Azərbaycan dilində)**
**2-ci cild**

Nəşriyyat redaktoru **S.Mustafayeva.**

Texniki redaktoru **İ.Mahmudov**
Dizayner **M.Rzayev**
Korrektoru **G.Tağızadə**

Yığılmağa verilmiş 11.10.2000. Çapa imzalanmış 21.10.2000. Kağız formatı 60X84 1/16. Ofset çap üsulu ilə. Şərti çap vərəqi 16. Sayı 1000. Sifariş . Müqavilə qiyməti ilə.

Şirvannəşr, 2000.
Ünvan: Bakı. Badamdar şos. 77.
Tel: 92.92.27
92. 93.72.

**"Zaman-3" mətbəəsi**

370025 Bakı, Babək prospekti,
2360-cı məhəllə.

**Müəllif haqqında:**

**Lətif Şükür oğlu Babayev** - 1960-cı ildə anadan olmuşdur. 1984-cü ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Respublikanın müxtəlif mətbuat orqanlarında, o cümlədən "Vətən səsi", "Azərbaycan Ordusu", "Sərhəd" qəzetlərində işləmiş, dövri mətbuatda publisistik yazıları ilə müntəzəm çıxış etmişdir.

Rəfiq Özdəkin "Türkün Qızıl kitabı"nı Azərbaycan dilinə çevirən iki müəllifdən biridir. Hazırda bu dördcildliyin 3 cildi "Yazıçı" nəşrlər evinin çapında respublika oxucusuna çatdırılmışdır. "Azərbaycanın sərhəd mühafizəsi tarixindən", "Cümhuriyyət hökuməti repressiya məngənəsində" (1-ci cild) kitablarının müəllifidir.

Hazırda "Sərhəd generallarımızın taleyində" və "Azərbaycan mücadiləsi - 1920-30-cu illər" kitabları üzərində işini davam etdirir.

**Müəllif kitabın ərsəyə gəlməsində göstərdikləri köməyə görə MTN arxivinin işçilərinə öz minnətdarlığını bildirir.**

2000
131